www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 10-11 iyun 2017-ci il Şənbə № 124 (6738) Qiyməti 60 qəpik

**Xəbər**

**Mingəçevirdə tüküpədən cinayət; kişi arvadını və iki azyaşlı uşağını öldürdü**

yazısı səh.14-də

# Şimaldan Azərbaycana yeni psixoloji təzyiq

# RUSİYA AQRESSİVLƏŞİR - BAKIYA "DİL UZADAN" LİMONOVUN QORXULU "LİMONKA"SI

Moskvanı Dağlıq Qarabağdakı separatçı rejimi tanımağa çağıran rusiyalı avantüristi kim danışdırır?; **Keçmiş nazir:** "Rusiya ona görə narahatdır ki..."




yazısı səh.8-də

## Gündəm

**"Demokratiya paytaxtı"nın diktatura rejimlərini dəstəkləməsinin sirri...**



**Zahid Oruc:** "ABŞ-ın xarici siyasətində demokratiya deyil, işğal və nüfuz savaşı önəmlidir"

yazısı səh.11-də

**İŞİD Avropa dövlətlərini təhdid edən bəyanat yaydı**

yazısı səh.4-də

**Deputatdan Təhsil Nazirliyinə "isti təklif"...**

yazısı səh.3-də

**Ərəb ölkələri son 10 ildə 200 milyard dollarlıq silah-sursatı kimin üçün alıb?**

yazısı səh.4-də

**Yeni baş nazir: 2018-ci il prezident seçkilərindən əvvəl, yoxsa sonra?**

yazısı səh.5-də

**Putin hakimiyyətdən gedirmi...**

yazısı səh.9-da

**Erməni lobbisi separatçı rejimə ABŞ yardımını artırmağa çalışır**

yazısı səh.13-də

**Qətərə qoşun göndərməsi Türkiyəyə nə vəd edir...**

yazısı səh.12-də

**Masallıda məsciddə əxlaqsızlıq etməkdə suçlanan bələdiyyə sədri danışdı**

yazısı səh.15-də

**Ramazan ayının 15-ci günü**

İftar 20.27. İmsak 03.09-dək (QMI)

15-ci günün duası: "İlahi, bu gün məni Sənə həqiqi təzim edib, ulu sayılanlar kimi itaət etməyə müvəffəq et! Sənə yaxşı bəndələr kimi tövbə etməklə qəlbimi işıqlandır! Ey, qorxanlara Aman Verən!"

İftar duası: "Allahım, Sənin rizan üçün oruc tutdum, Sənə inandım, Sənə güvəndim. Sənin ruzinlə iftar açır və Sənə təvəkkül edirəm. Ey bağışlayan Allah, günahlarımı bağışla".

ALLAH ORUCUNUZU QƏBUL ELƏSİN!

# Azərbaycanda təhlükəsizlik tədbirləri gücləndirilib - səbəblər...

Təhlükəsizlik ekspertindən önəmli açıqlamalar; Arzu Nağıyev: "Bütün ictimai yerlərdə və qurumlarda təhlükəsizlik xidmətləri xüsusi iş rejiminə keçir"

yazısı səh.10-da



*Ərəstun Oruclu:*

**"Yaxın Şərq bölgəsi çox təhlükəli bir mərhələyə yetişir"**

yazısı səh.6-da



*Eldar Namazov:*

**"Demokratiya dalğası geri çəkilməkdə davam edəcək"**

yazısı səh.5-də



*Baş redaktor Şakir Ağayev:*

**"Saytları zibil yeşiyinə çeviriblər"**

yazısı səh.7-də

YENİ MÜSAVAT
N 122 (6736) 8 iyun 2017

# Bakıda məcburi köçkün yataqxanası yandı



## Prezident İlham Əliyev Həsən Ruhaniyə başsağlığı verib

**Azərbaycan prezidenti İlham Əliyev İran İslam Respublikasının prezidenti Həsən Ruhaniyə başsağlığı məktubu göndərib. APA-nın məlumatına görə, məktubda deyilir: "Hörmətli cənab Prezident"**

Tehranda törədilmiş terror aktları nəticəsində insan tələfatı və yaralananlar barədə xəbər bizi olduqca kədərləndirdi və hiddətləndirdi.

Bu qanlı hadisə terrorizmin bütün dünya üçün dəhşətli bir bəlaya çevrildiyini, onun bütün təzahürlərinə qarşı birgə səylərlə və ardıcıl mübarizə aparılmasının vacibliyini bir daha təsdiq edir.

Baş vermiş faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, dost və qardaş İran xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin!"

## Azərbaycanda terrorçu və terror təşkilatı anlayışı genişləndirilir

**Azərbaycanda "Terrorçuluğa qarşı mübarizə haqqında" Qanuna dəyişiklik edilir.**

APA-nın məlumatına görə, layihəyə əsasən, qanunun 1-ci maddəsinin üçüncü bəndində bildirilir ki, terrorçu-hər hansı formada, birbaşa və ya dolayısı ilə, qəsdən terror fəaliyyətinin həyata keçirilməsində təşkilatçı, təhrikçi, köməkçi və icraçı qismində iştirak edən və ya bu cür aktları hazırlayan və ya onların törədilməsinə cəhd edən, habelə əvvəlcədən əlbir olan bir qrup şəxsin, mütəşəkkil dəstənin və ya cinayətkar birliyin terror fəaliyyətini həyata keçirməsinə bilə-bilə yardım göstərən fiziki şəxsdir.

Bəndin hazırda qüvvədə olan variantı isə belədir: "Terrorçu - hər hansı bir formada terror fəaliyyətinin həyata keçirilməsində iştirak edən şəxsdir".

Maddənin dördüncü bəndində təklif olunan dəyişikliklə isə deyilir ki, "terror təşkilatı - hər hansı formada, birbaşa və ya dolayısı ilə, qəsdən terror fəaliyyətinin həyata keçirilməsində təşkilatçı, təhrikçi, köməkçi və icraçı qismində iştirak edən, terror aktını hazırlayan və ya onların törədilməsinə cəhd edən, habelə əvvəlcədən əlbir olan bir qrup şəxsin, mütəşəkkil dəstənin və ya cinayətkar birliyin terror fəaliyyətini terror fəaliyyətini həyata keçirməsinə bilə-bilə yardım göstərən terrorçu şəxslərin qrupu və ya öz fəaliyyətində terrorçuluqdan istifadəni mümkün hesab edən təşkilatdır".

Bəndin hazırda qüvvədə olan variantı isə belədir: "terror təşkilatı - terror fəaliyyətinin həyata keçirilməsi məqsədilə yaradılan və ya öz fəaliyyətində terrorçuluqdan istifadəni mümkün hesab edən təşkilatdır. Əgər struktur bölmələrindən biri təşkilatın hər hansı bir rəhbər orqanının razılığı ilə terror fəaliyyəti ilə məşğuldursa, həmin təşkilat terror təşkilatı hesab edilir".

Layihə Milli Məclisin plenar iclasına tövsiyə olunub və iyunun 13-də müzakirəyə çıxarılacaq.

"Qaya Mətbuat Yayımı" MMC!
- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:
- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;
Ən başlıcası ayda 26 dəfə nəşr olunan
"Yeni Müsavat" - 0.60 AZN
və bundan əlavə 2500 adda yerli
və xarici nəşrlər.
- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.
Telefonla zəng etməyiniz kifayətdir:
Bakı şəh. 564-63-45; 598-35-22
- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

**Bakının Yasamal rayonunda, Şərifzadə küçəsi 1-də məcburi köçkünlər yaşayan yataqxanada güclü yanğın baş verib.**

Lent.az-ın hadisə yerində olan əməkdaşının xəbərinə görə, yanğın binanın 3-cü, 4-cü və 5-ci mərtəbələrini əhatə edir. Binanın bir bloku tamam yanıb. Yangın yerinə 4 yanğınsöndürmə briqadası cəlb olunub. Vəziyyəti nəzarətə almaq üçün əlavə yanğınsöndürmə briqadalarının əraziyə cəlb edilməsi xahiş edilib.

Fövqəladə Hallar Nazirliyi (FHN) Bakıda məcburi köçkünlərin məskunlaşdığı yataqxanada baş verən yanğınla bağlı məlumat açıqlayıb.

FHN-in saytından verilən məlumata görə, Bakının Yasamal rayonunda 5 mərtəbəli yataqxana binasında ayrı-ayrı vətəndaşlara məxsus ümumi sahəsi 282 m2 olan mənzillər 101 m2 sahədə yanıb.

Yanğın zamanı 33 nəfər sakin təxliyə olunub, 3 nəfər xilas edilib. Binanın qalan hissəsi və yaxınlıqdakı tikililər yanğından mühafizə olunub.



Hadisə nəticəsində xəsarət alan yoxdur. Yataqxanada yaşayan insanlar təxliyə olunub.

Qaçqınların və Məcburi Köçkünlərin işi üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov Yasamalda yanan yataqxananın ərazisinə gəlib.

Lent.az-ın hadisə yerində olan əməkdaşının verdiyi məlumata görə, Əli Həsənov yanan binanın sakinlərinin şikayətlərini dinləyir. Komitə sədri bildirib ki, baş verən hadisə ilə bağlı ilkin müzakirələr aparılıb. Ə.Həsənovun sözələrinə görə, Fövqəladə Hallar Nazirliyinin nümayəndələri ilə məsləhətləşmələrdən sonra yanğından zərərçəkən ailələrin elə həmin ərazidə quraşdırılacaq müvəqqəti çadırlara yerləşdirilməsi nəzərdə tutulur.

## Təhsil haqlarının ödənilməsi yalnız nağdsız həyata keçiriləcək

**Azərbaycanda təhsil haqlarının ödənilməsi qaydası dəyişdirilir.**

APA-nın məlumatına görə, bununla bağlı "Təhsil haqqında" Qanuna dəyişiklik təklif edilir.

Qanunun 38-ci (Təhsil müəssisəsinin maliyyələşdirilməsi) maddəsinə təklif olunan dəyişikliyə əsasən "təhsil haqlarının ödənilməsi yalnız nağdsız qaydada həyata keçiriləcək".

Layihə Milli Məclisin plenar iclasına tövsiyə olunub və iyunun 13-də müzakirəyə çıxarılacaq.

## Ramazan Fətvasını pozduğu üçün din xadimi işdən çıxarıldı

**Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri, Şeyxülislam Hacı Allahşükür Paşazadə Ramazanla bağlı fətvanı pozan din xadimini cəzalandırıb.**

"Qafqazinfo" xəbər verir ki, QMİ-dən APA-ya bildiriblər ki, Qazılar Şurasının 24.05.2017-ci il tarixli Fətvasının tələblərini kobud şəkildə pozduğu üçün Ağdaş rayonu Qobuüstü kənd məscidinin dini ayinlər icraçısı Məmmədov Nurməhəmməd Rəsul oğlu İdarə rəhbərliyinin əmri ilə tutduğu vəzifədən azad edilib.



## Avropa İttifaqının komissarı Azərbaycana gəlir

**Avropa İttifaqının genişlənmə və qonşuluq siyasəti üzrə komissarı Yohannes Han Azərbaycana gəlir. Bu barədə APA-ya Aİ-nin Azərbaycan nümayəndəliyinin mətbuat ofisindən məlumat verib.**

Səfər iyunun 16-da gerçəkləşəcək. Səfər çərçivəsində qonağın Bakıda rəsmi şəxslərlə görüşlər keçirəcəyi gözlənilir.

## Bakıda 18 yaşlı qız 12 gündür yoxa çıxıb

**Bakıda 18 yaşlı qız itkin düşüb. Lent.az xəbər verir ki, Binəqədi rayonu, Rəsulzadə qəsəbəsində yaşayan 1999-cu il təvəllüdlü Məmmədova Cahan Əlişir qızı (ad şərtidir) mayın 26-da evdən çıxıb və bir daha geri qayıtmayıb. Yaxınları onun fotosunu və xarakterik əlamətlərini polisə təqdim edib.**

Faktla bağlı araşdırma aparılır.

## Qadın gecə klubunda tanış olduğu kişinin 3 min manatını oğurladı

**Bakıda qadın oğurluq edib. Bu barədə "Report"a hüquq-mühafizə orqanlarından bildirilib. Belə ki, Bakı sakini İsmayıl Qədimov paytaxtdakı gecə klublarından birində olan zaman Marina adlı qadınla tanış olub. Gecə klubundan qadınla çıxaraq başqa məkana keçən şəxs sonradan 3 min manatdan çox pulunun oğurlandığını bilib. O, dərhal polisə məlumat verib.**

Polisin keçirdiyi əməliyyat nəticəsində hadisəni törətməkdə şübhəli bilinən Marina Pronin saxlanılıb.

Fakt üzrə araşdırmalar davam etdirilir.

## "Mercedes" ağaca çırpıldı, 2 nəfər öldü

**Lənkəranda maşın ağaca çırpılıb. ARB TV xəbər verir ki, hadisə Liman şəhəri ərazisində qeydə alınıb. "Mercedes" markalı avtomobil idarəetmədən çıxaraq yolun kənarındakı ağaca çırpılıb. Hadisə nəticəsində iki nəfər - Kənan Adil oğlu Səfərov və Xalid Xaliq oğlu Səfərov dünyasını dəyişib.**

Faktla bağlı araşdırmalara başlanılıb.

## Zakir Həsənov snayperlərin döyüş vərdişlərinin artırılması ilə bağlı tapşırıqlar verdi

**Müdafiə Nazirliyinin rəhbərliyi yeni istifadəyə verilən Snayper Hazırlığı Mərkəzində olub.**

APA-nın Müdafiə Nazirliyinin saytına istinadən verdiyi məlumata görə, mərkəzdə snayperlərin səhra bacarıqlarının təkmilləşdirilməsi məqsədilə real döyüş şəraitinə uyğun lazımi infrastrukturun yaradılması barədə məruzə edilib.

İdarəetmə məntəqəsindən praktiki atış və digər hazırlıq çalışmalarını izləyən müdafiə naziri snayperlərin döyüş vərdişlərinin artırılması ilə bağlı tapşırıqlar verib.

## 7 gündür aclıq aksiyası keçirən "OMON" komandiri ağır durumda

**Akif Nağı:** "Aksiyanı ölümə qədər davam etdirəcəyini dedi"

**İyunun 1-dən Qobustan həbsxanasında aclıq aksiyasına başlayan Xüsusi Təyinatlı Polis Dəstəsinin ("OMON") Qazax bölgəsi üzrə sabiq komandiri, Qarabağ müharibəsi əlili, 21 ildir məhbus həyatı yaşayan Elçin Əmiraslanov ölüm ayağındadır. 7 gündür ölüm aclığı keçirən sabiq komandirlə maraqlanan yoxdur.**

İyunun 7-də E.Əmiraslanov Qarabağ Azadlıq Təşkilatının sədri, Ömürlük Məhbusların Hüquqlarını Müdafiə Komitəsinin rəhbəri Akif Nağıya zəng edərək, səhhətinin daha da pisləşdiyini, həyatının son günlərini yaşadığını bildirib. Bu barədə "Yeni Müsavat"a danışan A.Nağı aidiyyəti qurumları məsələ ilə bağlı mövqe bildirməyə çağırdı: "Elçin 7 gündür aclıq aksiyası keçirir. Heç bir reaksiya yoxdur. Özü mənə zəng etmişdi, vəziyyətinin ağır olduğunu söylədi. Biz də bu məsələni ictimailəşdirmək istədik. Ona həbsxanada baş çəkilsə, vəziyyətinin necə təhlükəli həddə çatdığının hər kəs şahidi olar. Təsadüfi deyil ki, mənimlə telefon danışığında səsi zorla çıxırdı, gördüm ki, danışmağa çətinlik çəkir. Aclığa başlayandan sonra öz otağını təkadamlıq edibdər, yeni yanındakı məhbusu başqa yerə köçürüblər. Dedi ki, tez-tez rəis gəlib aclığı dayandırmağımı tələb edir, təzyiqlərin olduğunu da söylədi. İsrarla aksiyanı dayandırmayacağını, aksiyanı ölümə qədər davam etdirəcəyini dedi".

Qeyd edək ki, E.Əmiraslanov Hepatit C-dən əziyyət çəkir. Həbsdə olduğu müddət ərzində hər il müalicə alan "OMON" komandirinə bu il müalicə olunmağa icazə verilmir. Nəticədə buna etiraz edən əfsanəvi komandir çıxış yolunu ölüm aclığına başlamaqda görüb.

Xatırladaq ki, hazırda həbsxanada üç "OMON"-çu qalıb - E.Əmiraslanov, Səfa Poladov və Arif Kazımov. Onlar barəsindəki ömürlük cəzanın ilə əvəz olunması ilə bağlı indiyə qədər edilən çoxsaylı müraciətlər nəticəsiz qalıb. Hər üç "OMON"-çunun özlərinin və yaxınlarının da əfv üçün dəfələrlə müraciətləri bəhrə verməyib.

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 122 (6736) 8 iyun 2017



# General Hilal Əsədov 8-ci kilometr bazarını necə yağmaladıqlarını açıqladı

## Məhkəmədə ifadə verən sabiq MTN generalı işlərin başında nazirin durduğuna işarə etdi; o, məhkəmədə zərərçəkmişin suallarını cavablandıra bilmədi

**Sabunçu Rayon Məhkəməsində ləğv edilmiş MTN-in generalı Akif Çovdarov və digər 3 nəfərin - polkovnik Səlim Məmmədov, MTN-in sabiq idarə rəisi, mayor Akif Əliyev və keçmiş şöbə rəisi Orxan Osmanovun cinayət işi üzrə proses davam edir. Məhkəmədə artıq neçə prosesdir ki, "Vosmoy" bazarı epizodu üzrə araşdırma aparılır.**

İyunun 7-də keçirilən prosesdə sabiq nazir Eldar Mahmudovun müavini olmuş general Hilal Əsədov da məhkəməyə gəlib. Prosesdə şahid qismində ifadə verən Hilal Əsədov məhkəmə binasından çıxarkən jurnalistlərin suallarını cavablandırmaqdan imtina edib. Mühafizəçisi və vəkili ilə məhkəmə binasından çıxan Hilal Əsədov iti addımlarla onu gözləyən maşına minərək uzaqlaşıb.

Prosesdə H.Əsədov "Vosmoy" bazarına necə sahiblənməsi haqda ifadə verib. Bu epizod üzrə zərərçəkmiş kimi Cəfər Salmanov tanınıb. O deyib ki, bazar Akif Çovdarov və Hilal Əsədov tərəfindən əlindən alınıb. Bazarın indi də sahibləri Akif Çovdarov və Hilal Əsədovdur. H.Əsədov məhkəmədə deyib ki, hazırda işsizdir, təqaüddədir.

O, sərbəst ifadəsinə 2004-cü ildə MTN-də işə başlaması, nazirlikdə ilk vəzifəsinin mütəşəkkil cinayətkarlığa qarşı mübarizə idarəsində müşavir olması haqda məlumat verməklə başlayıb. Hakim sabiq nazir müavininə həddən ziyadə aşağı səslə ifadə verməsini irad tutub, bir qədər ucadan çıxış etməsini istəyib. H.Əsədov faktiki olaraq ibtidai istintaq zamanı yazılan ifadəni məhkəmədə yenidən səsləndirib. Həmin ifadə mətbuatda dəfələrlə dərc olunub.

**H.Əsədovun həmin ifadəsinə görə Eldar Mahmudovun şifahi tapşırığı ilə 2005-2009-cu illərdə nazirliyin Antiterror Mərkəzinə, 2011-ci ildən sonra həm də Əks-kəşfiyyat Baş İdarəsinin işlərinə nəzarət edib. O, nəzarətində olan idarə və mərkəzin fəaliyyəti çərçivəsində tədbirləri, məlumatları Eldar Mahmudova məruzə edib. Sabiq nazir müavini "Vosmoy" bazarının MTN əməkdaşları tərəfindən ələ keçirilməsi epizodu üzrə dindirilərkən zərərçəkmişləri tanımadığını deyib.**

**Sitat:** "Onların sabiq iqtisadi inkişaf naziri olmuş Fərhad Əliyevin yaxın adamları olduğunu bilirdim. 2005-ci il idi. Akif Çovdarov yanıma gəldi. Dedi, Çingiz Əsədov adlı şəxs Səfərov qardaşlarından şikayət edir. Ç.Əsədov bildirmişdi ki, Səfərov qardaşları 2002-ci ildə zorla Naxçıvanski küçəsi 50-də yerləşən meyvə-tərəvəz bazarını onun əlindən alıblar. Ona hədə-qorxu gəliblər, qardaşını oğurlayıblar. Həmin zaman Səfərov qardaşlarının sabiq iqtisadi inkişaf naziri Fərhad Əliyevin yaxın adamları və kəndçiləri olduğunu öyrəndim. Fərhad Əliyev onda yenicə həbs edilmişdi, barəsində cinayət işi istintaq olunurdu".

**Əsədov əlavə edib ki, zərərçəkmiş Səfərov qardaşları əməllərini səmimi şəkildə Akif Çovdarova etiraf ediblər:** "Çovdarov o zaman Antiterror Mərkəzinin 1-ci idarəsinin 1-ci şöbəsinin rəisi idi. O, gördüyü işlərlə bağlı mənə məruzə edirdi. Çovdarov Səfərov qardaşlarını dindirmişdi, onlar etdikləri əməlləri səmimi şəkildə etiraf etmişdi. Çingiz Əsədovun isə Səfərov qardaşları barəsində rəsmi şikayət edib, onları həbs etdirmək niyyəti yox idi. O, yalnız bazarın geri qaytarılmasını istəyirdi. Mən bunların hamısını Eldar Mahmudova məruzə elədim. Nazir məsələnin ciddi araşdırılmasını istəmişdi".



**Sabiq nazir müavini bir müddət sonra Səfərov qardaşları ilə Çingiz Əsədov arasında razılıq yarandığını da deyib:** "Çovdarovun otağında Səfərov qardaşlarından biri Çingiz Əsədovla bazarın geri qaytarılması barədə razılaşıb. Mən nə Çingizi, nə də Səfərov qardaşlarını tanıyırdım. Bu məsələ ilə bağlı Çovdarov mənə gündəlik məruzə edirdi. Məruzələrdən sonra mənə məlum oldu ki, müəyyən məbləğ ödənildikdən sonra Səfərov qardaşları bazarı yenidən Çingiz Əsədova satıblar. Bu məsələlərdən sonra bazar Çingizə qaytarılıb".

**H.Əsədov qeyd edib ki, bu söhbətlərdən iki-üç həftə sonra Çingiz Əsədov bazarı satmaq istəyib:** "Akif zəng edib, bu barədə mənə məlumat verdi. Çovdarova dedim ki, bu məsələni mütləq Eldar Mahmudova məruzə edəcəyəm. Nazirin yanına getdim, bu barədə məlumat verdim. Eldar Mahmudov bir neçə günə cavab verəcəyini dedi. İki gün sonra nazir razılıq verdi. Eldar Mahmudov dedi ki, halallıqla bazarı alın. Bütün işlər Çovdarova tapşırıldı. Payım olsun deyə qayınatam Ənvər Məmmədova bazarın yarısını almağı təklif etdim. Digər yarısını isə Çovdarovun özü həll edəcəkdi. 70 min dollar qayınatama verdim, qalan pulu özü düzəltdi. Bazarın alınmasında rolum ancaq Ənvər Məmmədova pul verməyim olub. Bütün sənədləşdirmə işləri Akif Çovdarov və qayınatam tərəfindən aparılıb. Bazar qayınatam və Akif Çovdarovun yaxın adamı Elşən Hüseynova satıldı. Onların hər biri bazarda 50 faiz paya sahib oldular. Bazarı hazırda elə Elşən Hüseynov işlədir. 2012-ci ildə qayınatam özünə düşən payı yoldaşım Nüşabəyə verib. Bazarın alqı-satqısı, ada keçirilməsi 2005-ci ilin sonu, 2006-cı ilin əvvəllərində oldu. Bunların heç birində mən iştirak etməmişəm. Hər ay Ənvər Məmmədov Nüşabəyə 15-20 min dollar pul verirdi".

Hilal Əsədov bazarın Akif Çovdarov tərəfindən zorla alınmasından xəbərsiz olduğunu deyib. H.Əsədov məhkəmədə istintaqa verdiyi ifadəsini təsdiq edib.

O əlavə edib ki, hazırda bazarın 50 faizi arvadı Nüşabə Əsədovaya məxsusdur, qalan 50 faizi isə Akif Çovdarovun qızı Aida Qasımovanın adınadır.

H.Əsədov sərbəst ifadəsini yekunlaşdırandan sonra zərərçəkən Cəfər Salmanovun suallarını cavablandırmalı olub.

C.Salmanov suallar verərkən H.Əsədovun məhkəmədəki ifadəsinə istinad edib:

***- Deyirsiniz ki, biz Səfərov qardaşlarını Çingiz Əsədovun şikayəti əsasında MTN-ə gətiriblər. Onun qardaşını biz oğurlamışıq. Bəs siz vəzifəli şəxs olaraq adam oğurlayan, bazarı zorla sahiblərindən alan şəxslər barəsində hansı tədbirlər gördünüz?***

- Əməliyyat-təhqiqat idarəsinə məsələni araşdırmalarını tapşırdım. Rəisə tapşırıq vermişdim ki, məruzə etsin.

***- Bəs rəis sizə nə məruzə etdi? Barəmdə hansı tədbir görüldü?***

- Mənə göstəriş gəlmişdi ki, bunları buraxaq, buraxdıq.

***- Bizi Fərhad Əliyevin, Rafiq Əliyevin adamları kimi qələmə verirdiz, həmin vaxt Fərhad Əliyev də, Rafiq Əliyev də həbsdə idilər. MTN-in "podvalı"nda idilər. Bizi də onların adamı kimi şərləmişdiz. O adamlar da içəridə. Belə bir vəziyyətdə sizə kim tapşırıq verdi ki, bizi buraxdılar?***

- ...

***- Deyirsiniz ki, işdə Fərhad Əliyevin, Rafiq Əliyevin adı vardı deyə ərizəni şəxsi nəzarətə götürdüm. Bazarla bağlı iş materiallarında Fərhad Əliyevin, Rafiq Əliyevin hər hansı bir ifadəsi, izahatı var?***

-...

***- Bizi Fərhad Əliyevin adamları kimi təqdim edib bazarı əlimizdən aldınız. Bəs Fərhad Əliyevin çoxcildli cinayət işində bazarla bağlı epizod olub?***

- ...

❑ E.MƏMMƏDƏLİYEV

# WhatsAppla zəng qadağası bitdi, amma müəmmalar bitmir

## Ekspertlər məsələnin təkcə təhlükəsizliklə bağlı olmadığını iddia edir

**Xəbər verdiyimiz kimi, Skype və WhatsApp-da beynəlxalq görüntülü əlaqə bərpa olunub. Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi internet şəbəkəsi üzərindən təşkil olunan telekommunikasiya xidmətlərində bəzi problemlərin olmasına münasibət bildirib.**

Nazilikdən verilən məlumatda qeyd olunub ki, ölkəmizdə uğurla keçirilən IV İslam Həmrəyliyi Oyunlarının təhlükəsizlik tədbirlərinin tərkib hissəsi olaraq Azərbaycan ərazisində müvəqqəti olaraq internet şəbəkəsi üzərindən təşkil olunan telekommunikasiya xidmətlərinə (Skype, Viber, WhatsApp və s.) məhdudiyyətlərin tətbiqi səsli və görüntülü onlayn kommunikasiya proqramlarının istifadəsində müəyyən çətinliklər yaradıb: "Həmin dövrdə bir çox profilaktik tədbirlərin sırasında şəbəkənin sazlanması işləri də həyata keçirilib. Hazırda texniki yeniləmə işləri başa çatıb və vətəndaşlar bu kommunikasiya proqramlarından yerli və beynəlxalq əlaqələr üçün istifadə edə bilərlər".

"Yeni Müsavat" isə xatırladır ki, qadağa prosesi bir neçə mərhələli davam etdi. Öncə WhatsApp-da görüntülü və görüntüsüz danışıqlar qadağan edildi. İnsanlar internet vasitəsilə alternetiv danışıq üsulları axtarmağa başladılar. İlk köməyə gələn Viber oldu. Bir neçə gün ondan istifadə edənlər daha sonra onunla da danışığın mümkünsüz hala gəldiyini gördülər. Ardınca Messenger vasitəsilə danışıq imkanları tətbiq olundu. Qısa müddət sonra ona da qadağa qoyuldu. Əhalinin daha sonra tətbiq etdiyi danışıq vasitələri isə İmo və Facetime oldu. Ötən həftənin sonlarına doğru onlara da qadağa qoyuldu. Halbuki həmin vaxt İslam oyunları bitmişdi və səbəb heç də oyunlarla bağlı görünmürdü.

Məhz əksər vasitələrə qadağa qoyulandan bir neçə gün sonra Skype və VhasApp-da danışıq bərpa olundu. Bu isə ilk gündən bəri qadağanın oyunlarla bağlı olmaması versiyasını gücləndirdi.

**Ekspert Arzu Nağıyev daha öncə "Yeni Müsavat"a açıqlamasında bildirmişdi ki, bu qadağa tək antiterror tədbirləri ilə bağlı deyil. Onun sözlərinə görə, böyük tədbirlərin keçirilməsi vaxtı təhlükəsizlik məsələsi kompleks şəkildə təmin edilməlidir:** "Dünya təcrübəsinə nəzər salsaq görərik ki, əsasən əməliyyat -axtarış fəaliyyətini həyata keçirən orqanlarla birlikdə bele qərarlar verilə bilər. İlk növbədə həmin messenger servisi fəaliyyəti həyata keçirən qurumlar oz üzərinə götürdükləri öhdəlikləri də yerinə yetirməlidirlər. Məsələn Rusiyada rəsmi olaraq BlackBerry Messenger, Imo i Line Roskomnadzor tərəfindən qadağa edilib və bağlıdır. Səbəb də onlar tərəfindən əhəmiyyət kəsb edən məlumatların təqdim edilməməsidir. Eyni zamanda həmin servislər özlərinin yayıcı funksiyasının təşkilatçısı olmadığını və buna cavabdehlik daşımadıqlarını bildirirlər. Bundan başqa, ən çox uzaq məsafəyə yük daşıyan avtomobillərdə istifadə edilən Zello ratsiyaları da bağlanıb, səbəb də məlumatın təqdim edilməməsidir. Zello pulsuz proqramı smartfonları və planşetləri real rejimdə ratsiyaya çevirə bilir. Yəni ölkədə qeydiyyatdan keçən hər bir bu formalı rabitə növləri mütləq şəkildə son altı aylıq arxivini yaratmalı və xüsusi xidmət və ya hüquq-mühafizə orqanlarının əməliyyat fəaliyyəti ilə bağlı sorğu əsasında təqdim etməlidirlər. Bu məlumatlara istifadəçinin kimliyi,qeydiyyat nömrəsi və s. aiddir. Bu, eyni zamanda şifrələnmiş məlumatlara da aiddir".

WhatsApp üzərindən doğmaları ilə əlaqə quranlar, biznesini təmin edənlər əhəmiyyətli şəkildə əziyyət çəkdi. İnsanlar daha çox yerli və beynəlxalq zənglər üçün yerli mobil operatorların xidmətlərindən istifadə etdilər. Bu isə onların şəxsi büdcəsinə zərbə vurdu. Bundan başqa, ilk gündən etibarən insanlara bu barədə hər hansı hesabat verilmədi, onları sualların içində saxladılar. Beynəlxalq tədbirə görə bu qadağanın tətbiqi isə istifadəçiləri daha çox narahat edir. Axı gələcəkdə Azərbaycan bu cür tədbirlərə çox ev sahibliyi edəcək. O halda ölkə insanı ildə neçə dəfə, neçə günlük aralıqlarla beynəlxalq danışıqlar məsələsində əziyyət çəkəcəklər?

Bundan başqa, insanlar son günə qədər alternativ vasitələrdən istifadə edə bildilər. Bu isə o deməkdir ki, qara məqsədli insanlar da bu cür vasitələrdən asanlıqla istifadə edə bilərlər. O halda təhlükəsizliyin təminatı üçün alternativ vasitələrdən istifadə olunması daha məqsədəuyğundur.

Bəzi ekspertlər isə deyirlər ki, bu, əslində İslam Oyunlarından daha çox yerli mobil operatorlarla bağlı qəbul olunan qərar idi. Çünki məqsəd beynəlxalq zənglərdən dolayı gəlirləri azaldılmış mobil operatorların əvvəlki imkanlarını geri qaytarmaq olub.

❑ Sevinc TELMANQIZI

YENİ MÜSAVAT
N 122 (6736) 8 iyun 2017



# 25 il öncə xalq "Ümid var gələcəyə..." deyirdi

Xalid KAZIMLI

**25 il öncə iyunun 7-də ölkədə prezident seçkiləri keçirilirdi. Ölkə tarixində ilk dəfə idi ki, bu qədər namizədin qatıldığı bir seçki kampaniyası təşkil olunmuşdu.**

7 iyundan ilyarım öncə Ayaz Mütəllibovun ASDP sədri Zərdüşt Əlizadəyə qalib gəldiyi seçki nə legitim, nə də obyektiv və dürüst idi. Çünki ölkənin ən böyük siyasi təşkilatı AXC normal seçki mühitinin olmamasına görə seçkini boykot etmişdi. Zərdüşt Əlizadə isə bu fürsətdən yararlanaraq, həm özünü və partiyasını tanıdırdı, həm də seçkiyə legitimlik donu qazandırırdı.

7 iyun seçkisində isə namizədlər çox idi: AXC sədri Əbülfəz Elçibəy, eks-spiker Yaqub Məmmədov, sabiq baş prokuror İlyas İsmayılov, akademik Nizami Süleymanov, AMİP sədri Etibar Məmmədov, parlament sədrinin müavini Tamerlan Qarayev, partiya sədri Rafiq Turabxanoğlu.

Seçkiyə iki gün qalmış E.Məmmədov və T.Qarayev namizədliklərini Elçibəyin xeyrinə geri götürdülər.

7 iyun seçkisinin favoriti Elçibəy idi. Administrativ resurslar da artıq yarı-yarıya onun rəhbərlik etdiyi təşkilatın əlində idi. Əgər Yaqub Məmmədov istefa vermiş olmasaydı, təbii ki, seçkinin favoriti o olacaqdı. Ancaq mayın 15-də ölkədə siyasi vəziyyət dəyişmişdi, AXC yerdə qalmış hakimiyyəti özü də istəmədən götürmüş, İsa Qəmbər parlamentin sədri seçilmişdi və prezidentin səlahiyyətlərini icra edirdi.

Bununla belə, məğlub olmuş partokratların hansısa formada müqavimət göstərəcəyi bəlliydi. Onlar sürətlə toparlanmağa çalışdılar, ancaq işi sona çatdıra bilmədilər. Mayın 15-dən iyunun 7-nə qədər olan vaxt ərzində onların gücü əhaliyə fantastik və şirnikdirici vədlər verən Nizami Süleymanovun ətrafında sıx birləşməyə çatdı.

N.Süleymanov 33 faizlə seçki ikincisi oldu.

Sonradan Elçibəyin qələbəsinə kölgə düşürmək üçün çox iftiraya, böhtana əl atdılar, amma fakt o idi ki, ölkənin yeganə güclü və diri təşkilatı olan AXC-nin sədri seçkidə qalib gəlmişdi. Ayrı-ayrı rayonlarda seçki pozuntuları, hətta saxtakarlıq faktları ola bilərdi, amma bu, Elçibəyin ölkə üzrə qazandığı qələbənin şübhə altına alınması üçün kifayət deyildi.

O zaman Elçibəyin seçki kampaniyasının şüarı "Ümid var gələcəyə, səs verək Elçibəyə" idi və ölkəni xaosdan qurtara biləcək yeganə güclü təşkilat olaraq meydanda yalnız AXC qalmışdı.

Bundan 1 ay öncə Şuşa, ondan on gün sonra isə Laçın işğal olunmuşdu, ölkədə ciddi bir panika vardı. Düşmənin qarşısında dayanan yeganə hərbi qüvvə də AXC batalyonları, könüllülər, XTPD-çilər idi. Belə bir durumda Elçibəydən başqasının hakimiyyətə gəlməsi mümkün deyildi.

Gözlənilən oldu. Elçibəy seçkinin ilk turunda seçicilərin yarıdan çoxunun səsini qazandı. Nə ondan əvvəl, nə də sonra heç kəs bu qədər aşağı faizlə prezident seçilməyib. Ancaq bu, onun legitimliyinə təsir etmirdi.

Elçibəy legitim prezident idi. O, xalqın ona səs verməyən hissəsinin də etimadını qazanacağına ümid edirdi. Bundan ötrü "milli təsanüd" ideyası ortaya atılmışdı.

Həmin ideya siyasi baxışlarından asılı olmayaraq hər kəsin, bütün siyasi qüvvələrin dövlət quruculuğu işinə cəlb edilməsini, milli həmrəyliyə nail olunmasını nəzərdə tuturdu.

Məhz bu üzdən idi ki, istər 7 iyundan sonra, istərsə də daha sonrakı vaxtlarda keçmiş hakimiyyətlərin dönəmində yüksək vəzifələr tutmuş minlərlə kadr öz vəzifələrindən götürülmədilər.

Ancaq onlar səksəkə içində gözləyirdilər, partokratların əndişəsi bir il çəkdi, bir ildən sonra onlar hakimiyyətə gələn YAP-ın fəallarına çevrildilər və rahatlaşdılar.

7 iyun seçkisi ümid verirdi ki, bundan belə ölkədə siyasi hakimiyyət məsələsi yalnız seçki yoluyla həll olunacaq. Hər halda AXC-Müsavat tandemində belə bir qənaət, hətta bugünkü prizmadan qiymətləndirsək, əndişə vardı.

Əslində 7 iyundan bir-iki ay sonra yeni parlament seçkiləri keçirmək və hakimiyyəti bir az möhkəmləndirmək mümkün idi. Ancaq Elçibəy iqtidarı Qarabağda müharibə kampaniyasına start verdiyindən bu fürsət qaçırıldı. İl payıza dönəndə isə Elçibəy iqtidarı öz nüfuzunu bir qədər azaldığını hiss edərək seçkiyə getməkdən qorxdu.

Elçibəy seçkidə müxtəlif texnologiyalardan, o cümlədən saxtakarlıq və zorakılıqdan istifadə edərək hakimiyyət dövranını uzatmaq fikrində deyildi, dürüst seçkidə isə artıq AMİP-in ətrafında sıx birləşməkdə olan köhnə kommunistlər güruhu ya qalib gələcəkdi, ya da hökumətə şərik olacaqdı. Əlac münasib vaxtı, əlverişli şəraitin yetişməsini gözləməyə qalırdı.

O şərait isə yetişmədi. 7 iyunun 1 ilinin tamamında artıq AXC-Müsavat komandasının iqtidardan salınmasına 10 gün qalırdı.

# Bitməyən təhsil ilindən narazılıqlar artır

## Etibar Əliyev: "Bu sistemsizliyin əsas səbəbkarları məktəb direktorlarıdır"

## Vaqif Qarayev: "Uzadılmış müddət uşaqları yormaqdan başqa heç nəyə xidmət etmir "

**Təhsil müddətinin iki ildir ki, iyunun 14-nə kimi uzadılmasını mənasız hesab edən valideynlər uşaqlarının həddən artıq yorğun olmasından və artırılan bu 14 gün ərzində uşaqlara məktəbdə heç bir bilik verilməməsindən şikayətçidir. "Proqram bitib, şagirdlər boş-boşuna məktəbə gedib-gəlirlər. Məktəbə gedən uşaqlar da, valideynlər də artıq yorulmuş vəziyyətdədir" deyə hamı gileylənir. Məktəblərdə dərsliklər də mərhələli şəkildə yığılmağa başlayıb. Ən sona isə ibtidai sinifləri saxlayıblar ki, uşaqlar dərslikləri qaytara bilmək üçün məktəbə gəlib-getsin.**





Dərslikləri yığılmayan şagirdlərdən həmin dərslikləri hər gün məktəbə gətirmək tələb edilir. Şagirdlər və müəllimlər məktəbdə bu 14 günü söhbət etmək, sinif otaqlarını yığışdırmaqla keçirir.

Rayon və kənd məktəblərində isə vəziyyət daha da pisdir. Belə ki, kənd məktəblərində və rayonlarda ümumiyyətlə, uşaqların bəziləri məktəbə getmir, kəndlərdə isə müəllimlər də, şagirdlər də əkin-biçimlə məşğuldurlar. Çünki proqram bitib, keçilməyə dərs yoxdur.

Bəs bu sistemsizliyin səbəbi nədir? Əgər proqram bitibsə, uşaqlara dərs keçilmirsə, tədris müddətinin uzadılmasının mənası varmı?

**"XIX Əsr" Təhsil Mərkəzinin rəhbəri, təhsil eksperti Etibar Əliyev bu sistemsizliyin əsas səbəbkarlarının məktəb direktorları olduğunu dedi:** "Dərs ilinin uzadılmasının təbliğatında müəllimlər də, məktəb direktorları da gərək iştirak edərdi. Burada məqsəd proqramlardakı boşluqların aradan qaldırılmasıdır. Bunun da kökündə dərslərin sentyabrın 15-də başlaması dayanır. Əlbəttə ki, 34 dərs həftəsi digər ölkələrlə müqayisədə azdır. Bu sistemsizliyin əsas səbəbkarları məktəb direktorlarıdır. Burada məqsəd uşaqlara bir neçə gün əlavə dərs keçməklə proqramın mənimsənilməsinə kömək etməkdir. Başqa bir məqsəd ola bilməz. İki həftəyə görə bütün valideynlər niyə bu qədər sarsıntı keçirir? Nazirlik uşaq hüquqlarının pozulmasına xidmət edən, uşaqlara əzab verən bir addım atmır. Məqsəd proqramın normal mənimsənilməsinə xidmət etməkdən ibarətdir. Bizim tədris ilinin içərisində xeyli bayramlar, tətillər var. Bu, hesablanmış, öyrənilmiş bir məsələdir. O zaman Çində gərək əhali ayağa qalxsın ki, bizdə niyə həftəlik dərs yükü 50-70 saata yaxındır. Çində yay məktəbləri də təşkil olunur. Hətta başqa ölkələrdə uşaqları bir nəfər kimi düşərgələrə, ya da yay məktəblərinə cəlb edirlər ki, onlar təhsildən ayrılmasınlar. Həm dincəlsinlər, həm də oxusunlar. Biz də bu cür imkanlar olmadığına görə 14 gün dərs müddətinin uzadılması belə ajiotajlara səbəb olur".

**Bəs şagirdlərin səhhəti və psixologiyası yayın bu isti günlərində dərsə getməyə imkan verirmi?**

**Pediatr Vaqif Qarayev bildirdi ki, uzadılmış bu son müddət uşaqları yormaqdan başqa heç nəyə xidmət etmir:** "Rəsmilər bizi dünya ölkələri ilə müqayisə edib deyirlər ki, orada da təhsil uzun müddətlidir və sairə. Amma o da faktdır ki, həmin ölkələrdə tədris ili müddətində uşaqlara tez-tez istirahət verilir. Mənə çatmır ki, biz nəyə görə həmişə pis nümunəni götürürük. Əvvəl tədris müddəti sentyabrın 1-dən mayın 25-nə kimi idi. O zaman uşaqlar pis oxuyurdu? Təcrübə göstərir ki, uzadılmış bu son müddət uşaqları yormaqdan başqa heç nəyə xidmət etmir. Proqram qurtarıb. Bunu müəllimlər özləri də etiraf edir. Artırılmış bu müddətin uşaqlara heç bir faydası yoxdur. Uşaqlar yorulur, əsəbi olur, diqqətsiz olur, iştaha pozulur, yuxu pozulur, ümumi ovqat pozulur. Bu hallar bir-iki uşaqda olsa, adam fikirləşərdi ki, fərd olaraq bu uşaqlar dözmür. Halbuki əksəriyyətdə bu var. Mən həmişə deyirəm ki, valideynə ilk öncə uşağın sağlamlığı vacibdir. Təhsil sonradan gələn şeylərdir. Dövlət orta məktəblərdə tədris ilini uzatmaqla uşaqların sağlamlığına ziyan vurur. Bunu birmənalı şəkildə deyirəm. Uşaqları iki il müddətinə repetitor yanına göndərən valideynlərin günahıdır ki, uşaqlarda imtahanqabağı əsəbilik, təzyiq yaranır, diqqəti, qavrama qabiliyyəti pozulur. Əgər bu uşağın sağlamlığı pozulursa, verəcəyimiz təhsil kimə lazımdır. Axı təhsili sağlam uşağa verərlər. Həkim və illərlə uşaqlarla işləyən bir adam olaraq mən bunun əleyhinəyəm".

❑ Günel MANAFLI



## Nazir "Son zəng" tədbirlərinin necə keçiriləcəyindən danışdı

**Təhsil naziri Mikayıl Cabbarov iyunun 14-də "Son zəng" tədbirlərinin hansı formada keçiriləcəyini açıqlayıb.**

"Trend"in məlumatına görə, nazir jurnalistlərə açıqlamasında bildirib ki, son illərdə olduğu kimi "Son zəng" tədbirlərinin keçirilməsinə dair bütün zəruri məlumatlar Təhsil Nazirliyi və yerlərdə fəaliyyət göstərən şəhər və rayon təhsil şöbələri tərəfindən məktəblərə təqdim ediləcək.

Qeyd edək ki, Azərbaycanda tədris ili sentyabrın 15-də başlayıb və iyunun 14-də başa çatacaq.

YENİ MÜSAVAT
N 122 (6736) 8 iyun 2017

# Müxalifət 2018-ci il prezident seçkilərində iştirak edəcəkmi?

**2018-ci ildə Azərbaycanda prezident seçkiləri keçiriləcək. Hazırda ölkə müxalifətinin passiv durumunu nəzərə alaraq, demokratik düşərgənin seçkilərdə iştirak edib-etməyəcəyi, seçkilərə qədər passivliyini atıb-atmayacağı suallar doğurur. İndiki situasiyadan çıxış etsək, müxalifətin qarşıdan gələn seçkilərlə bağlı ciddi bir hazırlıqlarının getmədiyi müşahidə olunur. Bəzi siyasi qurumların boykot qərarı üzərində düşündükləri barədə fikirlər gəzir. Bu sırada daha çox Milli Şuranın adı çəkilir.**

Digər müxalif qurumların daxilində isə seçkilərdə iştirak edib-etməməklə bağlı müzakirələr aparılır. İndiki vəziyyətdə hələ heç bir siyasi qurum seçkilərdə iştirakla bağlı konkret qərar verməyib. Yalnız Müsavat Partiyasının seçkilərdə iştirak edərsə, namizədi bəllidir. Bu da hələ 2014-cü ildəki qurultayla partiyanın prezident seçkilərində namizədi elan olunan Müsavatın keçmiş başqanı, MSDM rəhbəri İsa Qəmbərdir.

**Son prezident seçkilərində Ümid Partiyasının sədri kimi namizədliyi qeydə alınan İqbal Ağazadə hazırda qurum daxilində bu istiqamətdə müzakirələrin aparıldığını bildirdi:** "Gələn il qurultayımız olacaq və orada seçkilərdə iştirakla bağlı müzakirələr aparılacaq. Yekun qərarımız da o qurultayda elan olunacaq. Bu nə mənim, nə Ali Məclisin, nə də Rəyasət Heyətinin verdiyi qərar deyil, qurultayın qərarıdır. Hələ vaxtımız var, müzakirələr gedir. İnşallah, bundan sonra qərarımızı verəcəyik. Siyasətin bütün dönəmlərində çalışırıq ki, cəmiyyət, partiyamız üçün qazanclar əldə edək və onunla yola çıxaq. Seçkilərə kimi qalan 16 ayda nələrin olacağını, situasiyanın dəyişib-dəyişməyəcəyini deyə bilmərəm".

**2013-cü ilin seçkilərində iştirak edən daha bir namizəd ADP sədri Sərdar Cəlaloğlu da yekun qərarı qəbul etmədiklərini söylədi:** "Seçkilərin əhəmiyyətinə cəmiyyət və hakimiyyət tərəfindən idman yarışları ilə müqayisədə daha az diqqət ayrılır. Məsələn, bir idman yarışı təşkil olunur, buna bir il öncədən hazırlaşırlar, təbliğatını aparırlar. Amma seçki kimi ümummilli əhəmiyyətə malik olan, cəmiyyət, vətəndaş üçün həyati önəm daşıyan məsələyə nə diqqət, nə də vəsait ayrılır. Vətəndaşlar da idman oyunları və seçkilər arasındakı fərqi görə bilmirlər. Bu isə onu göstərir ki, Azərbaycanda insanların seçkilərə münasibəti tamam əksdir. Belə vəziyyətdə seçkilərə hazırlaşırıq, nəsə edəcəyik deməyimiz, sadəcə, gülüş yaradır. Çünki tələb və təklif qanuna uyğundur. Cəmiyyət əgər idman oyunlarının keçirilməsinə, əyləncələrə istiqamətlənibsə, biz nə qədər qışqırsaq ki, Qarabağ əldən gedir, seçkilərə hazırlaşaq, idman yarışlarından daha çox bizim seçkilər əhəmiyyətlidir, bunun heç bir faydası olmayacaq.



**İqbal Ağazadə:** "Yekun qərarımız qurultayda elan olunacaq"



**Sərdar Cəlaloğlu:** "Formal olaraq biz də seçkilərə hazırlaşırıq"

Çünki insanların beyinlərində seçkilərdən daha çox idman yarışları öndədir. Bütün bunlara baxmayaraq, təbii ki, biz də seçkilərə hazırlaşırıq. Adi vətəndaşlar kimi düşünmürük. Amma bizim nə cür düşünməyimizdən, hazırlaşmağımızdan asılı olmayaraq, temp çox aşağıdır. Biri var ki, cəmiyyət səni kimi düşünsün, bundan ruhlanıb atdığımız addım proseslərə daha çox dəstək versin, biri də var ki, sənin atdığın addım heç bir gücü təmərküzləşdirməsin. Bu baxımdan, seçkilərlə bağlı uzağa gedən hazırlıqlar, taktiki gedişləri müəyyənləşdirmək formal xarakter daşıyır. Bu bütün müxalif qüvvələrə, eyni zamanda, Azərbaycan iqtidarının seçki siyasətinə aiddir. Yəni formal olaraq biz də seçkilərə hazırlaşırıq, cəmiyyət və dünya da həmçinin".

**Prezidentliyə sabiq namizəd seçkilərə qədər proseslərin dəyişə biləcəyini də istisna etmir:** "Təcrübə təkcə zərurətə deyil, təsadüflərə də tabe olur. Təsadüf bir proqnozun pozulmasına səbəb olan kənar təsir deməkdir. Dünya tarixində belə hadisələr çox olub. Çox nəhəng planlar, ideyalar, hakimiyyət dəyişiklikləri təsadüflərlə aradan çıxıb. Öz tariximizdə Səttarxan ölən ərəfələrdə belə danışılmışdı ki, əgər o ölsə dağa çıxıb od yandırsınlar, bütün Azərbaycan ayağa qalxsın. Bağırxan o dağa qalxanda bir kürdün daxmasında gizlənir, xurcununda fişənglər olub. Kürd elə bilir ki, bunlar qızıldır, Bağırxanı aradan çıxarmaq istəyir. Onun və yoldaşının başını kəsirlər. Bununla da Səttarxan öləndən sonra Azərbaycanın ayağa qalxması planı aradan çıxıb. Halbuki bütün Azərbaycan hazırlaşmışdı ki, Səttarxana bir şey olarsa, bütün xalq qalxacaq, nəticədə müstəqillik əldə olunacaq. Bir kürdün yanlışlığı, tamahı ucbatından Azərbaycanın cənubunun müstəqil olmasının qarşısını alıb. Bu baxımdan, gərək indiki proseslərin əksi baş versin ki, müsbət nəticələri də olsun. Heç kim deyə bilməz ki, seçkilərə qədər qalan müddətdə bütün proseslər indiki kimi cərəyan edəcək. Əks proseslər baş verərsə, təbii ki, bizim də planlarımız, taktikalarımız dəyişəcək. Yaranan situasiyaya uyğun radikal taktiki və strateji plan hazırlayacağıq. Amma bugünkü vəziyyətdən çıxış edərək deyə bilərik ki, bu cəmiyyətlə, hakimiyyətlə, dünyanın ölkəmizə qarşı münasibəti ilə, Rusiya və İranın siyasəti ilə demokratik seçkidən danışa bilmərik".

❑ **Cavanşir ABBASLI**

# Müxalifətin ictimai dayaqları niyə yoxdur...

## Ekspertlər demokratik düşərgənin zəif olmasını ölkə üçün zərərli hesab edir

**Azərbaycanda müxalifətin sosial dayağının olmadığı barədə hakimiyyət düşərgəsindən vaxtaşırı açıqlamalar verilir. Müxalifət düşərgəsindən isə bu cür bəyanatlara sosial dayağın olduğunu sübut edən hansısa praktiki addımlarla deyil, "xalq bizi dəstəkləyir, xalq hakimiyyətə inanmır" tipli sözlərlə cavab verilir. Zaman keçdikcə isə bəlli olur ki, həqiqətən də özünü hakimiyyətin alternativi sayan müxalif partiyaların sosial dayağı, ictimai dəstəyi həddən artıq zəif, bitkin duruma düşüb.**




Milli Şuranın ən son - aprelin 8-də "Məhsul" stadionunda keçirdiyi mitinqə qatılanların sayı bu vəziyyətin ən son nümayişi idi.

Bəs nədən müxalifətin ictimai-sosial dayaqları yox kimi görünür?

**ADP sədri Sərdar Cəlaloğlu** bildirdi ki, əvvəla, müxalifətin sosial dayaqlarının tükənməsi iqtidarın üstünlüyü deyil: "Çünki demokratik cəmiyyətlərdə müxalifət kifayət qədər güclü olur və kifayət qədər ictimai həyatda iştirak edir. Ölkədə müxalifətin sosial dayaqlarının tükəndiyi görüntüsünün olmasi isə o deməkdir ki, ölkədə demokratiya tükənir. Azərbaycanda müxalifətin ictimai həyatdan uzaqlaşdırılması, əslinə baxsaq, Azərbaycanda demokratiyanın boğulmasının əlamətidir. Ona görə də buna görə fəxr eləmək doğru sayılmır. Əgər əhalinin siyasi partiyalara marağı yoxdursa, onda Yeni Azərbaycan Partiyasına da olmamalıdır. Dünyanın heç bir demokratik yerində fəaliyyətdə olan iqtidar fəaliyyətdə olan müxalifətdən çox böyük üstün gücə malik ola bilmir. Xalq həmişə yeni bir qüvvənin siyasi meydana gəlişində maraqlıdır.

Bu gün ölkədə siyasi fəaliyyət müstəvisi o qədər daralıb ki, müxalifət partiyaları öz mövcudluğunu zorla saxlayır, demək olar ki, xalqla müxalifətin təması yalnız virtual xarakter daşıyır. Bir tərəfdən qeyri-qanuni müdaxilə, digər tərəfdən də qanunların pozulması, şikayətlərə baxılmaması ilə ümumi şəkildə müxalifətin sayının azaldılması bu ideyanı həyata keçirməyə xidmət edir ki, doğrudan da Azərbaycanda müxalifət yoxdur görüntüsü yaransın. Lakin unudurlar ki, müxalifətin olmaması və ya zəif olması ölkənin zərərinədir".

**Yeni AXCP-nin sədri Razi Nurullayev bildirdi ki, ən böyük səbəb xalqın inamının davamlı olaraq qırılmağa məhkum edilməsidir. Kiçik də olsa nəticə lazımdır. Amma nəticə heç zaman olmayıb, əksinə, müxalifət itirə-itirə gəlib və o qədər çılpaqlaşıb ki, bütün eyibləri açıq-aşkar görünür:** "Bu eyibləri örtmək və xalqın inamını yenidən bərpa etmək üçün işlər görürük. Bizdən başqa da bu yöndə iş aparanlar var. Yəqin ki, müəyyən zaman aparacaq. Gördüyümüz işin pik nöqtəsi 2018-ci ilə təsadüf edəcək.

Yaranmış vəziyyətin səbəblərindən biri də uzun müddət passivlik burulğanında boğulan və hakimiyyətin sərt üzü ilə üzləşərək zorən gücünü itirən müxalifətin başını azacıq qaldıran kimi bədənindən böyük iddialara düşməyi oldu. Bəlkə də bu iddia deyildi. Bəlkə də razılaşdırılmış çirkli siyasi oyunun bir parçası idi.

Bir çox digər səbəblər də var. Birincisi, müxalifətin və narazı siyasi və ictimai qüvvələrin inteqrasiyası yoxdur. Müxalifət dağınıq və parçalanmış vəziyyətdədir. Xalq müxalif qüvvələrdən inteqrasiya gözlədiyi halda, müxalif qüvvələr hərdən ayrı-ayrı mitinqlər təşkil edir. Bu isə siyasi mübarizəni körükləmək yox, onu məhv etməkdir. İnsanları ruhdan salmaq, parçalanmış obrazını gücləndirmək və prosesi rüşeymində boğmaqdır.

İkincisi, mitinqlərə az adam çıxarmaqla və bunu tez-tələsik etməklə xalqa pis mesaj ötürülür. Xalqın gözü qorxur, ümidi puç olur".

❑ **E.SEYİDAĞA**



Əziz Orucov



Seymur Həzi

# Həbsdəki siyasi fəallardan son xəbərlər...

## "Kanal 13"ün rəhbərinin apelyasiya şikayətinə baxılacaq, İlqar Məmmədov və Seymur Həzi isə...

**İyunun 1-də 30 sutkalıq inzibati cəzası bitən gün barəsində 4 aylıq həbs-qətimkan tədbiri seçilən "Kanal 13"ün rəhbəri Əziz Orucovun apelyasiya şikayətinə baxılacaq. Bu barədə onun xanımı Lamiyə Orucova "Yeni Müsavat"a məlumat verdi: "Hələ ki görüşə və telefon danışığına icazə verilmir. Ancaq vəkillər görüşə bilirlər. Hazırda Əziz 1 saylı Bakı İstintaq Təcridxanasındadır. Ayın 9-da apelyasiya şikayətinə baxılacaq. Onunla görüşən vəkili dedi ki, yaxşıdır, əhvalı da yüksəkdir. Karantindən artıq çıxıb. İndiyə qədər bir dəfə həbsxanaya getmişəm. Yemək, paltar aparmışam. Müstəntiq deyir ki, hələ proses getdiyindən görüş və telefon danışığına icazə verilmir".**

Qeyd edək ki, Ə.Orucov Cinayət Məcəlləsinin 192.2 (qanunsuz sahibkarlıq və külli miqdarda gəlir əldə etmə) və 308.2 (vəzifə saxtakarlığı ağır nəticələrinə səbəb olması) maddələri ilə ittiham olunur...

**Cəzaçəkmə müəssisəsində olan REAL hərəkatının sədri İlqar Məmmədovun həyat yoldaşı Vəfa Məmmədova isə ərinin səhhətində yaranan problemlərin getdikcə yaxşılaşdığını söylədi:** "Heç bir dəyişiklik yoxdur, İlqar əvvəlki vəziyyətdədir. Səhhəti ilə bağlı yaranan problemlərlə əlaqədar da heç bir tədbir görülmədi. Özümüzün apardığımız dərmanlarla müalicə alır və səhhətində bəzi irəliləyişlər var. Amma həkim vasitəsilə İlqara heç bir yardım olunmayıb. Həbsxanada sərinləşdirici sistemin necə olması barədə hələ danışmamışıq. Havalar da yeni-yeni istiləşməyə başlayır. Yəqin ki, problemlər olsa da, bundan sonra olar".

**AXCP sədrinin müavini Seymur Həzinin atası Məşğul Həziyev oğlunun vəziyyətinin normal olduğunu bildirdi:** "Hələ ki bir narahatçılıq yoxdur. İyunun 7-də sonuncu dəfə zəng vurmuşdu. Vəziyyəti yaxşıdır. Elə bir sözü-filan olmadı. Həbsxana həyatı necədirsə, ona uyğun da davranır".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 122 (6736) 8 iyun 2017

> **"Ermənistan 8 min əfqan muzdlu əsgəri 5 illik müqavilə ilə Qarabağa gətirib".**

# Keçmiş baş nazirdən "Qarabağda muzdlu əfqanlar döyüşməyib" bəyanatı

## Pənah Hüseyn: "1988-ci ildən başlayaraq bu cür muzdlu terrorçulardan ermənilər istifadə edib"

Bu barədə Türkiyədə fəaliyyət göstərən Beynəlxalq Əsilsiz Erməni İddiaları ilə Mübarizə Dərnəyinin (ASİMDER) rəhbəri Göksel Gülbey məlumat yayıb. Onun sözlərinə görə, əfqan muzdluları Qarabağda təmas xəttinə yerləşdirilib: "Ötən ilin "aprel müharibəsi"ndə məğlub olan Ermənistanda valideynlər övladlarını Qarabağda əsgərliyə göndərməmək qərarına gəldilər. Ermənistan rəhbərliyi bu problemi həll etmək üçün pul qarşılığında 8 min əfqan muzdlu döyüşçüsünü ölkəyə gətirərək, təlim keçdi. Muzdlu əsgərlərə 5 il ərzində 3 min dollar maaş veriləcək. Sonda Ermənistan vətəndaşlığı və Avropaya viza sözü verilib".

**G.Göksel qeyd edib ki, əfqan döyüşçülər İran vasitəsilə Ermənistana gətirilib.**

"8 min əfqanın Ermənistana gətirildiyini İran vətəndaşlarının sosial şəbəkələrdə yaydıqları məlumatlardan öyrəndik" - deyə Göksel bildirib.

ASİMDER rəhbəri əlavə edib ki, Ermənistan əfqan döyüşçülərdən təkcə Azərbaycana qarşı deyil, həm də Türkiyəyə qarşı da istifadə edə bilər.



**Keçmiş baş nazir Pənah Hüseyn bildirdi ki, ermənilər Qarabağ müharibəsində həmişə əcnəbi muzdlulardan və xarici ölkə vətəndaşlığı daşıyan terror təlimi keçmiş ermənilərdən istifadə edib. Ona görə də mümkündür ki, 8 min nəfər olmasa da, hansısa sayda əfqan muzdlunu da cəlb etsinlər:** "8 min nəfər böyük rəqəmdir, bu qədər əfqan muzdlunun gətirildiyi barədə deyilənlər inandırıcı görünmür. 1990-cı illərin əvvəllərində müharibənin ən kəskin dövründə Ermənistan daha çox rus millətindən olan xarici muzdlulardan döyüşlərdə istifadə edirdi. Suriyadan, Livandan olan muzdlu döyüşçülərdən də istifadə edirdilər. Hətta Afrika mənşəli muzdlu döyüşçüləri də var idi. O vaxtlar bizdə məlumatlar var idi ki, onlar Fransada xüsusi legionda təlim keçmiş şəxslərdir. Amma belə muzdlular böyük tərkibli dəstələr kimi yox, fərdlər şəklində gəlmiş muzdlular idi. Döyüşlərdə bizim əsgərlər tərəfindən muzdlu rus və ukraynalı döyüşçülər əsir də götürülmüşdü. Amma o dövrdə muzdlu əfqan döyüşçülərin erməni tərəfində döyüşdüyü barədə məlumatlı deyildik. Ümumiyyətlə, bu tipli müharibələrdə xarici muzdlu döyüşçülərdən istifadə etmək təcrübəsi dünyada mövcuddur. Sadəcə, Ermənistan terrorçu dövlət olaraq xislətinə uyğun olaraq bu təcrübədən daha çox istifadə edir. Xarici muzdlu döyüşçülərdən istifadə etmək beynəlxalq hüquqda cinayət sayılır. Muzdlu döyüşçülər adətən yüksək təlim keçmiş peşəkarlardan ibarət olur. Ermənistana gətirilən muzdlu döyüşçülər əsasən erməni terror təşkilatlarında xüsusi təlim keçmiş terrorçular idi. 1988-ci ildən başlayaraq bu cür muzdlu terrorçulardan ermənilər istifadə ediblər. Azərbaycanlılara qarşı silahlı hücumları ilk olaraq məhz bu cür xarici muzdlular vasitəsilə həyata keçiriblər".

Qeyd edək ki, mərhum "OMON" komandiri Rövşən Cavadovun Qarabağ müharibəsi zamanı Azərbaycana əfqan döyüşçülər gətirdiyi ilə bağlı o dövrdə qeyri-rəsmi məlumatlar yayılmışdı. Ancaq həmin döyüşçülərdən konkret harada istifadə olunduğu haqda dəqiq informasiyalar yoxdur.

Pənah Hüseyn qeyd etdi ki, Elçibəy hakimiyyəti dövründə Qarabağ cəbhəsində muzdlu əfqanlar döyüşməyib.

❑ **Etibar SEYİDAĞA**

# Hafiz Hacıyev yenə prezident seçkilərinə hazırlaşır

## "Hakimiyyət daxilində prezidentə xəyanət edən qüvvələri ifşa edəcəyik"

**Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyev "Yeni Müsavat"a açıqlamasında 2018-ci il prezident seçkilərinə hazırlığı barəsində danışıb. H. Hacıyev bildirib ki, seçkilərlə bağlı artıq partiya öz qərarını verib.**

"Partiyanın Siyasi Şurasında da bu məsələyə geniş şəkildə baxılıb. Artıq qurultayımızın keçirilməsi ilə də bağlı addımlar atmağı düşünürük. Seçkilərdə yenidən mənim namizədliyimin verilməsi ilə əlaqədar şura öz tövsiyələrini verib. Tam əminliklə deyə bilərəm ki, bu dəfə yenə də prezident seçkilərində iştirak edəcəyəm", - deyə o bildirib.



**H.Hacıyev rəsmi qaydada seçkilərin keçiriləcəyi bəlli olmasa da seçkilərə ciddi şəkildə hazırlığa başladıqlarını deyir:** "Təbliğat işlərimiz gedir, saytlar, internet televiziyaları vasitəsilə də bu istiqamət üzrə addımlarımızı atırıq. Bu yaxınlarda Milli Şuranın da üzvü olmuş Rahim Bağırov partiyamıza üzv oldu. Yaxınlarda o, partiyamızda müavin kimi təmsil olunacaq. Onunla da birlikdə təbliğat-təşviqat işlərimizi aparıb, 2018-ci ilin prezident seçkilərinə var gücümüzlə, qalib gəlmək əzmi ilə qatılacağıq. Hesab edirəm ki, seçkilərdə öz sözümüzü layiqincə deyib, xalqımızın xeyrinə addımlar atacağıq".

**H.Hacıyevin sözlərinə görə, bu işlər üçün maliyyə qaynaqlarını da düşünüblər:** "Hər halda, seçkiyə qədər tam da olmasa da, maliyyə məsələlərimizi həll edəcəyik. Biz digər əksər partiyalardan fərqli olaraq xarici kəşfiyyata işləmədiyimiz üçün maliyyəmiz də xaricdən deyil. Bəzi partiya rəhbərləri var ki, onların Avropa banklarında hesabları, müxtəlif ölkələrdə biznesləri var. Biz isə millətimizə işlədiyimiz üçün dəstəyi də onlardan gözləyirik. Millətimiz bizi dar gündə qoymayacaq. Səfirlərlə görüşdüyümüz zaman bəziləri təklif edirlər ki, bizimlə işləyin, nə lazımdırsa, yardım edək. Ancaq bütün bunların hamısından imtina edib, onlara öz sözümüzü demişik. Çalışırıq ki, maliyyə məsələsini partiyamızın imkanlı şəxsləri ilə həll edək".

**H.Hacıyev yaxın zamanlarda mitinq keçirməyi də planlaşdırdıqlarını dedi:** "Biz dinamik fəaliyyətdə olan partiyayıq və mitinq komitəmiz mövcuddur. Hər həftə keçirilən İdarə Heyətinin iclasında komitənin üzvlərini də dəvət edirik. Biz mitinqə tam hazır vəziyyətdəyik. Sadəcə olaraq, Azərbaycanın ətrafında gedən geosiyasi vəziyyətə uyğun addımlar atmağı düşünürük. Düşünürük ki, yaxın bir ay ərzində mitinqlə bağlı Bakı Şəhər İcra Hakimiyyətinə müraciət edək. Ancaq Azərbaycanın ətrafında gedən proseslərə nəzər salanda dövlətimizin suverenliyinə zərbə vurmamaq üçün mitinq etmirik. Yəni ola bilər ki, biz mitinq keçirək, digər qüvvələr də bundan istifadə edib qarışıqlıq salsınlar. Lakin buna baxmayaraq, mitinq planımız qüvvədədir. Zamanı çatanda çox böyük və möhtəşəm mitinq keçirəcəyik. Həmin mitinqdə ölkə prezidentinə xəyanət edən qüvvələri ifşa edəcəyik. Biz necə dözə bilərik ki, şəhid ailələrinə həmin sahəyə baxan nazirlik tərəfindən ögey münasibət var - baxmayaraq ki, dəfələrlə prezidentimiz bu istiqamət üzrə addımlar atıb, şəhid ailələri ilə görüşüb. Məmurlar isə belə deyillər. Mitinqimizdə hakimiyyət daxilində olan, korrupsiyaya bulaşmış nümayəndələri ifşa olunacaqlar. Birmənalı şəkildə imkan verməri̇k ki, həmin mitinqdə kimlərsə durub, başqa adamın ünvanına nə isə söyləsin. Məqsədimiz dövlətçiliyin, xalqın dayağında durmaqdır. Orada konkret adlar da çəkəcəyik. Zamanında Ziya Məmmədovun adını çəkdik, indi aqibəti bəllidir. Ancaq hesab edirəm ki, Ziya Məmmədov həbs olunmalıdır. Belə bir adamı azadlıqda saxlamaq olmaz. Eyni zamanda onun əmlakının da hamısı əlindən alınmalıdır. Onun oğlu Anar Məmmədov da bu gün xaricdə dövlət başçısının əleyhinə çox böyük siyasi kampaniyaya başlayıb. O da İnterpol vasitəsilə təcili olaraq geri çağırılmalıdır. Ziya Məmmədov ona görə həbs edilməlidir ki, əlindəki milyardları ortada oynadır. Bu gün Rusiya və Qərb dövlətləri özlərinin milyarder qruplarını Azərbaycanda yenidən cəmləşdirir. Ziya Məmmədov da onların arasında oyunçu kimi oynayır. Ona görə də bu adam ən azından nəzarətdə saxlanılmalıdır. Ziya Məmmədov Milli Şurada təmsil olunan adamdır. Onun qohumlarının əksəriyyəti Milli Şuranın koordinasiya mərkəzinin üzvləridir. Şərt o deyil ki, Ziya Məmmədov gəlib, Cəmil Həsənli ilə yan-yana otursun. Bu adam gecələr görüşüb, onlara maliyyə yardımı göstərir. Cənab Zakir Qaralova deyirəm ki, ölkədə qarışıqlıq salmaq istəyən qüvvələri bu kimi nazirlər maliyyələşdirirlər. Mitinqlərimizdə bütün bunları qabardacağıq".

**Hafiz Hacıyev ölkə müxalifətinin vəziyyəti barəsində də fikir bildirib:** "Azərbaycanda müxalifət ancaq bizik. Bir də var, xaricin Azərbaycandakı müxalifət adlandırılan qüvvələri. Onların da vəziyyəti çox pisdir. Bu adamlar xarici də aldadıb, aldıqları pulu batırırlar. Məqsədləri də Azərbaycanda qardaş qırğını salmaqdır. Bu adamların məlumatları hesabına ABŞ Dövlət Departamenti, Avropa Parlamenti Azərbaycan əleyhinə bəyanatlar verir. İndi yenə də bəziləri Vaşinqtona üz tutub. Məsələn, Kərimov Əlidən müxalifətmi olar? Sadəcə olaraq, orada beş-on nəfər yığışıb ki, onlar da xaricdən aldıqları pulu bölə bilmədikdə öz içlərindəki adamdan da donos yazıb, onu tutdururlar. AXCP-də son həbsləri də Kərimov Əli təşkil edib ki, xaricdən gələn pulların hamısı onun özünə çatsın, kimləsə bölməsin. Ona görə də bu adamlardan müxalifət olmaz".

❑ **Əli RAİS**

# İŞİD terroru Azərbaycanın cənub sərhədinə çatdı - İran "ürəyindən" vuruldu

## İran parlamentinə və İmam Xomeyni məqbərəsinə silahlı hücum nəticəsində 12 nəfər öldü, 39 nəfər yaralandı; həlak olanlar arasında Urmiyə millət vəkilinin ofis katibi də var; müsəlman qonşumuz ətrafında həlqə daralır; İran Səudiyyəni terrorun günahkarı elan etdi

**İyunun 7-də İran İslam Respublikasının paytaxtında həyəcanlı saatlar yaşanıb. Belə ki, terrorçular İran parlamentinə və həmçinin Tehranın cənubunda yerləşən İmam Xomeyni məqbərəsinə silahlı hücum təşkil edərək insanlara atəş açıblar.**

İran Daxili İşlər Nazirliyi (DİN) Tehranda silahlı hücumlarla əlaqədar yaydığı bəyanatda hadisələrin baş verdiyi ərazilərdə vəziyyətin nəzarət altına alındığını və narahatlığa əsas olmadığını bildirib.

İran dövlət televiziyası eyni anda edilən hücumu 4 terrorçunun törətdiyini bildirib. İran mətbuatında yazılan digər xəbərə görə, terror hücumu nəticəsində 12 nəfər öldürülüb, 39 nəfər yaralanıb.

"Parlament binasına edilən hücum zamanı terrorçu 4 nəfəri girov götürüb". Bunu isə İranın "Press TV" mediası bəyan edib. Bildirilib ki, parlamentdə 4 nəfəri girov alan terrorçu daha sonra özünü partladıb. İran mediası xəbər verir ki, İmam Xomeyni məqbərəsinə hücum edən şəxslərdən birinin özünü partlatması nəticəsində 1 nəfər ölüb, 5 nəfər xəsarət alıb.

İŞİD terror qruplaşması İranda parlament binası və Ayətullah Xomeyninin türbəsinə edilən hücuma görə məsuliyyəti öz üzərinə götürüb.

Təhlükəsizlik orqanları əməkdaşlarının terrorçulara qarşı pilotsuz uçuş aparatlarından istifadə etdiyi bildirilir. Təqribən 5 saat davam edən əməliyyat tədbirlərindən sonra parlament binasına hücum edən terrorçular məhv edilib (axar.az). Məhv edilən terrorçuların hamısının fotosu da yayılıb.

Diqqətçəkən budur ki, İŞİD (DAEŞ) Tehrandan, parlamentdən 24 saniyəlik videokadr yaymaqla əməliyyatın davam etdiyini elan edib. Parlamentdə iki deputatın - Şəhrza və Mübareke deputatlarının həyat yoldaşlarının da terrorçular tərəfindən girov götürüldükləri bildirilirdi.

Musavat.com Türkiyə mətbuatına istinadən xəbər verir ki, terror hadisəsindən sonra İranın xarici işlər naziri Məhəmməd Cavad Zərif Türkiyəyə səfər edəcəyini açıqlayıb. Məhəmməd Cavadın Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlu ilə görüşəcəyi bildirilirdi. Səfərin ayrıntıları haqqında məlumat verilməsə də Qətər böhranı və bölgədəki son hadisələrin müzakirə ediləcəyi deyilir.

Günorta saatlarında Xomeyninin məqbərəsi yaxınlığındakı metro stansiyasında da partlayış törədildiyi xəbəri yayıldı. Lakin Tehrandakı mənbələrimizlə araşdırarkən məlum oldu ki, bu xəbər doğru deyil.

İŞİD-in İrana ayaq açması və ölkə parlamenti, həmçinin İmam Xomeyni məqbərəsinə hücum etməsi sıradan bir hadisə kimi qiymətləndirilmir. Hesab olunur ki, baş verənlərin arxasında daha ciddi qüvvələr dayanır. Bu mənada mayın 22-də Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyadda ABŞ prezidenti Donald Trampın iştirakı ilə keçirilən "Ərəb, İslam, Amerika" sammitinə İranın dəvət olunmaması, ABŞ prezidenti Donald Tramp və Səudiyyə Ərəbistanının kralı Salman bin Əbdül Əziz Əs Səud arasında telefon danışığının olması, "İslam NATO"su müzakirələri, İran ətrafındakı bəzi dövlətlərdə hərbi bazaların yaradılması və s. amillər Tehrana qarşı xüsusi əməliyyatların hazırlandığı şübhələrini artırır. Ehtimallara görə, antiterror koalisiyası Suriya böhranından çıxa bilməməsinin əsas səbəblərindən biri kimi İranın prosesə müdaxiləsini nəzərə aldığı üçün öncə bu ölkə ilə "haqq-hesab çürütməyə" qərar verə bilər. Qeyd edək ki, iyunun 5-də Misir, Səudiyyə Ərəbistanı, Bəhreyn və BƏƏ Dohanı terror qruplaşmalarını dəstəkləməkdə və Yaxın Şərqdə vəziyyəti gərginləşdirməkdə ittiham edərək, Qətərlə diplomatik münasibətləri dayandırdıqlarını bəyan ediblər. Sonradan Liviya, Yəmən, Maldiv və Mavriki də Qətərlə diplomatik münasibətləri dayandırdıqlarını bəyan ediblər.

**Politoloq:** "Xomeyni məqbərəsindəki partlayış İran rejiminin ideoloji dayaqlarına hücumdur, parlamentə hücumsa İranın siyasi sisteminə zərbədir"

Qətər XİN rəhbəri Dohanın cavab tədbirləri görməyəcəyini bildirib. Birləşmiş Ərəb Əmirlikləri Qətərin siyasəti ilə həmrəy olduğunu nümayiş etdirən vətəndaşlarını cəzalandıracaq ("ölkə.az"). Məlumata görə, Qətərin siyasətini dəstəkləyən BƏƏ vətəndaşlarını 15 illik həbs cəzası gözləyir. Bundan əlavə, bu şəxslər 135 min dollar məbləğində cərimə ödəyəcəklər. Bu barədə BƏƏ-nin baş prokuroru məlumat verib. Qərb dairələri tərəfindən yaradıldığı iddia olunan İŞİD-in məhz belə bir durumda Tehrana qorxulu saatlar yaşatması təsadüf sayılmır. Hadisədən sonra İran ərazisində bütün təhlükəsizlik qüvvələri hazırlıq vəziyyətinə gətirilib. APA-nın Tehran bürosunun məlumatına görə, bunu İranın daxili işlər nazirinin müavini Hüseyn Zülfüqari deyib. O bildirib ki, terrorçular qadın geyimi ilə parlamentin binasının giriş qapısından içəri daxil olublar: "İçəri girən kimi atəş açmağa başlayıblar. SEPAH qüvvələri onlara cavab atəşi açıb. Terrorçular parlamentin əsas binasına deyil, ətrafdakı binasına soxulublar". H. Zülfüqarinin sözlərinə görə, terrorçular 4 nəfər olub. Nazirlik bildirib ki, bu gün səhər Tehranda bir neçə terror aktı törətməyə cəhd göstərilib. Nazirliyin Terrorizmlə mübarizə idarəsinin rəhbəri bəyan edib ki, terror dəstələrindən bir qrupu hər hansı əməli həyata keçirməyə fürsət tapmadan zərərsizləşdirilib. Təhlükəsizlik Nazirliyi əhalidən şübhəli şəxslər gördükdə dərhal xəbər vermələrini istəyib.



İRNA dövlət agentliyi isə İmam Xomeyninin məqbərəsində terrorçulardan birinin sağ ələ keçirildiyi və atışmanın davam etdiyi barədə xəbər yayıb.

**İran parlamentinin sədri Əli Laricani dünən səhər parlament binasında baş vermiş terrora münasibət bildirib.**

**Ə.Laricani olayı kiçik bir hadisə adlandırıb:** "Bir neçə qorxaq terrorçu parlamentin binasına soxulub və onlara qarşı ciddi tədbirlər görülüb. Elə də böyük şey deyil. Bu hadisə onu göstərir ki, terrorçular İran üçün problem yaratmaqda maraqlıdır. İran terrorizmlə mübarizədə fəal və təsiredici gücə malikdir, istəyirlər ki, İranın bu simasını korlasınlar. Təhlükəsizlik qüvvələri hökmən onlara qarşı ciddi ölçü götürəcək".

**Tehran əyalətinin rəhbəri isə elan edib ki, hazırda paytaxtda vəziyyət stabildir və təhlükəsizlik qüvvələri vəziyyəti nəzarətə götürüb:**

"Baş verən hadisə İranın təhlükəsizliyinə ciddi zərbədir və bu ölkənin kəşfiyyat, əks-kəşfiyyat və digər bu kimi çoxsaylı alternativ qurumları haqqında yayılan əfsanələri alt-üst edir".

İran İslam İnqilabı Keşikçiləri Korpusu (SEPAH) dünən Tehranda törədilən terror hücumlarında Səudiyyə Ərəbistanını günahlandırıb.

APA-nın "Reuters" agentliyinə istinadən verdiyi məlumata görə, bu barədə SEPAH-ın general-mayoru Hüseyn Səlami "Mehr" agentliyinə müsahibəsində deyib.

O bildirib ki, İran terrorçulardan və onların dəstəkçilərindən intiqamını alacaq.

**Bu gün (dünən -red.) İran parlamentinə və İmam Xomeyni Türbəsinə terror hücumları olub. Terror hadisələri nəticəsində 12 nəfər ölüb, 42 nəfər yaralanıb.**

**Terrora görə məsuliyyəti İŞİD üzərinə götürüb.**

**Politoloq Elçin Mirzəbəyli bunu "Yeni Müsavat"a açıqlamasında bildirdi. Ekspert qeyd etdi ki, hadisənin Qətər əmiri Tamim ibn Hamad əl Tanın İranı "regiondakı sabitliyin qarantı" kimi təqdim etməsindən və Qətərə qarşı körfəz ölkələrinin açdığı soyuq savaşdan sonra baş verməsi də maraq doğurur:** "Tehranda baş verən terror aksiyaları Qətər əmirinin İranın sabitliyin qarantı olması ilə bağlı fikirlərini alt-üst edir. Hər halda, baş verənlər çox ciddi bir prosesin başlandığından xəbər verir. İranın bu məsələyə adekvat reaksiyası yeni Körfəz müharibəsinin başlanmasına da səbəb ola bilər. Səudiyyə Ərəbistanında keçirilən zirvə görüşündən sonra İran və Ərəb koalisiyası ölkələrinin arasında ciddi qarşıdurmanın baş verəcəyi gözlənilən idi. Amma proseslərin bu qədər tez bir zamanda başlanacağı ehtimal olunmurdu. Şübhəsiz ki, baş verənlərdə konkret olaraq hansısa ölkənin ittiham edilməsi üçün əlimizdə əsas yoxdur. Lakin terror aksiyalarının həyata keçirilməsinin forması, yəni həm "canlı bombalardan", həm də silahlı terrorçulardan istifadə olunması İŞİD-in terror texnologiyasını xatırladır. Seçilən hədəflər məqsədyönlüdür".

**E.Mirzəbəyli hesab edir ki, Xomeyni məqbərəsindəki partlayış İran rejiminin ideoloji dayaqlarına hücumdur:** "Parlamentə hücumsa İranın siyasi sisteminə zərbədir. Eyni zamanda törədilən terror aktları əhali arasında xof, qorxu yaradılmasına xidmət edir. Bütün bunlar terrorun siyasi məqsədlərlə həyata keçirildiyinə işarə edir. Şübhəsiz ki, harada baş verməsindən və hədəfindən asılı olmayaraq, terror lənətlənməlidir. Terrora heç bir halda haqq qazandırmaq olmaz. Proseslərin sonrakı gedişatına gəldikdə isə baş verənlər regionda sabitliyin uzun müddət bərpa olunmayacağından xəbər verir. Bu hadisədən sonra İranın təcrid olunması istiqamətində daha sərt addımların atılacağını, Suriyada, Fələstində, Liviyada, Yəməndə və Livanda İranın himayə etdiyi qüvvələrin hərəkətə keçəcəyini gözləmək olar. Qarşı tərəf isə çox güman ki, İranın yayındırıcı addımlarına xidmət edən hərəkətlərə xüsusi diqqət yetirməyəcək və prosesləri İranın daxilinə keçirməyə cəhd göstərəcək". **Politoloq burada İŞİD xəttinin olduğuna şübhə etmədi. Amma bunları da əlavə etdi:** "Terror aksiyasının həyata keçirilməsi mexanizmi - həm silahlılardan, həm də canlı bombalardan istifadə edilməsi də İŞİD-i xatırladır. Amma qəti fikir bildirmək də çox çətindir".

Azərbaycanın cənub sərhədlərində belə dəhşətli terror hadisələrinin törədilməsi təbii ki, narahatedicidir. Bakı müxtəlif təzyiqlərə baxmayaraq, ərazisindən İrana qarşı hərbi əməliyyatlarda istifadəyə icazə verməyib. Görünən budur ki, anti-İran koalisiyası ərəb ölkələrindən İrana həmlə planı hazırlamaqla yanaşı, İranın daxilində onu "ürəyindən vurmağa" da qərar veriblər. Bu da çox təhlükəli başlanğıcdır. İranda terror seriyası davam etsə, Azərbaycan türklərinin həyatına da ciddi təhlükə yaranacaq, hərbi əməliyyatlar başlasa, Azərbaycan dövləti üçün də arzuolunmaz situasiya yarana bilər. Yeri gəlmişkən, İran parlamentinə hücum zamanı qətlə yetirilənlərdən biri türk soydaşımız, İran parlamentindəki Türk Fraksiyasının aktiv üzvlərindən olan, Urmiyədən seçilmiş deputat Hadi Bahadurinin ofis katibi Həmid İmdadidir. Allah rəhmət eləsin!

**"İran İslam Respublikasında törədilmiş qanlı terror aktlarını qəti şəkildə qınayırıq. Bu terror aktları nəticəsində həlak olanların ailələrinə, bütün İran xalqına və hökumətinə dərin hüznlə başsağlığı veririk. Yaralanan və xəsarət alanların tezliklə şəfa tapmasını diləyirik".**

**Musavat.com-un məlumatına görə, bunu Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev deyib.**

**O qeyd edib ki, terrorizmdən əziyyət çəkən dövlət kimi Azərbaycan terrorizmin bütün forma və təzahürlərini kəskin şəkildə pisləyir: "Azərbaycan Respublikası terrorizmə qarşı mübarizədə beynəlxalq ictimaiyyətin səylərini qətiyyətlə dəstəkləyir".**

**❑ E.PAŞASOY**

www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 8 iyun 2017-ci il Cümə axşamı № 122 (6736) Qiymәti 60 qәpik

**Xəbər**

## Hacıqabulda dəhşətli avtoqəza; ana və iki oğlu öldü

yazısı səh.14-də

**Gündəm**

## İŞİD terroru Azərbaycanın cənub sərhədinə çatdı - İran "ürəyindən" vuruldu



İran parlamentinə və İmam Xomeyni məqbərəsinə silahlı hücum nəticəsində 12 nəfər öldü, 39 nəfər yaralandı; SEPAH Səudiyyəni terrorun günahkarı elan etdi

yazısı səh.7-də

### Müxalifət 2018-ci il prezident seçkilərində iştirak edəcəkmi?

yazısı səh.5-də

### Avropa özünün yaratdığı terror təşkilatlarının hədəfinə çevrilir - səbəblər...

yazısı səh.13-də

### "Hakimiyyət daxilində prezidentə xəyanət edən qüvvələri ifşa edəcəyik" - Hafiz Hacıyev

yazısı səh.6-da

### Məhkəmə söyüşə görə adam bıçaqlayan şəxsə bəraət verdi

yazısı səh.14-də

### "Balkanlarda Rusiya-Qərb savaşı həlledici mərhələyə qədəm qoyub" - ekspert

yazısı səh.10-da

### Qətər böhranı "qara qızıl"ın qiymətini bahalaşdıracaqmı...

yazısı səh.15-də

### ABŞ-ın İslam dünyasına qarşı ikili siyasətində əsas hədəf

yazısı səh.10-da

**Ramazan ayının 13-cü günü**

İftar 20.25. İmsak 03.09-dək (QMİ)

13-cü günün duası: "İlahi, məni bu gün çirkin əməl və pis işlərdən pak et! Belə bir gündə qarşımıza çıxan hər bir asan və ya çətin işə qarşı səbir və dözüm ver! Məni təqvalı və yaxşı insanlarla yoldaşlıq etməyə müvəffəq et! Ey, yoxsulların Gözünün İşığı!"

İftar duası: "Allahım, Sənin rizan üçün oruc tutdum, Sənə inandım, Sənə güvəndim. Sənin ruzinlə iftar açır və Sənə təvəkkül edirəm. Ey bağışlayan Allah, günahlarımı bağışla".

ALLAH ORUCUNUZU QƏBUL ELƏSİN!

## Rusiyanın növbəti qaz şantajı: Moskva narahatdır

# KREMLİN BAKIYA QƏZƏBİNİN 3 SƏBƏBİ - PREZİDENTİN MESAJI HƏDƏFƏ DƏYİB

Rusiyanın ölkəmiz əleyhinə silsilə demarşlarının ardınca "Qazprom"dan TAP-ın səmərəliliyini şübhə altına alan minnətli bəyanat gəldi; Azərbaycanın yeni oyunçu kimi güclənməsi Kremli qıcıqlandırır...




yazısı səh.8-də

## General Hilal Əsədov 8-ci kilometr bazarını necə yağmaladıqlarını açıqladı

Məhkəmədə ifadə verən sabiq MTN şefinin müavini qanunsuz işlərin başında nazirin durduğuna işarə etdi; o, məhkəmədə zərərçəkmişin suallarını cavablandıra bilmədi

yazısı səh.3-də



*Etibar Əliyev:*

### "Orta məktəblərdə sistemsizliyin əsas səbəbkarları məktəb direktorlarıdır"

yazısı səh.4-də



### Araz Ağalarovun bataqlıq üzərindəki biznes imperiyası

yazısı səh.12-də



### Lavrovun Qarabağ bəyanatı - Azərbaycana savaş xəbərdarlığı, yoxsa...

yazısı səh.11-də



## Prezident İlham Əliyev Həsən Ruhaniyə başsağlığı verib

**Azərbaycan prezidenti İlham Əliyev İran İslam Respublikasının prezidenti Həsən Ruhaniyə başsağlığı məktubu göndərib. APA-nın məlumatına görə, məktubda deyilir: "Hörmətli cənab Prezident"**

Tehranda törədilmiş terror aktları nəticəsində insan tələfatı və yaralananlar barədə xəbər bizi olduqca kədərləndirdi və hiddətləndirdi.

Bu qanlı hadisə terrorizmin bütün dünya üçün dəhşətli bir bəlaya çevrildiyini, onun bütün təzahürlərinə qarşı birgə səylərlə və ardıcıl mübarizə aparılmasının vacibliyini bir daha təsdiq edir.

Baş vermiş faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, dost və qardaş İran xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin!"

## Azərbaycanda terrorçu və terror təşkilatı anlayışı genişləndirilir

**Azərbaycanda "Terrorçuluğa qarşı mübarizə haqqında" Qanuna dəyişiklik edilir.**

APA-nın məlumatına görə, layihəyə əsasən, qanunun 1-ci maddəsinin üçüncü bəndində bildirilir ki, terrorçu-hər hansı formada, birbaşa və ya dolayısı ilə, qəsdən terror fəaliyyətinin həyata keçirilməsində təşkilatçı, təhrikçi, köməkçi və icraçı qismində iştirak edən və ya bu cür aktları hazırlayan və ya onların törədilməsinə cəhd edən, habelə əvvəlcədən əlbir olan bir qrup şəxsin, mütəşəkkil dəstənin və ya cinayətkar birliyin terror fəaliyyətini həyata keçirməsinə bilə-bilə yardım göstərən fiziki şəxsdir.

Bəndin hazırda qüvvədə olan variantı isə belədir: "Terrorçu - hər hansı bir formada terror fəaliyyətinin həyata keçirilməsində iştirak edən şəxsdir".

Maddənin dördüncü bəndində təklif olunan dəyişikliklə isə deyilir ki, "terror təşkilatı - hər hansı formada, birbaşa və ya dolayısı ilə, qəsdən terror fəaliyyətinin həyata keçirilməsində təşkilatçı, təhrikçi, köməkçi və icraçı qismində iştirak edən, terror aktını hazırlayan və ya onların törədilməsinə cəhd edən, habelə əvvəlcədən əlbir olan bir qrup şəxsin, mütəşəkkil dəstənin və ya cinayətkar birliyin terror fəaliyyətini terror fəaliyyətini həyata keçirməsinə bilə-bilə yardım göstərən terrorçu şəxslərin qrupu və ya öz fəaliyyətində terrorçuluqdan istifadəni mümkün hesab edən təşkilatdır".

Bəndin hazırda qüvvədə olan variantı isə belədir: "terror təşkilatı - terror fəaliyyətinin həyata keçirilməsi məqsədilə yaradılan və ya öz fəaliyyətində terrorçuluqdan istifadəni mümkün hesab edən təşkilatdır. Əgər struktur bölmələrindən biri təşkilatın hər hansı bir rəhbər orqanının razılığı ilə terror fəaliyyəti ilə məşğuldursa, həmin təşkilat terror təşkilatı hesab edilir".

Layihə Milli Məclisin plenar iclasına tövsiyə olunub və iyunun 13-də müzakirəyə çıxarılacaq.

"Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# Bakıda məcburi köçkün yataqxanası yandı

**Bakının Yasamal rayonunda, Şərifzadə küçəsi 1-də məcburi köçkünlər yaşayan yataqxanada güclü yangın baş verib.**

Lent.az-ın hadisə yerində olan əməkdaşının xəbərinə görə, yanğın binanın 3-cü, 4-cü və 5-ci mərtəbələrini əhatə edir. Binanın bir bloku tamam yanıb. Yanğın yerinə 4 yanğınsöndürmə briqadası cəlb olunub. Vəziyyəti nəzarətə almaq üçün əlavə yanğınsöndürmə briqadalarının əraziyə cəlb edilməsi xahiş edilib.

Fövqəladə Hallar Nazirliyi (FHN) Bakıda məcburi köçkünlərin məskunlaşdığı yataqxanada baş verən yanğınla bağlı məlumat açıqlayıb.

FHN-in saytından verilən məlumata görə, Bakının Yasamal rayonunda 5 mərtəbəli yataqxana binasında ayrı-ayrı vətəndaşlara məxsus ümumi sahəsi 282 m2 olan mənzillər 101 m2 sahədə yanıb.

Yanğın zamanı 33 nəfər sakin təxliyə olunub, 3 nəfər xilas edilib. Binanın qalan hissəsi və yaxınlıqdakı tikililər yanğından mühafizə olunub.



Hadisə nəticəsində xəsarət alan yoxdur. Yataqxanada yaşayan insanlar təxliyə olunub.

Qaçqınların və Məcburi Köçkünlərin işi üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov Yasamalda yanan yataqxananın ərazisinə gəlib.

Lent.az-ın hadisə yerində olan əməkdaşının verdiyi məlumata görə, Əli Həsənov yanan binanın sakinlərinin şikayətlərini dinləyir. Komitə sədri bildirib ki, baş verən hadisə ilə bağlı ilkin müzakirələr aparılıb. Ə.Həsənovun sözlərinə görə, Fövqəladə Hallar Nazirliyinin nümayəndələri ilə məsləhətləşmələrdən sonra yanğından zərərçəkən ailələrin elə həmin ərazidə quraşdırılacaq müvəqqəti çadırlara yerləşdirilməsi nəzərdə tutulur.

## Təhsil haqlarının ödənilməsi yalnız nağdsız həyata keçiriləcək

**Azərbaycanda təhsil haqlarının ödənilməsi qaydası dəyişdirilir.**

APA-nın məlumatına görə, bununla bağlı "Təhsil haqqında" Qanuna dəyişiklik təklif edilir.

Qanunun 38-ci (Təhsil müəssisəsinin maliyyələşdirilməsi) maddəsinə təklif olunan dəyişikliyə əsasən "təhsil haqlarının ödənilməsi yalnız nağdsız qaydada həyata keçiriləcək".

Layihə Milli Məclisin plenar iclasına tövsiyə olunub və iyunun 13-də müzakirəyə çıxarılacaq.

## Ramazan Fətvasını pozduğu üçün din xadimi işdən çıxarıldı

**Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri, Şeyxülislam Hacı Allahşükür Paşazadə Ramazanla bağlı fətvanı pozan din xadimini cəzalandırıb.**

"Qafqazinfo" xəbər verir ki, QMİ-dən APA-ya bildiriblər ki, Qazılar Şurasının 24.05.2017-ci il tarixli Fətvasının tələblərini kobud şəkildə pozduğu üçün Ağdaş rayonu Qobuüstü kənd məscidinin dini ayinlər icraçısı Məmmədov Nurməhəmməd Rəsul oğlu İdarə rəhbərliyinin əmri ilə tutduğu vəzifədən azad edilib.



## Avropa İttifaqının komissarı Azərbaycana gəlir

**Avropa İttifaqının genişlənmə və qonşuluq siyasəti üzrə komissarı Yohannes Han Azərbaycana gəlir. Bu barədə APA-ya Aİ-nin Azərbaycan nümayəndəliyinin mətbuat ofisindən məlumat verib.**

Səfər iyunun 16-da gerçəkləşəcək. Səfər çərçivəsində qonağın Bakıda rəsmi şəxslərlə görüşlər keçirəcəyi gözlənilir.

## Bakıda 18 yaşlı qız 12 gündür yoxa çıxıb

**Bakıda 18 yaşlı qız itkin düşüb. Lent.az xəbər verir ki, Binəqədi rayonu, Rəsulzadə qəsəbəsində yaşayan 1999-cu il təvəllüdlü Məmmədova Cahan Əlişir qızı (ad şərtidir) mayın 26-da evdən çıxıb və bir daha geri qayıtmayıb. Yaxınları onun fotosunu və xarakterik əlamətlərini polisə təqdim edib.**

Faktla bağlı araşdırma aparılır.

## Qadın gecə klubunda tanış olduğu kişinin 3 min manatını oğurladı

**Bakıda qadın oğurluq edib. Bu barədə "Report"a hüquq-mühafizə orqanlarından bildirilib. Belə ki, Bakı sakini İsmayıl Qədimov paytaxtdakı gecə klublarından birində olan zaman Marina adlı qadınla tanış olub. Gecə klubundan qadınla çıxaraq başqa məkana keçən şəxs sonradan 3 min manatdan çox pulunun oğurlandığını bilib. O, dərhal polisə məlumat verib.**

Polisin keçirdiyi əməliyyat nəticəsində hadisəni törətməkdə şübhəli bilinən Marina Pronin saxlanılıb.

Fakt üzrə araşdırmalar davam etdirilir.

## "Mercedes" ağaca çırpıldı, 2 nəfər öldü

**Lənkəranda maşın ağaca çırpılıb. ARB TV xəbər verir ki, hadisə Liman şəhəri ərazisində qeydə alınıb. "Mercedes" markalı avtomobil idarəetmədən çıxaraq yolun kənarındakı ağaca çırpılıb. Hadisə nəticəsində iki nəfər - Kənan Adil oğlu Səfərov və Xalid Xaliq oğlu Səfərov dünyasını dəyişib.**

Faktla bağlı araşdırmalara başlanılıb.

## Zakir Həsənov snayperlərin döyüş vərdişlərinin artırılması ilə bağlı tapşırıqlar verdi

**Müdafiə Nazirliyinin rəhbərliyi yeni istifadəyə verilən Snayper Hazırlığı Mərkəzində olub.**

APA-nın Müdafiə Nazirliyinin saytına istinadən verdiyi məlumata görə, mərkəzdə snayperlərin səhra bacarıqlarının təkmilləşdirilməsi məqsədilə real döyüş şəraitinə uyğun lazımi infrastrukturun yaradılması barədə məruzə edilib.

İdarəetmə məntəqəsindən praktiki atış və digər hazırlıq çalışmalarını izləyən müdafiə naziri snayperlərin döyüş vərdişlərinin artırılması ilə bağlı tapşırıqlar verib.

## 7 gündür aclıq aksiyası keçirən "OMON" komandiri ağır durumda

**Akif Nağı:** "Aksiyanı ölümə qədər davam etdirəcəyini dedi"

**İyunun 1-dən Qobustan həbsxanasında aclıq aksiyasına başlayan Xüsusi Təyinatlı Polis Dəstəsinin ("OMON") Qazax bölgəsi üzrə sabiq komandiri, Qarabağ müharibəsi əlili, 21 ildir məhbus həyatı yaşayan Elçin Əmiraslanov ölüm ayağındadır. 7 gündür ölüm aclığı keçirən sabiq komandirlə maraqlanan yoxdur.**

İyunun 7-də E.Əmiraslanov Qarabağ Azadlıq Təşkilatının sədri, Ömürlük Məhbusların Hüquqlarını Müdafiə Komitəsinin rəhbəri Akif Nağıya zəng edərək, səhhətinin daha da pisləşdiyini, həyatının son günlərini yaşadığını bildirib. Bu barədə "Yeni Müsavat"a danışan A.Nağı aidiyyəti qurumları məsələ ilə bağlı mövqe bildirməyə çağırdı: "Elçin 7 gündür aclıq aksiyası keçirir. Heç bir reaksiya yoxdur. Özü mənə zəng etmişdi, vəziyyətinin ağır olduğunu söylədi. Biz də bu məsələni ictimailəşdirmək istədik. Ona həbsxanada baş çəkilsə, vəziyyətinin necə təhlükəli həddə çatdığının hər kəs şahidi olar. Təsadüfi deyil ki, mənimlə telefon danışığında səsi zorla çıxırdı, göründüm ki, danışmağa çətinlik çəkir. Aclığa başlayandan sonra öz otağını təkadamlıq ediblər, yeni yanındakı məhbusu başqa yerə köçürüblər. Dedi ki, tez-tez rəis gəlib aclığı dayandırmağımı tələb edir, təzyiqlərin olduğunu da söylədi. İsrarla aksiyanı dayandırmayacağını, aksiyanı ölümə qədər davam etdirəcəyini dedi".

Qeyd edək ki, E.Əmiraslanov Hepatit C-dən əziyyət çəkir. Həbsdə olduğu müddət ərzində hər il müalicə alan "OMON" komandirinə bu il müalicə olunmağa icazə verilmir. Nəticədə buna etiraz edən əfsanəvi komandir çıxış yolunu ölüm aclığına başlamaqda görüb.

Xatırladaq ki, hazırda həbsxanada üç "OMON"-çu qalıb - E.Əmiraslanov, Səfa Poladov və Arif Kazımov. Onlar barəsindəki ömürlük cəzanın ilə əvəz olunması ilə bağlı indiyə qədər edilən çoxsaylı müraciətlər nəticəsiz qalıb. Hər üç "OMON"-çunun özlərinin və yaxınlarının da əfv üçün dəfələrlə müraciətləri bəhrə verməyib.

❑ Cavanşir ABBASLI

**Sabunçu Rayon Məhkəməsində ləğv edilmiş MTN-in generalı Akif Çovdarov və digər 3 nəfərin - polkovnik Səlim Məmmədov, MTN-in sabiq idarə rəisi, mayor Akif Əliyev və keçmiş şöbə rəisi Orxan Osmanovun cinayət işi üzrə proses davam edir. Məhkəmədə artıq neçə prosesdir ki, "Vosmoy" bazarı epizodu üzrə araşdırma aparılır.**



# General Hilal Əsədov 8-ci kilometr bazarını necə yağmaladıqlarını açıqladı

## Məhkəmədə ifadə verən sabiq MTN generalı işlərin başında nazirin durduğuna işarə etdi; o, məhkəmədə zərərçəkmişin suallarını cavablandıra bilmədi

İyunun 7-də keçirilən prosesdə sabiq nazir Eldar Mahmudovun müavini olmuş general Hilal Əsədov da məhkəməyə gəlib. Prosesdə şahid qismində ifadə verən Hilal Əsədov məhkəmə binasından çıxarkən jurnalistlərin suallarını cavablandırmaqdan imtina edib. Mühafizəçisi və vəkili ilə məhkəmə binasından çıxan Hilal Əsədov iti addımlarla onu gözləyən maşına minərək uzaqlaşıb.

Prosesdə H.Əsədov "Vosmoy" bazarına necə sahiblənməsi haqda ifadə verib. Bu epizod üzrə zərərçəkmiş kimi Cəfər Salmanov tanınıb. O deyib ki, bazar Akif Çovdarov və Hilal Əsədov tərəfindən əlindən alınıb. Bazarın indi də sahibləri Akif Çovdarov və Hilal Əsədovdur. H.Əsədov məhkəmədə deyib ki, hazırda işsizdir, təqaüddədir.

O, sərbəst ifadəsinə 2004-cü ildə MTN-də işə başlaması, nazirlikdə ilk vəzifəsinin mütəşəkkil cinayətkarlığa qarşı mübarizə idarəsində müşavir olması haqda məlumat verməklə başlayıb. Hakim sabiq nazir müavininə həddən ziyadə aşağı səslə ifadə verməsini irad tutub, bir qədər ucadan çıxış etməsini istəyib. H.Əsədov faktiki olaraq ibtidai istintaq zamanı yazılan ifadəni məhkəmədə yenidən səsləndirib. Həmin ifadə mətbuatda dəfələrlə dərc olunub.

**H.Əsədovun həmin ifadəsinə görə Eldar Mahmudovun şifahi tapşırığı ilə 2005-2009-cu illərdə nazirliyin Antiterror Mərkəzinə, 2011-ci ildən sonra həm də Əks-kəşfiyyat Baş İdarəsinin işlərinə nəzarət edib. O, nəzarətində olan idarə və mərkəzin fəaliyyəti çərçivəsində tədbirləri, məlumatları Eldar Mahmudova məruzə edib. Sabiq nazir müavini "Vosmoy" bazarının MTN əməkdaşları tərəfindən ələ keçirilməsi epizodu üzrə dindirilərkən zərərçəkmişləri tanımadığını deyib.**

**Sitat:** "Onların sabiq iqtisadi inkişaf naziri olmuş Fərhad Əliyevin yaxın adamları olduğunu bilirdim. 2005-ci il idi. Akif Çovdarov yanıma gəldi. Dedi, Çingiz Əsədov adlı şəxs Səfərov qardaşlarından şikayət edir. Ç.Əsədov bildirmişdi ki, Səfərov qardaşları 2002-ci ildə zorla Naxçıvanski küçəsi 50-də yerləşən meyvə-tərəvəz bazarını onun əlindən alıblar. Ona hədə-qorxu gəliblər, qardaşını oğurlayıblar. Həmin zaman Səfərov qardaşlarının sabiq iqtisadi inkişaf naziri Fərhad Əliyevin yaxın adamları və kəndçiləri olduğunu öyrəndim. Fərhad Əliyev onda yenicə həbs edilmişdi, barəsində cinayət işi istintaq olunurdu".

**Əsədov əlavə edib ki, zərərçəkmiş Səfərov qardaşları əməllərini səmimi şəkildə Akif Çovdarova etiraf ediblər:** "Çovdarov o zaman Antiterror Mərkəzinin 1-ci idarəsinin 1-ci şöbəsinin rəisi idi. O, gördüyü işlərlə bağlı mənə məruzə edirdi. Çovdarov Səfərov qardaşlarını dindirmişdi, onlar elədikləri əməlləri səmimi şəkildə etiraf etmişdi. Çingiz Əsədovun isə Səfərov qardaşları barəsində rəsmi şikayət edib, onları həbs etdirmək niyyəti yox idi. O, yalnız bazarın geri qaytarılmasını istəyirdi. Mən bunların hamısını Eldar Mahmudova məruzə elədim. Nazir məsələnin ciddi araşdırılmasını istəmişdi".



**Sabiq nazir müavini bir müddət sonra Səfərov qardaşları ilə Çingiz Əsədov arasında razılıq yarandığını da deyib:** "Çovdarovun otağında Səfərov qardaşlarından biri Çingiz Əsədovla bazarın geri qaytarılması barədə razılaşıb. Mən nə Çingizi, nə də Səfərov qardaşlarını tanıyırdım. Bu məsələ ilə bağlı Çovdarov mənə gündəlik məruzə edirdi. Məruzələrdən sonra mənə məlum oldu ki, müəyyən məbləğ ödənildikdən sonra Səfərov qardaşları bazarı yenidən Çingiz Əsədova satıblar. Bu məsələlərdən sonra bazar Çingizə qaytarılıb".

**H.Əsədov qeyd edib ki, bu söhbətlərdən iki-üç həftə sonra Çingiz Əsədov bazarı satmaq istəyib:** "Akif zəng edib, bu barədə mənə məlumat verdi. Çovdarova dedim ki, bu məsələni mütləq Eldar Mahmudova məruzə edəcəyəm. Nazirin yanına getdim, bu barədə məlumat verdim. Eldar Mahmudov bir neçə günə cavab verəcəyini dedi. İki gün sonra nazir razılıq verdi. Eldar Mahmudov dedi ki, halallıqla bazarı alın. Bütün işlər Çovdarova tapşırıldı. Payım olsun deyə qayınatam Ənvər Məmmədova bazarın yarısını almağı təklif etdim. Digər yarısını isə Çovdarovun özü həll edəcəkdi. 70 min dollar qayınatama verdim, qalan pulu özü düzəltdi. Bazarın alınmasında rolum ancaq Ənvər Məmmədova pul verməyim olub. Bütün sənədləşdirmə işləri Akif Çovdarov və qayınatam tərəfindən aparılıb. Bazar qayınatam və Akif Çovdarovun yaxın adamı Elşən Hüseynova satıldı. Onların hər biri bazarda 50 faiz paya sahib oldular. Bazarı hazırda elə Elşən Hüseynov işlədir. 2012-ci ildə qayınatam özünə düşən payı yoldaşım Nüşabəyə verib. Bazarın alqı-satqısı, ada keçirilməsi 2005-ci ilin sonu, 2006-cı ilin əvvəllərində oldu. Bunların heç birində mən iştirak etməmişəm. Hər ay Ənvər Məmmədov Nüşabəyə 15-20 min dollar pul verirdi".

Hilal Əsədov bazarın Akif Çovdarov tərəfindən zorla alınmasından xəbərsiz olduğunu deyib. H.Əsədov məhkəmədə istintaqa verdiyi ifadəsini təsdiq edib.

O əlavə edib ki, hazırda bazarın 50 faizi arvadı Nüşabə Əsədovaya məxsusdur, qalan 50 faizi isə Akif Çovdarovun qızı Aida Qasımovanın adınadır.

H.Əsədov sərbəst ifadəsini yekunlaşdırandan sonra zərərçəkən Cəfər Salmanovun suallarını cavablandırmalı olub.

C.Salmanov suallar verərkən H.Əsədovun məhkəmədəki ifadəsinə istinad edib:

***- Deyirsiniz ki, biz Səfərov qardaşlarını Çingiz Əsədovun şikayəti əsasında MTN-ə gətiriblər. Onun qardaşını biz oğurlamışıq. Bəs siz vəzifəli şəxs olaraq adam oğurlayan, bazarı zorla sahiblərindən alan şəxslər barəsində hansı tədbirlər gördünüz?***

- Əməliyyat-təhqiqat idarəsinə məsələni araşdırmalarını tapşırdım. Rəisə tapşırıq vermişdim ki, məruzə etsin.

***- Bəs rəis sizə nə məruzə etdi? Barəmdə hansı tədbir görüldü?***

- Mənə göstəriş gəlmişdi ki, bunları buraxaq, buraxdıq.

***- Bizi Fərhad Əliyevin, Rafiq Əliyevin adamları kimi qələmə verirdiz, həmin vaxt Fərhad Əliyev də, Rafiq Əliyev də həbsdə idilər. MTN-in "podvalı"nda idilər. Bizi də onların adamı kimi şərləmişdiz. O adamlar da içəridə. Belə bir vəziyyətdə sizə kim tapşırıq verdi ki, bizi buraxdılar?***

- ...

***- Deyirsiniz ki, işdə Fərhad Əliyevin, Rafiq Əliyevin adı vardı deyə ərizəni şəxsi nəzarətə götürdüm. Bazarla bağlı iş materiallarında Fərhad Əliyevin, Rafiq Əliyevin hər hansı bir ifadəsi, izahatı var?***

-...

***- Bizi Fərhad Əliyevin adamları kimi təqdim edib bazarı əlimizdən aldınız. Bəs Fərhad Əliyevin çoxcildli cinayət işində bazarla bağlı epizod olub?***

- ...

❑ **E.MƏMMƏDƏLİYEV**

# WhatsAppla zəng qadağası bitdi, amma müəmmalar bitmir

## Ekspertlər məsələnin təkcə təhlükəsizliklə bağlı olmadığını iddia edir




**Xəbər verdiyimiz kimi, Skype və WhatsApp-da beynəlxalq görüntülü əlaqə bərpa olunub. Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi internet şəbəkəsi üzərindən təşkil olunan telekommunikasiya xidmətlərində bəzi problemlərin olmasına münasibət bildirib.**

Nazilikdən verilən məlumatda qeyd olunub ki, ölkəmizdə uğurla keçirilən IV İslam Həmrəyliyi Oyunlarının təhlükəsizlik tədbirlərinin tərkib hissəsi olaraq Azərbaycan ərazisində müvəqqəti olaraq internet şəbəkəsi üzərindən təşkil olunan telekommunikasiya xidmətlərinə (Skype, Viber, WhatsApp və s.) məhdudiyyətlərin tətbiqi səsli və görüntülü onlayn kommunikasiya proqramlarının istifadəsində müəyyən çətinliklər yaradıb: "Həmin dövrdə bir çox profilaktik tədbirlərin sırasında şəbəkənin sazlanması işləri də həyata keçirilib. Hazırda texniki yeniləmə işləri başa çatıb və vətəndaşlar bu kommunikasiya proqramlarından yerli və beynəlxalq əlaqələr üçün istifadə edə bilərlər".

"Yeni Müsavat" isə xatırladır ki, qadağa prosesi bir neçə mərhələli davam etdi. Öncə WhatsApp-da görüntülü və görüntüsüz danışıqlar qadağan edildi. İnsanlar internet vasitəsilə alternetiv danışıq üsulları axtarmağa başladılar. İlk köməyə gələn Viber oldu. Bir neçə gün ondan istifadə edənlər daha sonra onunla da danışığın mümkünsüz hala gəldiyini gördülər. Ardınca Messenger vasitəsilə danışıq imkanları tətbiq olundu. Qısa müddət sonra ona da qadağa qoyuldu. Əhalinin daha sonra tətbiq etdiyi danışıq vasitələri isə İmo və Facetime oldu. Ötən həftənin sonlarına doğru onlara da qadağa qoyuldu. Halbuki həmin vaxt İslam oyunları bitmişdi və səbəb heç də oyunlarla bağlı görünmürdü.

Məhz əksər vasitələrə qadağa qoyulandan bir neçə gün sonra Skype və VhasApp-da danışıq bərpa olundu. Bu isə ilk gündən bəri qadağanın oyunlarla bağlı olmaması versiyasını gücləndirdi.

**Ekspert Arzu Nağıyev daha öncə "Yeni Müsavat"a açıqlamasında bildirmişdi ki, bu qadağa tək antiterror tədbirləri ilə bağlı deyil. Onun sözlərinə görə, böyük tədbirlərin keçirilməsi vaxtı təhlükəsizlik məsələsi kompleks şəkildə təmin edilməlidir:** "Dünya təcrübəsinə nəzər salsaq görərik ki, əsasən əməliyyat -axtarış fəaliyyətini həyata keçirən orqanlara birlikdə belə qərarlar verilə bilər. İlk növbədə həmin messenger servisi fəaliyyəti həyata keçirən qurumlar oz üzərinə götürdükləri öhdəlikləri də yerinə yetirməlidirlər. Məsələn Rusiyada rəsmi olaraq BlackBerry Messenger, Imo i Line Roskomnadzor tərəfindən qadağa edilib və bağlıdır. Səbəb də onlar tərəfindən əhəmiyyət kəsb edən məlumatların təqdim edilməməsidir. Eyni zamanda həmin servislər özlərinin yayıcı funksiyasının təşkilatçısı olmadığını və buna cavabdehlik daşımadıqlarını bildirirlər. Bundan başqa, ən çox uzaq məsafəyə yük daşıyan avtomobillərdə istifadə edilən Zello ratsiyaları da bağlanıb, səbəb də məlumatın təqdim edilməməsidir. Zello pulsuz proqramı smartfonları və planşetləri real rejimdə ratsiyaya çevirə bilir. Yəni ölkədə qeydiyyatdan keçən hər bir bu formalı rabitə növləri mütləq şəkildə son altı aylıq arxivini yaratmalı və xüsusi xidmət və ya hüquq-mühafizə orqanlarının əməliyyat fəaliyyəti ilə bağlı sorğu əsasında təqdim etməlidirlər. Bu məlumatlara istifadəçinin kimliyi,qeydiyyat nömrəsi və s. aiddir. Bu, eyni zamanda şifrələnmiş məlumatlara da aiddir".

WhatsApp üzərindən doğmaları ilə əlaqə quranlar, biznesini təmin edənlər əhəmiyyətli şəkildə əziyyət çəkdi. İnsanlar daha çox yerli və beynəlxalq zənglər üçün yerli mobil operatorların xidmətlərindən istifadə etdilər. Bu isə onların şəxsi büdcəsinə zərbə vurdu. Bundan başqa, ilk gündən etibarən insanlara bu barədə hər hansı hesabat verilmədi, onları suallar içində saxladılar. Beynəlxalq tədbirə görə bu qadağanın tətbiqi isə istifadəçiləri daha çox narahat edir. Axı gələcəkdə Azərbaycan bu cür tədbirlərə çox ev sahibliyi edəcək. O halda ölkə insanı ildə neçə dəfə, neçə günlük aralıqlarla beynəlxalq danışıqlar məsələsində əziyyət çəkəcəklər?

Bundan başqa, insanlar son günə qədər alternativ vasitələrdən istifadə edə bildilər. Bu isə o deməkdir ki, qara məqsədli insanlar da bu cür vasitələrdən asanlıqla istifadə edə bilərlər. O halda təhlükəsizliyin təminatı üçün alternativ vasitələrdən istifadə olunması daha məqsədəuyğundur.

Bəzi ekspertlər isə deyirlər ki, bu, əslində İslam Oyunlarından daha çox yerli mobil operatorlarla bağlı qəbul olunan qərar idi. Çünki məqsəd beynəlxalq zənglərdən dolayı gəlirləri azaldılmış mobil operatorların əvvəlki imkanlarını geri qaytarmaq olub.

❑ **Sevinc TELMANQIZI**



# 25 il öncə xalq "Ümid var gələcəyə..." deyirdi

Xalid KAZIMLI

**25 il öncə iyunun 7-də ölkədə prezident seçkiləri keçirilirdi. Ölkə tarixində ilk dəfə idi ki, bu qədər namizədin qatıldığı bir seçki kampaniyası təşkil olunmuşdu.**

7 iyundan ilyarım öncə Ayaz Mütəllibovun ASDP sədri Zərdüşt Əlizadəyə qalib gəldiyi seçki nə legitim, nə də obyektiv və dürüst idi. Çünki ölkənin ən böyük siyasi təşkilatı AXC normal seçki mühitinin olmamasına görə seçkini boykot etmişdi. Zərdüşt Əlizadə isə bu fürsətdən yararlanaraq, həm özünü və partiyasını tanıdırdı, həm də seçkiyə legitimlik donu qazandırırdı.

7 iyun seçkisində isə namizədlər çox idi: AXC sədri Əbülfəz Elçibəy, eks-spiker Yaqub Məmmədov, sabiq baş prokuror İlyas İsmayılov, akademik Nizami Süleymanov, AMİP sədri Etibar Məmmədov, parlament sədrinin müavini Tamerlan Qarayev, partiya sədri Rafiq Turabxanoğlu.

Seçkiyə iki gün qalmış E.Məmmədov və T.Qarayev namizədliklərini Elçibəyin xeyrinə geri götürdülər.

7 iyun seçkisinin favoriti Elçibəy idi. Administrativ resurslar da artıq yarı-yarıya onun rəhbərlik etdiyi təşkilatın əlində idi. Əgər Yaqub Məmmədov istefa verməmiş olmasaydı, təbii ki, seçkinin favoriti o olacaqdı. Ancaq mayın 15-də ölkədə siyasi vəziyyət dəyişmişdi, AXC yerdə qalmış hakimiyyəti özü də istəmədən götürmüş, İsa Qəmbər parlamentin sədri seçilmişdi və prezidentin səlahiyyətlərini icra edirdi.

Bununla belə, məğlub olmuş partokratların hansısa formada müqavimət göstərəcəyi bəlliydi. Onlar sürətlə toparlanmağa çalışdılar, ancaq işi sona çatdıra bilmədilər. Mayın 15-dən iyunun 7-nə qədər olan vaxt ərzində onların gücü əhaliyə fantastik və şirnikdirici vədlər verən Nizami Süleymanovun ətrafında sıx birləşməyə çatdı.

N.Süleymanov 33 faizlə seçki ikincisi oldu.

Sonradan Elçibəyin qələbəsinə kölgə düşürmək üçün çox iftiraya, böhtana əl atdılar, amma fakt o idi ki, ölkənin yeganə güclü və diri təşkilatı olan AXC-nin sədri seçkidə qalib gəlmişdi. Ayrı-ayrı rayonlarda seçki pozuntuları, hətta saxtakarlıq faktları ola bilərdi, amma bu, Elçibəyin ölkə üzrə qazandığı qələbənin şübhə altına alınması üçün kifayət deyildi.

O zaman Elçibəyin seçki kampaniyasının şüarı "Ümid var gələcəyə, səs verək Elçibəyə" idi və ölkəni xaosdan qurtara biləcək yeganə güclü təşkilat olaraq meydanda yalnız AXC qalmışdı.

Bundan 1 ay öncə Şuşa, ondan on gün sonra isə Laçın işğal olunmuşdu, ölkədə ciddi bir panika vardı. Düşmənin qarşısında dayanan yeganə hərbi qüvvə də AXC batalyonları, könüllülər, XTPD-çilər idi. Belə bir durumda Elçibəydən başqasının hakimiyyətə gəlməsi mümkün deyildi.

Gözlənilən oldu. Elçibəy seçkinin ilk turunda seçicilərin yarıdan çoxunun səsini qazandı. Nə ondan əvvəl, nə də sonra heç kəs bu qədər aşağı faizlə prezident seçilməyib. Ancaq bu, onun legitimliyinə təsir etmirdi.

Elçibəy legitim prezident idi. O, xalqın ona səs verməyən hissəsinin də etimadını qazanacağına ümid edirdi. Bundan ötrü "milli təsanüd" ideyası ortaya atılmışdı.

Həmin ideya siyasi baxışlarından asılı olmayaraq hər kəsin, bütün siyasi qüvvələrin dövlət quruculuğu işinə cəlb edilməsini, milli həmrəyliyə nail olunmasını nəzərdə tuturdu.

Məhz bu üzdən idi ki, istər 7 iyundan sonra, istərsə də daha sonrakı vaxtlarda keçmiş hakimiyyətlərin dönəmində yüksək vəzifələr tutmuş minlərlə kadr öz vəzifələrindən götürülmədilər.

Ancaq onlar səksəkə içində gözləyirdilər, partokratların əndişəsi bir il çəkdi, bir ildən sonra onlar hakimiyyətə gələn YAP-ın fəallarına çevrildilər və rahatlaşdılar.

7 iyun seçkisi ümid verirdi ki, bundan belə ölkədə siyasi hakimiyyət məsələsi yalnız seçki yoluyla həll olunacaq. Hər halda AXC-Müsavat tandemində belə bir qənaət, hətta bugünkü prizmadan qiymətləndirsək, əndişə vardı.

Əslində 7 iyundan bir-iki ay sonra yeni parlament seçkiləri keçirmək və hakimiyyəti bir az möhkəmləndirmək mümkün idi. Ancaq Elçibəy iqtidarı Qarabağda müharibə kampaniyasına start verdiyindən bu fürsət qaçırıldı. İl payıza döndəndə isə Elçibəy iqtidarı öz nüfuzunu bir qədər azaldığını hiss edərək seçkiyə getməkdən qorxdu.

Elçibəy seçkidə müxtəlif texnologiyalardan, o cümlədən saxtakarlıq və zorakılıqdan istifadə edərək hakimiyyət dövranını uzatmaq fikrində deyildi, dürüst seçkidə isə artıq AMİP-in ətrafında sıx birləşməkdə olan köhnə kommunistlər güruhu ya qalib gələcəkdi, ya da hökumətə şərik olacaqdı. Əlac münasib vaxtı, əlverişli şəraitin yetişməsini gözləməyə qalırdı.

O şərait isə yetişmədi. 7 iyunun 1 ilinin tamamında artıq AXC-Müsavat komandasının iqtidardan salınmasına 10 gün qalırdı.

---

**Təhsil müddətinin iki ildir ki, iyunun 14-nə kimi uzadılmasını mənasız hesab edən valideynlər uşaqlarının həddən artıq yorğun olmasından və artırılan bu 14 gün ərzində uşaqlara məktəbdə heç bir bilik verilməməsindən şikayətçidir. "Proqram bitib, şagirdlər boş-boşuna məktəbə gedib-gəlirlər. Məktəbə gedən uşaqlar da, valideynlər də artıq yorulmuş vəziyyətdədir" deyə hamı gileylənir. Məktəblərdə dərsliklər də mərhələli şəkildə yığılmağa başlayıb. Ən sona isə ibtidai sinifləri saxlayıblar ki, uşaqlar dərslikləri qaytara bilmək üçün məktəbə gəlib-getsin.**

# Bitməyən təhsil ilindən narazılıqlar artır

## Etibar Əliyev: "Bu sistemsizliyin əsas səbəbkarları məktəb direktorlarıdır"

## Vaqif Qarayev: "Uzadılmış müddət uşaqları yormaqdan başqa heç nəyə xidmət etmir "





Dərslikləri yığılmayan şagirdlərdən həmin dərslikləri hər gün məktəbə gətirmək tələb edilir. Şagirdlər və müəllimlər məktəbdə bu 14 günü söhbət etmək, sinif otaqlarını yığışdırmaqla keçirir.

Rayon və kənd məktəblərində isə vəziyyət daha da pisdir. Belə ki, kənd məktəblərində və rayonlarda ümumiyyətlə, uşaqların bəziləri məktəbə getmir, kəndlərdə isə müəllimlər də, şagirdlər də əkin-biçimlə məşğuldurlar. Çünki proqram bitib, keçilməyə dərs yoxdur.

Bəs bu sistemsizliyin səbəbi nədir? Əgər proqram bitibsə, uşaqlara dərs keçilmirsə, tədris müddətinin uzadılmasının mənası varmı?

**"XIX Əsr" Təhsil Mərkəzinin rəhbəri, təhsil eksperti Etibar Əliyev bu sistemsizliyin əsas səbəbkarlarının məktəb direktorları olduğunu dedi:** "Dərs ilinin uzadılmasının təbliğatında müəllimlər də, məktəb direktorları da gərək iştirak edərdi. Burada məqsəd proqramlardakı boşluqların aradan qaldırılmasıdır. Bunun da kökündə dərslərin sentyabrın 15-də başlaması dayanır. Əlbəttə ki, 34 dərs həftəsi digər ölkələrlə müqayisədə azdır. Bu sistemsizliyin əsas səbəbkarları məktəb direktorlarıdır. Burada məqsəd uşaqlara bir neçə gün əlavə dərs keçməklə proqramın mənimsənilməsinə kömək etməkdir. Başqa bir məqsəd ola bilməz. İki həftəyə görə bütün valideynlər niyə bu qədər sarsıntı keçirir? Nazirlik uşaq hüquqlarının pozulmasına xidmət edən, uşaqlara əzab verən bir addım atmır. Məqsəd proqramın normal mənimsənilməsinə xidmət etməkdən ibarətdir. Bizim tədris ilinin içərisində xeyli bayramlar, tətillər var. Bu, hesablanmış, öyrənilmiş bir məsələdir. O zaman Çində gərək əhali ayağa qalxsın ki, bizdə niyə həftəlik dərs yükü 50-70 saata yaxındır. Çində yay məktəbləri də təşkil olunur. Hətta başqa ölkələrdə uşaqları bir nəfər kimi düşərgələrə, ya da yay məktəblərinə cəlb edirlər ki, onlar təhsildən ayrılmasınlar. Həm dincəlsinlər, həm də oxusunlar. Biz də bu cür imkanlar olmadığına görə 14 gün dərs müddətinin uzadılması belə ajiotajlara səbəb olur".

**Bəs şagirdlərin səhhəti və psixologiyası yayın bu isti günlərində dərsə getməyə imkan verirmi?**

**Pediatr Vaqif Qarayev bildirdi ki, uzadılmış bu son müddət uşaqları yormaqdan başqa heç nəyə xidmət etmir:** "Rəsmilər bizi dünya ölkələri ilə müqayisə edib deyirlər ki, orada da təhsil uzun müddətlidir və sairə. Amma o da faktdır ki, həmin ölkələrdə tədris ili müddətində uşaqlara tez-tez istirahət verilir. Mənə çatmır ki, biz nəyə görə həmişə pis nümunəni götürürük. Əvvəl tədris müddəti sentyabrın 1-dən mayın 25-nə kimi idi. O zaman uşaqlar pis oxuyurdu? Təcrübə göstərir ki, uzadılmış bu son müddət uşaqları yormaqdan başqa heç nəyə xidmət etmir. Proqram qurtarıb. Bunu müəllimlər özləri də etiraf edir. Artırılmış bu müddətin uşaqlara heç bir faydası yoxdur. Uşaqlar yorulur, əsəbi olur, diqqətsiz olur, iştaha pozulur, yuxu pozulur, ümumi ovqat pozulur. Bu hallar bir-iki uşaqda olsa, adam fikirləşərdi ki, fərd olaraq bu uşaqlar dözmür. Halbuki əksəriyyətdə bu var. Mən həmişə deyirəm ki, valideynə ilk öncə uşağın sağlamlığı vacibdir. Təhsil sonradan gələn şeylərdir. Dövlət orta məktəblərdə tədris ilini uzatmaqla uşaqların sağlamlığına ziyan vurur. Bunu birmənalı şəkildə deyirəm. Uşaqları iki il müddətinə repetitor yanına göndərən valideynlərin günahıdır ki, uşaqlarda imtahanqabağı əsəbilik, təzyiq yaranır, diqqəti, qavrama qabiliyyəti pozulur. Əgər bu uşağın sağlamlığı pozulursa, verəcəyimiz təhsil kimə lazımdır. Axı təhsili sağlam uşağa verərlər. Həkim və illərlə uşaqlarla işləyən bir adam olaraq mən bunun əleyhinəyəm".

❑ Günel MANAFLI



## Nazir "Son zəng" tədbirlərinin necə keçiriləcəyindən danışdı

**Təhsil naziri Mikayıl Cabbarov iyunun 14-də "Son zəng" tədbirlərinin hansı formada keçiriləcəyini açıqlayıb.**

"Trend"in məlumatına görə, nazir jurnalistlərə açıqlamasında bildirib ki, son illərdə olduğu kimi "Son zəng" tədbirlərinin keçirilməsinə dair bütün zəruri məlumatlar Təhsil Nazirliyi və yerlərdə fəaliyyət göstərən şəhər və rayon təhsil şöbələri tərəfindən məktəblərə təqdim ediləcək.

Qeyd edək ki, Azərbaycanda tədris ili sentyabrın 15-də başlayıb və iyunun 14-də başa çatacaq.

YENİ MÜSAVAT
N 122 (6736) 8 iyun 2017

# Müxalifət 2018-ci il prezident seçkilərində iştirak edəcəkmi?

**2018-ci ildə Azərbaycanda prezident seçkiləri keçiriləcək. Hazırda ölkə müxalifətinin passiv durumunu nəzərə alaraq, demokratik düşərgənin seçkilərdə iştirak edib-etməyəcəyi, seçkilərə qədər passivliyini atıb-atmayacağı suallar doğurur. İndiki situasiyadan çıxış etsək, müxalifətin qarşıdan gələn seçkilərlə bağlı ciddi bir hazırlıqlarının getmədiyi müşahidə olunur. Bəzi siyasi qurumların boykot qərarı üzərində düşündükləri barədə fikirlər gəzir. Bu sırada daha çox Milli Şuranın adı çəkilir.**

Digər müxalif qurumların daxilində isə seçkilərdə iştirak edib-etməməklə bağlı müzakirələr aparılır. İndiki vəziyyətdə hələ heç bir siyasi qurum seçkilərdə iştirakla bağlı konkret qərar verməyib. Yalnız Müsavat Partiyasının seçkilərdə iştirak edərsə, namizədi bəllidir. Bu da hələ 2014-cü ildəki qurultayla partiyanın prezident seçkilərində namizədi elan olunan Müsavatın keçmiş başqanı, MSDM rəhbəri İsa Qəmbərdir.

**Son prezident seçkilərində Ümid Partiyasının sədri kimi namizədliyi qeydə alınan İqbal Ağazadə hazırda qurum daxilində bu istiqamətdə müzakirələrin aparıldığını bildirdi:** "Gələn il qurultayımız olacaq və orada seçkilərdə iştirakla bağlı müzakirələr aparılacaq. Yekun qərarımız da o qurultayda elan olunacaq. Bu nə mənim, nə Ali Məclisin, nə də Rəyasət Heyətinin verdiyi qərar deyil, qurultayın qərarıdır. Hələ vaxtımız var, müzakirələr gedir. İnşallah, bundan sonra qərarımızı verəcəyik. Siyasətin bütün dönəmlərində çalışırıq ki, cəmiyyət, partiyamız üçün qazanclar əldə edək və onunla yola çıxaq. Seçkilərə kimi qalan 16 ayda nələrin olacağını, situasiyanın dəyişib-dəyişməyəcəyini deyə bilmərəm".

**2013-cü ilin seçkilərində iştirak edən daha bir namizəd ADP sədri Sərdar Cəlaloğlu da yekun qərarı qəbul etmədiklərini söylədi:** "Seçkilərin əhəmiyyətinə cəmiyyət və hakimiyyət tərəfindən idman yarışları ilə müqayisədə daha az diqqət ayrılır. Məsələn, bir idman yarışı təşkil olunur, buna bir il öncədən hazırlaşırlar, təbliğatını aparırlar. Amma seçki kimi ümummilli əhəmiyyətə malik olan, cəmiyyət, vətəndaş üçün həyati önəm daşıyan məsələyə nə diqqət, nə də vəsait ayrılır. Vətəndaşlar da idman oyunları və seçkilər arasındakı fərqi görə bilmirlər. Bu isə onu göstərir ki, Azərbaycanda insanların seçkilərə münasibəti tamam əksdir. Belə vəziyyətdə seçkilərə hazırlaşırıq, nəsə edəcəyik deməyimiz, sadəcə, gülüş yaradır. Çünki tələb və təklif qanuna uyğundur. Cəmiyyət əgər idman oyunlarının keçirilməsinə, əyləncələrə istiqamətlənibsə, biz nə qədər qışqırsaq ki, Qarabağ əldən gedir, seçkilərə hazırlaşaq, idman yarışlarından daha çox bizim seçkilər əhəmiyyətlidir, bunun heç bir faydası olmayacaq.



**İqbal Ağazadə:** "Yekun qərarımız qurultayda elan olunacaq"



**Sərdar Cəlaloğlu:** "Formal olaraq biz də seçkilərə hazırlaşırıq"

Çünki insanların beyinlərində seçkilərdən daha çox idman yarışları öndədir. Bütün bunlara baxmayaraq, təbii ki, biz də seçkilərə hazırlaşırıq. Adi vətəndaşlar kimi düşünmürük. Amma bizim nə cür düşünməyimizdən, hazırlaşmağımızdan asılı olmayaraq, temp çox aşağıdır. Biri var ki, cəmiyyət sənin kimi düşünsün, bundan ruhlanıb atdığımız addım proseslərə daha çox dəstək versin, biri də var ki, sənin atdığın addım heç bir gücü təmərküzləşdirməsin. Bu baxımdan, seçkilərlə bağlı uzağa gedən hazırlıqlar, taktiki gedişləri müəyyənləşdirmək formal xarakter daşıyır. Bu bütün müxalif qüvvələrə, eyni zamanda, Azərbaycan iqtidarının seçki siyasətinə aiddir. Yəni formal olaraq biz də seçkilərə hazırlaşırıq, cəmiyyət və dünya da həmçinin".

**Prezidentliyə sabiq namizəd seçkilərə qədər proseslərin dəyişə biləcəyini də istisna etmir:** "Təcrübə təkcə zərurətə deyil, təsadüflərə də tabe olur. Təsadüf bir proqnozun pozulmasına səbəb olan kənar təsir deməkdir. Dünya tarixində belə hadisələr çox olub. Çox nəhəng planlar, ideyalar, hakimiyyət dəyişiklikləri təsadüflərlə aradan çıxıb. Öz tariximizdə Səttarxan ölən ərəfələrdə belə danışılmışdı ki, əgər o ölsə dağa çıxıb od yandırsınlar, bütün Azərbaycan ayağa qalxsın. Bağırxan o dağa qalxanda bir kürdün daxmasında gizlənir, xurcununda fişənglər olub. Kürd elə bilir ki, bunlar qızıldır, Bağırxan aradan çıxarmaq istəyir. Onun və yoldaşının başını kəsirlər. Bununla da Səttarxan öləndən sonra Azərbaycanın ayağa qalxması planı aradan çıxıb. Halbuki bütün Azərbaycan hazırlaşmışdı ki, Səttarxana bir şey olarsa, bütün xalq qalxacaq, nəticədə müstəqillik əldə olunacaq. Bir kürdün yanlışlığı, tamahı ucbatından Azərbaycanın cənubunun müstəqil olmasının qarşısını alıb. Bu baxımdan, gərək indiki proseslərin əksi baş versin ki, müsbət nəticələri də olsun. Heç kim deyə bilməz ki, seçkilərə qədər qalan müddətdə bütün proseslər indiki kimi cərəyan edəcək. Əks proseslər baş verərsə, təbii ki, bizim də planlarımız, taktikalarımız dəyişəcək. Yaranan situasiyaya uyğun radikal taktiki və strateji plan hazırlayacağıq. Amma bugünkü vəziyyətdən çıxış edərək deyə bilərik ki, bu cəmiyyətlə, hakimiyyətlə, dünyanın ölkəmizə qarşı münasibəti ilə, Rusiya və İranın siyasəti ilə demokratik seçkidən danışa bilmərik".

❑ **Cavanşir ABBASLI**

# Müxalifətin ictimai dayaqları niyə yoxdur...

## Ekspertlər demokratik düşərgənin zəif olmasını ölkə üçün zərərli hesab edir

**Azərbaycanda müxalifətin sosial dayağının olmadığı barədə hakimiyyət düşərgəsindən vaxtaşırı açıqlamalar verilir. Müxalifət düşərgəsindən isə bu cür bəyanatlara sosial dayağın olduğunu sübut edən hansısa praktiki addımlarla deyil, "xalq bizi dəstəkləyir, xalq hakimiyyətə inanmır" tipli sözlərlə cavab verilir. Zaman keçdikcə isə bəlli olur ki, həqiqətən də özünü hakimiyyətin alternativi sayan müxalif partiyaların sosial dayağı, ictimai dəstəyi həddən artıq zəif, bitkin duruma düşüb.**

Milli Şuranın ən son - aprelin 8-də "Məhsul" stadionunda keçirdiyi mitinqə qatılanların sayı bu vəziyyətin ən son nümayişi idi.

Bəs nədən müxalifətin ictimai-sosial dayaqları yox kimi görünür?

**ADP sədri Sərdar Cəlaloğlu** bildirdi ki, əvvəla, müxalifətin sosial dayaqlarının tükənməsi iqtidarın üstünlüyü deyil: "Çünki demokratik cəmiyyətlərdə müxalifət kifayət qədər güclü olur və kifayət qədər ictimai həyatda iştirak edir. Ölkədə müxalifətin sosial dayaqlarının tükəndiyi görüntüsünün olması isə o deməkdir ki, ölkədə demokratiya tükənir. Azərbaycanda müxalifətin ictimai həyatdan uzaqlaşdırılması, əslinə baxsaq, Azərbaycanda demokratiyanın boğulmasının əlamətidir. Ona görə də buna görə fəxr eləmək doğru sayılmır. Əgər əhalinin siyasi partiyalara marağı yoxdursa, onda Yeni Azərbaycan Partiyasına da olmamalıdır. Dünyanın heç bir demokratik yerində fəaliyyətdə olan iqtidar fəaliyyətdə olan müxalifətdən çox böyük üstün gücə malik ola bilmir. Xalq həmişə yeni bir qüvvənin siyasi meydana gəlişində maraqlıdır.

Bu gün ölkədə siyasi fəaliyyət müstəvisi o qədər daralıb ki, müxalifət partiyaları öz mövcudluğunu zorla saxlayır, demək olar ki, xalqla müxalifətin təması yalnız virtual xarakter daşıyır. Bir tərəfdən qeyri-qanuni müdaxilə, digər tərəfdən də qanunların pozulması, şikayətlərə baxılmaması ilə ümumi şəkildə müxalifətin sayının azaldılması bu ideyanı həyata keçirməyə xidmət edir ki, doğrudan da Azərbaycanda müxalifət yoxdur görüntüsü yaransın. Lakin unudurlar ki, müxalifətin olmaması və ya zəif olması ölkənin zərərinədir".

**Yeni AXCP-nin sədri Razi Nurullayev bildirdi ki, ən böyük səbəb xalqın inamının davamlı olaraq qırılmağa məhkum edilməsidir. Kiçik də olsa nəticə lazımdır. Amma nəticə heç zaman olmayıb, əksinə, müxalifət itirə-itirə gəlib və o qədər çılpaqlaşıb ki, bütün eyibləri açıq-aşkar görünür:** "Bu eyibləri örtmək və xalqın inamını yenidən bərpa etmək üçün işlər görürük. Bizdən başqa da bu yöndə iş aparanlar var. Yəqin ki, müəyyən zaman aparacaq. Gördüyümüz işin pik nöqtəsi 2018-ci ilə təsadüf edəcək.

Yaranmış vəziyyətin səbəblərindən biri də uzun müddət passivlik burulğanında boğulan və hakimiyyətin sərt üzü ilə üzləşərək zorən gücünü itirən müxalifətin başını azacıq qaldıran kimi bədənindən böyük iddialara düşməyi oldu. Bəlkə də bu iddia deyildi. Bəlkə də razılaşdırılmış çirkli siyasi oyunun bir parçası idi.

Bir çox digər səbəblər də var. Birincisi, müxalifətin və narazı siyasi və ictimai qüvvələrin inteqrasiyası yoxdur. Müxalifət dağınıq və parçalanmış vəziyyətdədir. Xalq müxalif qüvvələrdən inteqrasiya gözlədiyi halda, müxalif qüvvələr hərdən ayrı-ayrı mitinqlər təşkil edir. Bu isə siyasi mübarizəni körükləmək yox, onu məhv etməkdir. İnsanları ruhdan salmaq, parçalanmış obrazını gücləndirmək və prosesi rüşeymində boğmaqdır.

İkincisi, mitinqlərə az adam çıxarmaqla və bunu tez-tələsik etməklə xalqa pis mesaj ötürülür. Xalqın gözü qorxur, ümidi puç olur".

❑ **E.SEYİDAĞA**



Əziz Orucov



Seymur Həzi

# Həbsdəki siyasi fəallardan son xəbərlər...

## "Kanal 13"ün rəhbərinin apelyasiya şikayətinə baxılacaq, İlqar Məmmədov və Seymur Həzi isə...

**İyunun 1-də 30 sutkalıq inzibati cəzası bitən gün barəsində 4 aylıq həbs-qətimkan tədbiri seçilən "Kanal 13"ün rəhbəri Əziz Orucovun apelyasiya şikayətinə baxılacaq. Bu barədə onun xanımı Lamiyə Orucova "Yeni Müsavat"a məlumat verdi: "Hələ ki görüşə və telefon danışığına icazə verilmir. Ancaq vəkillər görüşə bilirlər. Hazırda Əziz 1 saylı Bakı İstintaq Təcridxanasındadır. Ayın 9-da apelyasiya şikayətinə baxılacaq. Onunla görüşən vəkili dedi ki, yaxşıdır, əhvalı da yüksəkdir. Karantindən artıq çıxıb. İndiyə qədər bir dəfə həbsxanaya getmişəm. Yemək, paltar aparmışam. Müstəntiq deyir ki, hələ proses getdiyindən görüş və telefon danışığına icazə verilmir".**

Qeyd edək ki, Ə.Orucov Cinayət Məcəlləsinin 192.2 (qanunsuz sahibkarlıq və külli miqdarda gəlir əldə etmə) və 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrinə səbəb olması) maddələri ilə ittiham olunur...

**Cəzaçəkmə müəssisəsində olan REAL hərəkatının sədri İlqar Məmmədovun həyat yoldaşı Vəfa Məmmədova isə ərinin səhhətində yaranan problemlərin getdikcə yaxşılaşdığını söylədi:** "Heç bir dəyişiklik yoxdur, İlqar əvvəlki vəziyyətdədir. Səhhəti ilə bağlı yaranan problemlərlə əlaqədar da heç bir tədbir görülmədi. Özümüzün apardığımız dərmanlarla müalicə alır və səhhətində bəzi irəliləyişlər var. Amma həkim vasitəsilə İlqara heç bir yardım olunmayıb. Həbsxanada sərinləşdirici sistemin necə olması barədə hələ danışmamışıq. Havalar da yeni-yeni istiləşməyə başlayır. Yəqin ki, problemlər olsa da, bundan sonra olar".

**AXCP sədrinin müavini Seymur Həzinin atası Məşğul Həziyev oğlunun vəziyyətinin normal olduğunu bildirdi:** "Hələ ki bir narahatçılıq yoxdur. İyunun 7-də sonuncu dəfə zəng vurmuşdu. Vəziyyəti yaxşıdır. Elə bir sözü-filan olmadı. Həbsxana həyatı necədirsə, ona uyğun da davranır".

❑ **Cavanşir ABBASLI**

# Keçmiş baş nazirdən "Qarabağda muzdlu əfqanlar döyüşməyib" bəyanatı

## Pənah Hüseyn: "1988-ci ildən başlayaraq bu cür muzdlu terrorçulardan ermənilər istifadə edib"

**"Ermənistan 8 min əfqan muzdlu əsgəri 5 illik müqavilə ilə Qarabağa gətirib".**

Bu barədə Türkiyədə fəaliyyət göstərən Beynəlxalq Əsilsiz Erməni İddiaları ilə Mübarizə Dərnəyinin (ASİMDER) rəhbəri Göksel Gülbey məlumat yayıb. Onun sözlərinə görə, əfqan muzdluları Qarabağda təmas xəttinə yerləşdirilib: "Ötən ilin "aprel müharibəsi"ndə məğlub olan Ermənistanda valideynlər övladlarını Qarabağda əsgərliyə göndərməmək qərarına gəldilər. Ermənistan rəhbərliyi bu problemi həll etmək üçün pul qarşılığında 8 min əfqan muzdlu döyüşçüsünü ölkəyə gətirərək, təlim keçdi. Muzdlu əsgərlərə 5 il ərzində 3 min dollar maaş veriləcək. Sonda Ermənistan vətəndaşlığı və Avropaya viza sözü verilib".

**G.Göksel qeyd edib ki, əfqan döyüşçülər İran vasitəsilə Ermənistana gətirilib.**

"8 min əfqanın Ermənistana gətirildiyini İran vətəndaşlarının sosial şəbəkələrdə yaydıqları məlumatlardan öyrəndik" - deyə Göksel bildirib.

ASİMDER rəhbəri əlavə edib ki, Ermənistan əfqan döyüşçülərdən təkcə Azərbaycana qarşı deyil, həm də Türkiyəyə qarşı da istifadə edə bilər.



**Keçmiş baş nazir Pənah Hüseyn bildirdi ki, ermənilər Qarabağ müharibəsində həmişə əcnəbi muzdlulardan və xarici ölkə vətəndaşlığı daşıyan terror təlimi keçmiş ermənilərdən istifadə edib. Ona görə də mümkündür ki, 8 min nəfər olmasa da, hansısa sayda əfqan muzdlunu da cəlb etsinlər:** "8 min nəfər böyük rəqəmdir, bu qədər əfqan muzdlunun gətirildiyi barədə deyilənlər inandırıcı görünmür. 1990-cı illərin əvvəllərində müharibənin ən kəskin dövründə Ermənistan daha çox rus millətindən olan xarici muzdlulardan döyüşlərdə istifadə edirdi. Suriyadan, Livandan olan muzdlu döyüşçülərdən də istifadə edirdilər. Hətta Afrika mənşəli muzdlu döyüşçüləri də var idi. O vaxtlar bizdə məlumatlar var idi ki, onlar Fransada xüsusi legionda təlim keçmiş şəxslərdir. Amma belə muzdlular böyük tərkibli dəstələr kimi yox, fərdlər şəklində gəlmiş muzdlular idi. Döyüşlərdə bizim əsgərlər tərəfindən muzdlu rus və ukraynalı döyüşçülər əsir də götürülmüşdü. Amma o dövrdə muzdlu əfqan döyüşçülərin erməni tərəfində döyüşdüyü barədə məlumatlı deyildik. Ümumiyyətlə, bu tipli müharibələrdə xarici muzdlu döyüşçülərdən istifadə etmək təcrübəsi dünyada mövcuddur. Sadəcə, Ermənistan terrorçu dövlət olaraq xislətinə uyğun olaraq bu təcrübədən daha çox istifadə edir. Xarici muzdlu döyüşçülərdən istifadə etmək beynəlxalq hüquqda cinayət sayılır. Muzdlu döyüşçülər adətən yüksək təlim keçmiş peşəkarlardan ibarət olur. Ermənistana gətirilən muzdlu döyüşçülər əsasən erməni terror təşkilatlarında xüsusi təlim keçmiş terrorçular idi. 1988-ci ildən başlayaraq bu cür muzdlu terrorçulardan ermənilər istifadə ediblər. Azərbaycanlılara qarşı silahlı hücumları ilk olaraq məhz bu cür xarici muzdlular vasitəsilə həyata keçiriblər".

Qeyd edək ki, mərhum "OMON" komandiri Rövşən Cavadovun Qarabağ müharibəsi zamanı Azərbaycana əfqan döyüşçülər gətirdiyi ilə bağlı o dövrdə qeyri-rəsmi məlumatlar yayılmışdı. Ancaq həmin döyüşçülərdən konkret harada istifadə olunduğu haqda dəqiq informasiyalar yoxdur.

Pənah Hüseyn qeyd etdi ki, Elçibəy hakimiyyəti dövründə Qarabağ cəbhəsində muzdlu əfqanlar döyüşməyib.

❑ Etibar SEYİDAĞA

# Hafiz Hacıyev yenə prezident seçkilərinə hazırlaşır

## "Hakimiyyət daxilində prezidentə xəyanət edən qüvvələri ifşa edəcəyik"

**Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyev "Yeni Müsavat"a açıqlamasında 2018-ci il prezident seçkilərinə hazırlığı barəsində danışıb. H. Hacıyev bildirib ki, seçkilərlə bağlı artıq partiya öz qərarını verib.**



"Partiyanın Siyasi Şurasında da bu məsələyə geniş şəkildə baxılıb. Artıq qurultayımızın keçirilməsi ilə də bağlı addımlar atmağı düşünürük. Seçkilərdə yenidən mənim namizədliyimin verilməsi ilə əlaqədar şura öz tövsiyələrini verib. Tam əminliklə deyə bilərəm ki, bu dəfə yenə də prezident seçkilərində iştirak edəcəyəm", - deyə o bildirib.

**H.Hacıyev rəsmi qaydada seçkilərin keçiriləcəyi bəlli olmasa da seçkilərə ciddi şəkildə hazırlığa başladıqlarını deyir:** "Təbliğat işlərimiz gedir, saytlar, internet televiziyaları vasitəsilə də bu istiqamət üzrə addımlarımızı atırıq. Bu yaxınlarda Milli Şuranın da üzvü olmuş Rahim Bağırov partiyamıza üzv oldu. Yaxınlarda o, partiyamızda müavin kimi təmsil olunacaq. Onunla da birlikdə təbliğat-təşviqat işlərimizi aparıb, 2018-ci ilin prezident seçkilərinə var gücümüzlə, qalib gəlmək əzmi ilə qatılacağıq. Hesab edirəm ki, seçkilərdə öz sözümüzü layiqincə deyib, xalqımızın xeyrinə addımlar atacağıq".

**H.Hacıyevin sözlərinə görə, bu işlər üçün maliyyə qaynaqlarını da düşünüblər:** "Hər halda, seçkiyə qədər tam da olmasa da, maliyyə məsələlərimizi həll edəcəyik. Biz digər əksər partiyalardan fərqli olaraq xarici kəşfiyyata işləmədiyimiz üçün maliyyəmiz də xaricdən deyil. Bəzi partiya rəhbərləri var ki, onların Avropa banklarında hesabları, müxtəlif ölkələrdə biznesləri var. Biz isə millətimizə işlədiyimiz üçün dəstəyi də onlardan gözləyirik. Millətimiz bizi dar gündə qoymayacaq. Səfirlərlə görüşdüyümüz zaman bəziləri təklif edirlər ki, bizimlə işləyin, nə lazımdırsa, yardım edək. Ancaq bütün bunların hamısından imtina edib, onlara öz sözümüzü demişik. Çalışırıq ki, maliyyə məsələsini partiyamızın imkanlı şəxsləri ilə həll edək".

**H.Hacıyev yaxın zamanlarda mitinq keçirməyi də planlaşdırdıqlarını dedi:** "Biz dinamik fəaliyyətdə olan partiyayıq və mitinq komitəmiz mövcuddur. Hər həftə keçirilən İdarə Heyətinin iclasında komitənin üzvlərini də dəvət edirik. Biz mitinqə tam hazır vəziyyətdəyik. Sadəcə olaraq, Azərbaycanın ətrafında gedən geosiyasi vəziyyətə uyğun addımlar atmağı düşünürük. Düşünürük ki, yaxın bir ay ərzində mitinqlə bağlı Bakı Şəhər İcra Hakimiyyətinə müraciət edək. Ancaq Azərbaycanın ətrafında gedən proseslərə nəzər salanda dövlətimizin suverenliyinə zərbə vurmamaq üçün mitinq etmirik. Yəni ola bilər ki, biz mitinq keçirək, digər qüvvələr də bundan istifadə edib qarışıqlıq salsınlar. Lakin buna baxmayaraq, mitinq planımız qüvvədədir. Zamanı çatanda çox böyük və möhtəşəm mitinq keçirəcəyik. Həmin mitinqdə ölkə prezidentinə xəyanət edən qüvvələri ifşa edəcəyik. Biz necə dözə bilərik ki, şəhid ailələrinə həmin sahəyə baxan nazirlik tərəfindən ögey münasibət var - baxmayaraq ki, dəfələrlə prezidentimiz bu istiqamət üzrə addımlar atıb, şəhid ailələri ilə görüşüb. Məmurlar isə belə deyillər. Mitinqimizdə hakimiyyət daxilində olan, korrupsiyaya bulaşmış nümayəndələri ifşa olunacaqlar. Birmənalı şəkildə imkan vermərik ki, həmin mitinqdə kimlərsə durub, başqa adamın ünvanına nə isə söyləsin. Məqsədimiz dövlətçiliyin, xalqın dayağında durmaqdır. Orada konkret adlar da çəkəcəyik. Zamanında Ziya Məmmədovun adını çəkdik, indi aqibəti bəllidir. Ancaq hesab edirəm ki, Ziya Məmmədov həbs olunmalıdır. Belə bir adamı azadlıqda saxlamaq olmaz. Eyni zamanda onun əmlakının da hamısı əlindən alınmalıdır. Onun oğlu Anar Məmmədov da bu gün xaricdə dövlət başçısının əleyhinə çox böyük siyasi kampaniyaya başlayıb. O da İnterpol vasitəsilə təcili olaraq geri çağırılmalıdır. Ziya Məmmədov ona görə həbs edilməlidir ki, əlindəki milyardları ortada oynadır. Bu gün Rusiya və Qərb dövlətləri özlərinin milyarder qruplarını Azərbaycanda yenidən cəmləşdirir. Ziya Məmmədov da onların arasında oyuncu kimi oynayır. Ona görə də bu adam ən azından nəzarətdə saxlanılmalıdır. Ziya Məmmədov Milli Şurada təmsil olunan adamdır. Onun qohumlarının əksəriyyəti Milli Şuranın koordinasiya mərkəzinin üzvləridir. Şərt o deyil ki, Ziya Məmmədov gəlib, Cəmil Həsənli ilə yan-yana otursun. Bu adam gecələr görüşüb, onlara maliyyə yardımı göstərir. Cənab Zakir Qaralova deyirəm ki, ölkədə qarışıqlıq salmaq istəyən qüvvələri bu kimi nazirlər maliyyələşdirirlər. Mitinqlərimizdə bütün bunları qabardacağıq".

**Hafiz Hacıyev ölkə müxalifətinin vəziyyəti barəsində də fikir bildirib:** "Azərbaycanda müxalifət ancaq bizik. Bir də var, xaricin Azərbaycandakı müxalifət adlandırılan qüvvələri. Onların da vəziyyəti çox pisdir. Bu adamlar xarici də aldadıb, aldıqları pulu batırırlar. Məqsədləri də Azərbaycanda qardaş qırğını salmaqdır. Bu adamların məlumatları hesabına ABŞ Dövlət Departamenti, Avropa Parlamenti Azərbaycan əleyhinə bəyanatlar verir. İndi yenə də bəziləri Vaşinqtona üz tutub. Məsələn, Kərimov Əlidən müxalifətmi olar? Sadəcə olaraq, orada beş-on nəfər yığışıb ki, onlar da xaricdən aldıqları pulu bölə bilmədikdə öz içlərindəki adamdan da donos yazıb, onu tutdururlar. AXCP-də son həbsləri də Kərimov Əli təşkil edib ki, xaricdən gələn pulların hamısı onun özünə çatsın, kimləsə bölməsin. Ona görə də bu adamlardan müxalifət olmaz".

❑ Əli RAİS

YENİ MÜSAVAT
N 122 (6736) 8 iyun 2017

# İŞİD terroru Azərbaycanın cənub sərhədinə çatdı - İran "ürəyindən" vuruldu

## İran parlamentinə və İmam Xomeyni məqbərəsinə silahlı hücum nəticəsində 12 nəfər öldü, 39 nəfər yaralandı; həlak olanlar arasında Urmiyə millət vəkilinin ofis katibi də var; müsəlman qonşumuz ətrafında həlqə daralır; İran Səudiyyəni terrorun günahkarı elan etdi



**İyunun 7-də İran İslam Respublikasının paytaxtında həyəcanlı saatlar yaşanıb. Belə ki, terrorçular İran parlamentinə və həmçinin Tehranın cənubunda yerləşən İmam Xomeyni məqbərəsinə silahlı hücum təşkil edərək insanlara atəş açıblar.**

İran Daxili İşlər Nazirliyi (DİN) Tehranda silahlı hücumlarla əlaqədar yaydığı bəyanatda hadisələrin baş verdiyi ərazilərdə vəziyyətin nəzarət altına alındığını və narahatlığa əsas olmadığını bildirib.

İran dövlət televiziyası eyni anda edilən hücumu 4 terrorçunun törətdiyini bildirib. İran mətbuatında yazılan digər xəbərə görə, terror hücumu nəticəsində 12 nəfər öldürülüb, 39 nəfər yaralanıb.

"Parlament binasına edilən hücum zamanı terrorçu 4 nəfəri girov götürüb". Bunu isə İranın "Press TV" mediası bəyan edib. Bildirilib ki, parlamentdə 4 nəfəri girov alan terrorçu daha sonra özünü partladıb. İran mediası xəbər verir ki, İmam Xomeyni məqbərəsinə hücum edən şəxslərdən birinin özünü partlatması nəticəsində 1 nəfər ölüb, 5 nəfər xəsarət alıb.

İŞİD terror qruplaşması İranda parlament binası və Ayətullah Xomeyninin türbəsinə edilən hücuma görə məsuliyyəti öz üzərinə götürüb.

Təhlükəsizlik orqanları əməkdaşlarının terrorçulara qarşı pilotsuz uçuş aparatlarından istifadə etdiyi bildirilir. Təqribən 5 saat davam edən əməliyyat tədbirlərindən sonra parlament binasına hücum edən terrorçular məhv edilib (axar.az). Məhv edilən terrorçuların hamısının fotosu da yayılıb.

Diqqətçəkən budur ki, İŞİD (DAEŞ) Tehrandan, parlamentdən 24 saniyəlik videokadr yaymaqla əməliyyatın davam etdiyini elan edib. Parlamentdə iki deputatın - Şəhrza və Mübareke deputatlarının həyat yoldaşlarının da terrorçular tərəfindən girov götürüldükləri bildirilirdi.

Musavat.com Türkiyə mətbuatına istinadən xəbər verir ki, terror hadisəsindən sonra İranın xarici işlər naziri Məhəmməd Cavad Zərif Türkiyəyə səfər edəcəyini açıqlayıb. Məhəmməd Cavadın Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlu ilə görüşəcəyi bildirilirdi. Səfərin ayrıntıları haqqında məlumat verilməsə də Qətər böhranı və bölgədəki son hadisələrin müzakirə ediləcəyi deyilir.

Günorta saatlarında Xomeyninin məqbərəsi yaxınlığındakı metro stansiyasında da partlayış törədildiyi xəbəri yayıldı. Lakin Tehrandakı mənbələrimizlə araşdırarkən məlum oldu ki, bu xəbər doğru deyil.

İŞİD-in İrana ayaq açması və ölkə parlamenti, həmçinin İmam Xomeyni məqbərəsinə hücum etməsi sıradan bir hadisə kimi qiymətləndirilmir. Hesab olunur ki, baş verənlərin arxasında daha ciddi qüvvələr dayanır. Bu mənada mayın 22-də Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyadda ABŞ prezidenti Donald Trampın iştirakı ilə keçirilən "Ərəb, İslam, Amerika" sammitinə İranın dəvət olunmaması, ABŞ prezidenti Donald Tramp və Səudiyyə Ərəbistanının kralı Salman bin Əbdül Əziz Əs Səud arasında telefon danışığının olması, "İslam NATO"su müzakirələri, İran ətrafındakı bəzi dövlətlərdə hərbi bazaların yaradılması və s. amillər Tehrana qarşı xüsusi əməliyyatların hazırlandığı şübhələrini artırır. Ehtimallara görə, antiterror koalisiyası Suriya böhranından çıxa bilməməsinin əsas səbəblərindən biri kimi İranın proseslərə müdaxiləsini nəzərə aldığı üçün öncə bu ölkə ilə "haqq-hesab çürütməyə" qərar verə bilər. Qeyd edək ki, iyunun 5-də Misir, Səudiyyə Ərəbistanı, Bəhreyn və BƏƏ Dohanı terror qruplaşmalarını dəstəkləməkdə və Yaxın Şərqdə vəziyyəti gərginləşdirməkdə ittiham edərək, Qətərlə diplomatik münasibətləri dayandırdıqlarını bəyan ediblər. Sonradan Liviya, Yəmən, Maldiv və Mavriki də Qətərlə diplomatik münasibətləri dayandırdıqlarını bəyan ediblər.

### Politoloq: "Xomeyni məqbərəsindəki partlayış İran rejiminin ideoloji dayaqlarına hücumdur, parlamentə hücumsa İranın siyasi sisteminə zərbədir"

Qətər XİN rəhbəri Dohanın cavab tədbirləri görməyəcəyini bildirib. Birləşmiş Ərəb Əmirlikləri Qətərin siyasəti ilə həmrəy olduğunu nümayiş etdirən vətəndaşlarını cəzalandıracaq ("ölkə.az"). Məlumata görə, Qətərin siyasətini dəstəkləyən BƏƏ vətəndaşlarını 15 illik həbs cəzası gözləyir. Bundan əlavə, bu şəxslər 135 min dollar məbləğində cərimə ödəyəcəklər. Bu barədə BƏƏ-nin baş prokuroru məlumat verib. Qərb dairələri tərəfindən yaradıldığı iddia olunan İŞİD-in məhz belə bir durumda Tehrana qorxulu saatlar yaşatması təsadüf sayılmır. Hadisədən sonra İran ərazisində bütün təhlükəsizlik qüvvələri hazırlıq vəziyyətinə gətirilib. APA-nın Tehran bürosunun məlumatına görə, bunu İranın daxili işlər nazirinin müavini Hüseyn Zülfüqari deyib. O bildirib ki, terrorçular qadın geyimi ilə parlamentin binasının giriş qapısından içəri daxil olublar: "İçəri girən kimi atəş açmağa başlayıblar. SEPAH qüvvələri onlara cavab atəşi açıb. Terrorçular parlamentin əsas binasına deyil, ətrafdakı binasına soxulublar". H. Zülfüqarinin sözlərinə görə, terrorçular 4 nəfər olub. Nazirlik bildirib ki, bu gün səhər Tehranda bir neçə terror aktı törətməyə cəhd göstərilib. Nazirliyin Terrorizmlə mübarizə idarəsinin rəhbəri bəyan edib ki, terror dəstələrindən bir qrupu hər hansı əməli həyata keçirməyə fürsət tapmadan zərərsizləşdirilib. Təhlükəsizlik Nazirliyi əhalidən şübhəli şəxslər gördükdə dərhal xəbər vermələrini istəyib.

İRNA dövlət agentliyi isə İmam Xomeyninin məqbərəsində terrorçulardan birinin sağ ələ keçirildiyi və atışmanın davam etdiyi barədə xəbər yayıb.

**İran parlamentinin sədri Əli Laricani dünən səhər parlament binasında baş vermiş terrora münasibət bildirib.**

**Ə.Laricani olayı kiçik bir hadisə adlandırıb:** "Bir neçə qorxaq terrorçu parlamentin binasına soxulub və onlara qarşı ciddi tədbirlər görülüb. Elə də böyük şey deyil. Bu hadisə onu göstərir ki, terrorçular İran üçün problem yaratmaqda maraqlıdır. İran terrorizmlə mübarizədə fəal və təsiredici gücə malikdir, istəyirlər ki, İranın bu simasını korlasınlar. Təhlükəsizlik qüvvələri hökmən onlara qarşı ciddi ölçü götürəcək".

**Tehran əyalətinin rəhbəri isə elan edib ki, hazırda paytaxtda vəziyyət stabildir və təhlükəsizlik qüvvələri vəziyyəti nəzarətə götürüb:**

"Baş verən hadisə İranın təhlükəsizliyinə ciddi zərbədir və bu ölkənin kəşfiyyat, əks-kəşfiyyat və digər bu kimi çoxsaylı alternativ qurumları haqqında yayılan əfsanələri alt-üst edir".

İran İslam İnqilabı Keçikçiləri Korpusu (SEPAH) dünən Tehranda törədilən terror hücumlarında Səudiyyə Ərəbistanını günahlandırıb.

APA-nın "Reuters" agentliyinə istinadən verdiyi məlumata görə, bu barədə SEPAH-ın general-mayoru Hüseyn Selami "Mehr" agentliyinə müsahibəsində deyib.

O bildirib ki, İran terrorçulardan və onların dəstəkçilərindən intiqamını alacaq.

**Bu gün (dünən -red.) İran parlamentinə və İmam Xomeyni Türbəsinə terror hücumları olub. Terror hadisələri nəticəsində 12 nəfər ölüb, 42 nəfər yaralanıb.**

**Terrora görə məsuliyyəti İŞİD üzərinə götürüb.**

**Politoloq Elçin Mirzəbəyli bunu "Yeni Müsavat"a açıqlamasında bildirdi. Ekspert qeyd etdi ki, hadisənin Qətər əmiri Tamim ibn Hamad əl Tanın İranı "regiondakı sabitliyin qarantı" kimi təqdim etməsindən və Qətərə qarşı körfəz ölkələrinin açdığı soyuq savaşdan sonra baş verməsi də maraq doğurur:** "Tehranda baş verən terror aksiyaları Qətər əmirinin İranın sabitliyin qarantı olması ilə bağlı fikirlərini alt-üst edir. Hər halda, baş verənlər çox ciddi bir prosesin başlandığından xəbər verir. İranın bu məsələyə adekvat reaksiyası yeni Körfəz müharibəsinin başlanmasına da səbəb ola bilər. Səudiyyə Ərəbistanında keçirilən zirvə görüşündən sonra İran və Ərəb koalisiyası ölkələrinin arasında ciddi qarşıdurmanın baş verəcəyi gözlənilən idi. Amma proseslərin bu qədər tez bir zamanda başlanacağı ehtimal olunmurdu. Şübhəsiz ki, baş verənlərdə konkret olaraq hansısa ölkənin ittiham edilməsi üçün əlimizdə əsas yoxdur. Lakin terror aksiyalarının həyata keçirilməsinin forması, yəni həm "canlı bombalardan", həm də silahlı terrorçulardan istifadə olunması İŞİD-in terror texnologiyasını xatırladır. Seçilən hədəflər məqsədyönlüdür". **E.Mirzəbəyli hesab edir ki, Xomeyni məqbərəsindəki partlayış İran rejiminin ideoloji dayaqlarına hücumdur:** "Parlamentə hücumsa İranın siyasi sisteminə zərbədir. Eyni zamanda törədilən terror aktları əhali arasında xof, qorxu yaradılmasına xidmət edir. Bütün bunlar terrorun siyasi məqsədlərlə həyata keçirildiyinə işarə edir. Şübhəsiz ki, harada baş verməsindən və hədəfindən asılı olmayaraq, terror lənətlənməlidir. Terrora heç bir halda haqq qazandırmaq olmaz. Proseslərin sonrakı gedişatına gəldikdə isə baş verənlər regionda sabitliyin uzun müddət bərpa olunmayacağından xəbər verir. Bu hadisədən sonra İranın təcrid olunması istiqamətində daha sərt addımların atılacağını, Suriyada, Fələstində, Liviyada, Yəməndə və Livanda İranın himayə etdiyi qüvvələrin hərəkətə keçəcəyini gözləmək olar. Qarşı tərəf isə çox güman ki, İranın yayındırıcı addımlarına xidmət edən hərəkətlərə xüsusi diqqət yetirməyəcək və prosesləri İranın daxilinə keçirməyə cəhd göstərəcək". **Politoloq burada İŞİD xəttinin olduğuna şübhə etmədi. Amma bunları da əlavə etdi:** "Terror aksiyasının həyata keçirilməsi mexanizmi - həm silahlılardan, həm də canlı bombalardan istifadə edilməsi də İŞİD-i xatırladır. Amma qəti fikir bildirmək də çox çətindir".

Azərbaycanın cənub sərhədlərində belə dəhşətli terror hadisələrinin törədilməsi təbii ki, narahatedicidir. Bakı müxtəlif təzyiqlərə baxmayaraq, ərazisindən İrana qarşı hərbi əməliyyatlarda istifadəyə icazə verməyib. Görünən budur ki, anti-İran koalisiyası ərəb ölkələrindən İrana həmlə planı hazırlamaqla yanaşı, İranın daxilində onu "ürəyindən vurmağa" da qərar veriblər. Bu da çox təhlükəli başlanğıcdır. İranda terror seriyası davam etsə, Azərbaycan türklərinin həyatına da ciddi təhlükə yaranacaq, hərbi əməliyyatlar başlasa, Azərbaycan dövləti üçün də arzuolunmaz situasiya yarana bilər. Yeri gəlmişkən, İran parlamentinə hücum zamanı qətlə yetirilənlərdən biri türk soydaşımız, İran parlamentindəki Türk Fraksiyasının aktiv üzvlərindən olan, Urmiyədən seçilmiş deputat Hadi Bahadurinin ofis katibi Həmid İmdadidir. Allah rəhmət eləsin!

**"İran İslam Respublikasında törədilmiş qanlı terror aktlarını qəti şəkildə qınayırıq. Bu terror aktları nəticəsində həlak olanların ailələrinə, bütün İran xalqına və hökumətinə dərin hüznlə başsağlığı veririk. Yaralanan və xəsarət alanların tezliklə şəfa tapmasını diləyirik".**

**Musavat.com-un məlumatına görə, bunu Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev deyib.**

**O qeyd edib ki, terrorizmdən əziyyət çəkən dövlət kimi Azərbaycan terrorizmin bütün forma və təzahürlərini kəskin şəkildə pisləyir: "Azərbaycan Respublikası terrorizmə qarşı mübarizədə beynəlxalq ictimaiyyətin səylərini qətiyyətlə dəstəkləyir".**

❑ **E.PAŞASOY**



# Mismarın üstündə

Zamin HACI
zaminhaci@gmail.com

**Öncə keçən yazıma bir kiçik əlavəm var. Orda Məhərrəm Əliyevin polisdə, müdafiə sahəsində, indi isə ədliyyə sistemində işlədiyini yazarkən diplomatiya sferasında çalışdığını - Tacikistanda səfir işlədiyini unutmuşdum. Hörmətli oxuculardan biri zəng vurub xatırlatdı, buna görə təşəkkür edirəm. Doğrudan da ölkəmizin hərtərəfli kadrlara ehtiyacı vardır.**

İndi kəskin dönüş edib gedək üzü Amerikaya doğru. Rejissor Maykl Murun 11 sentyabr hadisələrindən bəhs edən, 2004-cü il Kann kino festivalında baş ödülü qazanmış “Farengeyt 9/11" filmi dünən yadıma düşmüşdü. Həmin filmdə Mur maraqlı bir sual verir: ”11 sentyabrda təyyarələri ələ keçirən 19 nəfər terrorçunun düz 15 nəfəri Səudiyyə Ərəbistanı vətəndaşı idi. Qalan 4 nəfərin ikisi Birləşmiş Ərəb Əmirliklərindən, biri Misirdən, biri də Livandan olub. Ancaq ABŞ terrorun qisasını almaq üçün Əfqanıstan və İraqa hücuma keçdi. Niyə?" Sonra da cavablar verir, burda təkrar eləmək istəmirəm. Kimə maraqlıdırsa axtarıb, baxsın.

Hazırda Orta Doğu bölgəsi yenidən qaynayır. İranda terror, Qətərin blokadaya alınması... Və ortaya ABŞ-ın çox “maraqlı” mövqeyi çıxır. Tramp twitterdə srağagün yazır ki, Qətərin Səudiyyə və müttəfiqləri tərəfindən blokadasının məhz onun bölgəyə səfərindən sonra olması təsadüfi deyil. “Mən elədim” - belə demək istəyir. Deyir, Qətərin blokadası Orta Doğuda terrorun kökünün kəsilməsinin başlanğıcıdır. Guya bütün İŞİD-mişid kimi zir-zibilləri bölgəyə təkcə Qətər “axıdırmış”.

Olsun, bizim sözümüz yoxdur. Ancaq Trampın bəyanatından cəmi bir saat sonra ABŞ Dövlət Departamenti bəyanat yayır: “Qətər bizim mühüm müttəfiqimizdir, ordakı hərbi bazamızla fəxr edirik” və sairə bla-bla-bla... Ya da bizim dildə yazsaq mız-dız-fıs...

İkiüzlü olmağı, ikili standartları, deyəsən, çuvalda gizlətmək artıq dünyada kimsəyə gərək deyil. Elə bizim öz başımıza gələn misala da baxaq. 28 mayda Tramp Azərbaycan prezidentinə təbrik məktubu göndərib ölkəmizlə tərəfdaşlıqdan məmnunluq duyduğunu, mühüm dostlardan olduğumuzu-filanı vurğuladı. Eyni məzmunlu məktub 3-4 gün sonra neft-qaz sərgisinə də ünvanlandı. Ancaq elə həmin günlərdə Dövlət Departamenti Azərbaycanda insan haqlarının pozulmasından narahat olduğunu açıqladı, müxalifətçi Gözəl Bayramlı və jurnalist Əfqan Muxtarlını azad etməyə çağırdı.

Bu axı necə ola bilər ki, insan haqlarını pozan ölkə ABŞ-ın dostudur və “Avropanın enerji təhlükəsizliyinə töhfə verir”? Bəs insan haqları bir ölkənin daxili işi deyildi, nə oldu buna? Avropadakı insanların mətbəxində qaz gələcək deyə, Binəqədidəki azərbaycanlını dama basmaq olarmış. Çünki onlar dahi klassikin dediyi kimi, “daha çox bərabərdirlər”. Açığı, şəxsən mən ABŞ-ın bu ikiüzlü standartlarından artıq iyrənirəm. Özü də heç kim “Cəmiyyət yaxşıdır orda, dövlət aparatı pisdir” deyə oyunbazlıq etməsin. Bu, lap bizim yaltaq azərbaycanlıların “əşşi, dövlət ayrı, hökumət ayrı, biz gərək dövlətçiliyi qoruyaq” cəfəngiyyatının təkrarıdır. Heç bir ayrılıq ola bilməz, ABŞ dövlət aparatını formalaşdıran da elə ordakı cəmiyyətdir. Bəlkə Trampı seçməyi bizim üstümüzə yıxasınız? Rusların məsələsi nəsə çox uzandı. Biz tez boynumuza alarıq.

Qubadan iki qardaş isə Amerikaya gedib istedad nümayişi üzrə məşhur tok-şouya qatılıblar. Xəbərlərdə yazılmışdı ki, onların göstərdiyi nömrələrin qorxuncluğuna dözməyən münsiflər tez razılıq veriblər, deyiblər, daha dayanın, sizi növbəti etapa buraxdıq. Bu məndə, nə gizlədim, maraq doğurdu, nömrələrin videosuna baxdım. Çox primitiv! Sən demə, bu qardaşlar əllə, başla taxtaya mismar çalmaq, yabanı qarnına dirəmək, “lapatka”nı boğaza basmaq tipli pəhləvan nömrələri göstəriblər. Amerikalı gəlib bircə ay Qubada yaşasa görərdi ki, orda icra hakimiyyəti və başqa dövlət qurumları hər gün camaatı yabalayır, mıxın üstündə gəzdirir, ağzına butulka qırığı doldurur, bəzən isə idarənin qabağında yandırırlar. Bütün bunlara baxmayaraq, biz sağ qalmışıq, 25 ildir yaşayırıq! Sirkin içində yaşayırıq. Sirk bizim həyat tərzimizdir. Bunlar isə belə şeyləri istedad adlandırır.

Boş şeydir. İstedad Tramp ağılda adamla dünyanın ağasına çevrilməkdir. Biz sizə çatmarıq. Təvazökarlıq eləməyin.

# Rusiyanın növbəti qaz şantajı: Moskva narahatdır

**Rusiya-Azərbaycan münasibətlərdə sərinlik davam edir. Ümumrusiya Azərbaycanlıları Konqresinin (ÜAK) ləğvi bu sərinliyin yalnız növbəti bir təzahürü idi. Əksər siyasi müşahidəçilərə görə, Moskva əslində Bakıdan narazıdır və o üzdən bu kimi demarşların davamını gözləməyə dəyər.**




## Kremlin Bakıya qəzəbinin 3 səbəbi - prezidentin mesajı hədəfə dəyib

### Rusiyanın ölkəmiz əleyhinə silsilə demarşlarının ardınca “Qazprom”dan TAP-ın səmərəliliyini şübhə altına alan minnətli bəyanat gəldi; Azərbaycanın yeni oyunçu kimi güclənməsi Kremli qıcıqlandırır...

Belə bir iddia üçün zəmin və motivlər az deyil. Onlardan biri əlbəttə ki, rəsmi Bakının hələ də Qərblə Rusiya arasında uğurla balanslı siyasət yürütməkdə davam eləməsidir. Belə bir siyasət isə istər-istəməz Kremlin Azərbaycanla bağlı orta perspektivdəki maraqlarına uyğun gəlmir, onun Bakıdan umduğu əsas hədəflərə əngəl yaradır, Moskvanı ABŞ-la münasibətlərdə yaşanan hazırkı gərginlik fonunda xüsusilə qıcıqlandırır.

Putinin Azərbaycanla bağlı istəklərindən biri isə ölkəmizi Avrasiya layihələrinə qoşmaqdır. İllərdir bu səylər nəticə vermir, çünki Bakının məsələ ilə bağlı prinsipial və haqlı mövqeyi var: işğalçı Ermənistanla eyni iqtisadi birlikdə təmsil olunmazdan öncə işğal edilən ərazilərin heç olmasa bir qismi boşaldılmalıdır - özü də qeyd-şərtsiz. Buna isə Moskva həvəsli görünmür.

Yeri gəlmişkən, son vaxtlar təmas xəttində Azərbaycanın işğalçı tərəfi mütəmadi şəkildə canlı və texniki itkilərə məruz qoyması da Kremlin xoşuna gəlmir. Bunu həmin insidentlərlə bağlı Moskvanın verdiyi açıqlamalardan da açıqca görmək olardı.

Eyni zamanda Bakının durmadan öz hərbi və döyüş bacarığını artırması üçün müstəqil şəkildə hərəkət eləməsi, o sırada NATO üzvü Türkiyə və Gürcüstanla vaxtaşırı birgə təlimlər keçirməsi rəsmi Moskvanı qıcıqlandırır *(İndinin özündə Tiflis yaxınlığında Azərbaycan, Türkiyə və Gürcüstan xüsusi təyinatlı qüvvələrin “Qafqaz qartalı” ortaq hərbi təlimləri davam edir)*.

Nəhayət, Rusiyanın Bakıya qəzəbinin başqa - üçüncü bir motivi var ki, bu da əlbəttə, enerji məsələsidir. Daha doğrusu, Avropa enerji bazarı uğrunda mübarizəyə Azərbaycanın getdikcə daha fəal qoşulmasıdır. Bu da Rusiya üçün həssas sahələrdəndir, nədən ki, Moskvanın Qərbə, Avropa Birliyinə qarşı güclü təhdid üsullarından biri qaz inhisarçılığıdır, qaz şantajıdır. Azərbaycan qazı, tikilməkdə olan Cənub Qaz Dəhlizi (TANAP, TAP) isə bu asılılığı azaldaraq, minimuma endirəcək.

***

Bu arada Rusiyanın “Qazprom” şirkətinin idarə heyətinin sədr müavini Aleksandr Medvedyev Cənub Qaz Dəhlizi layihəsinin əhəmiyyətini və effektivliyini şübhə altına alan təxribatçı bəyanatla çıxış edib (virtualaz.org). Rusiya qazının gələcəkdə TAP kəmərinə vurulması imkanlarından danışan Medvedyev öncə bildirib ki, TAP-ın dolmamaq riski var, çünki onun nəzərincə, “Azərbaycan əsas neft yataqlarında hasilatı saxlamaq üçün laylara getdikcə daha çox qaz vurmağa məcburdur”.

Yada salaq ki, “Qazprom” şirkəti TAP-a faktiki rəqib sayılan qaz dəhlizinin yaradılması üzərində işləyir. Bura Rusiyadan Türkiyənin Yunanıstanla sərhədinə qədər “Türk axını” qaz kəmərinin çəkilməsi, həmin kəmərin daha sonra “Poseidon” kəmərinə birləşdirilməsi planları daxildir. “Türk axını” kəmərinin tikintisi artıq başlayıb. TAP kəməri isə TANAP-la Türkiyənin Yunanıstanla sərhədinə qədər nəql olunacaq Azərbaycan qazını *(ildə 10 milyard kubmetr)* Avropanın cənubuna çatdıracaq.

**Lakin indi A.Medvedyev iddia edir ki, TAP kəmərinin dolması mümkün deyil. Onun sözlərinə görə, “Poseidon” layihəsinin icrası zamanı TAP kəmərinin gücündən istifadə mümkün ola bilərdi.** “Ancaq biz bu məsələdə heç bir halda xahiş edən tərəf olmayacağıq. Burada TAP kəmərinin sahiblərinin başı ağrımalı olacaq” - o bildirib.

**“Qazprom”un idarə heyətinin sədr müavini yada salıb ki, TAP kəməri üçün mənbə Azərbaycan qazıdır. Sitat:** “İndiki situasiyada Azərbaycanın qaza tələbatı artır, çünki əsas neft yataqlarında hasilatın aşağı düşməsini dayandırmaq üçün laylara getdikcə daha çox qaz vurulur. Bu, zarafat məsələ deyil-zərurət məsələsidir. Neft Azərbaycan iqtisadiyyatı üçün əsas büdcə gəliri mənbəyi olaraq qalır”.

**Medvedyev onu da deyib ki, onlar bu mərhələni başqa ölkələrdəki digər layihələrdə keçiblər.** “Bu, Azərbaycan tərəfinin seçimi məsələsidir. Və əgər bu situasiyada TAP kəməri boş qalacaqsa, onların seçimidir ki, kəməri boş saxlasınlar və ya hansısa qarşılıqlı anlaşmaya getsinlər. Məsələn, bizimlə. Nəzəriyyə nəzəriyyədir, praktika praktikadır. Biz Avropada biznesin istənilən inkişaf variantına hazırıq və hesab edirik ki, əməkdaşlıq ideal olardı. Ancaq heç kimi buna məcbur etmək fikrində deyilik”, - deyə o əlavə edib.

***

Müşahidəçilərə görə, Avropanın qaz təchizatı bazarında inhisarını əldən vermək istəməyən Rusiya Cənub Qaz Dəhlizinə qarşı qəzəbini ilk dəfə bu cür açıq büruzə verir. Bəs səbəb? Medvedyev TAP kəmərinin boş qalacağı haqda eyhamlarla çıxış edərkən nəyə əsaslanır? Axı kəmərə vurulacaq qazın hasil olunacağı “Şahdəniz” yatağının sübut olunmuş ehtiyatlarına dair rəqəmlər məlumdur. BP-nin başçılıq etdiyi beynəlxalq konsorsium isə məhz sübut olunmuş ehtiyatlardan çıxış edərək, “Şahdəniz-2"nin işlənilməsi də daxil olmaqla, Cənub Qaz Dəhlizinə on milyardlarla dollar investisiya qoyub.

Əgər həqiqətən də TAP kəməri ilə bağlı risk varsa və layihə kommersiya baxımından rentabelli olmayacaqsa, o halda BP kimi bütün riskləri ölçüb-biçən şirkət bu investisiyaları yatırmağa razı olardımı? Təbii ki, yox. Əksinə, “Şahdəniz”dən hasil ediləcək qazın proqnozlaşdırılandan çox olacağı gözlənilir.

Digər tərəfdən, mütəxəssislərə görə, Azərbaycanın qaz ehtiyatları təkcə “Şahdəniz”lə yekunlaşmır. Bugünlərdə Bakıda keçirilən neft-qaz sərgisi zamanı açıqlandı ki, Azərbaycanda qaz hasilatı gələcəkdə yeni kəşf olunmuş və işlənməkdə olan yataqların ehtiyatları hesabına daha da artacaq. Yəni Azərbaycanın TAP kəmərini doldurmaqla bağlı problemi yoxdur, olmayacaq. Belədisə, o zaman “Qazprom”un bu açıqlaması, qəribə və bir qədər də təəccüblüdür. Gerçəkdə isə Rusiyanın Cənub Qaz Dəhlizindən necə narahat olduğunu ortaya qoyur.

***

Medvedyevin bəyanatı İtaliyanın cənubunda TAP kəmərinin tikintisini əngəlləmək üçün törədilən təxribatların arxasında kimin dayandığına dair təxminləri də doğrultmuş olur. Bu, əlbəttə ki, Rusiyadır. Söz düşmüşkən, bu günlərdə Azərbaycan prezidenti İlham Əliyev çıxışı zamanı TAP kəmərinə qarşı təxribatların arxasında dayanan qüvvələrə eyham vurmuş, layihəni əngəlləmək üçün böyük paraların sərf olunduğunu söyləmişdi.

Bununla belə, prezident əminlik ifadə etmişdi ki, Cənub Qaz Dəhlizi reallaşacaq və Azərbaycan Avropaya qaz təchiz edən ilk alternativ mənbə olacaq. “Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində çox önəmli rol oynayan bir ölkədir. Bu gündən sonra bu rol daha da artacaq”. Bunu da ölkə başçısı demişdi.

Görünür, bu mesajlar hədəfə dəyib. Çünki Rusiya artıq açıq formada təlaşlanmağa başlayıb ki, o, Avropa qaz bazarına yeni, müstəqil oyunçunun - Azərbaycanın daxil olmasından narahatdır.

❑ **Analitik xidmət**

YENİ MÜSAVAT
N 122 (6736) 8 iyun 2017

**Rusiyanın "Qazprom" şirkətinin idarə heyətinin sədr müavini Aleksandr Medvedyev Azərbaycanın reallaşdırdığı Cənub Qaz Dəhlizi layihəsinin əhəmiyyətini və effektivliyini şübhə altına alan bəyanatlarla çıxış edib. A.Medvedyev jurnalistlərə açıqlamasında Rusiya qazının gələcəkdə TAP kəmərinə vurulması imkanlarından danışıb. Bildirib ki, TAP kəmərinin dolmamaq riski var, çünki Azərbaycan əsas neft yataqlarında hasilatı saxlamaq üçün laylara getdikcə daha çox qaz vurmağa məcburdur.**

# Rusiyadan Azərbaycana TAP hədəsi

## İddiaların əsası varmı?; "“Qazprom" digər mənbələrdən Avropaya mavi qazın nəql edilməsində maraqlı deyil"

Qeyd edək ki, "Qazprom" şirkəti TAP-a faktiki rəqib sayılan qaz dəhlizinin yaradılması üzərində işləyir. Bura Rusiyadan Türkiyənin Yunanıstanla sərhədinə qədər "Türk axını" qaz kəmərinin çəkilməsi, həmin kəmərin daha sonra "Poseidon" kəmərinə birləşdirilməsi planları daxildir. "Türk axını" kəmərinin tikintisi artıq başlayıb. TAP kəməri isə TANAP-la Türkiyənin Yunanıstanla sərhədinə qədər nəql olunacaq Azərbaycan qazını (ildə 10 mlyard kubmetr) Avropanın cənubuna çatdıracaq.

**"Qazprom"un idarə heyətinin sədr müavini yada salıb ki, TAP kəməri üçün mənbə Azərbaycan qazıdır və o da məhdud ola bilər:** "İndiki situasiyada Azərbaycanın qaza tələbatı artır, çünki əsas neft yataqlarında hasilatın aşağı düşməsini dayandırmaq üçün laylara getdikcə daha çox qaz vurulur. Bu, zarafat məsələ deyil-zərurət məsələsidir. Neft Azərbaycan iqtisadiyyatı üçün əsas büdcə gəliri mənbəyi olaraq qalır".




Avropanın qaz təchizatı bazarında inhisarını əldən vermək istəməyən Rusiya qaz nəhənginin bəyanatları Moskvanın Cənub Qaz Dəhlizinə qarşı qəzəbini ilk dəfə bu cür açıq büruzə vermiş olur. Lakin bundan öncə də Rusiya təxribatçı addımlara əl atmış, İtaliyada təbiətsevərlərin əli ilə TAP kəmərinin tikintisinin dayandırılmasına nail olmuşdu. O zaman da ekspertlər "No TAP" aksiyasının arxasında Rusiyanın durduğunu istisna etmirdilər.

Yerli ekspertlər "Qazprom" rəsmisinin iddialarını əsassız adlandırır, ölkəmizin kifayət qədər qaz ehtiyatına malik olduğunu və ilkin mərhələdə Avropaya 10 milyard kubmetr həcmində qazın maneəsiz olaraq ixrac ediləbiləcəyini vurğulayırlar.

**İqtisadçı ekspert Vüqar Bayramov da "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, bütün bu bəyanatların səbəbi Rusiyanın Avropa qaz bazarında özünə rəqib görmək istəməməsindən irəli gəlir:** "Rusiyanın TAP-a münasibəti heç zaman isti olmayıb. Bu ölkə rəsmilərinin istər rəsmi, istərsə də qeyri-rəsmi açıqlamalarında hər zaman TAP-a qarşı neqativ fikirlər, xüsusən də Cənub Qaz Dəhlizinin ehtiyatlarının az olması, TAP və TANAP-ın mavi qaza olan tələbinin ödənilməsində çətinliklərin olacağı ilə bağlı daim açıqlamalar yayımlanıb. Bu da başa düşüləndir. Çünki Cənub Qaz Dəhlizi birinci mərhələdə Avropaya 10 milyard kubmetr qaz nəql edəcək, daha sonra bu həcmlərin 20 milyard kubmetrə qədər artırılması mümkündür. Bu rəqəmlər "Qazprom"un Avropaya ixrac etdiyi mavi qazın həcmi ilə müqayisədə xeyli kiçikdir, buna rəğmən "Qazprom" digər mənbələrdən Avropaya mavi qazın nəql edilməsində maraqlı deyil. Bunu da açıq şəkildə bəyan edir. Rusiyanın narahatlığı ondan ibarətdir ki, fərqli mənbələrdən nəql edilən qazın Avropa bazarına çıxarılması bu ölkənin Avropa bazarındakı dominantlığını xeyli zəiflədə bilər.

Əvvəllər də iddialar var idi ki, ekologiya tərəfdarlarının keçirdiyi aksiyalar həm də "Qazprom" tərəfindən dəstəklənib. Bunu sübut etmək o qədər də asan deyil. Lakin aksiya iştirakçılarına müəyyən mənbələrdən kifayət qədər vəsaitin daxil olması da açıqlandı. Ehtimallar da səslləndirildi ki, bu vəsaitləri TAP-ın reallaşmasına qarşı olan qüvvələr verib. "Qazprom"un TAP əleyhinə kompaniyalarda iştirakını sübut etmək mümkün olmasa da , ehtimal olunur ki, şirkət bu məsələdə xeyli aktivdir. "Qazprom"un bu məsələdə iştirakının hansı dərəcədə olmasından asılı olmayaraq, birmənalı şəkildə demək olar ki, bu şirkət Azərbaycan qazının Avropa bazarına çıxmasının əleyhinədir".

**A.Medvedyevin iddialarına gəlincə, V. Bayramov bildirdi ki, TAP-ın qazla doldurulmasında heç bir çətinlik yaşanmayacaq:** "Hazırda Azərbaycanın qaz hasilatı 29 milyard kubmetrdir. 2020-ci ildə, Şahdəniz layihəsinin ikinci fazası istifadəyə veriləndə 44,5 milyard kubmetrə qədər yüksələcək. Azərbaycanın birinci mərhələdə Avropa bazarı qarşısında öhdəliyinin cəmi 10 milyard kubmetr olduğunu nəzərə alsaq, həmin öhdəliyin yerinə yetirilməsində hər hansı çətinliyin olmayacağını deyə bilərik. Praktik olaraq ilbəil artan qaz hasilatı həmin öhdəliklərin yerinə yetirilməsinə imkan verəcək. "Şahdəniz 2"nin istismara verilməsi ilə yanaşı, digər qaz yataqlarının, xüsusilə də Abşeron yatağının istifadəyə verilməsi nəzərdə tutulur. Bu da birmənalı şəkildə qaz hasilatının artmasına səbəb olacaq. O baxımdan, TAP-ın istifadəyə verilməsinin birinci mərhələsində hər hansı çətinliyin olacağını gözləmirəm. Ancaq gələcəkdə Türkmənistanın da Cənub Qaz Dəhlizinə qoşulması daha arzuolunan olardı. Rusiya isə növbəti dövrlərdə də öz narazılığını ifadə etməkdə davam edəcək".

**İqtisadçı qeyd etdi ki, TANAP-la bağlı belə bir problem mövcud deyil:** "Rusiya TANAP-ı ciddi rəqib olaraq görmür. TAP-ı isə Avropada böyük alternativ kimi görür. TAP-ın inşaat işləri hələ də davam etdiyi üçün Rusiyanın prosesə təsir imkanları qalmaqdadır. Hər halda, təxribatın olacağını istisna etmək olmaz".

❑ **Nərgiz LİFTİYEVA**

---

# İzah etməyə nə var ki? Çətini dəyişməkdir...



**Hüseynbala SƏLİMOV**

**Avraam Linkolnun sözüdür ki, ictimai rəyi formalaşdıranlar qanunları qəbul edənlərdən daha güclüdürlər.**

Bəli, bu sözləri heç də erudisiyamı nümayiş etdirmək üçün yada salmadım. Lap bu günlərin söhbətidir. Metroda iki nəfərin əlində qəzet gördüm. Niyə görəsə birdən xəfif bir kədər bürüdü məni. Düşündüm ki, kağız media ilə vidalaşmağa tələsmədikmi?

Yox, mən bəziləri kimi "Eh, keçmişdə..." və yaxud da "Bizim vaxtlarımızda..." kimi ifadələri sevən adam deyiləm. Ona görə ki, nə qədər sıxılsam da böyük hesabla tərəqqiyə inanıram. Hətta bəzi sferalardakı geriləmələr belə məndə bədbinlik yaratmır. Ona görə ki, bu həyat deyilən fenomen çox geniş anlam ehtiva edir özündə: həyat təkcə siyasi və ictimai qayğılarla məhdudlaşmır, bunun texniki-iqtisadi tərəfləri, mədəniyyəti, idmanı, elmi də var...

Bəs onda problem nədədir? Ondadır ki, məsələ medianın kağız və elektron formasında olub-olmamasından çox onun nəyə qadir ola bilməsindədir. Düşünürəm ki, biz nə qədər ictimai rəyi formalaşdıra bilirik? Yazılarımıza "giriş"lər təsəlli üçün əsas verirmi?

Bəli, problem bundadır. Həyatda hər şey nəticə ilə ölçülür. Nəticə isə yoxdur. Ona görə ki, cəmiyyətin reaksiyasını görmürük.

Yenə bir sözü qoyub o birisinə keçirəm. Elə bu yaxınlarda indi PR deyilən sahənin yaradıcılarından birinin - E.Bernaysın qısa bioqrafiyasını oxuyurdum. Ağlıma gələn ilk söz heç bilirsinizmi, nə oldu? Düşündüm ki, ictimai rəy üzərində, bax, belə, bu cür işləmək lazımdır. Amma ki, bunun üçün cəmiyyət və siyasi quruluş açıq olmalıdır. Üstəlik də cəmiyyətin rəyinin, ictimai rəyin sosial-siyasi sanksiyası olmalıdır.

Amma hər şeyə bir bəhanə "tikmək" də düzgün deyildir. Çalışmaq lazımdır. Sadəcə, problem ondadır ki, ictimai rəy uğrunda tək bizlər - jurnalistlər və ictimai fəallar mübarizə aparmır, elə bizim hökumətimiz də bu "xüsusda" çox böyük işlər yapır.

Amma daha bir problem odur ki, bizim hökumətimiz müstəqil media və ictimai strukturlarla azad rəqabət və ya yarış aparmır. Hökumətin bircə cəhətini qiymətləndirmək olar ki, instinktiv olaraq təhlükəni duyurlar və dərhal da onu qapayırlar. Özlərinə əziyyət verib iş görmürlər, sadəcə, iş görmək imkanlarını qapayırlar ki, tamam-kamal sakitlik olsun...

Jurnalistika da haradasa ictimai rəy texnologiyasıdır. Hərçənd, bunu "modern" jurnalistikanın nəzəriyyəçiləri qəbul etmirlər. Onlara görə bu peşənin missiyası yalnız xəbər çatdırmaqdır.

Amma xəbər özü belə ictimai rəyə təsirsiz ötüşmür. Çünki xəbər də "Nə? Harada? Nə vaxt?" suallarından savayı bəzən "Niyə?" sualına da cavab verir.

Həm də jurnalistikanı yalnız xəbərlə məhdudlaşdırmaq ağacın bütün qol-budaqlarını qıraraq təkcə kötüyünü saxlamağa bənzəyir. Kötük isə yalnız yandırmaq üçün yararlı olur...

Qərəz, burada müxtəlif jurnalistika konsepsiyaları ilə başınızı ağrıtmayacam - məktəblər çoxdur, hər birinin də özünün yanaşması var. Əsas odur ki, bütün hallarda bu ölkədə də jurnalistika qalıb. Məsələ isə onu necə inkişaf etdirməkdən və ondan necə faydalanmaqdan ibarətdir. Necə ki, bir vaxtlar K.Marks yazırdı: "Filosoflar dünyanı çox izah ediblər, amma məsələ onu dəyişməkdən ibarətdir".

Bir qədər məzəli alınmasın, elə biz də jurnalistikanı müxtəlif cür yoza bilərik, ona müxtəlif təriflər verə bilərik. Amma vəzifə onu dəyişməkdir. Eləcə də ictimai rəyi də, durumu da çox yozmaq olar, müxtəlif versiyalar söyləmək olar, ictimai süstlüyə bəraət qazandırmaq üçün ən müxtəlif və bəlkə də biri-birindən ağlabatan arqumentlər səsləndirmək olar. Amma ki, bütün bunlar bir fayda gətirməyəcək. Fayda o vaxt olar ki, jurnalistika və eləcə də ictimai rəy dəyişsin...

Bunu etmək cəhdləri isə yoxdur, ya da olduqca azdır. Mövcud olanlara haradasa haqq qazandırmaq və bəraət fikirləşmək onu dəyişdirməkdən qat-qat asandır. Elə bu səbəbdən də siyasi fəallar da "Neyləyək? Cəmiyyət belədir!" deməməlidirlər. Ona görə ki, dərhal bir sual yaranır: "Siz onu, yəni cəmiyyəti dəyişmək üçün cəhd etdinizmi?".

Eyni sözləri də jurnalistlər haqqında demək mümkündür. Bütün dünyada hakimiyyətlər müqavimət görməyəndə repressivliyə meyli olurlar. Səbəbi də aydındır: böyük hakimiyyət kimə mane olur ki?.. Bu aspektdən yanaşanda media da bir hakimiyyət növüdür. Elə A.Linkolnun sözlərini də buna görə xatırladım. Bu baxımdan yanaşanda bir az artıq "hakimiyyət" olmaq heç biz jurnalistlərə də mane olmazdı...

# "Balkanlarda Rusiya-Qərb savaşı həlledici mərhələyə qədəm qoyub"

## Şahin Cəfərli: "Monteneqro əldən çıxdı, indi məqsəd Makedoniya və Bosniya-Herseqovinanın NATO-ya qoşulmasına yol verməməkdir"

**İyunun 5-də Monteneqro 29-cu üzv qismində rəsmən NATO-ya daxil olub. Bununla NATO 8 illik fasilədən sonra - 2009-cu ildən bəri ilk dəfə genişləndi. Qeyd edək ki, hərbi-siyasi blokun rəhbərliyi və aparıcı dövlətləri NATO-nun qapılarının açıq olduğunu bəyan edirlər. Növbəti mərhələdə Gürcüstan və Ukraynanın da quruma üzvlüyü gözlənilir. Ancaq Rusiyanın bu iki postsovet məkanına qarşı həyata keçirdiyi sürprizlər hələ ki prosesin uzanmasına səbəb olub. İlk baxışda Montoneqro kimi kiçik dövlətin alyans üçün hansı əhəmiyyət kəsb etdiyi barədə suallar ortaya çıxır. Ekspert məsələnin elə də sadə olmadığı qənaətindədir.**

"Monteneqro kimi dünya siyasətində hər hansı rolu olmayan, cəmi 14 min kv.km-ə yaxın əraziyə və 622 min nəfər əhaliyə malik kiçik bir ölkənin NATO və onun lider dövləti ABŞ üçün əhəmiyyəti yəqin ki, çoxlarında maraq oyadır". **Politoloq Şahin Cəfərli** bunu "Yeni Müsavat"a açıqlamasında bildirdi. Ekspertin sözlərinə görə, məsələ burasındadır ki, Monteneqronun hərbi-siyasi bloka qoşulması ilə Rusiyanın Balkanlardan və isti dənizlərdən sıxışdırılmasının növbəti mərhələsi başlayıb: "SSRİ-nin və Yuqoslaviyanın dağılmasından sonra Rumıniya, Bolqarıstan, Xorvatiya, Albaniya və Sloveniya NATO-ya qəbul olundular. Növbə Monteneqro, Makedoniya və Bosniya-Herseqovinaya çatmışdı. Monteneqronun üzvlüyü gerçəkləşdi, Makedoniya və Bosniya-Herseqovina hazırda ittifaq üzvlüyünə əsas namizədlərdir. Bosniyanın alyansa qəbulu ilə Aralıq dənizi hövzəsinin tərkib hissəsi olan Adriatik dənizi tamamilə NATO ölkələrinin əhatəsində qalaraq bir NATO gölü halına gələcək və Rusiyanın üzünə bağlanacaq.



Həmçinin Bosniya-Herseqovina və Makedoniyanın NATO-ya üzvlüyündən sonra Serbiya dörd bir yandan NATO ölkələrinin əhatəsində qalacaq. Dənizə çıxışının olmaması da nəzərə alınarsa, bu durumda Serbiyanın Rusiya ilə müttəfiqliyi davam etdirərək Qərbə arxa çevirməsinin hər hansı anlamı qalmayacaq, bu müttəfiqliyin strateji əhəmiyyəti xeyli azalacaq. Serbiya hökuməti hazırda NATO və Avropa Birliyi ilə fəal əməkdaşlıq edir və ölkədə rusiyameylli qüvvələrin mövqeyi hələlik güclü olduğu üçün ehtiyatlı avroatlantik inteqrasiya siyasəti aparır. Serbiyanın NATO-ya üzvlüyündən sonra Moskva Rusiya imperiyası dövründən önəm verdiyi bu bölgəni tamamilə itirmiş olacaq". **Ş.Cəfərlinin fikrincə, təsadüfi deyil ki, Moskva bu prosesə ciddi müqavimət göstərir:** "Rusiya xüsusi xidmət orqanları ötən ilin oktyabrında Monteneqroda yerli rusiyameylli "Demokratik Cəbhə" Partiyası və millətçi serblərin əli ilə dövlət çevrilişinə cəhd etmişdi. Məqsəd qərbyönlü baş nazir Milo Cukanoviçə sui-qəsd edib, hökuməti devirərək ölkənin NATO-ya üzvlüyünü əngəlləmək idi. Lakin yerli hüquq-mühafizə orqanları Qərb xüsusi xidmətlərinin köməyi ilə çevrilişin qarşısını aldılar. Dövlət çevrilişi cəhdini idarə edən Rusiya kəşfiyyatının 2 zabiti - Eduard Şirokov və Vladimir Popov qaça bildilər. Monteneqroda məqsədinə çata bilməyən Rusiya bir müddətdir Makedoniyanı qarışdırmağa çalışır. Bu ölkədə ötən ilin dekabrında keçirilmiş parlament seçkilərindən sonra başlayan siyasi böhran yarım il davam etdi və bu yaxınlarda başa çatdı. Seçkilərdə ikinci olan Sosial Demokrat İttifaqı parlamentə düşən 2 kiçik alban partiyası ilə razılaşaraq qanunverici orqanda çoxluq yaratmışdı, lakin buna baxmayaraq, onların hökuməti formalaşdırmasına imkan verilmirdi".

**Siyasi şərhçi onu da xatırlatdı ki, Rusiya mediası albanların dəstəyi ilə qurulacaq hökumətin ölkəni parçalayacağı yönündə aktiv təbliğat aparırdı:** "Makedon millətçilərini qorxutmağa çalışırdılar ki, bölgədə "Böyük Albaniya" qurulacaq və Makedoniya dövləti xəritədən silinəcək. Aprelin 27-də etnik alban Tələt Cəfəri parlamentin sədri seçildikdən sonra makedon millətçiləri parlamentə hücum etdilər və bir neçə deputatı, o cümlədən Sosial Demokrat İttifaqının lideri Zoran Zayevi döydülər. Lakin prosesin qarşısını almaq mümkün olmadı və mayın 31-də Zoran Zayevin başçılığı ilə qurulan hökumət parlament tərəfindən təsdiqləndi. Z.Zayevin ilk bəyanatı bu oldu ki, Makedoniya avroatlantik inteqrasiyanı davam etdirəcək. O, eyni zamanda ölkədə Rusiyanın təsirinin artması ilə bağlı Qərb dövlətlərinə xəbərdarlıq mesajı göndərdi. Yeni hökumət fəaliyyətə başladıqdan sonra Makedoniyada Rusiyanın apardığı gizli işin miqyası barədə məxfi məlumatlar mediaya ötürüldü. Məlum oldu ki, Rusiya Xarici Kəşfiyyat Xidməti (SVR) və Baş Kəşfiyyat İdarəsi (QRU) Makedoniyanın NATO-ya üzvlüyünü əngəlləmək üçün ölkədə qərargah qurublar. Bitola və Oxrid şəhərlərindəki Rusiya konsulluqları kəşfiyyatın bazası rolunu oynayır və kəşfiyyat fəaliyyəti Rusiyanın Skopyedəki səfirliyi tərəfindən koordinasiya olunur. Rusiya mediasının Makedoniyadakı fəaliyyəti də kəşfiyyat üçün "örtük" məqsədi daşıyır və kəşfiyyatçılar jurnalist adı altında fəaliyyət göstərirlər". **Politoloq digər məqamlara da diqqət çəkdi:** "O da bəlli olub ki, Rusiya kəşfiyyatı Makedoniya ordusunun və polisinin zabitlərini əməkdaşlığa cəlb edir, məqsəd lazımi anda onları hərəkətə keçirərək Rusiya maraqları naminə bu şəxslərdən yararlanmaqdır. Bundan başqa, Rusiya slavyan və pravoslav kartından da faydalanır, Makedoniyada müxtəlif mədəniyyət mərkəzləri, dostluq assosiasiyaları yaradır, kilsələri maliyyələşdirir. Rusiya səfiri Şerbak bir müddət əvvəl Makedoniya XİN-də keçirdiyi qapalı görüşlərin birində etiraf edib ki, onların məqsədi Balkanlarda Makedoniya, Monteneqro, Bosniya-Herseqovina və Serbiyadan ibarət neytral ölkələr zolağı yaratmaqdır. Monteneqro əldən çıxdı, indi məqsəd Makedoniya və Bosniya-Herseqovinanın NATO-ya qoşulmasına yol verməməkdir. Bir sözlə, Balkanlarda Rusiya-Qərb savaşı həlledici mərhələyə qədəm qoyub".

❑ **Cavid TURAN**

# ABŞ-ın İslam dünyasına qarşı ikili siyasətində əsas hədəf

## Ər-Riyad sammiti gizli mətləblərin üstünü açır; **politoloq:** "İslam dünyasının vəhdətləşmə vaxtıdır..."

**ABŞ müsəlman dövlətləri ilə bağlı ikili siyasətini davam etdirir. Xüsusilə Donald Trampın gəlişindən sonra bu siyasət özünü daha qabarıq şəkildə göstərir. Birləşmiş Ştatlar bəzi müsəlman ölkələrinə bir, digərlərinə isə tam fərqli rakursdan yanaşır.**

Məsələn, hazırda Ağ Ev Səudiyyə Ərəbistanı ilə əlaqələrin qurulmasına ciddi önəm verir. Trampın mayın 22-də Ər-Riyada səfəri və müsəlman ölkələrinin dövlət başçılarının rəhbərlərinin iştirakı ilə keçirilən sammitdə iştirakını misal çəkmək olar. Sammitdə İransız koalisiya formalaşdı. Bununla Səudiyyə Ərəbistanı başda olmaqla, bir sıra ərəb ölkələri İranla üz-üzə qoyuldu. Görünən odur ki, Amerika müsəlman dövlətləri arasında ayrı-seçkilik etməklə yanaşı, həm də bəzi bu tipli dövlətlər arasında soyuq münasibətlər yaratmağı, hətta onları qarşı-qarşıya qoymağı bacarır. Ekspertlər Səudiyyə-Qətər arasında son günlərdə yaranan qarşıdurmanın Trampın Ər-Riyad səfərindən sonra yaranmasını təsadüf saymırlar.



Bir reallığa da diqqət çəkək. Son illərdə Amerikanın müsəlman dövlətləri ilə bağlı siyasətində demokratiya məsələsi demək olar yer almır. Özünü dünyanın ən demokratik ölkəsi sayan Birləşmiş Ştatlar digər dövlətlərə gələndə bu dəyərlərin üstündən xətt çəkir. Amma yeri gələndə Azərbaycan tipli ölkələrə bu ənənədən təzyiq vasitəsi kimi istifadə edir. Əksər ekspertlər bu xüsusda ABŞ-ın dövlət maraqlarının hər şeyə üstün gəldiyini düşünürlər.

**Politoloq Əhəd Məmmədli Trampın müsəlman dünyası ilə bağlı ABŞ-ın ənənəvi siyasətini davam etdirdiyini deyir:** "Hazırkı Amerika əvvəllərdə olduğu kimi, müsəlman dünyasında "parçala-hökm et" siyasəti aparır. Qərblilər həmişə müsəlman dünyasına daha çox önəm veriblər, Tramp da, sadəcə, əsirlərdir qoyulan siyasəti davam etdirir. Amma bu önəm təbii ki, sevgidən irəli gəlmir. Osmanlı dağılandan sonra İslam dünyasının 95%-i müstəmləkə, yarımmüstəmləkəyə çevrildi. Bununla da Qərblə İslam arasında sivilizasiyalar qarşıdurmasının birinci fazası bitdi. SSRİ dağılandan sonra isə Qərblə İslam sivilizasiyaları arasında qarşıdurmanın ikinci fazasına start verildi. ABŞ-ın müsəlman ölkələrinə münasibətində demokratiyaya heç vaxt önəm verilməyib, önəm həmişə müsəlman dünyasını nəzarətdə saxlamaq və təbii sərvətlərinə sahib çıxmağa verilib. İndiyə gəldikdə isə Azərbaycana diqqət ayırmağa, ümumiyyətlə, vaxt yoxdur. Bir də Azərbaycandan çoxdandır istədiklərini alıblar".

**Politoloq Türkiyə ilə ərəb dünyası arasında yaxın əlaqələrin qurulmasının Qərbi ciddi narahat etdiyini bildirdi:** "Hazırda ABŞ-ı ən çox narahat edən məsələ ərəb ölkələri ilə Türkiyə arasında müttəfiqliyin qurulmasıdır. Osmanlı dönəmində olduğu kimi, Qərb buna imkan verə bilməz. Ərəb dünyası ilə Türkiyə arasında "Müsəlman Qardaşları" ilə milli görüşçülərin bir ittifaqı qurulur. Türkiyə - Qətər - Misir nümunəsini göstərə bilərik. Bu üç müsəlman ölkəsində milli görüşçülərlə qardaşlar iqtidarda idi. Son illərdə müsəlman dünyasında Qətər-Misir-Türkiyə üçbucağı qurulmuşdu. Hər üç ölkədə hakimiyyətdə İxvanil Müslümin və Milli Görüş ideoloji iqtidarlar idi. Bu, İslam dünyasında çox güclü birlik, ciddi qüvvə idi. ABŞ, İsrail və bəzi Körfəz səltənətləri tərəfindən ilk öncə ən zəif xalq olan, yeni hakimiyyətə gələn Misir ixvanları sıradan çıxarıldı. Sonra Türkiyəyə əl uzadıldı. Misirli həmkarlarından fərqli olaraq daha təcrübəli AK Parti hakimiyyəti Türkiyəyə uzanan bu əlləri qırdı... Düzdür, anti - Türkiyə əməliyyatında Körfəz ölkələri iştirak etmədi, əksinə, böyük yatırımlı ərəb kapitalı Türkiyəni iqtisadi kollapsdan qurtardı. İndi bəlli oldu Trampın Səudiyyə Ərəbistanına səfərinin mahiyyəti: mötədil Qətər şeyxini ərəb dünyasında təkləmək. Bu problemin çözümündə Türkiyəyə böyük iş düşür. Türkiyə Qətərin yanında olmalı, həmçinin Səudiyyə Ərəbistanı ilə müttəfiqliyi qorumalıdır. İslam dünyasının vəhdətləşmə vaxtıdır. Qeyri-müsəlman dünyasını da ən çox narahat edən budur. Bunun yeganə yolu da Osmanlı çətiri altında birləşməkdir. Osmanlı çətiri vaxtında türklər də, ərəblər, kürdlər də öz torpaqlarının yeganə sahibi idilər. Ərəb dünyasının ixvanları da, türk dünyasının milli görüşçüləri də, İslam dünyasının vəhdəti üçün birdəfəlik sünni-şiə qardaş qırğınına son qoyulmasını, ərəb ölkələri və Türkiyənin, nəhayət ki, İranla dost, qonşuluq münasibətləri qurmasının tərəfdarıdır. Bütün bunların olması üçün də ən azı əsas müsəlman ölkələrində, "Müsəlman Qardaşları" və ya Milli Görüş siyasəti əsas ideoloji baza olmalıdır".

**Ə.Məmmədli sıradan çıxarmaq üçün növbəti hədəfin Qətər olduğunu vurğuladı:** "İndi də Qətəri sıradan çıxarmaq istəyirlər. Çünki Türkiyə ilə bir yerdədir və İrana qarşı İslam dünyasını parçalayan alyansa qoşulmur. "Müsəlman Qardaşları" və Milli Görüş ideologiyası İslam dünyası üçün bir oyanış, ayağa qalxmaq, birlik deməkdir. Bu da olsa, İslam dünyası, Osmanlıda olduğu kimi, öz müstəqilliyini qaytaracaq. Trampın Ər-Riyad siyasəti məhz İslam dünyasını yeni böyük müharibəyə qərq edib və bu səfərdə məqsəd bəzi müsəlman ölkələrinin məhz İslam naminə müttəfiqliyini məhv etməkdir. İrana qarşı ərəb koalisiyası da məhz bunun üçün qurulur. Əgər İranla ərəb ölkələri arasında müharibə başlasa, burda udan tərəf Amerika, Britaniya və İsrail olacaq, İran-İraq müharibəsində olduğu kimi. Və bu müharibə müsəlmanlara olmayan zərbəni vuracaq. Müsəlman dövlətləri bunu anlayır, ancaq təəssüf ki müsəlman iqtidarlarının 95%-i Qərb, Rusiya və Çindən asılı olduğu üçün öz sahiblərinin iradəsini yerinə yetirirlər. Ona görə də İslam dünyasında vəhdət yoxdur. Türkiyə və Qətər bu vəhdəti qaytarmaq istəyir. Bu səbəbdən də özlərinə qarşı böyük bir cəbhə alıblar".

❑ **Cavanşir ABBASLI**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 122 (6736) 8 iyun 2017

**Müəyyən fasilədən sonra Rusiya xarici işlər naziri Sergey Lavrov yenidən Qarabağ məsələsi ilə bağlı açıqlaması ilə diqqət çəkdi. Rusiyanın baş diplomatı İ.Kant adına Baltik Federal Universitetinin tələbələri qarşısında çıxışı zamanı Qarabağ münaqişəsinin həllinin sülhdən başqa alternativinin olmadığını bildirib.**





www.jpg.wtf

# Lavrovun Qarabağ bəyanatı - Azərbaycana savaş xəbərdarlığı, yoxsa...

## Rusiyanın baş diplomatının yenidən sülhün alternativinin olmadığını xatırlatması ətrafında ilginc şərhlər; Moskva həmsədrlərin səfəri ərəfəsində müharibə riskinin artmasından ehtiyatlanır...

"Yalnız danışıqlar, başqa yol yoxdur. Bir neçə dəfə problemin danışıqlar yolu ilə həlli yaxın olub, lakin sonra tərəflər arasında müəyyən inamsızlıqlar baş verdi. Amma işlər davam etdirilməlidir"- Lavrov deyib. Rusiya XİN rəhbəri qeyd edib ki, danışıqlar prosesi zamanı müəyyən prinsiplər işlənib hazırlansa da, bir sıra ciddi detalların razılaşdırılması vacibdir: "Amma biz səylərimizi davam etdiririk. Bildiyiniz kimi, Rusiya, ABŞ və Fransa ATƏT-in Minsk Qrupunun həmsədr ölkələridir və biz münaqişə tərəfləri ilə mütəmadi olaraq görüşürük və bu çərçivədə onlar arasında hələ də razılaşdırılmayan xırda, lakin çox ciddi detalları həll etməyə çalışırıq".

Xatırladaq ki, bu ilin əvvəlində S.Lavrov "Dağlıq Qarabağ Azərbaycanın daxili işi deyil" bəyanatını səsləndirməsi ilə ölkəmizdə ciddi etirazlar qazanmışdı. Azərbaycanın ərazi bütövlüyünün qəsdinə hesablanmış bu bəyanata etirazların qarşılığında rus diplomat dediklərinə hər hansı izahat verməsə də, sonrakı aylarda mövqeyində müəyyən korrektələr etmişdi.

"Biz hesab edirik ki, Dağlıq Qarabağ münaqişəsi həll oluna bilər. Bunu uzun müddət davam edən danışıqların nəticələri göstərir. Lakin bir sıra maddələr üzrə razılıq əldə olunmalıdır. Bura təhlükəsizlik, humanitar yardım, Qarabağ ətrafı rayonların geri qaytarılması və Qarabağın statusu məsələsi daxildir", - deyə S.Lavrov azərbaycanlı həmkarı Elmar Məmmədyarovla birgə Moskvada keçirdiyi mətbuat konfransında bildirmişdi. O zaman da Lavrov demişdi ki, qeyd edilən bəndlərin böyük əksəriyyətinə dair razılıq əldə olunub, lakin "biri-iki bənd üzrə danışıqlar gedir". XİN başçısı o zaman da demişdi ki, hazırkı şərtlərdə danışıqları bərpa etmək üçün cəbhə və təmas xəttində gərginlik azaldılmalıdır. Prinsipcə S.Lavrovun mart ayında səsləndirdiyi bəyanatla sonuncu arasında ciddi fərq yoxdur. Lakin S.Lavrovun sülhün alternativinin olmadığı haqda açıqlamasının məhz indiki-Qarabağ cəbhəsində və Azərbaycan-Ermənistan sərhədində gərginliyin artdığı dövrə təsadüf edir. May ayında işğalçı ölkənin davamlı təxribatlarının cavabında Azərbaycan ordusu bir neçə sarsıdıcı zərbələr endirdi ki, bu da Ermənistanın himayədarlarını açıq şəkildə narahat etdi. Hətta ordumuzun "OSA" kompleksini məhv etməsinə Moskvadan aşkar etirazın ardınca həmsədrlərin Azərbaycanı günahlandıran bəyanatı da oldu. Paralel olaraq Ermənistan tərəfin Madrid prinsiplərindən imtinaya istiqamətlənmiş açıqlamalarının ardınca savaş varinatının ciddi şəkildə gündəmə gəlməsi və Bakının prinsipial mövqeyi bəzi dairələri hərəkətə keçməyə vadar etdi. Elə ATƏT-in baş katibinin məhz belə gərgin günlərdə İrəvana səfər etməsi, daha sonra isə həmsədrlərin bölgəyə səfərinin planlaşdırılması təsadüfi deyildi. Görünən budur ki, Rusiyanın baş diplomatı da proseslərin nəzarətdən çıxa biləcəyindən ehtiyatlandığı üçün danışıqların bərpasına yönəlik çağırış edir.

**Bəs ekspertlər nə düşünür, Lavrovun Qarabağ açıqlaması hansı anlamı verir? Nazir kimə xəbərdarlıq edir: düşmənə cavab zərbələri endirən Azərbaycana, yoxsa son vaxtlar təxribatlarını artıran Ermənistana? Minsk Qrupu həmsədrlərinin səfərləri ərəfəsində Rusiya diplomatının ənənəvi olsa da, amma belə bir açıqlama verməsinin səbəbi nə ola bilər? Rusiya yenə də "Qarabağ mənlikdir" deməkmi istəyir, yoxsa hərbi əməliyyatların başlaya biləcəyi xəbərdarlıqlarını ciddiyə alır? Yeri gəlmişkən, bu bəyanat S.Sərkisyanın Azərbaycanla sərhəd bölgələrə gəlmişi gün səslənib.**

**Hərbi ekspert Üzeyir Cəfərov dedi ki, Lavrov əvvəllər söylədiyi sözləri təkrar edib:** "Dəfələrlə eyni fikri söyləyən rus diplomatı, görəsən, bizi nə sayır? Nədən o bircə dəfə də olsun işğalçını beynəlxalq hüquqa və normalara hörmətlə yanaşmağa dəvət etmir? Axı Azərbaycan kifayət qədər səbr və dözüm nümayiş etdirib. Bu illər ərzində sonsuz sayda danışıqlar prosesinin şahidi olmuşuq. Və hər dəfə də guya hansısa "uğurun bir addımlığında" işlər pozulub. Və ümumi söz yığnağı və yenə hansısa mücərrəd fikirlər. Bu arada isə biz Rusiyanın Ermənistanı aktiv şəkildə silahlandırdığının şahidi olmuşuq və oluruq. Demək olar ki, son illər işğalçıya o qədər silah-sursat təslim edilib ki, Allah göstərməsin, bu dəfə cəbhədə baş verə biləcək hadisələr çox ağır nəticələrə gətirib çıxaracaq".

**Ü.Cəfərov həmsədrlərin gözlənilən səfərindən heç bir müsbət nəticə gözləmədiyini də vurğuladı:** "Ona görə ki, bu üçlükdən daha çox Rusiya canfəşanlıq edir və onların da "canıyananlığının" necə olması haqqında bir qədər yuxarıda danışdıq. Bunlar baxt uzatmaqla, Ermənistanın maraqlarını təmin etməklə məşğuldurlar. Bunu demək olar ki, artıq hər kəs bilir və bu zərərli addımlarının fərqindədirlər. Bütün baş verənlər, sadəcə, görüntü üçün və ATƏT-in bivec Minsk Qrupu üçün hesabat tərtib etməkdən ötəri növbəti hiyləgərlikdir. Bunu anlamaq üçün heç də böyük siyasi savada malik olmaq lazım deyil. Biz onlarla məsələmizi konkretləşdirməliyik. Yoxsa bunlar hələ çox hoqqalardan çıxmaq istəyirlər".

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Sergey Lavrovun xəbərdarlıqları Azərbaycana ünvanlanıb:** "Çünki Ermənistan status-kvonu uzatmağa, Azərbaycan isə status-kvonu ortadan qaldırmağa çalışır. Status-kvonu dəyişməyin yolu isə cəbhə bölgəsində işğalçıya təzyiqin artırılmasından keçir. Bu isə Kremlin və onun təmsilçisi Sergey Lavrovun xoşuna gəlmir. Kreml Azərbaycanın güc yolu ilə torpaqlarını azad etməsində maraqlı deyil. Lavrov ondan qorxur ki, isti aylarda Azərbaycan işğalçıya qarşı hərbi təzyiqlərini artıra bilər. Ona görə də əd çəkmədən Azərbaycanı xəbərdar edir ki, biz müharibəyə başlamayaq".

**Bu arada, E.Şahinoğlu Ermənistan saytlarının xəbərlərinə ehtiyatla yanaşmağı məsləhət gördü:** "Ermənistanın hansısa saytına istinadən belə xəbər yayılıb ki, guya Rusiya erməni maraqlarını düşünmür, rus agentlər Dağlıq Qarabağa gedərək bölgənin Azərbaycana qaytarılmasıyla bağlı təbliğat aparırlar. Bu, Azərbaycan cəmiyyətinin rahatlanmasına və Rusiyaya inamının artmasına hesablanmış dezinformasiyaya oxşayır və həm işğalçı Ermənistanın, həm də Rusiyanın maraqlarına xidmət edir. Bizə aşılamaq istəyirlər ki, guya Rusiya Azərbaycanın dostudur və münaqişəni Azərbaycanın xeyrinə həll etməyə hazırlaşır".

**Düşmənin son zamanlar iki dövlət sərhədində fəallaşmasına gəldikdə, E.Şahinoğlu bunu səbəbsiz saymır:** "Ermənistan bunu ona görə edir ki, biz işğal altındakı torpaqları azad etmək üçün hərbi əməliyyata başlamayaq".

ATƏT-in Minsk Qrupunun həmsədrləri isə yaxın günlərdə İrəvana gələcəklər. Onlar bu dəfə də Qarabağa Ermənistan yolu ilə gedəcəklər. Bu isə haqlı narazılıq və suallar doğurur. Təəccüblüsü həm də odur ki, həmsədrlərin İrəvan və Xankəndinə səfərindən bir həftə sonra Bakıya səfəri planlaşdırılıb. Diplomatlar bununla Azərbaycanın ərazi bütövlüyünə qəsd etmirlərmi? Hələlik rəsmi Bakı məsələyə hər hansı reaksiya verməyib. Üstəlik, bu barədə ilk olaraq erməni nazir Edvard Nalbəndyan xəbər verib. Məntiqlə Azərbaycan onun ərazisinə kimlərin gələcəyindən ilk xəbər tutmalı idi. Bakı həmsədrlərdən tələb edə bilərmi ki, təmas xəttini keçib Qarabağa getsinlər? Bu, nə deməkdir, həmsədrlər de-fakto Qarabağı Ermənistanla bir yerdəmi görürlər? Bunun cavabı nə olmalıdır?

**Politoloq Arzu Nağıyev öncə dedi ki, bugünkü şəraitdə ATƏT-in Minsk Qrupunun həmsədrlərinin regiona səfərlərindən müsbətə doğru hər hansı dönüş gözləmək düzgün olmaz:** "Məlumdur ki, münaqişə demək olar ki, öz kulminasiya nöqtəsinə çatıb. Azərbaycan tərəfi bütün beynəlxalq norma və prinsiplərə uyğun olaraq öz təkliflərini irəli sürüb və cavab gözləyir. Məlumdur ki, atəşkəsin pozulması bəhanəsi ilə ermənilər danışıqlar prosesini uzadırlar və bununla da status-kvonun saxlanmasına nail olurlar. Əgər Minsk Qrupunun təmsil edildiyi dövlətlər Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyirlərsə, problem nə ola bilər ki? Ortada Madrid prinsipləri və digər konkret sənədlər varsa, nə üçün qərar verilmir? Düşünürəm ki, Minsk Qrupu bu suallara cavab verməlidir və ermənilərdən bunu sorğu etməlidirlər. Təbii ki, yenə Rusiya öz aktiv siyasətini yeritməli və Ermənistana təzyiq etməlidir. Əlbəttə, bunu gözləmək özü diletantlıq olardı, lakin bunu etməsi vacibdir. Əks halda, regionu bürüyə biləcək lokal hərbi əməliyyatlarla üz-üzə gələ bilərlər. Burada isə bütün regiondan söhbət gedir. Fransada yeni seçilən prezident Makron seçkiqabağı Dağlıq Qarabağla bağlı verdiyi vədləri yerinə yetirməlidir, ABŞ da onun kimi".

**Digər məqama gəldikdə, A.Nağıyev bildirdi ki, həmsədrlərin Dağlıq Qarabağ ərazisinə hansı dövlətin ərazisindən getməsi elə bir əhəmiyyət kəsb etmir:** "Yəni bu, heç də Azərbaycanın ərazi bütövlüyünün inkar edilməsi və ya BMT tərəfindən qəbul edilən sərhədlərin pozulması və ya qəbul edilməməsi kimi də şərh edilə bilməz. Hazırda səfərin Ermənistandan başlaması düşünürəm ki, məhz Ermənistanın yaranmış suallara cavab verməli olduğu ilə bağlı ola bilər. Azərbaycan tərəfi cavab gözləyən, diktə edən tərəfdir. Erməni tərəfi bu suallara cavab verdikdən sonra Dağlıq Qarabağ separatçıları öz fikir və mövqelərini ortaya qoymalıdırlar və təbii ki, həmsədrlər bu cavablarla Azərbaycana gəlməlidirlər. Yəni bizim fikirlərimiz tam şəkildə aydındır, istər Madrid prinsipləri olsun, istərsə də digər formatlar və protokollar. Bundan başqa, Ermənistanda keçirilən seçkilərdən sonra ATƏT-in Minsk Qrupunun həmsədrləri vəziyyətə aydınlıq gətirmək üçün də bu addımları ata bilərlər. Bir sözlə, elə bir əhəmiyyət kəsb etməyən məsələlər o qədər də vacib deyil, əsas məsələ bu qrupun hansı cavabla gəlməsidir".

****

**"BMT Qarabağ münaqişəsini 22 ildir həll edə bilmir". "Report" "Yeniakit"ə istinadən xəbər verir ki, bunu Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan sədri olduğu hakim Ədalət və İnkişaf Partiyasının (AKP) səfirlər üçün təşkil etdiyi 10-cu ənənəvi iftar süfrəsindəki çıxışında bildirib.** "BMT Təhlükəsizlik Şurasının 5 daimi üzvü var. Bu istiqamətdə dəyişikliyi bir çox ölkə gözləyir. Bütün problemlərin həlli 5 dövlətin iki dodağının arasından çıxan kəlmədən asılıdır. Suriya, İraq probleminin həll edə bildilərmi? Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi 22 ildir həll olunmur. Həll edə bilmezlər. Çünki biri "yox" desə, məsələ həll edilməyəcək", - deyə Ərdoğan vurğulayıb.

Həmsədrlər məhz belə bir ərəfədə, hər yerdə özlərinə inamı itirdikdən sonra gəlirlər. İnamı bərpa etmək üçün, yoxsa sadəcə, öz varlıqlarını nümayiş etdirməyə, bu sualın cavabı səfərdən sonra veriləcək...

YENİ MÜSAVAT
N 122 (6736) 8 iyun 2017

**"Böhran hər il daha da kəskinləşir. Sənaye istehsalı, ticarət dövriyyəsi getdikcə azalmaqdadır". Bunu "Crocus Group"un sahibi, milyarder Araz Ağalarov "Forbes" jurnalına müsahibəsində bildirib. Onun sözlərinə görə, Rusiyada uçot dərəcəsinin yüksək olması biznesin genişləndirilməsinə neqativ təsir edir. Milyarderin fikrincə, uçot dərəcəsini hər rüb 0,25% azaltmaq mümkündür. "Təbii ki, əgər möhtəkirlər dəcəllik edərsə, proses dayandırılmalıdır. Başqa sözlə, bir eksperiment keçirərək optimal variant tapmaq olar. Bu variant rublun məzənnəsinə də, biznesə də mənfi təsir etməməlidir", - deyə o bildirib.**

# Araz Ağalarovun bataqlıq üzərindəki biznes imperiyası

## Məşhur iş adamı "mənim üçün biznesdə avtoritet yoxdur" deyir


Araz Ağalarov

Müxbirin "Tikinti sektorunda durğunluq olduğu bir vaxtda siz üçüncü "Vegas" ticarət mərkəzini tikməkdə israrlısınız" sualına iş adamı bu cür cavab verib: "Biz istisnayıq. Çünki biz pulu saymağı bacarırıq. "Sberbank"ın apardığı tədqiqat nəticəsində məlum olub ki, tikintidə ən aşağı maya dəyəri "Crocus Group"dadır. 300 000 kvadratmetr ərazisi olan "Vegas" bizə 300 mln. dollara başa gəldi. Başqa sözlə, 1 kvadratmetrin maya dəyəri 1000 dollar təşkil edir. Bu isə bizim qənaət etməyi bacardığımızı göstərir. Bu səbəbdən "Sberbank" hətta dördüncü "Vegas"ı da kreditləşdirməyə hazırdır".

**A.Ağalarov onu da qeyd edib ki, hazırda onun kredit borcu 1,7 mlrd. dollar təşkil edir.** "Biz il ərzində kreditlər üzrə 8 mlrd. rubl ödəyirik. Əvvəllər 4 mlrd. rubl ödəyirdik və özümüzü normal hiss edirdik. O zaman kredit borcumuz 50 mlrd. rubl idi. Lakin rubl zəiflədi və borcumuz 100 mlrd. rubl oldu. Mən hətta xarici valyutada ipoteka krediti olanların mitinqinə qoşulmaq istədim, lakin sonra fikrimdən daşındım, anladım ki, mən başqa çəki kateqoriyasındayam (gülür - red.), məni anlamazlar. İndi kredit götürmək niyyətimiz yoxdur. Böyük ehtimalla, dördüncü "Vegas"ı öz vəsaitimiz hesabına tikəcəyik", - deyə milyarder bildirib.

Ağalarovun biznesindəki problemlərin ilk siqnalları isə ötən ildən başlanıb. 2016-cı ilin avqustunda Rusiyada "Kron" MMC Moskva vilayəti Arbitraj Məhkəməsinə biznesmen Araz Ağalarovun başçısı olduğu "Crocus Group"a daxil olan "Crocus International" SC-nin müflis olmasının tanınması barədə ərizə ilə müraciət etmişdi. Amma həmin vaxt Ağalarovun müflisləşməsi ilə bağlı iddianın baxılacağı tarix müəyyən edilməyib.

Mübahisə "Crocus Group" şirkətinin federal hökumətin sifarişi əsasında Asiya-Sakit okean İqtisadi Tərəfdaşlıq (APEC) sammiti üçün tikdiyi və Vladivostokda yerləşən Uzaq Şərq Federal Universitetinin obyektlərinin - sahilyanı, gəmilərin lövbər salması üçün ərazilər, süni göl, şəlalə, ümumi sahəsi 5 min kvadratmetrdən çox olan idman-sağlamlıq kompleksinin (D korpusu) dəyərinin müəyyənləşdirilməsindəki fikir ayrılığından irəli gəlib. İddiaçı - layihənin baş podratçısı sifarişçinin ona çatacaq məbləği tam ödəmədiyini bildirib.

Ağalarovun varidatı isə hər zaman üçün müzakirə mövzusu olub. Uzun illər Rusiyada güclü və uğurlu biznesi ilə ad qazanan Araz Ağalarov nələrə sahibdir? 1995-ci ildə onun sərgiləri Las-Veqasda Comdex və Hannoverdə keçirilən Cebit sərgilərindən sonra dünyada statusuna görə üçüncülük qazandı. Araz Ağalarov sonralar "Comtech"dəki payını bir ingilis şirkətinə sataraq "Krokus Siti" layihəsini həyata keçirməyə başladı.

1991-ci ildə Araz Ağalarov Stoleşnikov döngəsi ilə Petrovkanın kəsişdiyi yerdə ilk eksklüziv ayaqqabı mağazası açdı. Bu, o vaxtlar çox məşhur mağaza idi.

1995-ci ildə Araz Ağalarov yaşayış evi tikmək fikrinə düşdü və Moskvanın ən bahalı və elit evi sayılan "Ağalarov evi"nin tikintisini başa çatdırdı. Onun 1997-ci ildə Moskva dairəvi avtomobil yolu (MKAD) ilə Kaşirsk şosesinin kəsişdiyi yerdə tikdirdiyi ilk hipermarketin də dünyada tayı-bərabəri yox idi. Çünki orada eyni vaxtda 400 min adda mallar satılır.

Diqqətçəkən cəhətlərdən biri də odur ki, A.Ağalarov "Krokus siti"yə daxil olan ilk obyektlərini ya keçmiş çirkab çalaları olan yerdə, ya da bataqlıqda tikdirib. "Sənin evin" ticarət mərkəzini tikən zaman ilk traktor əraziyə girərkən bataqlıqda batmışdı. Sonradan onu qaldırıcı kranla çəkib çıxardılar. Bu bataqlıqları qurutmaq üçün orada drenaj quruldu, əraziyə çoxlu çınqıl və qum töküldü.

**A.Ağalarov eyni zamanda Ümumrusiya Azərbaycan Konqresinin də rəhbərliyində təmsil olunub. Məşhur biznesmenin ticarətlə bağlı maraqlı bir sitatı var:** "Mənim üçün biznesdə avtoritet yoxdur. Ümumiyyətlə, mən uğur qazanmış insanlara daha sadə yanışıram. Əgər kiminsə haqqında "O, bunu edib, buna nail olub, belə edib və s." tipli sözlər deyirlərsə, mən deyirəm ki, nə olsun, mən onun yerində olsaydım, daha çoxuna nail olmuşdum. Bəlkə də bu məsələdə mən yanılıram, amma belə düşünməyi tərgitmək fikrində deyiləm".

❑ **Sevinc TELMANQIZI**

# Ərəb ölkələrini bir-birinə Tramp qırdırır?

## Ekspertlərdən "gərginlik artmaqda davam edəcək" proqnozu




**Dünyanın ən zəngin müsəlman dövlətlərindən olan Qətərlə Səudiyyə Ərəbistanı və digər bir neçə müsəlman ölkəsi arasında qarşıdurma vəziyyəti yaranıb. Ərəb ölkələri arasında belə bir vəziyyətin ABŞ prezidenti Donald Trampın may ayında Səudiyyə Ərəbistanına səfərindən və "müsəlman NATO-su" kimi təqdim olunan ittifaq yaradıldığının elan olunmasından az sonra meydana gəlməsi sual yaradır. Vəziyyətin bu həddə çatmasında Donald Trampın bir neçə gün əvvəl Səudiyyə Ərəbistanına səfərinin rolu oldumu? Ərəb ölkələrinin bir-birinə girməsində ABŞ-ın əli varmı?**

**Politoloq Qabil Hüseynli** "Yeni Müsavat"a bildirdi ki, Qətər hadisəsinin baş verməsi bu ölkənin başında dayanan cavan yaşlı bir adamın təcrübəsizliyindən irəli gəlir. Siyasi təcrübəsi az olan Qətər əmiri səriştəsiz hərəkətlər edib. Bu da onun ölkəsinin ətrafında gərginliyin başlamasına gətirib çıxardı. Qarşıdurmanın körüklənməsində isə Qərbin şübhəsiz ki, rolu var. Böyük güclərin, ABŞ-ın bu vəziyyətin yaranmasında əlinin olması da istisna deyil: "Onlar yanan ocağın üzərinə benzin tökməkdə davam edirlər və nəticə etibarilə ərəb ölkələri arasında münasibətlər xeyli gərginləşdi. Trampın məlum səfərindən sonra Səudiyyə Ərəbistanı ilə daha da sıx əlaqələr quran ABŞ-ı Qətər dövlətinin "müsəlman NATO-su"ndan imtina etməsi qəzəbləndirib. Onsuz da müsəlman dünyasına qarşı tolerant olmayan Donald Trampın Qətərin bu davranışından əsəbləşdiyi və ərəb ölkələrini bir-birinin üzərinə qaldırmaq fikrinə düşdüyü müşahidə olunur.

Qətərin siyasi rəhbərliyini hakimiyyətdən uzaqlaşdırmağa çalışırlar. Bu, baş verməyincə, gərginliyin səngiyəcəyi gözlənilmir. Qətər bölgənin qazla zəngin birinci dövlətidir. Digər ərəb ölkələrinin əli ilə bu dövləti zəiflətmək planı qurulub. Çünki Qətərin kimin əlində olması məsələsi çox prinsipial əhəmiyyət kəsb edir. Odur ki, gərginlik mürəkkəbləşməkdə davam edəcək. Səudiyyə Ərəbistanının və Misirin bu məsələdə öncüllük etməsi də ondan xəbər verir ki, prosesin arxasında ABŞ dayanır. Qətər məsələsi ərəb dünyasında çox böyük bir qarşıdurma yaratmağa hesablanıb. Qətərdə hakimiyyət dəyişikliyindən sonra hədəfə İran çıxarılacaq".

**Q.Hüseynli onu da dedi ki, müsəlman dövlətlərinin bir-biri ilə qarşıdurması Azərbaycan üçün heç də xeyirli deyil:** "Neftin qiymətinin bahalaşması baxımından yaxşı olsa da, neftdən gələn gəlirlərimizin artması baxımından gərginlik müəyyən mənada xeyirli sayıla bilər. Ancaq gərginliyin dərinləşməsinin ciddi təhdidləri də var. Ona görə də Azərbaycan maraqlı olmalıdır ki, yaxınlıqda yerləşən müsəlman ölkələri arasında münasibətlər normallaşsın".

**Politoloq Elxan Şahinoğlu isə bildirdi ki, həm Səudiyyə, həm də Qətər Vaşinqtonun bölgədəki müttəfiqləridir və Ağ Ev iki müttəfiqi arasında münasibətlərin gərginləşməsini istəməzdi. Sadəcə, Ər-Riyad hiyləgər gediş etdi:** "İndi aydın olur ki, niyə Ər-Riyad Trampın iştirakı ilə "İslam, ərəb, Amerika" sammiti keçirdi? Ər-Riyad həmin sammitdə Ağ Ev sahibinin nə deyəcəyini əvvəlcədən təxmin edə bilərdi və Səudiyyənin təxminləri doğru çıxdı. Tramp birincisi dedi ki, beynəlxalq terrorçulara dəstək verməyin, onlardan uzaq dayanın, ikincisi bildirdi ki, İran bölgənin başlıca düşmənidir. Elə Ər-Riyadın Qətərə qarşı irəli sürdüyü iki iddia Trampın söylədiyi iki əsas tezisə əsaslanırdı. Tramp bəlkə də özü də anlamadan Ər-Riyadın Qətərə qarşı arqumentini gücləndirdi.

İkinci sual ondan ibarətdir ki, İran bu vəziyyətdən istifadə edərək ərəb ittifaqında çatın dərinləşdirilməsinə, Qətəri daha çox öz tərəfinə çəkməyə çalışacaqmı? Əgər Tehranda bu alınsa, Qətər Suriyadan sonra ikinci ərəb ölkəsi olacaq ki, İranla müttəfiq olacaq. Tehran artıq Qətər hakimiyyətinə müraciət edərək, gərəkən ərzaq göndərəcəyini açıqlayıb. Bəllidir ki, Qətər varlı dövlət olsa da, iqlim şəraitinə görə özünün yetişdirdiyi məhsullar çox azdır. Ancaq Qətərin sünni ərəb dünyasından üz döndərərək İranla müttəfiq olacağını zənn etmirəm. Bu, Qətərin sonunu yaxınlaşdırar. Ona görə də Qətər tədricən "əl-Qaidə", DAİŞ, "Müsəlman qardaşları" kimi qruplaşmalara dəstəkdən əl çəkəcək, İranla yaxınlaşmaqdan vaz keçəcək. Bunu etmədən Qətərin təhlükəsizliyi sual altında qalacaq".

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 122 (6736) 8 iyun 2017

**Məşhur hotel sifarişi saytı olan booking.com-un Azərbaycanın işğal olunmuş ərazilərində mehmanxana sifarişlərini həyata keçirməsi ölkəmizdə narahatlığa səbəb olub. Bununla bağlı Azərbaycan Xarici İşlər Nazirliyi “Booking.com” hotel sifarişi şirkətinə müraciət edib. Qeyd edək ki, bu artıq XİN-in “Booking.com”a ikinci müraciətdir. Müraciətdə deyilir ki, şirkətin Azərbaycanın işğal olunmuş ərazilərində mehmanxana sifarişlərini həyata keçirməsi beynəlxalq hüququn norma və prinsiplərinə, Ümumdünya Turizm Təşkilatının Nizamnaməsinə və müvafiq qərarlarına, Turizmə dair Qlobal Etik Məcəlləyə köklü şəkildə ziddir:**

# İşğal olunmuş ərazilərimizdə hotel sifariş edən saytı necə cəzalandıraq...

## Türkiyədən sonra Azərbaycanda da “booking.com”un fəaliyyəti dayandırıla bilərmi...

“Azərbaycanın işğal olunmuş əraziləri qanuni beynəlxalq pulköçürmə əməliyyatları üçün qapalıdır. Ancaq ”Booking.com" üzərindən onlayn ödənişlər edilir. Şirkətin bundan qazanc əldə etməsi qanunsuzdur. Çirkli pulların yuyulması kontekstində nəzərdən keçirilməlidir. Ümumdünya Turizm Təşkilatının Turizmə dair Qlobal Etik Məcəlləsinə əsasən, turistlərdən və turizm sahəsində fəaliyyət göstərən şirkətlərdən səfər edilən ölkənin qanunlarına hörmət etmək və turizm səfəri zamanı cinayət əməlləri və səfər edilən ölkənin qanunlarına görə cinayət hesab oluna biləcək hər hansı fəaliyyətdən kənar durmaq tələb olunur. “Booking.com” şirkətinin bu fəaliyyəti korporativ biznes etikasına ziddir. Şirkətin nüfuzuna mənfi təsir göstərən amildir".




Nazirlik bildirir ki, beynəlxalq hüququn norma və prinsipləri, ÜTT-nin Nizamnaməsi, Turizmə dair Qlobal Etik Məcəllə, ÜTT-nin İcraiyyə Şurasının müvafiq qərar və tövsiyələrinə əsasən “Booking.com” şirkəti Azərbaycanın işğal olunmuş ərazilərinin turizm məntəqəsi kimi təşviq edilməsi və orada mehmanxana sifarişlərinin həyata keçirilməsi kimi əməllərinə son qoymalıdır.

Qeyd edək ki, şirkət Azərbaycan tərəfinin etirazlarını diqqətə almazsa, bu saytın Azərbaycanda fəaliyyətinin dayandırılması da gündəmə gələ bilər. Ancaq ekspertlər bunu effektiv yol hesab etmirlər. Əgər Azərbaycanda sayta girişə blok qoysalar, bu, xaricilər üçün böyük problem olmayacaq. Çünki onlar öz ölkələrindən girib istədikləri hoteli sifariş edə biləcəklər.

Xatırladaq ki, bir müddət öncə qardaş Türkiyədə “Booking.com”un fəaliyyəti dayandırıldı. Saytın Türkiyə ərazisində yasaqlanması ilə bağlı şikayəti Türkiyə Səyahət Agentlikləri Birliyi (TÜRSAB) açıb. İddiada bildirilirdi ki, “Booking.com” haqsız rəqabət göstərib. Nəticədə turizm agentlikləri zərər görüb. Başqa bir səbəb kimi isə şirkətin vergidən yayınması göstərilir. İstanbul Ticarət Məhkəməsi TÜRSAB-ın iddiasını haqlı sayıb. “Booking.com”un Türkiyədəki fəaliyyətlərini dayandırma qərarı alıb.

Məlumat üçün bildirək ki, Hollandiyaya məxsus “Booking.com” hotel sifarişi şirkəti turistlərin ən çox istifadə etdiyi, dünyanın ən böyük hotel axtarış saytlarından biridir. Burada turistlər üçün hosteldən tutmuş 5-7 ulduzlu hotellərə qədər hər cür seçim imkanı var.

Bəs görəsən, “Booking.com” məlum siyasətindən əl çəkməzsə, onun fəaliyyəti Türkiyədən sonra Azərbaycanda da dayandırıla bilərmi? Bu, problemin həllində nə dərəcədə faydalı olar?

**“Yeni Müsavat”ın sualını cavablandıran Natiq Cəfərli bildirdi ki, hotel sifarişləri qəbul edən bu cür saytlar hər bir ölkənin ərazi bütövlüyünə hörmət etməli, terrorizmin dəstəklədiyi ərazilərdə olan hotellərin reklamına həssaslıqla yanaşmalıdır:** “Çünki Azərbaycanın işğal olunmuş ərazilərində fəaliyyət göstərən hotellərin reklam edilməsi sanki Azərbaycanın işğal altında olan ərazilərinin legitimliyinin azalmasına xidmət edir. Bu baxımdan, Xarici İşlər Nazirliyinin açıqlaması doğru açıqlamadır. İradları da haqlıdır. ”Booking.com" bu kimi məsələlərə diqqət yetirməlidir. Bu bəyanatlardan əlavə, problemi həll etmək üçün normal danışıq xətti olmalıdır. Ya XİN tərkibində, ya da hökumətin tərkibində bu kimi məsələləri operativ həll etmək üçün qərargah formalaşdırılması daha doğru olar. Çünki zaman-zaman buna bənzər hadisələri biz görürük. Saytın özünün bloklanması da ciddi effekt verməyəcək. Bu, turizm şirkətləri üçün də problem yarada bilər. Azərbaycanda son zamanlar saytlara əngəllərin yaradılması əhalinin böyük bir hissəsinə digər proqramlardan istifadə etməklə, o saytlara girişi təmin etməyi öyrətdi. Hökumət bu addımı ilə insanları yeni texnologiyalarla tanış olmağa məcbur etdi. O baxımdan, bloklanma effekt verməyəcək. Kim istəsə alternativ yollarla sayta girə biləcək".

**N.Cəfərlinin sözlərinə görə, ölkəmizdə blok olunsa belə saytda işğal altında olan ərazilərimizlə bağlı yanlış məlumat başqa ölkələrdə oxunacaq:** “O baxımdan, Azərbaycanda bu saytın bloklanmasının heç bir məntiqi ola bilməz. ”Booking.com"la danışıqlar aparıb bu məlumatların oradan çıxarılması və gələcəkdə bu kimi informasiyaların orada yerləşdirilməməsi ilə bağlı anlaşmaya ehtiyac var. Bu, tamhüquqi şəkildə olmalıdır.

Beynəlxalq hüquq bu məsələdə bizim tərəfimizdədir. Ona görə də “Booking.com” da bu müraciətlərin qarşısında adekvat addım atacaq, bu kimi məlumatların yayılmasının qarşısını almaqda maraqlı olacaq. Ancaq ölkə ərazisində saytı bloklamağın bir xeyri olmayacaq. Biz görməsək də, bütün dünya işğal altındakı ərazilərimizdə olan hotellərin adını və kordinatlarını görəcək. Ona görə də danışıqlar aparmaqla bu məsələni həll etmək daha məqsədəuyğundur".

Türkiyədə “Booking.com” saytının fəaliyyətinin dayandırılmasına toxunan Natiq Cəfərli bildirdi ki, qardaş ölkədə eyni fəaliyyəti həyata keçirən bir çox saytlar mövcuddur: “Booking.com” beynəlxalq şəbəkə olduğu və daha çox izləyicisi və istifadəçisi olduğu üçün hotellərdə daha ucuz qiymətlərin təklif olunmasına nail olub. Bu da rəqabətli mühitə ziyan vurururdu. Bu səbəbdən Türkiyə tərəfinin rəsmi dairələri də açıqlama verdilər ki, “Booking.com” rəqabət qanunlarını pozur. Əslində bu addım da effekt vermədi. Çünki sayt blok olunsa da insanlar müxtəlif yollarla ora daxil ola bilirlər. Artıq Türkiyə hökuməti də “Booking.com”la çox ciddi danışıqlar aparır ki, ölkə ərazisində haqsız rəqabətə son qoysun. Bu kimi problemlər ancaq qarşılıqlı razılaşma və anlaşma ilə həll oluna bilər".

❑ **Nərgiz LİFTİYEVA**



# Avropa özünün yaratdığı terror təşkilatlarının hədəfinə çevrilir - səbəblər...

## Elçin Mirzəbəyli: “Terrorizm idarə olunması mümkün olmayan dəhşətli silahdır”

**İyunun 4-də Böyük Britaniyanın paytaxtı Londonda törədilən terror aktı bir mühüm məsələni də gündəmə gətirdi. Belə ki, vaxtilə Britaniya da daxil olmaqla, bəzi Avropa ölkələrinin məhz gizli əlləri ilə yaratdıqları iddia olunan terror təşkilatlarının sonradan onların özünü hədəfə aldıqları sezilir. Bir növ “özgəsinə quyu qazan” bu ölkələrin özləri həmin quyuya düşürlər...**

Zaman-zaman təhlükəli terror təşkilatlarının mövcudluğunda Avropanın əlinin olması barədə fikirlər səslənir. Vaxtilə “əL-Qaidə”nin Amerika tərəfindən yaradıldığı barədə danışılırdı. Sonunda bu terror qrupu məhz Amerikanı hədəf aldı. İndi də İŞİD-in yaradılmasında bir sıra ölkələr kimi Britaniyanın da adı hallanır. Son iki ay göstərdi ki, hazırda İŞİD-in əsas hədəfi məhz bu dövlətdir. Terror qruplarının onlara dəstək olan ölkələri belə hədəf etmələri daim suallar doğurur. Nə qədər inandırıcı olmasa da, fikirlər var ki, izi azdırmaq üçün belə terror faciələri törədilir. Hətta burada terrora məruz qalan dövlətlərin də faciədən əvvəldən xəbərdar olduqları vurğulanır. Amma bu məsələ ətrafında səslənən fikirlər birmənalı deyil.

**Politoloq Elçin Mirzəbəyli səslənən fikirlərə bu mövqedən yanaşır:** “Terror qrupları, terrorçular heç vaxt sonunadək idarə oluna bilməzlər. Çünki bu qrupların öz hədəfləri, öz maraqları olur. Doğrudur, onlar adətən böyük dövlətlərin əsasən dini və separatizm zəminində formalaşdırdığı ideologiyaların daşıyıcıları olurlar. Lakin bu, birtərəfli qaydada olmur. Radikal ideologiyaları adətən belə ideologiyalara meylli adamlar mənimsəyirlər. Böyük dövlətlər müəyyən zaman kəsiyində öz maraqları üçün terrorçulardan və terror qruplarından istifadə edirlər, amma müəyyən bir vaxtdan sonra bu qruplar ya gücə çevrildiklərini düşünüb müstəqil hərəkət etmək niyyətinə düşürlər, ya onlara daha geniş imkan daşıyan başqa bir gücün diktəsi ilə hərəkət edirlər, ya da bu qrupları idarə edənlər onlardan qurtulmaq, cinayətin izini silmək istiqamətində hərəkətə keçirlər ki, bu da əks-reaksiyanın ortaya çıxmasına səbəb olur. Nəzərə almaq lazımdır ki, radikal ideologiyaların təsiri altına düşənlər adətən zəif xarakterli, müstəqil fikri olmayan, cahil, iradəsiz və emosional adamlar olurlar. Onları intellekt və dünyagörüşü deyil, hisslər idarə edir. Qısası, səbəblər çoxdur və bu məsələdə insan faktoru əsas olduğu üçün də fərdi yanaşmağa ehtiyac duyulur. Mən ümumi məqamlara toxundum. Səbəb çox sadədir. Çünki Qərb belə çirkli məqsədlər üçün öz vətəndaşlarından istifadə edə bilməz. Avropada insan amili çox güclüdür, Şərqdə, müsəlman ölkələrində isə yox. Digər tərəfdən, hansısa ölkəyə hərbi qüvvə yeritmək həm böyük xərc, həm də insan resursları tələb edir. Təsəvvür edin, hansısa Avropa ölkəsinin vətəndaşı açıq, yaxud gizli hərbi əməliyyatlar zamanı qətlə yetirilib və cəmiyyət də bunu rahatlıqla qəbul edir... Təsəvvür edə bilməzsiniz. Amma müsəlman ölkələrinin əksəriyyətinin 100 vətəndaşı belə terror aksiyasında, yaxud hərbi əməliyyatlar zamanı qətlə yetirilsə, bu ən yaxşı halda 1 gün sonra unudulacaq xəbərə çevrilə bilər. Bununla yanaşı, şübhəsiz ki, terrorizm idarə olunması mümkün olmayan dəhşətli silahdır. İŞİD-lə bağlı prezident sübuta yetirdi ki, terror təşkilatları hətta nəhəng əraziləri belə nəzarətə götürə, dünyaya meydan oxuya bilərlər”.

Politoloq bəzən dövlətlərin hədəflərinin bəşəri dəyərləri də üstələdiyini qeyd etdi: “Bəzən böyük dövlətlərin hədəfləri və bu hədəflərə çatmaq uğrunda mübarizə bütün bəşəri dəyərləri üstələyir. Digər tərəfdən, hansı Avropa ölkəsində müharibə gedir ki? Heç birində. Terrorçu da, terrora məruz qalan da müsəlman ölkələrinin vətəndaşlarıdır. Həm də Avropa sərhədlərindən xeyli uzaqda. Ox yaydan çıxıb artıq. Bəşəriyyəti yenidən öz məcrasına qaytarmaq çox çətin olacaq”.

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 122 (6735) 8 iyun 2017

# 200 manata görə adam öldürdü



**Oğurluq məqsədilə girdiyi evdə qətl törədən şəxsin məhkəməsi baş tutub. Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində quldurluq yolu ilə qətl törətməkdə təqsirləndirilən Rövşən Xalıqovun cinayət işi üzrə məhkəmənin baxış iclası keçirilib. Hakim Azad Məcidovun sədrliyi ilə keçirilən prosesdə dövlət ittihamçısı ittiham aktını elan edib.**

İttihama görə, Rövşən Xalıqov oğurluq məqsədilə Viktor Lituxinin evinə girib. Ev sahibi ilə qarşılaşarkən onu küt alətlə vuraraq qətlə yetirib. Elan olunmuş ittiham üzrə R.Xalıqov özünü təqsirli bilib və istintaqa verdiyi ifadəsini təsdiq etdiyini söyləyib.

**O, pul lazım olduğu üçün V.Luxinin evinə girdiyini deyib:** "Amma istəmədən bu hadisə baş verdi. Onun başına iki dəfə çəkiclə vurdum. Evdən 200 manat pul və pul kartı götürdüm. Əməlimdən peşmanam".

Qətlə yetirilən şəxsin heç kimi olmadığı üçün hüquqi varis kimi Qaradağ Rayon İcra Hakimiyyətinin nümayəndəsi Sərdar Hüseynov tanınıb. O, ifadəsində R.Xalıqova tutduğu əmələ görə cəza verilməsini istəyib.

**Şahid qismində Nigar Ələkbərova ifadəsində qeyd edib ki, qətlə yetirilmiş Viktor Lituxin onun atasının dostu olub:** "Hadisədən sonra axşam tərəfi Viktora zəng vurdum, o, telefonu götürmədi. Səhərisi günü onun evinə getdim, yenə qapını açmadı. Evdən pis iyi gəlirdi. Polisə məlumat verdik. Qapı açılanda onun öldürüldüyü məlum oldu".

Növbəti məhkəmə iclası iyunun 14-nə təyin edilib.

Qətl hadisəsi ötən il iyunun 28-də Qaradağ rayonunun Lökbatan qəsəbəsində baş verib. Qəsəbədə yaşayan Viktor Lituxinin baş nahiyəsində xəsarət olan və qismən çürüməyə məruz qalmış meyiti mənzilində tapılıb.

Araşdırmalar zamanı hadisəni törədən əvvəllər məhkum olunmuş R.Xalıqov saxlanılıb.

O, Cinayət Məcəlləsinin 120.2.11-ci (qəsdən adam öldürmə, quldurluq, hədə-qorxu ilə tələb etmə) və 181.3.3-cü (quldurluq, zərərçəkmişin sağlamlığına ağır zərər vurmaqla törəldildikdə) maddəsi ilə ittiham olunur.

Xatırladaq ki, R.Xalıqov daha əvvəl də oğurluqda təqsirli bilinərək həbs edilib.

❑ **İ.MURADOV**

**İzrail ənənəsi əsasında özəl tibbi sahədə 20 illik təcrübə!**
**XƏSTƏLİKDƏN ƏZAB ÇƏKƏN İNSANLARA ƏSASƏN KİŞİLƏRƏ!**
**DİQQƏT!!! AXIRINCI ŞANS!!!**

Azərbaycanda və yaxud xaricdə diaqnozun təsdiqi və tam müalicəsi mümkün olmayıbsa, **doktor VAİZ SƏMƏDOV** şəxsi tibbi metodikası ilə Sizin uğurlu və daha qarantili olaraq aşağıdakı xəstəliklərinizi keyfiyyətli müayinə və müalicə edə bilər.

- ✳ **Diaqnozu bilinməyən ağır hallar;**
- ✳ **Xərçəngə şübhəli olan prostat düyünlü adenoması. Prostatitlər; Qipertrofiya və ya Atrofiya**
- ✳ **Cinsi zəiflikdən tam impotensiyadək, marağın və aktların azalması;**
- ✳ **Vaxtından tez toxum ifrazatı (səbəbdən asılı olmayaraq)**
- ✳ **Toy gecəsinin uğursuzluqları (kişi tibbi problemlər)**
- ✳ **Sidikdə və ya spermada qan;**
- ✳ **Spermanın azalması və itməsi;**
- ✳ **Kişi cinsi orqanının birdən əyilməsi və balacalması;**
- ✳ **Oğlan uşaqlarında cinsi orqanların (penisin və xayaların) inkişafdan qalması;**
- ✳ **Hormonal və infeksion səbəbli sonsuzluq (kişi və qadınlarda);**
- ✳ **Tala-tala və hərtərəfli saçların tökülməsi;**
- ✳ **Gecə-gündüz uşaq və böyüklərdə sidik aktların pozulmaları; Enurez**
- ✳ **50 yaşdan sonra oynaqlarda və onurğada baş verən qeyri travmatik ağrılar və hərəkət çətinlikləri;**
- ✳ **Sesksual inamsızlıq, gərginlik və qorxu nevrozları.Yuxu pozğunluqları**
- ✳ **Zöhrəvi xəstəliklərdən sonra qalıqlar və ağırlaşmalar.**

---

**D-r V.Səmədovun əsas tibbi prinsipi - keyfiyyətli və təkrarsız müalicə aparmaq üçün xəstəliyin əsl və bütün səbəblərini aşkar etmək zəruridir.**

---

*Qəbula yazılmaq və ünvanı öyrənmək üçün saat 11-dən 23-ə dək,* ***(050) 213-88-05*** *nömrəsinə,* ***d-r Vaiz Səmədova*** *zəng etmək olar.*

Qəbul növbə ilə hər gün saat 12-dən sonra başlayır.



## Dəhşətli avtoqəzada ana və iki oğlu öldü

**Hacıqabulda ağır qəza baş verib. APA-nın məlumatına görə, "Ford" markalı mikroavtobusun yoldan çıxaraq aşması nəticəsində ölənlərin iki qardaş və onların anası olduğu müəyyən edilib. Onlar Ucar rayonu Müsüslü kənd sakinləri 1994-cü il təvəllüdlü Abdullayev Hamil Şükür oğlu (sürücü), 1989-cu il təvəllüdlü Abdullayev Samir Şükür oğlu, 1966-cı il təvəllüdlü Abdullayeva Gülzar Knyaz qızıdır. Qəza nəticəsində xəsarət alan 6 yaşlı oğlanın Abdullayev Samirin oğlu olduğu bildirilir.**

Məlumata görə, qardaşlar analarını Bakıya xəstəxanaya gətirirmiş.

## Azərbaycandan 120 min dollar çıxaran Rusiya vətəndaşları tutuldular

**Xaçmaz Gömrük İdarəsinin Gömrük hüquqpozmalarına qarşı mübarizə şöbəsinə daxil olmuş əməliyyat məlumatı əsasında, idarənin "Samur" gömrük postunda Rusiya Federasiyası istiqamətinə gedən üç Rusiya vətəndaşının üzərində şəxsi yoxlama aparılıb.**

Dövlət Gömrük Komitəsinin mətbuat xidmətindən virtualaz.org-a verilən məlumata görə, yoxlama nəticəsində həmin şəxslərdən ikisinin ayaqqabısında, birinin isə corablarında gömrük nəzarətindən gizlədilmiş, cəmi 120.000 ABŞ dolları aşkar olunaraq götürülüb.




## Bakıda qadınlara hücum edən şəxs tutuldu

**Bakıda qadınlara qarşı zorakılıq edən şəxs saxlanılıb. ARB TV xəbər verir ki, iyun ayının 3-ü saat 18 radələrində Nəsimi rayonu ərazisində naməlum şəxs Bakı şəhər sakini Ülkər Rəhimovaya zor tətbiq etməklə, onun qızıl boyunbağısını qırıb götürərək, hadisə yerindən qaçıb.**

Nəsimi Rayon Polis İdarəsi və ərazidə olan Əlahiddə Çevik Polis Alayı əməkdaşlarının operativ şəkildə həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində qeyd edilən cinayəti törətməkdə şübhəli bilinən əvvəllər məhkum olunmuş Alı Tağıyev hadisə yerindən bir neçə yüz metr kənarda saxlanılıb. Araşdırma zamanı saxlanılan şəxsin həmin gün Nəsimi rayonu ərazisində Dilarə Qəniyeva adlı başqa bir qadını da döyərək, qızıl boyunbağısını quldurluq yolu ilə ələ keçirdiyi məlum olub.

Faktla bağlı Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb, araşdırmalar aparılır.

Polis əməkdaşları quldurluq və soyğunçuluq etməkdə şübhəli bilinən bu şəxsin digər cinayətlərdə iştirakını istisna etmirlər. Onun əməllərindən zərərçəkən başqa vətəndaşlar varsa, bu barədə Daxili işlər Nazirliyinin "102" Zəng Mərkəzinə və ya Nəsimi RPİ-yə müraciət edə bilərlər.

## Məhkəmə söyüşə görə adam bıçaqlayan şəxsə bəraət verdi

**Bakı Ağır Cinayətlər Məhkəməsində qəsdən sağlamlığa ağır zərər vurmaqda təqsirləndirilən Eldəniz Abbasovun cinayət işi üzrə məhkəmə prosesi başa çatıb.**

APA-nın xəbərinə görə, hakim Novruz Kərimovun sədrliyi ilə keçirilən prosesdə hökm oxunub.

Hökmə əsasən, E. Abbasov barəsində bəraət hökmü çıxarılıb və o, məhkəmə zalından azadlığa buraxılıb.

Məhkəmə onun əməlində cinayət tərkibi olmadığı və hadisənin zəruri müdafiə vəziyyətində baş verdiyi qənaətinə gəlib.

Qeyd edək ki, hadisə ötən ilin oktyabrında Bakının Nəsimi rayonunda qeydə alınıb. Bakı şəhər sakini, 1999-cu il təvəllüdlü İsabala Allahverdiyev kəsilmiş-deşilmiş xəsarətlərlə xəstəxanaya yerləşdirilib. Onu xilas etmək mümkün olub. Əməliyyat tədbirləri nəticəsində İ. Allahverdiyevə bıçaq xəsarəti yetirməkdə şübhəli bilinən Bakı şəhər sakini, 1975-ci il təvəllüdlü Eldəniz Abbasov saxlanılıb.

Araşdırma zamanı məlum olub ki, onlar aralarında yaranmış mübahisə zəminində bir-birilərini bıçaqlayıblar. İ. Allahverdiyev E. Abbasovun yaşadığı əraziyə gələrək, orda ucadan söyüş söyüb. Bu isə E. Abbasovun narazılığına səbəb olub. E. Abbasovun xəsarəti yüngül olduğundan o, həkimə müraciət etməyib.

# Qətər böhranı "qara qızıl"ın qiymətini bahalaşdıracaqmı...

**Dünyada ən böyük qaz ehtiyatlarına sahib ölkələrdən biri olan Qətər son günlər diplomatik baxımdan demək olar ki, təcrid olunub. Ərəb ölkələri bir-birinin ardınca Qətərlə əlaqələrini kəsməsi haqqında bəyanat verir. Bəs görəsən, bu baş verənlər dünya bazarında neftin və qazın qiymətinə təsir edə bilərmi?**

## "Bu ölkədə neft hasilatı tamamilə dayansa belə, onun dünya neft bazarına hər hansı bir təsiri olmayacaq"

**Bu sualı cavablandıran Neft Araşdırmalar Mərkəzinin rəhbəri İlham Şaban bildirdi ki, Qətər böhranı faktiki olaraq neftin qiymətinə təsir göstərmir:** "Neftin son günlərdəki qiymətləri də onu göstərdi ki, Qətər ətrafında yaranmış durumun bu məsələyə heç bir aidiyyəti yoxdur. Söhbət təkcə ondan getmir ki, Qətər çox az neft hasil edir və dünya bazarına az neft çıxarır. Bu ölkənin cəmi 600 min barel neft hasilatı var. Bu, Azərbaycanın hasil etdiyi həcmlərdən kifayət qədər azdır. Ölkəmizin 780 min barel neft hasilatı var. Qətər dünyada qaz hasilatı ilə bağlı mühüm yer tutur. Bu da Cənub Fars yatağının ona düşən hissəsi ilə əlaqədardır. Əgər dünya üzrə qaz hasilatçılarını sıralasaq, İran və Rusiyadan sonra Qətər gəlir".

**Ekspertin sözlərinə görə, bu ölkənin neft hasilatı dayansa belə, bazarda ciddi şəkildə hiss olunmayacaq:** "Vaxtilə 2008-ci ildə Gürcüstan-Rusiya müharibələri zamanı iki həftə Azərbaycan neftinin dünyaya çıxışı bütün boru kəmərləri üzərindən dayandı. O zaman faktiki olaraq Azərbaycan 800 min barelə yaxın neft ixrac edirdi. Bunu dünya bazarı hiss etmədi. İndi Qətərin neft hasilatının dayanması da bazara təsir edə bilməz. Bunun birjalara informativ təsiri belə olmadı. Cümə günü birjalar 49,95 dollarla bağlanmışdı. Artıq 49, 55 civarındadır. Ancaq bu cüzi ucuzlaşma da Qətərlə bağlı deyil. Amerika faktoru, oradakı neft ehtiyatlarının artırılması ilə bağlı proqnozlarla bağlıdır.

Qətərə qarşı embarqo qoyulması haqqında mətbuatda yazılar dərc olunur. Lakin məsələ burasındadır ki, bu embarqonu Qərb qoymur, Şərq ölkələri, BƏƏ, Misir və digərləri qoyur. Bu ölkələr də özləri neft ölkələridir. Onlar onsuz da Qətərdən neft almırdılar".



**İlham Şabanın sözlərinə görə, Qətər qazının dünya bazarına çıxışı ilə bağlı da hər hansı problemin yaranacağı gözlənilən deyil:** "İndi "Qazprom" şirkətinin nümayəndəsi bildirir ki, vəziyyət daha da gərginləşsə, qazın qiymətlərinə təsir edə bilər. Söhbət maye qazın qiymətindən gedir. Ancaq Qətər öz maye qaz tankerlərini yola salıb. Birləşmiş Ərəb Əmirlikləri onun qarşısını almayacaq. Fars boğazının yarısı İrana bağlıdır. İran isə Qətərə dəstək verir. Problem o zaman olar ki, Qətərdən Amerika da üz döndərər. Çünki Qətərin paytaxtında Amerikanın Körfəz üzrə donanmasının qərargahı yerləşir. Onlar üçün heç bir problem yoxdur, təhlükəsizlikləri də qorunur. Həmçinin Qətərin terrorçuları dəstəkləməsi ilə bağlı ciddi bir sübut yoxdur.

Bir məsələni də qeyd etmək lazımdır ki, Qərb üçün bütün müsəlman aləminin yekdil fikirlə çıxış etməsi önəmli deyil. Elə Yaxın Şərq ölkələrinin bir-birinə qarşı antaqonist fikirlərdə olması onların da xeyrinədir. Belə olan halda istər iqtisadi, istərsə də siyasi məsələlərdə öz siyasətlərini çox yaxşı formada həyata keçirə bilirlər".

❑ **Nərgiz LİFTİYEVA**

# Ölkədə baramaçılığa maraq artıb

## Baramaçılar artıq 3500-4000 manat gəlir əldə edə bilir…

**Kənd Təsərrüfatı Nazirliyi KİV nümayəndələrini baramaçılıq sahəsində görülən işlərlə yaxından tanış etmək məqsədilə media-tur təşkil edib. Qax və Şəki rayonlarına səfər edən jurnalistlər öncə Qax Damazlıq İpəkçilik Stansiyasında olublar (QDİS).**



Nazirliyin mətbuat xidmətinin rəhbəri **Murtuzəli Hacıyev** qeyd edib ki, dövlət başçısının ölkədə ipəkçiliyin sürətli inkişafı ilə bağlı tapşırıqlarına uyğun olaraq 2016-cı ildən etibarən Kənd Təsərrüfatı Nazirliyi tərəfindən ölkədə ipək istehsalının müasir infrastrukturunun yaradılması, baramaçılığın yem bazasının möhkəmləndirilməsi, barama toxumçuluğunun təşkili və digər istiqamətlər üzrə tədbirlərin həyata keçirilməsinə başlanılıb. Nazirlik əməkdaşının sözlərinə görə, ötən il Çindən ölkəmizə 1,5 milyon ədəd tut tingləri gətirilib. Həmin tinglər 37 rayonda 3 mindən artıq kümçülərə (baramaçılıqla məşğul olanlara) paylanılıb: "Bu gün Qaxda artıq 72 ailə kümçü ilə məşğul olur ki, bu da ailə təsərrüfatlarının gəlirinin artırılmasında əsas vasitələrdən biridir. Qeyd edim ki, rayonlarda respublikaya dəvət edilmiş Çin Xalq Respublikasının mütəxəssislərinin nəzarəti altında 150 hektara yaxın sahədə yeni intensiv tipli tut bağlarının salınması təmin edilib. Yeni salınan bağlarda əkilmiş tinglərdən 95-100 faiz səviyyəsində çıxış əldə edilib və hazırda bu bağlarda aqrotexniki qulluq işləri davam etdirilir".

**Nazirlik əməkdaşı onu da qeyd edib ki, qarşıya hədəf 130 ton barama məhsulu qoyulsa da, gələcəkdə 250-300 tondan artıq barama istehsalı gözlənilir:** "Bu da qarşıya qoyulan hədəfdən 2,5 ton çoxdur. Bildiyiniz kimi, dövlət tərəfindən ipəkçiliyin inkişafına dəstək, qayğı var. İpəkçilikdə növündən asılı olmayaraq hər təhvil verilmiş 1 kq üçün 5 manat subsidiya verilir. Qalan 4 manat isə "Şəki İpək" ASC tərəfindən ödənilir".

Murtuzəli Hacıyev həmçinin vurğulayıb ki, prezidentin sərəncamına əsasən QDİS-in bərpası, əlavə istehsal sahələrinin yaradılması və müasir avadanlıqla təchiz olunması üçün Prezidentin Ehtiyat Fondundan Kənd Təsərrüfatı Nazirliyinə 4,5 milyon manat vəsait ayrılıb.

**QDİS direktoru Əkrəm Fətəliyev isə qurumun fəaliyyəti haqqında jurnalistlərə geniş məlumat verib:** "Bu il Çindən 6 min qutu qurd gətirilib. Qax rayonuna isə 250 qutu qurd verilib. Bundan da 12 tondan çox barama gözlənilir. Çindən gətirilən qurdlar həqiqətən də tez məhsul verir, keyfiyyətlidir, sağlamdır. Təxminən bir həftəyə bütün proseslər bitəcək. Kümçülər barama işinə çox böyük maraq, həvəs göstərirlər. Bu gün (dünən-red.) iki tona yaxın məhsul götürəcəyik. Yaxşı kündəmlər tez məhsul gətirir. Yəni baxılan kündəmlər tez, zəif baxılan kündəmlər isə zəif yem verir. Rayonun 12,5 ton planı var idi. Dünən (srağagün-red.) artıq 1,7 ton götürüldü. Yaxşı işləyən kümçülər təxminən 1 ay ərzində hazırladığı məhsul üçün 3500-4000 manata qədər gəlir əldə edə bilir".

**Jurnalistlər baramaçılıqla məşğul olan ailələrlə də yaxından tanış olublar. Marsan kənd sakini Səbuhi Arınov ilk dəfədir ki, baramaçılıqla məşğul olduğunu və yaxşı gəlir əldə etdiyini deyib:** "Bu il 54 qram toxum götürmüşdüm. Bundan da təxminən 150 kq barama istehsal etmişəm. Baramaçılıqda yem bazası yaradılması üçün təxminən 500 ədəd ting əkmişəm. Bir ay barama bəsləmişəm və orta hesabla bundan 1300 manatdan çox gəlir əldə edəcəyəm".

**Qaxın Alatəmir kəndində olarkən jurnalistlərə bildirildi ki, kənddə yaşayan çoxlu sayda gürcü ailəsi bu il baramaçılığa böyük maraq göstərib. Onlardan biri də Otoraşvili Rodriqodur. O, ailəsi ilə birlikdə baramaçılıqla məşğul olduğunu deyib:** "Barama almışam, ailəmlə birgə bu işlə məşğuluq. Yaxşı məhsul gözləyirik. 100 qram qurd almışam, bundan da 300 kq barama alacam. İşləyəndə qazanc da olur. 1 kq baramaya 9 manat verilməsi bizi bu işə cəlb etdi və çox razıyıq. Hətta deyim ki, qiymət 10 manat olarsa, artıq hər kəs bu işlə məşğul olacaq".

Daha sonra jurnalistlər baramaçılığın inkişafı üçün yeni salınmış tut bağları və Şəki rayonunda yerləşən "Şəki İpək" ASC ilə tanış olublar. Qurumun idarə heyətinin sədri Nizami Qəribov qeyd edib ki, 2017-ci il 31 may tarixinə müəssisə tərəfindən ölkənin 8 rayonundan 8,5 tona yaxın yaş barama məhsulu qəbul edilib və hazırda bu proses davam edir.









❑ **Xalidə GƏRAY**

# YENİ MÜSAVAT

## Son səhifə

N 122 (6736) 8 iyun 2017




### Mozambikdə keçəlləri öldürürlər

Mozambik polisi keçəlləşmədən əziyyət çəkən sakinlərinə həyatlarına yönələn təhlükə barədə xəbərdarlıq edib. Bu barədə "The Guardian" xəbər verir. Problemin mövcudluğu barədə ölkədəki iki keçəl kişinin qəddarcasına öldürülməsindən sonra xəbər veriblər. Ölənlərdən birinin başı kəsilib və daxili orqanları çıxarılıb.

Mozambikin hüquq-mühafizə orqanları cinayətin baş verməsində 20 yaşlı iki kişidən şübhələnirlər. Onlar həbs olunandan sonra etiraf ediblər ki, daxili orqanları uğur gətirsin deyə müştərilərə satıblar. Polis nümayəndəsi İnasio Dinanın sözlərinə görə, qətlin motivləri sözügedən bölgədə yayılmış inancla bağlıdır. Həmin inanca görə, yerli insanlar keçəllərin varlı olduğu qənaətinə gəliblər. Dina ritual qətlləri albinoslar üzərindəki ovla müqayisə edib. 2014-cü ildə Mozambikdə 100-ə yaxın albinosun üzərinə hücum edilib. Onların orqanlarından dərman ləvazimatlarının hazırlanması üçün istifadə olunub. May ayında məlum olmuşdu ki, Sierra-Leonda doğulan və cadugərlərin əlindən xilas olan 19 yaşlı albinos daha sonra model olub.

# Oğlunun ad gününə 25 min dollar xərclədi

Conni Eden Cr adlı gəncə anası inanılmaz bir ad günü partisi təşkil edib. 25 yaşlı gənc üçün Dubay məzmunlu, Dubay ab-havalı bir ad günü keçirilib. Məclisin keçirildiyi məkana qum tökülüb və dəvələr gətizdirilib. Bundan başqa, anası onun ad günü məclisi üçün lüks maşınlar və lüks geyimlər də kirayələyib. Son nəticədə məclisin ümumi maliyyəsi 25 min dollar olub. Məclisə qatılan gözəl qızların əksəriyyəti saat hesabı kirayələnənlər olub. Bununla bağlı xəbərlər yerli mediada da öz əksini tapıb. Amerikan mətbuatı bu məclisi "görməmişliyin bu qədəri" başlığı altında çap edib.




# Həm beynindən əməliyyat olundu, həm də gitara çalıb mahnı oxudu

Son illərin ən qəribə tibbi əməliyyatlarından biri Braziliyanın Santa Katarina şəhərində qeydə alınıb. Beynindəki şişdən azad olmaq üçün bıçaq altına uzanan 33 yaşlı Antoni Diaş cərrahiyyə əməliyyatı davam edərkən, içəridəkilərə konsert verib.

Baxmayaraq ki, bir gün əvvəl onun beynində şiş kimi ciddi problem var idi, braziliyalı gitaraçı sanki kinayəli şəkildə, Bitlz qrupunun məşhur "Yesterday" mahnısını ifa edib. Həmin mahnının məşhur sözlərinin mənası "dünən bütün problemlərimdən uzaq idim" kimi anlaşılır. Amma Antoni konsertini bu mahnı ilə də yekunlaşdırmayıb. Əməliyyat müddətində 6 fərqli mahnı ifa edən həvəskar gitaraçı əməliyyatdan sağ-salamat şəkildə çıxıb.

Yerli bankların birində işləyən Antoni ata olmağının sevincini 2-cə həftə yaşamışdı ki, beynində şiş olduğunu öyrənib. Əməliyyata gəlincə, həkimlər qəsdən onu zehni baxımdan oyaq saxlamağa qərar verib. Söhbət beyin əməliyyatından getdiyindən, həkimlər onun düşüncə tərzinin, hərəkətlərinin və nitqinin qaydasında olub-olmadığına nəzarət etmək üçün bu addımı atıb.

İlk dəfə deyil ki, beyin əməliyyatında bir xəstə əməliyyat otağındakılara musiqi zövqü yaşadır. Bundan əvvəl israilli bir skripkaçı oxşar, amma çox nadir konsertlə diqqət mərkəzinə düşmüşdü.



### 9 ay hamilə olmasından xəbərsiz oldu

İngiltərənin Çeşirə bölgəsində yaşayan bir qadın hamilə olduğunu 9 ay sonra, uşağını dünyaya gətirəndə anlayıb. İngitərənin "Daily Mail" qəzetinin xəbərinə görə, 24 yaşındaki Saşa Hood doğum sancıları çəkməyə başlayanda şoka girib. Çünki Saşa son 9 ay boyunca sistemli olaraq hamiləlikdən qorunma həblərindən istifadə edib və menustrasiya günlərini sistemli olaraq keçirib. Hətta Saşanın qarnında heç şişlik olmayıb. Olayın ən maraqlı cəhəti isə doğuşu Saşanın əri Marj Jepsonun qəbul etməsi və prosesin hamamda baş tutmasıdır. Xəbərdə qeyd olunur ki, Mark adını Teo qoyduğu körpələrinin həyatını da xilas edib. Belə ki, Teo göbək bağı boynuna dolanmış şəkildə dünyaya gəlsə də, atası bu bağı oğlunun boğazından açıb. Həkimlər hazırda körpənin sağlıq durumunun yaxşı olduğunu, hətta onun normalda dörd gün gec dünyaya gəldiyini deyiblər.




**QOÇ** - Qarşınızda duran bu təqvimdə əsas gücünüzü münasibətlərə yönəldin. Amma diqqətli olun: rüşvət almaq, zina etmək, cadugərə getmək çox təhlükəlidir. Tövbə məqamı, saflaşma vaxtıdır.

**BUĞA** - Ümumi kosmik fon çox gərgindir. Nədəsə tərəddüdünüz varsa, bəri başdan onu təxirə salın, çünki belə məqamlarda onun alınmaması daha çox ehtimal olunur. Haqlı olmağınızla bahəm, güclü də olmalısınız.

**ƏKİZLƏR** - Bu tarixdə köhnə işləri təzələmək məsləhət deyil. Hər şeyin təzəsi daha yaxşıdır. İlk növbədə özünüzü situasiyaya uyğunlaşdırmalısınız. Lovğalıq və özündənrazılıq etməyin. Bütün gücünüzlə açıq havada olun.

**XƏRÇƏNG** - Sevindirici olaylar, şadyanalıqlar günü olduğu üçün qısqanclıqdan, başqalarına qarşı hikkədən doğan istənilən addımınız böyük təhlükə yarada bilər. Bu gün elektrik cihazları ilə ehtiyatlı davranın.

**ŞİR** - Təzadlı gündür. Ziddiyyətli hadisələr bir-birini əvəz edəcək. Bu səbəbdən ilk növbədə əldə olanları qorumaq lazımdır - pulunuzu, malınızı sağa-sola səpməyin. Kiminsə qəlbinə dəyməyin, axı qəlb Allaha məxsusdur.

**QIZ** - İmkan daxilində fəaliyyətə ara verib ruhi dünyanızı qidalandırın. Özünüzü azad və müstəqil hiss edin. Heç kimdən qorxmayın, daxili saflığınıza əminsinizsə, buna güvənib yalnız irəli gedin.

**TƏRƏZİ** - Əsas gücü münasibətlər müstəvisinə yönəltmək lazımdır. Hörmət qazanmaq üçün bəlkə də bundan yaxşı məqam olmayacaq. Özünüzü güclü adam sanırsınızsa, bu gün hətta zamanı da idarə edə bilərsiniz.

**ƏQRƏB** - Ətrafınızda kim varsa, hamısına sevinc, gülüş bəxş edin. Problem və qayğılardan uzaq olun. Elə zənn edin ki, bu gün "iş orucu" tutmusunuz. Axşam süfrəsində şükür edin ki, bu günü sağ-salamat başa vurmusunuz.

**OXATAN** - Sevgi müstəvisində mövcud olan boşluqları doldurmağa tələsin. Elə addım atın ki, sizə rəğbət yaransın. Əgər maddi imkanınız yetsə, sevdiyiniz insana yaddaqalan bir hədiyyə də ala bilərsiniz.

**OĞLAQ** - Kimsə sizdən imkanınız yetən bir şey istəsə, tərəddüd etmədən verin. Səxavətinizi əsirgəməyin. Əslində bu, problemli işlərinizin həllinə yardımçı olacaq. Göy qübbəsi köhnə dostlarla əlaqəni də uğurlu sayır.

**SUTÖKƏN** - Gün ərzində vacib maliyyə işlərini qaydasına salmaq olar. Xüsusən də günortadan sonra bu istiqamətdə fəal olmalısınız. Astroloji göstəricilər qida və yuxu rejiminə riayət etməyi məsləhət görür.

**BALIQLAR** - Mümkün qədər bu təqvimi ev şəraitində keçirməyə çalışın. İzdiham içində olmaq və ya uzaq səfərə çıxmaq münasib deyil. Bu gün olub-keçənlər haqqında müfəssəl informasiyalar toplayın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# 5 metrlik timsahı iplə bağladılar və...



Şri Lankanın Akuressa şəhər sakinləri 4.5 metrdən uzun olan timsahı yaxalayıb, onu qalın iplə bağladılar. Bundan sonra isə timsah vəhşi təbiəti qoruma departamentinə təhvil verildi. Baş vermiş hadisənin videoyazısı xəbər portalı olan Hiru Neusun YouTube kanalında nümayiş etdirilir. İki gün ərzində videoroliki 24 min dəfə izləyiblər. Hiru News-un xəbərinə görə, vəhşi heyvanı yerli kənd sakini olan qadın fərq edib və bu barədə kənd sakinlərinə məlumat verib. Timsahın təhvil verildiyi departament əməkdaşları onu yenidən təbiətin qoynuna, amma kənd sakinlərindən mümkün qədər uzağa aparıblar.

Səhifəni hazırladı: SELCAN


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100



# Mismarın üstündə

Zamin HACI
zaminhaci@gmail.com

**Öncə keçən yazıma bir kiçik əlavəm var. Orda Məhərrəm Əliyevin polisdə, müdafiə sahəsində, indi isə ədliyyə sistemində işlədiyini yazarkən diplomatiya sferasında çalışdığını - Tacikistanda səfir işlədiyini unutmuşdum. Hörmətli oxuculardan biri zəng vurub xatırlatdı, buna görə təşəkkür edirəm. Doğrudan da ölkəmizin hərtərəfli kadrlara ehtiyacı vardır.**

İndi kəskin dönüş edib gedək üzü Amerikaya doğru. Rejissor Maykl Murun 11 sentyabr hadisələrindən bəhs edən, 2004-cü il Kann kino festivalında baş ödülü qazanmış "Farengeyt 9/11" filmi dünən yadıma düşmüşdü. Həmin filmdə Mur maraqlı bir sual verir: "11 sentyabrda təyyarələri ələ keçirən 19 nəfər terrorçunun düz 15 nəfəri Səudiyyə Ərəbistanı vətəndaşı idi. Qalan 4 nəfərin ikisi Birləşmiş Ərəb Əmirliklərindən, biri Misirdən, biri də Livandan olub. Ancaq ABŞ terrorun qisasını almaq üçün Əfqanıstan və İraqa hücuma keçdi. Niyə?" Sonra da cavablar verir, burda təkrar eləmək istəmirəm. Kimə maraqlıdırsa axtarıb, baxsın.

Hazırda Orta Doğu bölgəsi yenidən qaynayır. İranda terror, Qətərin blokadaya alınması... Və ortaya ABŞ-ın çox "maraqlı" mövqeyi çıxır. Tramp twitterdə srağagün yazır ki, Qətərin Səudiyyə və müttəfiqləri tərəfindən blokadasının məhz onun bölgəyə səfərindən sonra olması təsadüfi deyil. "Mən elədim" - belə demək istəyir. Deyir, Qətərin blokadası Orta Doğuda terrorun kökünün kəsilməsinin başlanğıcıdır. Guya bütün İŞİD-mişid kimi zir-zibilləri bölgəyə təkcə Qətər "axıdırmış".

Olsun, bizim sözümüz yoxdur. Ancaq Trampın bəyanatından cəmi bir saat sonra ABŞ Dövlət Departamenti bəyanat yayır: "Qətər bizim mühüm müttəfiqimizdir, ordakı hərbi bazamızla fəxr edirik" və sairə bla-bla-bla... Ya da bizim dildə yazsaq mız-dız-fıs...

İkiüzlü olmağı, ikili standartları, deyəsən, çuvalda gizlətmək artıq dünyada kimsəyə gərək deyil. Elə bizim öz başımıza gələn misala da baxaq. 28 mayda Tramp Azərbaycan prezidentinə təbrik məktubu göndərib ölkəmizlə tərəfdaşlıqdan məmnunluq duyduğunu, mühüm dostlardan olduğumuzu-filanı vurğuladı. Eyni məzmunlu məktub 3-4 gün sonra neft-qaz sərgisinə də ünvanlandı. Ancaq elə həmin günlərdə Dövlət Departamenti Azərbaycanda insan haqlarının pozulmasından narahat olduğunu açıqladı, müxalifətçi Gözəl Bayramlı və jurnalist Əfqan Muxtarlını azad etməyə çağırdı.

Bu axı necə ola bilər ki, insan haqlarını pozan ölkə ABŞ-ın dostudur və "Avropanın enerji təhlükəsizliyinə töhfə verir"? Bəs insan haqları bir ölkənin daxili işi deyildi, nə oldu buna? Avropadakı insanların mətbəxində qaz gələcək deyə, Binəqədidəki azərbaycanlını dama basmaq olarmış. Çünki onlar dahi klassikin dediyi kimi, "daha çox bərabərdirlər". Açığı, şəxsən mən ABŞ-ın bu ikiüzlü standartlarından artıq iyrənirəm. Özü də heç kim "Cəmiyyət yaxşıdır orda, dövlət aparatı pisdir" deyə oyunbazlıq etməsin. Bu, lap bizim yaltaq azərbaycanlıların "əşşi, dövlət ayrı, hökumət ayrı, biz gərək dövlətçiliyi qoruyaq" cəfəngiyyatının təkrarıdır. Heç bir ayrılıq ola bilməz, ABŞ dövlət aparatını formalaşdıran da elə ordakı cəmiyyətdir. Bəlkə Trampı seçməyi bizim üstümüzə yıxasınız? Rusların məsələsi nəsə çox uzandı. Biz tez boynumuza alaraq.

Qubadan iki qardaş isə Amerikaya gedib istedad nümayişi üzrə məşhur tok-şouya qatılıblar. Xəbərlərdə yazılmışdı ki, onların göstərdiyi nömrələrin qorxuncluğuna dözməyən münsiflər tez razılıq veriblər, deyiblər, daha dayanın, sizi növbəti etapa buraxdıq. Bu məndə, nə gizlədim, maraq doğurdu, nömrələrin videosuna baxdım. Çox primitiv! Sən demə, bu qardaşlar əllə, başla taxtaya mismar çalmaq, yabanı qarnına dirəmək, "lapatka"nı boğaza basmaq tipli pəhləvan nömrələri göstəriblər. Amerikalı gəlib bircə ay Qubada yaşasa görərdi ki, orda icra hakimiyyəti və başqa dövlət qurumları hər gün camaatı yabalayır, mıxın üstündə gəzdirir, ağzına butulka qırığı doldurur, bəzən isə idarənin qabağında yandırırlar. Bütün bunlara baxmayaraq, biz sağ qalmışıq, 25 ildir yaşayırıq! Sirkin içində yaşayırıq. Sirk bizim həyat tərzimizdir. Bunlar isə belə şeyləri istedad adlandırır.

Boş şeydir. İstedad Tramp ağılda adamla dünyanın ağasına çevrilməkdir. Biz sizə çatmarıq. Təvazökarlıq eləməyin.

# Rusiyanın növbəti qaz şantajı: Moskva narahatdır

**Rusiya-Azərbaycan münasibətlərdə sərinlik davam edir. Ümumrusiya Azərbaycanlıları Konqresinin (ÜAK) ləğvi bu sərinliyin yalnız növbəti bir təzahürü idi. Əksər siyasi müşahidəçilərə görə, Moskva əslində Bakıdan narazıdır və o üzdən bu kimi demarşların davamını gözləməyə dəyər.**




## Kremlin Bakıya qəzəbinin 3 səbəbi - prezidentin mesajı hədəfə dəyib

### Rusiyanın ölkəmiz əleyhinə silsilə demarşlarının ardınca "Qazprom"dan TAP-ın səmərəliliyini şübhə altına alan minnətli bəyanat gəldi; Azərbaycanın yeni oyunçu kimi güclənməsi Kremli qıcıqlandırır...

Belə bir iddia üçün zəmin və motivlər az deyil. Onlardan biri əlbəttə ki, rəsmi Bakının hələ də Qərblə Rusiya arasında uğurla balanslı siyasət yürütməkdə davam eləməsidir. Belə bir siyasət isə istər-istəməz Kremlin Azərbaycanla bağlı orta perspektivdəki maraqlarına uyğun gəlmir, onun Bakıdan umduğu əsas hədəflərə əngəl yaradır, Moskvanı ABŞ-la münasibətlərdə yaşanan hazırkı gərginlik fonunda xüsusilə qıcıqlandırır.

Putinin Azərbaycanla bağlı istəklərindən biri isə ölkəmizi Avrasiya layihələrinə qoşmaqdır. İllərdir bu səylər nəticə vermir, çünki Bakının məsələ ilə bağlı prinsipial və haqlı mövqeyi var: işğalçı Ermənistanla eyni iqtisadi birlikdə təmsil olunmazdan öncə işğal edilən ərazilərin heç olmasa bir qismi boşaldılmalıdır - özü də qeyd-şərtsiz. Buna isə Moskva həvəsli görünmür.

Yeri gəlmişkən, son vaxtlar təmas xəttində Azərbaycanın işğalçı tərəfi mütəmadi şəkildə canlı və texniki itkilərə məruz qoyması da Kremlin xoşuna gəlmir. Bunu həmin insidentlərlə bağlı Moskvanın verdiyi açıqlamalardan da açıqca görmək olardı.

Eyni zamanda Bakının durmadan öz hərbi və döyüş bacarığını artırması üçün müstəqil şəkildə hərəkət eləməsi, o sırada NATO üzvü Türkiyə və Gürcüstanla vaxtaşırı birgə təlimlər keçirməsi rəsmi Moskvanı qıcıqlandırır *(İndinin özündə Tiflis yaxınlığında Azərbaycan, Türkiyə və Gürcüstan xüsusi təyinatlı qüvvələrin "Qafqaz qartalı" ortaq hərbi təlimləri davam edir).*

Nəhayət, Rusiyanın Bakıya qəzəbinin başqa - üçüncü bir motivi var ki, bu da əlbəttə, enerji məsələsidir. Daha doğrusu, Avropa enerji bazarı uğrunda mübarizəyə Azərbaycanın getdikcə daha fəal qoşulmasıdır. Bu da Rusiya üçün həssas sahələrdəndir, nədən ki, Moskvanın Qərbə, Avropa Birliyinə qarşı güclü təhdid üsullarından biri qaz inhisarçılığıdır, qaz şantajıdır. Azərbaycan qazı, tikilməkdə olan Cənub Qaz Dəhlizi (TANAP, TAP) isə bu asılılığı azaldaraq, minimuma endirəcək.

***

Bu arada Rusiyanın "Qazprom" şirkətinin idarə heyətinin sədr müavini Aleksandr Medvedyev Cənub Qaz Dəhlizi layihəsinin əhəmiyyətini və effektivliyini şübhə altına alan təxribatçı bəyanatla çıxış edib (virtualaz.org). Rusiya qazının gələcəkdə TAP kəmərinə vurulması imkanlarından danışan Medvedyev öncə bildirib ki, TAP-ın dolmamaq riski var, çünki onun nəzərincə, "Azərbaycan əsas neft yataqlarında hasilatı saxlamaq üçün laylara getdikcə daha çox qaz vurmağa məcburdur".

Yada salaq ki, "Qazprom" şirkəti TAP-a faktiki rəqib sayılan qaz dəhlizinin yaradılması üzərində işləyir. Bura Rusiyadan Türkiyənin Yunanıstanla sərhədinə qədər "Türk axını" qaz kəmərinin çəkilməsi, həmin kəmərin daha sonra "Poseidon" kəmərinə birləşdirilməsi planları daxildir. "Türk axını" kəmərinin tikintisi artıq başlayıb. TAP kəməri isə TANAP-la Türkiyənin Yunanıstanla sərhədinə qədər nəql olunacaq Azərbaycan qazını *(ildə 10 milyard kubmetr)* Avropanın cənubuna çatdıracaq.

**Lakin indi A.Medvedyev iddia edir ki, TAP kəmərinin dolması mümkün deyil. Onun sözlərinə görə, "Poseidon" layihəsinin icrası zamanı TAP kəmərinin gücündən istifadə mümkün ola bilərdi.** "Ancaq biz bu məsələdə heç bir halda xahiş edən tərəf olmayacağıq. Burada TAP kəmərinin sahiblərinin başı ağrımalı olacaq" - o bildirib.

**"Qazprom"un idarə heyətinin sədr müavini yada salıb ki, TAP kəməri üçün mənbə Azərbaycan qazıdır. Sitat:** "İndiki situasiyada Azərbaycanın qaza tələbatı artır, çünki əsas neft yataqlarında hasilatın aşağı düşməsini dayandırmaq üçün laylara getdikcə daha çox qaz vurulur. Bu, zarafat məsələ deyil-zərurət məsələsidir. Neft Azərbaycan iqtisadiyyatı üçün əsas büdcə gəliri mənbəyi olaraq qalır".

**Medvedyev onu da deyib ki, onlar bu mərhələni başqa ölkələrdəki digər layihələrdə keçiblər.** "Bu, Azərbaycan tərəfinin seçimi məsələsidir. Və əgər bu situasiyada TAP kəməri boş qalacaqsa, onların seçimidir ki, kəməri boş saxlasınlar və ya hansısa qarşılıqlı anlaşmaya getsinlər. Məsələn, bizimlə. Nəzəriyyə nəzəriyyədir, praktika praktikadır. Biz Avropada biznesin istənilən inkişaf variantına hazırıq və hesab edirik ki, əməkdaşlıq ideal olardı. Ancaq heç kimi buna məcbur etmək fikrində deyilik", - deyə o əlavə edib.

***

Müşahidəçilərə görə, Avropanın qaz təchizatı bazarında inhisarını əldən vermək istəməyən Rusiya Cənub Qaz Dəhlizinə qarşı qəzəbini ilk dəfə bu cür açıq büruzə verir. Bəs səbəb? Medvedyev TAP kəmərinin boş qalacağı haqda eyhamlarla çıxış edərkən nəyə əsaslanır? Axı kəmərə vurulacaq qazın hasil olunacağı "Şahdəniz" yatağının sübut olunmuş ehtiyatlarına dair rəqəmlər məlumdur. BP-nin başçılıq etdiyi beynəlxalq konsorsium isə məhz sübut olunmuş ehtiyatlardan çıxış edərək, "Şahdəniz-2"nin işlənilməsi də daxil olmaqla, Cənub Qaz Dəhlizinə on milyardlarla dollar investisiya qoyub.

Əgər həqiqətən də TAP kəməri ilə bağlı risk varsa və layihə kommersiya baxımından rentabelli olmayacaqsa, o halda BP kimi bütün riskləri ölçüb-biçən şirkət bu investisiyaları yatırmağa razı olardımı? Təbii ki, yox. Əksinə, "Şahdəniz"dən hasil ediləcək qazın proqnozlaşdırılandan çox olacağı gözlənilir.

Digər tərəfdən, mütəxəssislərə görə, Azərbaycanın qaz ehtiyatları təkcə "Şahdəniz"lə yekunlaşmır. Bugünlərdə Bakıda keçirilən neft-qaz sərgisi zamanı açıqlandı ki, Azərbaycanda qaz hasilatı gələcəkdə yeni kəşf olunmuş və işlənməkdə olan yataqların ehtiyatları hesabına daha da artacaq. Yəni Azərbaycanın TAP kəmərini doldurmaqla bağlı problemi yoxdur, olmayacaq. Beləsə, o zaman "Qazprom"un bu açıqlaması, qəribə və bir qədər də təəccüblüdür. Gerçəkdə isə Rusiyanın Cənub Qaz Dəhlizindən necə narahat olduğunu ortaya qoyur.

***

Medvedyevin bəyanatı İtaliyanın cənubunda TAP kəmərinin tikintisini əngəlləmək üçün törədilən təxribatların arxasında kimin dayandığına dair təxminləri də doğrultmuş olur. Bu, əlbəttə ki, Rusiyadır. Söz düşmüşkən, bu günlərdə Azərbaycan prezidenti İlham Əliyev çıxışı zamanı TAP kəmərinə qarşı təxribatların arxasında dayanan qüvvələrə eyham vurmuş, layihəni əngəlləmək üçün böyük paraların sərf olunduğunu söyləmişdi.

Bununla belə, prezident əminlik ifadə etmişdi ki, Cənub Qaz Dəhlizi reallaşacaq və Azərbaycan Avropaya qaz təchiz edən ilk alternativ mənbə olacaq. "Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində çox önəmli rol oynayan bir ölkədir. Bu gündən sonra bu rol daha da artacaq". Bunu da ölkə başçısı demişdi.

Görünür, bu mesajlar hədəfə dəyib. Çünki Rusiya artıq açıq formada təlaşlanmağa başlayıb ki, o, Avropa qaz bazarına yeni, müstəqil oyunçunun - Azərbaycanın daxil olmasından narahatdır.

❑ **Analitik xidmət**

**Rusiyanın "Qazprom" şirkətinin idarə heyətinin sədr müavini Aleksandr Medvedyev Azərbaycanın reallaşdırdığı Cənub Qaz Dəhlizi layihəsinin əhəmiyyətini və effektivliyini şübhə altına alan bəyanatlarla çıxış edib. A.Medvedyev jurnalistlərə açıqlamasında Rusiya qazının gələcəkdə TAP kəmərinə vurulması imkanlarından danışıb. Bildirib ki, TAP kəmərinin dolmamaq riski var, çünki Azərbaycan əsas neft yataqlarında hasilatı saxlamaq üçün laylara getdikcə daha çox qaz vurmağa məcburdur.**

# Rusiyadan Azərbaycana TAP hədəsi

## İddiaların əsası varmı?; ""Qazprom" digər mənbələrdən Avropaya mavi qazın nəql edilməsində maraqlı deyil"

Qeyd edək ki, "Qazprom" şirkəti TAP-a faktiki rəqib sayılan qaz dəhlizinin yaradılması üzərində işləyir. Bura Rusiyadan Türkiyənin Yunanıstanla sərhədinə qədər "Türk axını" qaz kəmərinin çəkilməsi, həmin kəmərin daha sonra "Poseidon" kəmərinə birləşdirilməsi planları daxildir. "Türk axını" kəmərinin tikintisi artıq başlayıb. TAP kəməri isə TANAP-la Türkiyənin Yunanıstanla sərhədinə qədər nəql olunacaq Azərbaycan qazını (ildə 10 mlyard kubmetr) Avropanın cənubuna çatdıracaq.

**"Qazprom"un idarə heyətinin sədr müavini yada salıb ki, TAP kəməri üçün mənbə Azərbaycan qazıdır və o da məhdud ola bilər:** "İndiki situasiyada Azərbaycanın qaza tələbatı artır, çünki əsas neft yataqlarında hasilatın aşağı düşməsini dayandırmaq üçün laylara getdikcə daha çox qaz vurulur. Bu, zarafat məsələ deyil-zərurət məsələsidir. Neft Azərbaycan iqtisadiyyatı üçün əsas büdcə gəliri mənbəyi olaraq qalır".

Avropanın qaz təchizatı bazarında inhisarını əldən vermək istəməyən Rusiya qaz nəhənginin bəyanatları Moskvanın Cənub Qaz Dəhlizinə qarşı qəzəbini ilk dəfə bu cür açıq büruzə vermiş olur. Lakin bundan öncə də Rusiya təxribatçı addımlara əl atmış, İtaliyada təbiətsevərlərin əli ilə TAP kəmərinin tikintisinin dayandırılmasına nail olmuşdu. O zaman da ekspertlər "No TAP" aksiyasının arxasında




Rusiyanın durduğunu istisna etmirdilər.

Yerli ekspertlər "Qazprom" rəsmisinin iddialarını əsassız adlandırır, ölkəmizin kifayət qədər qaz ehtiyatına malik olduğunu və ilkin mərhələdə Avropaya 10 milyard kubmetr həcmində qazın maneəsiz olaraq ixrac ediləbiləcəyini vurğulayırlar.

**İqtisadçı ekspert Vüqar Bayramov da "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, bütün bu bəyanatların səbəbi Rusiyanın Avropa qaz bazarında özünə rəqib görmək istəməməsindən irəli gəlir:** "Rusiyanın TAP-a münasibəti heç zaman isti olmayıb. Bu ölkə rəsmilərinin istər rəsmi, istərsə də qeyri-rəsmi açıqlamalarında hər zaman TAP-a qarşı neqativ fikirlər, xüsusən də Cənub Qaz Dəhlizinin ehtiyatlarının az olması, TAP və TANAP-ın mavi qaza olan tələbinin ödənilməsində çətinliklərin olacağı ilə bağlı daim açıqlamalar yayımlanıb. Bu da başa düşüləndir. Çünki Cənub Qaz Dəhlizi birinci mərhələdə Avropaya 10 milyard kubmetr qaz nəql edəcək, daha sonra bu həcmlərin 20 milyard kubmetrə qədər artırılması mümkündür. Bu rəqəmlər "Qazprom"un Avropaya ixrac etdiyi mavi qazın həcmi ilə müqayisədə xeyli kiçikdir, buna rəğmən "Qazprom" digər mənbələrdən Avropaya mavi qazın nəql edilməsində maraqlı deyil. Bunu da açıq şəkildə bəyan edir. Rusiyanın narahatlığı ondan ibarətdir ki, fərqli mənbələrdən nəql edilən qazın Avropa bazarına çıxarılması bu ölkənin Avropa bazarındakı dominantlığını xeyli zəiflədə bilər.

Əvvəllər də iddialar var idi ki, ekologiya tərəfdarlarının keçirdiyi aksiyalar həm də "Qazprom" tərəfindən dəstəklənib. Bunu sübut etmək o qədər də asan deyil. Lakin aksiya iştirakçılarına müəyyən mənbələrdən kifayət qədər vəsaitin daxil olması da açıqlandı. Ehtimallar da səsləndirildi ki, bu vəsaitləri TAP-ın reallaşmasına qarşı olan qüvvələr verib. "Qazprom"un TAP əleyhinə kompaniyalarda iştirakını sübut etmək mümkün olmasa da , ehtimal olunur ki, şirkət bu məsələdə xeyli aktivdir. "Qazprom"un bu məsələdə iştirakının hansı dərəcədə olmasından asılı olmayaraq, birmənalı şəkildə demək olar ki, bu şirkət Azərbaycan qazının Avropa bazarına çıxmasının əleyhinədir".

**A.Medvedyevin iddialarına gəlincə, V. Bayramov bildirdi ki, TAP-ın qazla doldurulmasında heç bir çətinlik yaşanmayacaq:** "Hazırda Azərbaycanın qaz hasilatı 29 milyard kubmetrdir. 2020-ci ildə, Şahdəniz layihəsinin ikinci fazası istifadəyə veriləndə 44,5 milyard kubmetrə qədər yüksələcək. Azərbaycanın birinci mərhələdə Avropa bazarı qarşısında öhdəliyinin cəmi 10 milyard kubmetr olduğunu nəzərə alsaq, həmin öhdəliyin yerinə yetirilməsində hər hansı çətinliyin olmayacağını deyə bilərik. Praktik olaraq ilbeil artan qaz hasilatı həmin öhdəliklərin yerinə yetirilməsinə imkan verəcək. "Şahdəniz 2"nin istismara verilməsi ilə yanaşı, digər qaz yataqlarının, xüsusilə də Abşeron yatağının istifadəyə verilməsi nəzərdə tutulur. Bu da birmənalı şəkildə qaz hasilatının artmasına səbəb olacaq. O baxımdan, TAP-ın istifadəyə verilməsinin birinci mərhələsində hər hansı çətinliyin olacağını gözləmirəm. Ancaq gələcəkdə Türkmənistanın da Cənub Qaz Dəhlizinə qoşulması daha arzuolunan olardı. Rusiya isə növbəti dövrlərdə də öz narazılığını ifadə etməkdə davam edəcək".

**İqtisadçı qeyd etdi ki, TANAP-la bağlı belə bir problem mövcud deyil:** "Rusiya TANAP-ı ciddi rəqib olaraq görmür. TAP-ı isə Avropada böyük alternativ kimi görür. TAP-ın inşaat işləri hələ də davam etdiyi üçün Rusiyanın prosesə təsir imkanları qalmaqdadır. Hər halda, təxribatın olacağını istisna etmək olmaz".

❑ **Nərgiz LİFTİYEVA**

# İzah etməyə nə var ki? Çətini dəyişməkdir...



**Hüseynbala SƏLİMOV**

**Avraam Linkolnun sözüdür ki, ictimai rəyi formalaşdıranlar qanunları qəbul edənlərdən daha güclüdürlər.**

Bəli, bu sözləri heç də erudisiyamı nümayiş etdirmək üçün yada salmadım. Lap bu günlərin söhbətidir. Metroda iki nəfərin əlində qəzet gördüm. Niyə görəsə birdən xəfif bir kədər bürüdü məni. Düşündüm ki, kağız media ilə vidalaşmağa tələsmədikmi?

Yox, mən bəziləri kimi "Eh, keçmişdə..." və yaxud da "Bizim vaxtlarımızda..." kimi ifadələri sevən adam deyiləm. Ona görə ki, nə qədər sıxılsam da böyük hesabla tərəqqiyə inanıram. Hətta bəzi sferalardakı geriləmələr belə məndə bədbinlik yaratmır. Ona görə ki, bu həyat deyilən fenomen çox geniş anlam ehtiva edir özündə: həyat təkcə siyasi və ictimai qayğılarla məhdudlaşmır, bunun texniki-iqtisadi tərəfləri, mədəniyyəti, idmanı, elmi də var...

Bəs onda problem nədədir? Ondadır ki, məsələ medianın kağız və elektron formasında olub-olmamasından çox onun nəyə qadir ola bilməsindədir. Düşünürəm ki, biz nə qədər ictimai rəyi formalaşdıra bilirik? Yazılarımıza "giriş"lər təsəlli üçün əsas verirmi?

Bəli, problem bundadır. Həyatda hər şey nəticə ilə ölçülür. Nəticə isə yoxdur. Ona görə ki, cəmiyyətin reaksiyasını görmürük.

Yenə bir sözü qoyub o birisinə keçirəm. Elə bu yaxınlarda indi PR deyilən sahənin yaradıcılarından birinin - E.Bernaysın qısa bioqrafiyasını oxuyurdum. Ağlıma gələn ilk söz heç bilirsinizmi, nə oldu? Düşündüm ki, ictimai rəy üzərində, bax, belə, bu cür işləmək lazımdır. Amma ki, bunun üçün cəmiyyət və siyasi quruluş açıq olmalıdır. Üstəlik də cəmiyyətin rəyinin, ictimai rəyin sosial-siyasi sanksiyası olmalıdır.

Amma hər şeyə bir bəhanə "tikmək" də düzgün deyildir. Çalışmaq lazımdır. Sadəcə, problem ondadır ki, ictimai rəy uğrunda tək bizlər - jurnalistlər və ictimai fəallar mübarizə aparmır, elə bizim hökumətimiz də bu "xüsusda" çox böyük işlər yapır.

Amma daha bir problem odur ki, bizim hökumətimiz müstəqil media və ictimai strukturlarla azad rəqabət və ya yarış aparmır. Hökumətin bircə cəhətini qiymətləndirmək olar ki, instinktiv olaraq təhlükəni duyurlar və dərhal da onu qapayırlar. Özlərinə əziyyət verib iş görmürlər, sadəcə, iş görmək imkanlarını qapayırlar ki, tamam-kamal sakitlik olsun...

Jurnalistika da haradasa ictimai rəy texnologiyasıdır. Hərçənd, bunu "modern" jurnalistikanın nəzəriyyəçiləri qəbul etmirlər. Onlara görə bu peşənin missiyası yalnız xəbər çatdırmaqdır.

Amma xəbər özü belə ictimai rəyə təsirsiz ötüşmür. Çünki xəbər də "Nə? Harada? Nə vaxt?" suallarından savayı bəzən "Niyə?" sualına da cavab verir.

Həm də jurnalistikanı yalnız xəbərlə məhdudlaşdırmaq ağacın bütün qol-budaqlarını qıraraq təkcə kötüyünü saxlamağa bənzəyir. Kötük isə yalnız yandırmaq üçün yararlı olur...

Qərəz, burada müxtəlif jurnalistika konsepsiyaları ilə başınızı ağrıtmayacam - məktəblər çoxdur, hər birinin də özünün yanaşması var. Əsas odur ki, bütün hallarda bu ölkədə də jurnalistika qalıb. Məsələ isə onu necə inkişaf etdirməkdən və ondan necə faydalanmaqdan ibarətdir. Necə ki, bir vaxtlar K.Marks yazırdı: "Filosoflar dünyanı çox izah ediblər, amma məsələ onu dəyişməkdən ibarətdir".

Bir qədər məzəli alınmasın, elə biz də jurnalistikanı müxtəlif cür yoza bilərik, ona müxtəlif təriflər verə bilərik. Amma vəzifə onu dəyişməkdir. Eləcə də ictimai rəyi də, durumu da çox yozmaq olar, müxtəlif versiyalar söyləmək olar, ictimai süstlüyə bəraət qazandırmaq üçün ən müxtəlif və bəlkə də biri-birindən ağlabatan arqumentlər səsləndirmək olar. Amma ki, bütün bunlar bir fayda gətirməyəcək. Fayda o vaxt olar ki, jurnalistika və eləcə də ictimai rəy dəyişsin...

Bunu etmək cəhdləri isə yoxdur, ya da olduqca azdır. Mövcud olanlara haradasa haqq qazandırmaq və bəraət fikirləşmək onu dəyişdirməkdən qat-qat asandır. Elə bu səbəbdən də siyasi fəallar da "Neyləyək? Cəmiyyət belədir!" deməməlidirlər. Ona görə ki, dərhal bir sual yaranır: "Siz onu, yəni cəmiyyəti dəyişmək üçün cəhd etdinizmi?".

Eyni sözləri də jurnalistlər haqqında demək mümkündür. Bütün dünyada hakimiyyətlər müqavimət görməyəndə repressivliyə meylli olurlar. Səbəbi də aydındır: böyük hakimiyyət kimə mane olur ki?.. Bu aspektdən yanaşanda media da bir hakimiyyət növüdür. Elə A.Linkolnun sözlərini də buna görə xatırladım. Bu baxımdan yanaşanda bir az artıq "hakimiyyət" olmaq heç biz jurnalistlərə də mane olmazdı...

YENİ MÜSAVAT
N 122 (6735) 8 iyun 2017

# "Balkanlarda Rusiya-Qərb savaşı həlledici mərhələyə qədəm qoyub"

## **Şahin Cəfərli:** "Monteneqro əldən çıxdı, indi məqsəd Makedoniya və Bosniya-Herseqovinanın NATO-ya qoşulmasına yol verməməkdir"

**İyunun 5-də Monteneqro 29-cu üzv qismində rəsmən NATO-ya daxil olub. Bununla NATO 8 illik fasilədən sonra - 2009-cu ildən bəri ilk dəfə genişləndi. Qeyd edək ki, hərbi-siyasi blokun rəhbərliyi və aparıcı dövlətləri NATO-nun qapılarının açıq olduğunu bəyan edirlər. Növbəti mərhələdə Gürcüstan və Ukraynanın da quruma üzvlüyü gözlənilir. Ancaq Rusiyanın bu iki postsovet məkanına qarşı həyata keçirdiyi sürprizlər hələ ki prosesin uzanmasına səbəb olub. İlk baxışda Montoneqro kimi kiçik dövlətin alyans üçün hansı əhəmiyyət kəsb etdiyi barədə suallar ortaya çıxır. Ekspert məsələnin elə də sadə olmadığı qənaətindədir.**

"Monteneqro kimi dünya siyasətində hər hansı rolu olmayan, cəmi 14 min kv.km-ə yaxın əraziyə və 622 min nəfər əhaliyə malik kiçik bir ölkənin NATO və onun lider dövləti ABŞ üçün əhəmiyyəti yəqin ki, çoxlarında maraq oyadır". **Politoloq Şahin Cəfərli** bunu "Yeni Müsavat"a açıqlamasında bildirdi. Ekspertin sözlərinə görə, məsələ burasındadır ki, Monteneqronun hərbi-siyasi bloka qoşulması ilə Rusiyanın Balkanlardan və isti dənizlərdən sıxışdırılmasının növbəti mərhələsi başlayıb: "SSRİ-nin və Yuqoslaviyanın dağılmasından sonra Rumınıya, Bolqarıstan, Xorvatiya, Albaniya və Sloveniya NATO-ya qəbul olundular. Növbə Monteneqro, Makedoniya və Bosniya-Herseqovinaya çatmışdı. Monteneqronun üzvlüyü gerçəkləşdi, Makedoniya və Bosniya-Herseqovina hazırda ittifaq üzvlüyünə əsas namizədlərdir. Bosniyanın alyansa qəbulu ilə Aralıq dənizi hövzəsinin tərkib hissəsi olan Adriatik dənizi tamamilə NATO ölkələrinin əhatəsində qalaraq bir NATO gölü halına gələcək və Rusiyanın üzünə bağlanacaq.



Həmçinin Bosniya-Herseqovina və Makedoniyanın NATO-ya üzvlüyündən sonra Serbiya dörd bir yandan NATO ölkələrinin əhatəsində qalacaq. Dənizə çıxışının olmaması da nəzərə alınarsa, bu durumda Serbiyanın Rusiya ilə müttəfiqliyi davam etdirərək Qərbə arxa çevirməsinin hər hansı anlamı qalmayacaq, bu müttəfiqliyin strateji əhəmiyyəti xeyli azalacaq. Serbiya hökuməti hazırda NATO və Avropa Birliyi ilə fəal əməkdaşlıq edir və ölkədə rusiyameylli qüvvələrin mövqeyi hələlik güclü olduğu üçün ehtiyatlı avroatlantik inteqrasiya siyasəti aparır. Serbiyanın NATO-ya üzvlüyündən sonra Moskva Rusiya imperiyası dövründən önəm verdiyi bu bölgəni tamamilə itirmiş olacaq". **Ş.Cəfərlinin fikrincə, təsadüfi deyil ki, Moskva bu prosesə ciddi müqavimət göstərir:** "Rusiya xüsusi xidmət orqanları ötən ilin oktyabrında Monteneqroda yerli rusiyameylli "Demokratik Cəbhə" Partiyası və millətçi serblərin əli ilə dövlət çevrilişinə cəhd etmişdi. Məqsəd qərbyönlü baş nazir Milo Cukanoviçə sui-qəsd edib, hökuməti devirərək ölkənin NATO-ya üzvlüyünü əngəlləmək idi. Lakin yerli hüquq-mühafizə orqanları Qərb xüsusi xidmətlərinin köməyi ilə çevrilişin qarşısını aldılar. Dövlət çevrilişi cəhdini idarə edən Rusiya kəşfiyyatının 2 zabiti - Eduard Şirokov və Vladimir Popov qaça bildilər. Monteneqroda məqsədinə çata bilməyən Rusiya bir müddətdir Makedoniyanı qarışdırmağa çalışır. Bu ölkədə ötən ilin dekabrında keçirilmiş parlament seçkilərindən sonra başlayan siyasi böhran yarım il davam etdi və bu yaxınlarda başa çatdı. Seçkilərdə ikinci olan Sosial Demokrat İttifaqı parlamentə düşən 2 kiçik alban partiyası ilə razılaşaraq qanunverici orqanda çoxluq yaratmışdı, lakin buna baxmayaraq, onların hökuməti formalaşdırmasına imkan verilmirdi".

**Siyasi şərhçi onu da xatırlatdı ki, Rusiya mediası albanların dəstəyi ilə qurulacaq hökumətin ölkəni parçalayacağı yönündə aktiv təbliğat aparırdı:** "Makedon millətçilərini qorxutmağa çalışırdılar ki, bölgədə "Böyük Albaniya" qurulacaq və Makedoniya dövləti xəritədən silinəcək. Aprelin 27-də etnik alban Tələt Cəfəri parlamentin sədri seçildikdən sonra makedon millətçiləri parlamentə hücum etdilər və bir neçə deputatı, o cümlədən Sosial Demokrat İttifaqının lideri Zoran Zayevi döydülər. Lakin prosesin qarşısını almaq mümkün olmadı və mayın 31-də Zoran Zayevin başçılığı ilə qurulan hökumət parlament tərəfindən təsdiqləndi. Z.Zayevin ilk bəyanatı bu oldu ki, Makedoniya avroatlantik inteqrasiyanı davam etdirəcək. O, eyni zamanda ölkədə Rusiyanın təsirinin artması ilə bağlı Qərb dövlətlərinə xəbərdarlıq mesajı göndərdi. Yeni hökumət fəaliyyətə başladıqdan sonra Makedoniyada Rusiyanın apardığı gizli işin miqyası barədə məxfi məlumatlar mediaya ötürüldü. Məlum oldu ki, Rusiya Xarici Kəşfiyyat Xidməti (SVR) və Baş Kəşfiyyat İdarəsi (QRU) Makedoniyanın NATO-ya üzvlüyünü əngəlləmək üçün ölkədə qərargah qurublar. Bitola və Oxrid şəhərlərindəki Rusiya konsulluqları kəşfiyyatın bazası rolunu oynayır və kəşfiyyat fəaliyyəti Rusiyanın Skopyedəki səfirliyi tərəfindən koordinasiya olunur. Rusiya mediasının Makedoniyadakı fəaliyyəti də kəşfiyyat üçün "örtük" məqsədi daşıyır və kəşfiyyatçılar jurnalist adı altında fəaliyyət göstərirlər". **Politoloq digər məqamlara da diqqət çəkdi:** "O da bəlli olub ki, Rusiya kəşfiyyatı Makedoniya ordusunun və polisinin zabitlərini əməkdaşlığa cəlb edir, məqsəd lazımi anda onları hərəkətə keçirərək Rusiya maraqları naminə bu şəxslərdən yararlanmaqdır. Bundan başqa, Rusiya slavyan və pravoslav kartından da faydalanır, Makedoniyada müxtəlif mədəniyyət mərkəzləri, dostluq assosiasiyaları yaradır, kilsələri maliyyələşdirir. Rusiya səfiri Şerbak bir müddət əvvəl Makedoniya XİN-də keçirdiyi qapalı görüşlərin birində etiraf edib ki, onların məqsədi Balkanlarda Makedoniya, Monteneqro, Bosniya-Herseqovina və Serbiyadan ibarət neytral ölkələr zolağı yaratmaqdır. Monteneqro əldən çıxdı, indi məqsəd Makedoniya və Bosniya-Herseqovinanın NATO-ya qoşulmasına yol verməməkdir. Bir sözlə, Balkanlarda Rusiya-Qərb savaşı həlledici mərhələyə qədəm qoyub".

❑ **Cavìd TURAN**

# ABŞ-ın İslam dünyasına qarşı ikili siyasətində əsas hədəf

## Ər-Riyad sammiti gizli mətləblərin üstünü açır; **politoloq:** "İslam dünyasının vəhdətləşmə vaxtıdır..."

**ABŞ müsəlman dövlətləri ilə bağlı ikili siyasətini davam etdirir. Xüsusilə Donald Trampın gəlişindən sonra bu siyasət özünü daha qabarıq şəkildə göstərir. Birləşmiş Ştatlar bəzi müsəlman ölkələrinə bir, digərlərinə isə tam fərqli rakursdan yanaşır.**

Məsələn, hazırda Ağ Ev Səudiyyə Ərəbistanı ilə əlaqələrin qurulmasına ciddi önəm verir. Trampın mayın 22-də Ər-Riyada səfəri və müsəlman ölkələrinin dövlət başçılarının rəhbərlərinin iştirakı ilə keçirilən sammitdə iştirakını misal çəkmək olar. Sammitdə İransız koalisiya formalaşdı. Bununla Səudiyyə Ərəbistanı başda olmaqla, bir sıra ərəb ölkələri İranla üz-üzə qoyuldu. Görünən odur ki, Amerika müsəlman dövlətləri arasında ayrı-seçkilik etməklə yanaşı, həm də bəzi bu tipli dövlətlər arasında soyuq münasibətlər yaratmağı, hətta onları qarşı-qarşıya qoymağı bacarır. Ekspertlər Səudiyyə-Qətər arasında son günlərdə yaranan qarşıdurmanın Trampın Ər-Riyad səfərindən sonra yaranmasını təsadüf saymırlar.



Bir reallığa da diqqət çəkək. Son illərdə Amerikanın müsəlman dövlətləri ilə bağlı siyasətində demokratiya məsələsi demək olar yer almır. Özünü dünyanın ən demokratik ölkəsi sayan Birləşmiş Ştatlar digər dövlətlərə gələndə bu dəyərlərin üstündən xətt çəkir. Amma yeri gələndə Azərbaycan tipli ölkələrə bu ənənədən təzyiq vasitəsi kimi istifadə edir. Əksər ekspertlər bu xüsusda ABŞ-ın dövlət maraqlarının hər şeyə üstün gəldiyini düşünürlər.

**Politoloq Əhəd Məmmədli Trampın müsəlman dünyası ilə bağlı ABŞ-ın ənənəvi siyasətini davam etdirdiyini deyir:** "Hazırkı Amerika əvvəllərdə olduğu kimi, müsəlman dünyasında "parçala-hökm et" siyasəti aparır. Qərblilər həmişə müsəlman dünyasına daha çox önəm veriblər, Tramp da, sadəcə, əsirlərdir qoyulan siyasəti davam etdirir. Amma bu önəm təbii ki, sevgidən irəli gəlmir. Osmanlı dağılandan sonra İslam dünyasının 95%-i müstəmləkə, yarımmüstəmləkəyə çevrildi. Bununla da Qərblə İslam arasında sivilizasiyalar qarşıdurmasının birinci fazası bitdi. SSRİ dağılandan sonra isə Qərblə İslam sivilizasiyaları arasında qarşıdurmanın ikinci fazasına start verildi. ABŞ-ın müsəlman ölkələrinə münasibətində demokratiyaya heç vaxt önəm verilməyib, önəm həmişə müsəlman dünyasını nəzarətdə saxlamaq və təbii sərvətlərinə sahib çıxmağa verilib. İndiyə gəldikdə isə Azərbaycana diqqət ayırmağa, ümumiyyətlə, vaxt yoxdur. Bir də Azərbaycandan çoxdandır istədiklərini alıblar".

**Politoloq Türkiyə ilə ərəb dünyası arasında yaxın əlaqələrin qurulmasının Qərbi ciddi narahat etdiyini bildirdi:** "Hazırda ABŞ-ı ən çox narahat edən məsələ ərəb ölkələri ilə Türkiyə arasında müttəfiqliyin qurulmasıdır. Osmanlı dönəmində olduğu kimi, Qərb buna imkan verə bilməz. Ərəb dünyası ilə Türkiyə arasında "Müsəlman Qardaşları" ilə milli görüşçülərin bir ittifaqı qurulur. Türkiyə - Qətər - Misir nümunəsini göstərə bilərik. Bu üç müsəlman ölkəsində milli görüşçülərlə qardaşlar iqtidarda idi. Son illərdə müsəlman dünyasında Qətər-Misir-Türkiyə üçbucağı qurulmuşdu. Hər üç ölkədə hakimiyyətdə İxvanil Müslümin və Milli Görüş ideoloji iqtidarlar idi. Bu, İslam dünyasında çox güclü birlik, ciddi qüvvə idi. ABŞ, İsrail və bəzi Körfəz səltənətləri tərəfindən ilk öncə ən zəif xalq olan, yeni hakimiyyətə gələn Misir ixvanları sıradan çıxarıldı. Sonra Türkiyəyə əl uzadıldı. Misirli həmkarlarından fərqli olaraq daha təcrübəli AK Parti hakimiyyəti Türkiyəyə uzanan bu əlləri qırdı... Düzdür, anti - Türkiyə əməliyyatında Körfəz ölkələri iştirak etmədi, əksinə, böyük yatırımlı ərəb kapitalı Türkiyəni iqtisadi kollapsdan qurtardı. İndi bəlli oldu Trampın Səudiyyə Ərəbistanına səfərinin mahiyyəti: mötədil Qətər şeyxini ərəb dünyasında təkləmək. Bu problemin çözümündə Türkiyəyə böyük iş düşür. Türkiyə Qətərin yanında olmalı, həmçinin Səudiyyə Ərəbistanı ilə müttəfiqliyi qorumalıdır. İslam dünyasının vəhdətləşmə vaxtıdır. Qeyri-müsəlman dünyasını da ən çox narahat edən budur. Bunun yeganə yolu da Osmanlı çətiri altında birləşməkdir. Osmanlı çətiri vaxtında türklər də, ərəblər, kürdlər də öz torpaqlarının yeganə sahibi idilər. Ərəb dünyasının ixvanları da, türk dünyasının milli görüşçüləri də, İslam dünyasının vəhdəti üçün birdəfəlik sünni-şiə qardaş qırğınına son qoyulmasını, ərəb ölkələri və Türkiyənin, nəhayət ki, İranla dost, qonşuluq münasibətləri qurmasının tərəfdarıdır. Bütün bunların olması üçün də ən azı əsas müsəlman ölkələrində, "Müsəlman Qardaşları" və ya Milli Görüş siyasəti əsas ideoloji baza olmalıdır".

**Ə.Məmmədli sıradan çıxarmaq üçün növbəti hədəfin Qətər olduğunu vurğuladı:** "İndi də Qətəri sıradan çıxarmaq istəyirlər. Çünki Türkiyə ilə bir yerdədir və İrana qarşı İslam dünyasını parçalayan alyansa qoşulmur. "Müsəlman Qardaşları" və Milli Görüş ideologiyası İslam dünyası üçün bir oyanış, ayağa qalxmaq, birlik deməkdir. Bu da olsa, İslam dünyası, Osmanlıda olduğu kimi, öz müstəqilliyini qaytaracaq. Trampın Ər-Riyad siyasəti məhz İslam dünyasını yeni böyük müharibəyə qərq edib və bu səfərdə məqsəd bəzi müsəlman ölkələrinin məhz İslam naminə müttəfiqliyini məhv etməkdir. İrana qarşı ərəb koalisiyası da məhz bunun üçün qurulur. Əgər İranla ərəb ölkələri arasında müharibə başlasa, burda udan tərəf Amerika, Britaniya və İsrail olacaq, İran-İraq müharibəsində olduğu kimi. Və bu müharibə müsəlmanlara olmayan zərbəni vuracaq. Müsəlman dövlətləri bunu anlayır, ancaq təəssüf ki müsəlman iqtidarlarının 95%-i Qərb, Rusiya və Çindən asılı olduğu üçün öz sahiblərinin iradəsini yerinə yetirirlər. Ona görə də İslam dünyasında vəhdət yoxdur. Türkiyə və Qətər bu vəhdəti qaytarmaq istəyir. Bu səbəbdən də özlərinə qarşı böyük bir cəbhə alıblar".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 122 (6736) 8 iyun 2017

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi




# Lavrovun Qarabağ bəyanatı - Azərbaycana savaş xəbərdarlığı, yoxsa...

## Rusiyanın baş diplomatının yenidən sülhün alternativinin olmadığını xatırlatması ətrafında ilginc şərhlər; Moskva həmsədrlərin səfəri ərəfəsində müharibə riskinin artmasından ehtiyatlanır...

**Müəyyən fasilədən sonra Rusiya xarici işlər naziri Sergey Lavrov yenidən Qarabağ məsələsi ilə bağlı açıqlaması ilə diqqət çəkdi. Rusiyanın baş diplomatı İ.Kant adına Baltik Federal Universitetinin tələbələri qarşısında çıxışı zamanı Qarabağ münaqişəsinin həllinin sülhdən başqa alternativinin olmadığını bildirib.**



“Yalnız danışıqlar, başqa yol yoxdur. Bir neçə dəfə problemin danışıqlar yolu ilə həlli yaxın olub, lakin sonra tərəflər arasında müəyyən inamsızlıqlar baş verdi. Amma işlər davam etdirilməlidir”- Lavrov deyib. Rusiya XİN rəhbəri qeyd edib ki, danışıqlar prosesi zamanı müəyyən prinsiplər işlənib hazırlansa da, bir sıra ciddi detalların razılaşdırılması vacibdir: “Amma biz səylərimizi davam etdiririk. Bildiyiniz kimi, Rusiya, ABŞ və Fransa ATƏT-in Minsk Qrupunun həmsədr ölkələridir və biz münaqişə tərəfləri ilə mütəmadi olaraq görüşürük və bu çərçivədə onlar arasında hələ də razılaşdırılmayan xırda, lakin çox ciddi detalları həll etməyə çalışırıq”.

Xatırladaq ki, bu ilin əvvəlində S.Lavrov “Dağlıq Qarabağ Azərbaycanın daxili işi deyil” bəyanatını səsləndirməsi ilə ölkəmizdə ciddi etirazlar qazanmışdı. Azərbaycanın ərazi bütövlüyünün qəsdinə hesablanmış bu bəyanata etirazların qarşılığında rus diplomat dediklərinə hər hansı izahat verməsə də, sonrakı aylarda mövqeyində müəyyən korrektələr etmişdi.

“Biz hesab edirik ki, Dağlıq Qarabağ münaqişəsi həll oluna bilər. Bunu uzun müddət davam edən danışıqların nəticələri göstərir. Lakin bir sıra maddələr üzrə razılıq əldə olunmalıdır. Bura təhlükəsizlik, humanitar yardım, Qarabağ ətrafı rayonların geri qaytarılması və Qarabağın statusu məsələsi daxildir”, - deyə S.Lavrov azərbaycanlı həmkarı Elmar Məmmədyarovla birgə Moskvada keçirdiyi mətbuat konfransında bildirmişdi. O zaman da Lavrov demişdi ki, qeyd edilən bəndlərin böyük əksəriyyətinə dair razılıq əldə olunub, lakin “biri-iki bənd üzrə danışıqlar gedir”. XİN başçısı o zaman da demişdi ki, hazırkı şərtlərdə danışıqları bərpa etmək üçün cəbhə və təmas xəttində gərginlik azaldılmalıdır. Prinsipcə S.Lavrovun mart ayında səsləndirdiyi bəyanatla sonuncu arasında ciddi fərq yoxdur. Lakin S.Lavrovun sülhün alternativinin olmadığı haqda açıqlamasının məhz indiki-Qarabağ cəbhəsində və Azərbaycan-Ermənistan sərhədində gərginliyin artdığı dövrə təsadüf edir. May ayında işğalçı ölkənin davamlı təxribatlarının cavabında Azərbaycan ordusu bir neçə sarsıdıcı zərbələr endirdi ki, bu da Ermənistanın himayədarlarını açıq şəkildə narahat etdi. Hətta ordumuzun “OSA” kompleksini məhv etməsinə Moskvadan aşkar etirazın ardınca həmsədrlərin Azərbaycanı günahlandıran bəyanatı da oldu. Paralel olaraq Ermənistan tərəfin Madrid prinsiplərindən imtinaya istiqamətlənmiş açıqlamalarının ardınca savaş variantının ciddi şəkildə gündəmə gəlməsi və Bakının prinsipial mövqeyi bəzi dairələri hərəkətə keçməyə vadar etdi. Elə ATƏT-in baş katibinin məhz belə gərgin günlərdə İrəvana səfər etməsi, daha sonra isə həmsədrlərin bölgəyə səfərinin planlaşdırılması təsadüfi deyildi. Görünən budur ki, Rusiyanın baş diplomatı da proseslərin nəzarətdən çıxa biləcəyindən ehtiyatlandığı üçün danışıqların bərpasına yönəlik çağırış edir.

**Bəs ekspertlər nə düşünür, Lavrovun Qarabağ açıqlaması hansı anlamı verir? Nazir kimə xəbərdarlıq edir: düşmənə cavab zərbələri endirən Azərbaycana, yoxsa son vaxtlar təxribatlarını artıran Ermənistana? Minsk Qrupu həmsədrlərinin səfərləri ərəfəsində Rusiya diplomatının ənənəvi olsa da, amma belə bir açıqlama verməsinin səbəbi nə ola bilər? Rusiya yenə də “Qarabağ mənlikdir” deməkmi istəyir, yoxsa hərbi əməliyyatların başlaya biləcəyi xəbərdarlıqlarını ciddiyə alır? Yeri gəlmişkən, bu bəyanat S.Sərkisyanın Azərbaycanla sərhəd bölgələrə gəlişi gün səslənib.**

**Hərbi ekspert Üzeyir Cəfərov dedi ki, Lavrov əvvəllər söylədiyi sözləri təkrar edib:** “Dəfələrlə eyni fikri söyləyən rus diplomatı, görəsən, bizi nə sayır? Nədən o bircə dəfə də olsun işğalçını beynəlxalq hüquqa və normalara hörmətlə yanaşmağa dəvət etmir? Axı Azərbaycan kifayət qədər səbr və dözüm nümayiş etdirib. Bu illər ərzində sonsuz sayda danışıqlar prosesinin şahidi olmuşuq. Və hər dəfə də guya hansısa "uğurun bir addımlığında" işlər pozulub. Və ümumi söz yığnağı və yenə hansısa mücərrəd fikirlər. Bu arada isə biz Rusiyanın Ermənistanı aktiv şəkildə silahlandırdığının şahidi olmuşuq və oluruq. Demək olar ki, son illər işğalçıya o qədər silah-sursat təslim edilib ki, Allah göstərməsin, bu dəfə cəbhədə baş verə biləcək hadisələr çox ağır nəticələrə gətirib çıxaracaq".

**Ü.Cəfərov həmsədrlərin gözlənilən səfərindən heç bir müsbət nəticə gözləmədiyini də vurğuladı:** “Ona görə ki, bu üçlükdən daha çox Rusiya canfəşanlıq edir və onların da "canıyananlığının" necə olması haqqında bir qədər yuxarıda danışdıq. Bunlar hər vaxt uzatmaqla, Ermənistanın maraqlarını təmin etməklə məşğuldurlar. Bunu demək olar ki, artıq hər kəs bilir və bu zərərli addımlarının fərqindədirlər. Bütün baş verənlər, sadəcə, görüntü üçün və ATƏT-in bivec Minsk Qrupu üçün hesabat tərtib etməkdən ötəri növbəti hiyləgərlikdir. Bunu anlamaq üçün heç də böyük siyasi savada malik olmaq lazım deyil. Biz onlarla məsələmizi konkretləşdirməliyik. Yoxsa bunlar hələ çox hoqqalardan çıxmaq istəyirlər".

**“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu “Yeni Müsavat”a açıqlamasında bildirdi ki, Sergey Lavrovun xəbərdarlıqları Azərbaycana ünvanlanıb:** “Çünki Ermənistan status-kvonu uzatmağa, Azərbaycan isə status-kvonu ortadan qaldırmağa çalışır. Status-kvonu dəyişməyin yolu isə cəbhə bölgəsində işğalçıya təzyiqin artırılmasından keçir. Bu isə Kremlin və onun təmsilçisi Sergey Lavrovun xoşuna gəlmir. Kreml Azərbaycanın güc yolu ilə torpaqlarını azad etməsində maraqlı deyil. Lavrov ondan qorxur ki, isti aylarda Azərbaycan işğalçıya qarşı hərbi təzyiqlərini artıra bilər. Ona görə də ad çəkmədən Azərbaycanı xəbərdar edir ki, biz müharibəyə başlamayaq”.

**Bu arada, E.Şahinoğlu Ermənistan saytlarının xəbərlərinə ehtiyatla yanaşmağı məsləhət gördü:** “Ermənistanın hansısa saytına istinadən belə xəbər yayılıb ki, guya Rusiya erməni maraqlarını düşünmür, rus agentlər Dağlıq Qarabağa gedərək bölgənin Azərbaycana qaytarılmasıyla bağlı təbliğat aparırlar. Bu, Azərbaycan cəmiyyətinin rahatlanmasına və Rusiyaya inamının artmasına hesablanmış dezinformasiyaya oxşayır və həm işğalçı Ermənistanın, həm də Rusiyanın maraqlarına xidmət edir. Bizə aşılamaq istəyirlər ki, guya Rusiya Azərbaycanın dostudur və münaqişəni Azərbaycanın xeyrinə həll etməyə hazırlaşır”.

**Düşmənin son zamanlar iki dövlət sərhədində fəallaşmasına gəldikdə, E.Şahinoğlu bunu səbəbsiz saymır:** “Ermənistan bunu ona görə edir ki, biz işğal altındakı torpaqları azad etmək üçün hərbi əməliyyata başlamayaq”.

ATƏT-in Minsk Qrupunun həmsədrləri isə yaxın günlərdə İrəvana gələcəklər. Onlar bu dəfə də Qarabağa Ermənistan yolu ilə gedəcəklər. Bu isə haqlı narazılıq və suallar doğurur. Təəccüblüsü həm də odur ki, həmsədrlərin İrəvan və Xankəndinə səfərindən bir həftə sonra Bakıya səfəri planlaşdırılıb. Diplomatlar bununla Azərbaycanın ərazi bütövlüyünə qəsd etmirlərmi? Hələlik rəsmi Bakı məsələyə hər hansı reaksiya verməyib. Üstəlik, bu barədə ilk olaraq erməni nazir Edvard Nalbəndyan xəbər verib. Məntiqlə Azərbaycan onun ərazisinə kimlərin gələcəyindən ilk xəbər tutmalı idi. Bakı həmsədrlərdən tələb edə bilərmi ki, təmas xəttini keçib Qarabağa getsinlər? Bu, nə deməkdir, həmsədrlər de-fakto Qarabağı Ermənistanla bir yerdəmi görürlər? Bunun cavabı nə olmalıdır?

**Politoloq Arzu Nağıyev öncə dedi ki, bugünkü şəraitdə ATƏT-in Minsk Qrupunun həmsədrlərinin regiona səfərlərindən müsbətə doğru hər hansı dönüş gözləmək düzgün olmaz:** “Məlumdur ki, münaqişə demək olar ki, öz kulminasiya nöqtəsinə çatıb. Azərbaycan tərəfi bütün beynəlxalq norma və prinsiplərə uyğun olaraq öz təkliflərini irəli sürüb və cavab gözləyir. Məlumdur ki, atəşkəsin pozulması bəhanəsi ilə ermənilər danışıqlar prosesini uzadırlar və bununla da status-kvonun saxlanmasına nail olurlar. Əgər Minsk Qrupunun təmsil edildiyi dövlətlər Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyirlərsə, problem nə ola bilər ki? Ortada Madrid prinsipləri və digər konkret sənədlər varsa, nə üçün qərar verilmir? Düşünürəm ki, Minsk Qrupu bu suallara cavab verməlidir və ermənilərdən bunu sorğu etməlidirlər. Təbii ki, yenə Rusiya öz aktiv siyasətini yeritməli və Ermənistana təzyiq etməlidir. Əlbəttə, bunu gözləmək özü diletantlıq olardı, lakin bunu etməsi vacibdir. Əks halda, regionu bürüyə biləcək lokal hərbi əməliyyatlarla üz-üzə gələ bilərlər. Burada isə bütün regiondan söhbət gedir. Fransada yeni seçilən prezident Makron seçkiqabağı Dağlıq Qarabağla bağlı verdiyi vədləri yerinə yetirməlidir, ABŞ da onun kimi”.

**Digər məqama gəldikdə, A.Nağıyev bildirdi ki, həmsədrlərin Dağlıq Qarabağ ərazisinə hansı dövlətin ərazisindən getməsi elə bir əhəmiyyət kəsb etmir:** “Yəni bu, heç də Azərbaycanın ərazi bütövlüyünün inkar edilməsi və ya BMT tərəfindən qəbul edilən sərhədlərin pozulması və ya qəbul edilməməsi kimi də şərh edilə bilməz. Hazırda səfərin Ermənistandan başlaması düşünürəm ki, məhz Ermənistanın yaranmış suallara cavab verməli olduğu ilə bağlı ola bilər. Azərbaycan tərəfi cavab gözləyən, diktə edən tərəfdir. Erməni tərəfi bu suallara cavab verdikdən sonra Dağlıq Qarabağ separatçıları öz fikir və mövqelərini ortaya qoymalıdırlar və təbii ki, həmsədrlər bu cavablarla Azərbaycana gəlməlidirlər. Yəni bizim fikirlərimiz tam şəkildə aydındır, istər Madrid prinsipləri olsun, istərsə də digər formatlar və protokollar. Bundan başqa, Ermənistanda keçirilən seçkilərdən sonra ATƏT-in Minsk Qrupunun həmsədrləri vəziyyətə aydınlıq gətirmək üçün də bu addımları ata bilərlər. Bir sözlə, elə bir əhəmiyyət kəsb etməyən məsələlər o qədər də vacib deyil, əsas məsələ bu qrupun hansı cavabla gəlməsidir”.

****

**“BMT Qarabağ münaqişəsini 22 ildir həll edə bilmir”. “Report” “Yeniakit”ə istinadən xəbər verir ki, bunu Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan sədri olduğu hakim Ədalət və İnkişaf Partiyasının (AKP) səfirlər üçün təşkil etdiyi 10-cu ənənəvi iftar süfrəsindəki çıxışında bildirib.** “BMT Təhlükəsizlik Şurasının 5 daimi üzvü var. Bu istiqamətdə dəyişikliyi bir çox ölkə gözləyir. Bütün problemlərin həlli 5 dövlətin iki dodağının arasından çıxan kəlmədən asılıdır. Suriya, İraq probleminin həll edə bildilərmi? Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi 22 ildir həll olunmur. Həll edə bilməzlər. Çünki biri "yox" desə, məsələ həll edilməyəcək", - deyə Ərdoğan vurğulayıb.

Həmsədrlər məhz belə bir ərəfədə, hər yerdə özlərinə inamı itirdikdən sonra gəlirlər. İnamı bərpa etmək üçün, yoxsa sadəcə, öz varlıqlarını nümayiş etdirməyə, bu sualın cavabı səfərdən sonra veriləcək...

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 122 (6736) 8 iyun 2017

# Araz Ağalarovun bataqlıq üzərindəki biznes imperiyası

## Məşhur iş adamı "mənim üçün biznesdə avtoritet yoxdur" deyir

**"Böhran hər il daha da kəskinləşir. Sənaye istehsalı, ticarət dövriyyəsi getdikcə azalmaqdadır". Bunu "Crocus Group"un sahibi, milyarder Araz Ağalarov "Forbes" jurnalına müsahibəsində bildirib. Onun sözlərinə görə, Rusiyada uçot dərəcəsinin yüksək olması biznesin genişləndirilməsinə neqativ təsir edir. Milyarderin fikrincə, uçot dərəcəsini hər rüb 0,25% azaltmaq mümkündür. "Təbii ki, əgər möhtəkirlər dəcəllik edərsə, proses dayandırılmalıdır. Başqa sözlə, bir eksperiment keçirərək optimal variant tapmaq olar. Bu variant rublun məzənnəsinə də, biznesə də mənfi təsir etməməlidir", - deyə o bildirib.**

Müxbirin "Tikinti sektorunda durğunluq olduğu bir vaxtda siz üçüncü ”Vegas" ticarət mərkəzini tikməkdə israrlısınız" sualına iş adamı bu cür cavab verib: "Biz istisnayıq. Çünki biz pulu saymağı bacarırıq. ”Sberbank"ın apardığı tədqiqat nəticəsində məlum olub ki, tikintidə ən aşağı maya dəyəri "Crocus Group"dadır. 300 000 kvadratmetr ərazisi olan "Vegas" bizə 300 mln. dollara başa gəldi. Başqa sözlə, 1 kvadratmetrin maya dəyəri 1000 dollar təşkil edir. Bu isə bizim qənaət etməyi bacardığımızı göstərir. Bu səbəbdən "Sberbank" hətta dördüncü "Vegas"ı da kreditləşdirməyə hazırdır".

**A.Ağalarov onu da qeyd edib ki, hazırda onun kredit borcu 1,7 mlrd. dollar təşkil edir.** "Biz il ərzində kreditlər üzrə 8 mlrd. rubl ödəyirik. Əvvəllər 4 mlrd. rubl ödəyirdik və özümüzü normal hiss edirdik. O zaman kredit borcumuz 50 mlrd. rubl idi. Lakin rubl zəiflədi və borcumuz 100 mlrd. rubl oldu. Mən hətta xarici valyutada ipoteka krediti olanların mitinqinə qoşulmaq istədim, lakin sonra fikrimdən daşındım, anladım ki, mən başqa çəki kateqoriyasındayam (gülür - red.), məni anlamazlar. İndi kredit götürmək niyyətimiz yoxdur. Böyük ehtimalla, dördüncü ”Vegas"ı öz vəsaitimiz hesabına tikəcəyik", - deyə milyarder bildirib.

Ağalarovun biznesindəki problemlərin ilk siqnalları isə ötən ildən başlanıb. 2016-cı ilin avqustunda Rusiyada "Kron" MMC Moskva vilayəti Arbitraj Məhkəməsinə biznesmen Araz Ağalarovun başçısı olduğu "Crocus Group"a daxil olan "Crocus International" SC-nin müflis olmasının tanınması barədə ərizə ilə müraciət etmişdi. Amma həmin vaxt Ağalarovun müflisləşməsi ilə bağlı iddianın baxılacağı tarix müəyyən edilməyib.

Mübahisə "Crocus Group" şirkətinin federal hökumətin sifarişi əsasında Asiya-Sakit okean İqtisadi Tərəfdaşlıq (APEC) sammiti üçün tikdiyi və Vladivostokda yerləşən Uzaq Şərq Federal Universitetinin obyektlərinin - sahilyanı, gəmilərin lövbər salması üçün ərazilər, süni göl, şəlalə, ümumi sahəsi 5 min kvadratmetrdən çox olan idman-sağlamlıq kompleksinin (D korpusu) dəyərinin müəyyənləşdirilməsindəki fikir ayrılığından irəli gəlib. İddiaçı - layihənin baş podratçısı sifarişçinin ona çatacaq məbləği tam ödəmədiyini bildirib.



Araz Ağalarov

Ağalarovun varidatı isə hər zaman üçün müzakirə mövzusu olub. Uzun illər Rusiyada güclü və uğurlu biznesi ilə ad qazanan Araz Ağalarov nələrə sahibdir? 1995-ci ildə onun sərgiləri Las-Veqasda Comdex və Hannoverdə keçirilən Cebit sərgilərindən sonra dünyada statusuna görə üçüncülük qazandı. Araz Ağalarov sonralar "Comtech"dəki payını bir ingilis şirkətinə sataraq "Krokus Siti" layihəsini həyata keçirməyə başladı.

1991-ci ildə Araz Ağalarov Stoleşnikov döngəsi ilə Petrovkanın kəsişdiyi yerdə ilk eksklüziv ayaqqabı mağazası açdı. Bu, o vaxtlar çox məşhur mağaza idi.

1995-ci ildə Araz Ağalarov yaşayış evi tikmək fikrinə düşdü və Moskvanın ən bahalı və elit evi sayılan "Ağalarov evi"nin tikintisini başa çatdırdı. Onun 1997-ci ildə Moskva dairəvi avtomobil yolu (MKAD) ilə Kaşirsk şosesinin kəsişdiyi yerdə tikdirdiyi ilk hipermarketin də dünyada tayı-bərabəri yox idi. Çünki orada eyni vaxtda 400 min adda mallar satılır.

Diqqətçəkən cəhətlərdən biri də odur ki, A.Ağalarov "Krokus siti"yə daxil olan ilk obyektlərini ya keçmiş çirkab çalaları olan yerdə, ya da bataqlıqda tikdirib. "Sənin evin" ticarət mərkəzini tikən zaman ilk traktor əraziyə girərkən bataqlıqda batmışdı. Sonradan onu qaldırıcı kranla çəkib çıxardılar. Bu bataqlıqları qurutmaq üçün orada drenaj quruldu, əraziyə çoxlu çınqıl və qum töküldü.

**A.Ağalarov eyni zamanda Ümumrusiya Azərbaycan Konqresinin də rəhbərliyində təmsil olunub. Məşhur biznesmenin ticarətlə bağlı maraqlı bir sitatı var:** "Mənim üçün biznesdə avtoritet yoxdur. Ümumiyyətlə, mən uğur qazanmış insanlara daha sadə yanışıram. Əgər kiminsə haqqında ”O, bunu edib, buna nail olub, belə edib və s." tipli sözlər deyirlərsə, mən deyirəm ki, nə olsun, mən onun yerində olsaydım, daha çoxuna nail olmuşdum. Bəlkə də bu məsələdə mən yanılıram, amma belə düşünməyi tərgitmək fikrində deyiləm".

❑ Sevinc TELMANQIZI

# Ərəb ölkələrini bir-birinə Tramp qırdırır?

## Ekspertlərdən "gərginlik artmaqda davam edəcək" proqnozu




**Dünyanın ən zəngin müsəlman dövlətlərindən olan Qətərlə Səudiyyə Ərəbistanı və digər bir neçə müsəlman ölkəsi arasında qarşıdurma vəziyyəti yaranıb. Ərəb ölkələri arasında belə bir vəziyyətin ABŞ prezidenti Donald Trampın may ayında Səudiyyə Ərəbistanına səfərindən və "müsəlman NATO-su" kimi təqdim olunan ittifaq yaradıldığının elan olunmasından az sonra meydana gəlməsi sual yaradır. Vəziyyətin bu həddə çatmasında Donald Trampın bir neçə gün əvvəl Səudiyyə Ərəbistanına səfərinin rolu oldumu? Ərəb ölkələrinin bir-birinə girməsində ABŞ-ın əli varmı?**

**Politoloq Qabil Hüseynli** "Yeni Müsavat"a bildirdi ki, Qətər hadisəsinin baş verməsi bu ölkənin başında dayanan cavan yaşlı bir adamın təcrübəsizliyindən irəli gəlir. Siyasi təcrübəsi az olan Qətər əmiri səriştəsiz hərəkətlər etdi. Bu da onun ölkəsinin ətrafında gərginliyin başlamasına gətirib çıxardı. Qarşıdurmanın körüklənməsində isə Qərbin şübhəsiz ki, rolu var. Böyük güclərin, ABŞ-ın bu vəziyyətin yaranmasında əlinin olması da istisna deyil: "Onlar yanan ocağın üzərinə benzin tökməkdə davam etdilər və nəticə etibarilə ərəb ölkələri arasında münasibətlər xeyli gərginləşdi. Trampın məlum səfərindən sonra Səudiyyə Ərəbistanı ilə daha da sıx əlaqələr quran ABŞ-ı Qətər dövlətinin ”müsəlman NATO-su"ndan imtina etməsi qəzəbləndirib. Onsuz da müsəlman dünyasına qarşı tolerant olmayan Donald Trampın Qətərin bu davranışından əsəbləşdiyi və ərəb ölkələrini bir-birinin üzərinə qaldırmaq fikrinə düşdüyü müşahidə olunur.

Qətərin siyasi rəhbərliyini hakimiyyətdən uzaqlaşdırmağa çalışırlar. Bu, baş verməyincə, gərginliyin səngiyəcəyi gözlənilmir. Qətər bölgənin qazla zəngin birinci dövlətidir. Digər ərəb ölkələrinin əli ilə bu dövləti zəiflətmək planı qurulub. Çünki Qətərin kimin əlində olması məsələsi çox prinsipial əhəmiyyət kəsb edir. Odur ki, gərginlik mürəkkəbləşməkdə davam edəcək. Səudiyyə Ərəbistanının və Misirin bu məsələdə öncüllük etməsi də ondan xəbər verir ki, prosesin arxasında ABŞ dayanır. Qətər məsələsi ərəb dünyasında çox böyük bir qarşıdurma yaratmağa hesablanıb. Qətərdə hakimiyyət dəyişikliyindən sonra hədəfə İran çıxarılacaq".

**Q.Hüseynli onu da dedi ki, müsəlman dövlətlərinin bir-biri ilə qarşıdurması Azərbaycan üçün heç də xeyirli deyil:** "Neftin qiymətinin bahalaşması baxımından yanaşdıqda gəlirlərimizin artması baxımından gərginlik müəyyən mənada xeyirli sayıla bilər. Ancaq gərginliyin dərinləşməsinin ciddi təhdidləri də var. Ona görə də Azərbaycan maraqlı olmalıdır ki, yaxınlıqda yerləşən müsəlman ölkələri arasında münasibətlər normallaşsın".

**Politoloq Elxan Şahinoğlu isə bildirdi ki, həm Səudiyyə, həm də Qətər Vaşinqtonun bölgədəki müttəfiqləridir və Ağ Ev iki müttəfiqi arasında münasibətlərin gərginləşməsini istəməzdi. Sadəcə, Ər-Riyad hiyləgər gediş etdi:** "İndi aydın olur ki, niyə Ər-Riyad Trampın iştirakı ilə ”İslam, ərəb, Amerika" sammiti keçirdi? Ər-Riyad həmin sammitdə Ağ Ev sahibinin nə deyəcəyini əvvəlcədən təxmin edə bilərdi və Səudiyyənin təxminləri doğru çıxdı. Tramp birincisi dedi ki, beynəlxalq terrorçulara dəstək verməyin, onlardan uzaq dayanın, ikincisi bildirdi ki, İran bölgənin başlıca düşmənidir. Elə Ər-Riyadın Qətərə qarşı irəli sürdüyü iki iddia Trampın söylədiyi iki əsas tezisə əsaslanırdı. Tramp bəlkə də özü də anlamadan Ər-Riyadın Qətərə qarşı arqumentini gücləndirdi.

İkinci sual ondan ibarətdir ki, İran bu vəziyyətdən istifadə edərək ərəb ittifaqında çatın dərinləşdirilməsinə, Qətəri daha çox öz tərəfinə çəkməyə çalışacaqmı? Əgər Tehranda bu alınsa, Qətər Suriyadan sonra ikinci ərəb ölkəsi olacaq ki, İranla müttəfiq olacaq. Tehran artıq Qətər hakimiyyətinə müraciət edərək, gərəkən ərzaq göndərəcəyini açıqlayıb. Bəllidir ki, Qətər varlı dövlət olsa da, iqlim şəraitinə görə özünün yetişdirdiyi məhsullar çox azdır. Ancaq Qətərin sünni ərəb dünyasından üz döndərərək İranla müttəfiq olacağını zənn etmirəm. Bu, Qətərin sonunu yaxınlaşdırar. Ona görə də Qətər tədricən "əl-Qaidə", DAİŞ, "Müsəlman qardaşları" kimi qruplaşmalara dəstəkdən əl çəkəcək, İranla yaxınlaşmaqdan vaz keçəcək. Bunu etmədən Qətərin təhlükəsizliyi sual altında qalacaq".

❑ Etibar SEYİDAĞA

YENİ MÜSAVAT
N 122 (6736) 8 iyun 2017

# İşğal olunmuş ərazilərimizdə hotel sifariş edən saytı necə cəzalandıraq...

## Türkiyədən sonra Azərbaycanda da "booking.com"un fəaliyyəti dayandırıla bilərmi...

**Məşhur hotel sifarişi saytı olan booking.com-un Azərbaycanın işğal olunmuş ərazilərində mehmanxana sifarişlərini həyata keçirməsi ölkəmizdə narahatlığa səbəb olub. Bununla bağlı Azərbaycan Xarici İşlər Nazirliyi "Booking.com" hotel sifarişi şirkətinə müraciət edib. Qeyd edək ki, bu artıq XİN-in "Booking.com"a ikinci müraciətdir. Müraciətdə deyilir ki, şirkətin Azərbaycanın işğal olunmuş ərazilərində mehmanxana sifarişlərini həyata keçirməsi beynəlxalq hüququn norma və prinsiplərinə, Ümumdünya Turizm Təşkilatının Nizamnaməsinə və müvafiq qərarlarına, Turizmə dair Qlobal Etik Məcəlləyə köklü şəkildə ziddir:**

"Azərbaycanın işğal olunmuş əraziləri qanuni beynəlxalq pulköçürmə əməliyyatları üçün qapalıdır. Ancaq "Booking.com" üzərindən onlayn ödənişlər edilir. Şirkətin bundan qazanc əldə etməsi qanunsuzdur. Çirkli pulların yuyulması kontekstində nəzərdən keçirilməlidir. Ümumdünya Turizm Təşkilatının Turizmə dair Qlobal Etik Məcəlləsinə əsasən, turistlərdən və turizm sahəsində fəaliyyət göstərən şirkətlərdən səfər edilən ölkənin qanunlarına hörmət etmək və turizm səfəri zamanı cinayət əməlləri və səfər edilən ölkənin qanunlarına görə cinayət hesab oluna biləcək hər hansı fəaliyyətdən kənar durmaq tələb olunur. "Booking.com" şirkətinin bu fəaliyyəti korporativ biznes etikasına ziddir. Şirkətin nüfuzuna mənfi təsir göstərən amildir".




Nazirlik bildirir ki, beynəlxalq hüququn norma və prinsipləri, ÜTT-nin Nizamnaməsi, Turizmə dair Qlobal Etik Məcəllə, ÜTT-nin İcraiyyə Şurasının müvafiq qərar və tövsiyələrinə əsasən "Booking.com" şirkəti Azərbaycanın işğal olunmuş ərazilərinin turizm məntəqəsi kimi təşviq edilməsi və orada mehmanxana sifarişlərinin həyata keçirilməsi kimi əməllərinə son qoymalıdır.

Qeyd edək ki, şirkət Azərbaycan tərəfinin etirazlarını diqqətə almazsa, bu saytın Azərbaycanda fəaliyyətinin dayandırılması da gündəmə gələ bilər. Ancaq ekspertlər bunu effektiv yol hesab etmirlər. Əgər Azərbaycanda sayta girişə blok qoysalar, bu, xaricilər üçün böyük problem olmayacaq. Çünki onlar öz ölkələrindən girib istədikləri hoteli sifariş edə biləcəklər.

Xatırladaq ki, bir müddət öncə qardaş Türkiyədə "Booking.com"un fəaliyyəti dayandırıldı. Saytın Türkiyə ərazisində yasaqlanması ilə bağlı şikayəti Türkiyə Səyahət Agentlikləri Birliyi (TÜRSAB) açıb. İddiada bildirilirdi ki, "Booking.com" haqsız rəqabət göstərib. Nəticədə turizm agentlikləri zərər görüb. Başqa bir səbəb kimi isə şirkətin vergidən yayınması göstərilir. İstanbul Ticarət Məhkəməsi TÜRSAB-ın iddiasını haqlı sayıb. "Booking.com"un Türkiyədəki fəaliyyətlərini dayandırma qərarı alıb.

Məlumat üçün bildirək ki, Hollandiyaya məxsus "Booking.com" hotel sifarişi şirkəti turistlərin ən çox istifadə etdiyi, dünyanın ən böyük hotel axtarış saytlarından biridir. Burada turistlər üçün hosteldən tutmuş 5-7 ulduzlu hotellərə qədər hər cür seçim imkanı var.

Bəs görəsən, "Booking.com" məlum siyasətindən əl çəkməzsə, onun fəaliyyəti Türkiyədən sonra Azərbaycanda da dayandırıla bilərmi? Bu, problemin həllində nə dərəcədə faydalı olar?

**"Yeni Müsavat"ın sualını cavablandıran Natiq Cəfərli bildirdi ki, hotel sifarişləri qəbul edən bu cür saytlar hər bir ölkənin ərazi bütövlüyünə hörmət etməli, terrorizmin dəstəklədiyi ərazilərdə olan hotellərin reklamına həssaslıqla yanaşmalıdır:** "Çünki Azərbaycanın işğal olunmuş ərazilərində fəaliyyət göstərən hotellərin reklam edilməsi sanki Azərbaycanın işğal altında olan ərazilərinin legitimliyinin azalmasına xidmət edir. Bu baxımdan, Xarici İşlər Nazirliyinin açıqlaması doğru açıqlamadır. İradları da haqlıdır. "Booking.com" bu kimi məsələlərə diqqət yetirməlidir. Bu bəyanatlardan əlavə, problemi həll etmək üçün normal danışıq xətti olmalıdır. Ya XİN tərkibində, ya da hökumətin tərkibində bu kimi məsələləri operativ həll etmək üçün qərargah formalaşdırılması daha doğru olar. Çünki zaman-zaman buna bənzər hadisələri biz görürük. Saytın özünün bloklanması da ciddi effekt verməyəcək. Bu, turizm şirkətləri üçün də problem yarada bilər. Azərbaycanda son zamanlar saytlara əngəllərin yaradılması əhalinin böyük bir hissəsinə digər proqramlardan istifadə etməklə, o saytlara girişi təmin etməyi öyrətdi. Hökumət bu addımı ilə insanları yeni texnologiyalarla tanış olmağa məcbur etdi. O baxımdan, bloklanma effekt verməyəcək. Kim istəsə alternativ yollarla sayta girə biləcək".

**N.Cəfərlinin sözlərinə görə, ölkəmizdə blok olunsa belə saytda işğal altında olan ərazilərimizlə bağlı yanlış məlumat başqa ölkələrdə oxunacaq:** "O baxımdan, Azərbaycanda bu saytın bloklanmasının heç bir məntiqi ola bilməz. "Booking.com"la danışıqlar aparıb bu məlumatların oradan çıxarılması və gələcəkdə bu kimi informasiyaların orada yerləşdirilməməsi ilə bağlı anlaşmaya ehtiyac var. Bu, tamhüquqi şəkildə olmalıdır.

Beynəlxalq hüquq bu məsələdə bizim tərəfimizdədir. Ona görə də "Booking.com" da bu müraciətlərin qarşısında adekvat addım atacaq, bu kimi məlumatların yayılmasının qarşısını almaqda maraqlı olacaq. Ancaq ölkə ərazisində saytı bloklamağın bir xeyri olmayacaq. Biz görməsək də, bütün dünya işğal altındakı ərazilərimizdə olan hotellərin adını və kordinatlarını görəcək. Ona görə də danışıqlar aparmaqla bu məsələni həll etmək daha məqsədəuyğundur".

Türkiyədə "Booking.com" saytının fəaliyyətinin dayandırılmasına toxunan Natiq Cəfərli bildirdi ki, qardaş ölkədə eyni fəaliyyəti həyata keçirən bir çox saytlar mövcuddur: "Booking.com" beynəlxalq şəbəkə olduğu və daha çox izləyicisi və istifadəçisi olduğu üçün hotellərdə daha ucuz qiymətlərin təklif olunmasına nail olub. Bu da rəqabəti mühitə ziyan vururdu. Bu səbəbdən Türkiyə tərəfinin rəsmi daireləri də açıqlama verdilər ki, "Booking.com" rəqabət qanunlarını pozur. Əslində bu addım da effekt vermədi. Çünki sayt blok olunsa da insanlar müxtəlif yollarla ora daxil ola bilirlər. Artıq Türkiyə hökuməti də "Booking.com"la çox ciddi danışıqlar aparır ki, ölkə ərazisində haqsız rəqabətə son qoysun. Bu kimi problemlər ancaq qarşılıqlı razılaşma və anlaşma ilə həll oluna bilər".

❑ Nərgiz LİFTİYEVA



# Avropa özünün yaratdığı terror təşkilatlarının hədəfinə çevrilir - səbəblər...

## Elçin Mirzəbəyli: "Terrorizm idarə olunması mümkün olmayan dəhşətli silahdır"

**İyunun 4-də Böyük Britaniyanın paytaxtı Londonda törədilən terror aktı bir mühüm məsələni də gündəmə gətirdi. Belə ki, vaxtilə Britaniya da daxil olmaqla, bəzi Avropa ölkələrinin məhz gizli əlləri ilə yaratdıqları iddia olunan terror təşkilatlarının sonradan onların özünü hədəfə aldıqları sezilir. Bir növ "özgəsinə quyu qazan" bu ölkələrin özləri həmin quyuya düşürlər...**

Zaman-zaman təhlükəli terror təşkilatlarının mövcudluğunda Avropanın əlinin olması barədə fikirlər səslənir. Vaxtilə "əL-Qaidə"nin Amerika tərəfindən yaradıldığı barədə danışılırdı. Sonunda bu terror qrupu məhz Amerikanı hədəf aldı. İndi də İŞİD-in yaradılmasında bir sıra ölkələr kimi Britaniyanın da adı hallanır. Son iki ay göstərdi ki, hazırda İŞİD-in əsas hədəfi məhz bu dövlətdir. Terror qruplarının onlara dəstək olan ölkələri belə hədəf etmələri daim suallar doğurur. Nə qədər inandırıcı olmasa da, fikirlər var ki, izi azdırmaq üçün belə terror faciələri törədilir. Hətta burada terrora məruz qalan dövlətlərin də faciədən əvvəldən xəbərdar olduqları vurğulanır. Amma bu məsələ ətrafında səslənən fikirlər birmənalı deyil.

**Politoloq Elçin Mirzəbəyli səslənən fikirlərə bu mövqedən yanaşır:** "Terror qrupları, terrorçular heç vaxt sonunadək idarə oluna bilməzlər. Çünki bu qrupların öz hədəfləri, öz maraqları olur. Doğrudur, onlar adətən böyük dövlətlərin əsasən dini və separatizm zəminində formalaşdırdığı ideologiyaların daşıyıcıları olurlar. Lakin bu, birtərəfli qaydada olmur. Radikal ideologiyaları adətən belə ideologiyalara meylli adamlar mənimsəyirlər. Böyük dövlətlər müəyyən zaman kəsiyində öz maraqları üçün terrorçulardan və terror qruplarından istifadə edirlər, amma müəyyən bir vaxtdan sonra bu qruplar ya gücə çevrildiklərini düşünüb müstəqil hərəkət etmək niyyətinə düşürlər, ya onlara daha geniş imkan daşıyan başqa bir gücün diktəsi ilə hərəkət edirlər, ya da bu qrupları idarə edənlər onlardan qurtulmaq, cinayətin izini silmək istiqamətində hərəkətə keçirlər ki, bu da əks-reaksiyanın ortaya çıxmasına səbəb olur. Nəzərə almaq lazımdır ki, radikal ideologiyaların təsiri altına düşənlər adətən zəif xarakterli, müstəqil fikri olmayan, cahil, iradəsiz və emosional adamlar olurlar. Onları intellekt və dünyagörüşü deyil, hisslər idarə edir. Qısası, səbəblər çoxdur və bu məsələdə insan faktoru əsas olduğu üçün də fərdi yanaşmağa ehtiyac duyulur. Mən ümumi məqamlara toxundum. Səbəb çox sadədir. Çünki Qərb belə çirkli məqsədlər üçün öz vətəndaşlarından istifadə edə bilməz. Avropada insan amili çox güclüdür, Şərqdə, müsəlman ölkələrində isə yox. Digər tərəfdən, hansısa ölkəyə hərbi qüvvə yeritmək həm böyük xərc, həm də insan resursları tələb edir. Təsəvvür edin, hansısa Avropa ölkəsinin vətəndaşı açıq, yaxud gizli hərbi əməliyyatlar zamanı qətlə yetirilib və cəmiyyət də bunu rahatlıqla qəbul edir... Təsəvvür edə bilməzsiniz. Amma müsəlman ölkələrinin əksəriyyətinin 100 vətəndaşı belə terror aksiyasında, yaxud hərbi əməliyyatlar zamanı qətlə yetirilsə, bu ən yaxşı halda 1 gün sonra unudulacaq xəbərə çevrilə bilər. Bununla yanaşı, şübhəsiz ki, terrorizm idarə olunması mümkün olmayan dəhşətli silahdır. İŞİD-lə bağlı prezident sübuta yetirdi ki, terror təşkilatları hətta nəhəng əraziləri belə nəzarətə götürə, dünyaya meydan oxuya bilərlər".

Politoloq bəzən dövlətlərin hədəflərinin bəşəri dəyərləri də üstələdiyini qeyd etdi: "Bəzən böyük dövlətlərin hədəfləri və bu hədəflərə çatmaq uğrunda mübarizə bütün bəşəri dəyərləri üstələyir. Digər tərəfdən, hansı Avropa ölkəsində müharibə gedir ki? Heç birində. Terrorçu da, terrora məruz qalan da müsəlman ölkələrinin vətəndaşlarıdır. Həm də Avropa sərhədlərindən xeyli uzaqda. Ox yaydan çıxıb artıq. Bəşəriyyəti yenidən öz məcrasına qaytarmaq çox çətin olacaq".

❑ Cavanşir ABBASLI

# 200 manata görə adam öldürdü



**Oğurluq məqsədilə girdiyi evdə qətl törədən şəxsin məhkəməsi baş tutub. Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində quldurluq yolu ilə qətl törətməkdə təqsirləndirilən Rövşən Xalıqovun cinayət işi üzrə məhkəmənin baxış iclası keçirilib. Hakim Azad Məcidovun sədrliyi ilə keçirilən prosesdə dövlət ittihamçısı ittiham aktını elan edib.**

İttihama görə, Rövşən Xalıqov oğurluq məqsədilə Viktor Lituxinin evinə girib. Ev sahibi ilə qarşılaşarkən onu küt alətlə vuraraq qətlə yetirib. Elan olunmuş ittiham üzrə R.Xalıqov özünü təqsirli bilib və istintaqa verdiyi ifadəsini təsdiq etdiyini söyləyib.

**O, pul lazım olduğu üçün V.Luxinin evinə girdiyini deyib:** "Amma istəmədən bu hadisə baş verdi. Onun başına iki dəfə çəkiclə vurdum. Evdən 200 manat pul və pul kartı götürdüm. Əməlimdən peşmanam".

Qətlə yetirilən şəxsin heç kimi olmadığı üçün hüquqi varis kimi Qaradağ Rayon İcra Hakimiyyətinin nümayəndəsi Sərdar Hüseynov tanınıb. O, ifadəsində R.Xalıqova tutduğu əmələ görə cəza verilməsini istəyib.

**Şahid qismində Nigar Ələkbərova ifadəsində qeyd edib ki, qətlə yetirilmiş Viktor Lituxin onun atasının dostu olub:** "Hadisədən sonra axşam tərəfi Viktora zəng vurdum, o, telefonu götürmədi. Səhərisi günü onun evinə getdim, yenə qapını açmadı. Evdən pis iyi gəlirdi. Polisə məlumat verdik. Qapı açılanda onun öldürüldüyü məlum oldu".

Növbəti məhkəmə iclası iyunun 14-nə təyin edilib.

Qətl hadisəsi ötən il iyunun 28-də Qaradağ rayonunun Lökbatan qəsəbəsində baş verib. Qəsəbədə yaşayan Viktor Lituxinin baş nahiyəsində xəsarət olan və qismən çürüməyə məruz qalmış meyiti mənzilində tapılıb.

Araşdırmalar zamanı hadisəni törədən əvvəllər məhkum olunmuş R.Xalıqov saxlanılıb.

O, Cinayət Məcəlləsinin 120.2.11-ci (qəsdən adam öldürmə, quldurluq, hədə-qorxu ilə tələb etmə) və 181.3.3-cü (quldurluq, zərərçəkmişin sağlamlığına ağır zərər vurmaqla törəldildikdə) maddəsi ilə ittiham olunur.

Xatırladaq ki, R.Xalıqov daha əvvəl də oğurluqda təqsirli bilinərək həbs edilib.

❑ **İ.MURADOV**

**İzrail ənənəsi əsasında özəl tibbi sahədə 20 illik təcrübə!**
**XƏSTƏLİKDƏN ƏZAB ÇƏKƏN İNSANLARA ƏSASƏN KİŞİLƏRƏ!**
**DİQQƏT!!! AXIRINCI ŞANS!!!**

Azərbaycanda və yaxud xaricdə diaqnozun təsdiqi və tam müalicəsi mümkün olmayıbsa, **doktor VAİZ SƏMƏDOV** şəxsi tibbi metodikası ilə Sizin uğurlu və daha qarantili olaraq aşağıdakı xəstəlikləri keyfiyyətli müayinə və müalicə edə bilər.

- ✳ Diaqnozu bilinməyən ağır hallar;
- ✳ Xərçəngə şübhəli olan prostat düyünlü adenoması. Prostatitlər; Qipertrofiya və ya Atrofiya
- ✳ Cinsi zəiflikdən tam impotensiyadək, marağın və aktların azalması;
- ✳ Vaxtından tez toxum ifrazatı (səbəbdən asılı olmayaraq)
- ✳ Toy gecəsinin uğursuzluqları (kişi tibbi problemlər)
- ✳ Sidikdə və ya spermada qan;
- ✳ Spermanın azalması və itməsi;
- ✳ Kişi cinsi orqanının birdən əyilməsi və balacalması;
- ✳ Oğlan uşaqlarında cinsi orqanların (penisin və xayaların) inkişafdan qalması;
- ✳ Hormonal və infeksion səbəbli sonsuzluq (kişi və qadınlarda);
- ✳ Tala-tala və hərtərəfli saçların tökülməsi;
- ✳ Gecə-gündüz uşaq və böyüklərdə sidik aktların pozulmaları; Enurez
- ✳ 50 yaşdan sonra oynaqlarda və onurğada baş verən qeyri travmatik ağrılar və hərəkət çətinlikləri;
- ✳ Sesksual inamsızlıq, gərginlik və qorxu nevrozları.Yuxu pozğunluqları
- ✳ Zöhrəvi xəstəliklərdən sonra qalıqlar və ağırlaşmalar.

---

**D-r V.Səmədovun əsas tibbi prinsipi - keyfiyyətli və təkrarsız müalicə aparmaq üçün xəstəliyin əsl və bütün səbəblərini aşkar etmək zəruridir.**

*Qəbula yazılmaq və ünvanı öyrənmək üçün saat 11-dən 23-ə dək, **(050) 213-88-05** nömrəsinə, **d-r Vaiz Səmədova** zəng etmək olar.*

Qəbul növbə ilə hər gün saat 12-dən sonra başlayır.



## Dəhşətli avtoqəzada ana və iki oğlu öldü

**Hacıqabulda ağır qəza baş verib. APA-nın məlumatına görə, "Ford" markalı mikroavtobusun yoldan çıxaraq aşması nəticəsində ölənlərin iki qardaş və onların anası olduğu müəyyən edilib. Onlar Ucar rayonu Müsüslü kənd sakinləri 1994-cü il təvəllüdlü Abdullayev Hamil Şükür oğlu (sürücü), 1989-cu il təvəllüdlü Abdullayev Samir Şükür oğlu, 1966-cı il təvəllüdlü Abdullayeva Gülzar Knyaz qızıdır. Qəza nəticəsində xəsarət alan 6 yaşlı oğlanın Abdullayev Samirin oğlu olduğu bildirilir.**

Məlumata görə, qardaşlar analarını Bakıya xəstəxanaya gətirirmiş.

## Azərbaycandan 120 min dollar çıxaran Rusiya vətəndaşları tutuldular

**Xaçmaz Gömrük İdarəsinin Gömrük hüquqpozmalarına qarşı mübarizə şöbəsinə daxil olmuş əməliyyat məlumatı əsasında, idarənin "Samur" gömrük postunda Rusiya Federasiyası istiqamətinə gedən üç Rusiya vətəndaşının üzərində şəxsi yoxlama aparılıb.**

Dövlət Gömrük Komitəsinin mətbuat xidmətindən virtualaz.org-a verilən məlumata görə, yoxlama nəticəsində həmin şəxslərdən ikisinin ayaqqabısında, birinin isə corablarında gömrük nəzarətindən gizlədilmiş, cəmi 120.000 ABŞ dolları aşkar olunaraq götürülüb.




## Bakıda qadınlara hücum edən şəxs tutuldu

**Bakıda qadınlara qarşı zorakılıq edən şəxs saxlanılıb. ARB TV xəbər verir ki, iyun ayının 3-ü saat 18 radələrində Nəsimi rayonu ərazisində naməlum şəxs Bakı şəhər sakini Ülkər Rəhimovaya zor tətbiq etməklə, onun qızıl boyunbağısını qırıb götürərək, hadisə yerindən qaçıb.**

Nəsimi Rayon Polis İdarəsi və ərazidə olan Əlahiddə Çevik Polis Alayı əməkdaşlarının operativ şəkildə həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində qeyd edilən cinayəti törətməkdə şübhəli bilinən əvvəllər məhkum olunmuş Alı Tağıyev hadisə yerindən bir neçə yüz metr kənarda saxlanılıb. Araşdırma zamanı saxlanılan şəxsin həmin gün Nəsimi rayonu ərazisində Dilarə Qəniyeva adlı başqa bir qadını da döyərək, qızıl boyunbağısını quldurluq yolu ilə ələ keçirdiyi məlum olub.

Faktla bağlı Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb, araşdırmalar aparılır.

Polis əməkdaşları quldurluq və soyğunçuluq etməkdə şübhəli bilinən bu şəxsin digər cinayətlərdə iştirakını istisna etmirlər. Onun əməllərindən zərərçəkən başqa vətəndaşlar varsa, bu barədə Daxili işlər Nazirliyinin "102" Zəng Mərkəzinə və ya Nəsimi RPİ-yə müraciət edə bilərlər.

## Məhkəmə söyüşə görə adam bıçaqlayan şəxsə bəraət verdi

**Bakı Ağır Cinayətlər Məhkəməsində qəsdən sağlamlığa ağır zərər vurmaqda təqsirləndirilən Eldəniz Abbasovun cinayət işi üzrə məhkəmə prosesi başa çatıb.**

APA-nın xəbərinə görə, hakim Novruz Kərimovun sədrliyi ilə keçirilən prosesdə hökm oxunub.

Hökmə əsasən, E. Abbasov barəsində bəraət hökmü çıxarılıb və o, məhkəmə zalından azadlığa buraxılıb.

Məhkəmə onun əməlində cinayət tərkibi olmadığı və hadisənin zəruri müdafiə vəziyyətində baş verdiyi qənaətinə gəlib.

Qeyd edək ki, hadisə ötən ilin oktyabrında Bakının Nəsimi rayonunda qeydə alınıb. Bakı şəhər sakini, 1999-cu il təvəllüdlü İsabala Allahverdiyev kəsilmiş-deşilmiş xəsarətlərlə xəstəxanaya yerləşdirilib. Onu xilas etmək mümkün olub. Əməliyyat tədbirləri nəticəsində İ. Allahverdiyevə bıçaq xəsarəti yetirməkdə şübhəli bilinən Bakı şəhər sakini, 1975-ci il təvəllüdlü Eldəniz Abbasov saxlanılıb.

Araşdırma zamanı məlum olub ki, onlar aralarında yaranmış mübahisə zəminində bir-birilərini bıçaqlayıblar. İ. Allahverdiyev E. Abbasovun yaşadığı əraziyə gələrək, orda ucadan söyüş söyüb. Bu isə E. Abbasovun narazılığına səbəb olub. E. Abbasovun xəsarəti yüngül olduğundan o, həkimə müraciət etməyib.

YENİ MÜSAVAT
N 122 (6736) 8 iyun 2017

**Dünyada ən böyük qaz ehtiyatlarına sahib ölkələrdən biri olan Qətər son günlər diplomatik baxımdan demək olar ki, təcrid olunub. Ərəb ölkələri bir-birinin ardınca Qətərlə əlaqələrini kəsməsi haqqında bəyanat verir. Bəs görəsən, bu baş verənlər dünya bazarında neftin və qazın qiymətinə təsir edə bilərmi?**

# Qətər böhranı "qara qızıl"ın qiymətini bahalaşdıracaqmı...

## "Bu ölkədə neft hasilatı tamamilə dayansa belə, onun dünya neft bazarına hər hansı bir təsiri olmayacaq"

**Bu sualı cavablandıran Neft Araşdırmalar Mərkəzinin rəhbəri İlham Şaban bildirdi ki, Qətər böhranı faktiki olaraq neftin qiymətinə təsir göstərmir:** "Neftin son günlərdəki qiymətləri də onu göstərdi ki, Qətər ətrafında yaranmış durumun bu məsələyə heç bir aidiyyəti yoxdur. Söhbət təkcə ondan getmir ki, Qətər çox az neft hasil edir və dünya bazarına az neft çıxarır. Bu ölkənin cəmi 600 min barel neft hasilatı var. Bu, Azərbaycanın hasil etdiyi həcmlərdən kifayət qədər azdır. Ölkəmizin 780 min barel neft hasilatı var. Qətər dünyada qaz hasilatı ilə bağlı mühüm yer tutur. Bu da Cənub Fars yatağının ona düşən hissəsi ilə əlaqədardır. Əgər dünya üzrə qaz hasilatçılarını sıralasaq, İran və Rusiyadan sonra Qətər gəlir".

**Ekspertin sözlərinə görə, bu ölkənin neft hasilatı dayansa belə, bazarda ciddi şəkildə hiss olunmayacaq:** "Vaxtilə 2008-ci ildə Gürcüstan-Rusiya müharibələri zamanı iki həftə Azərbaycan neftinin dünyaya çıxışı bütün boru kəmərləri üzərindən dayandı. O zaman faktiki olaraq Azərbaycan 800 min barelə yaxın neft ixrac edirdi. Bunu dünya bazarı hiss etmədi. İndi Qətərin neft hasilatının dayanması da bazara təsir edə bilməz. Bunun birjalara informativ təsiri belə olmadı. Cümə günü birjalar 49,95 dollarla bağlanmışdı. Artıq 49, 55 civarındadır. Ancaq bu cüzi ucuzlaşma da Qətərlə bağlı deyil. Amerika faktoru, oradakı neft ehtiyatlarının artırılması ilə bağlı proqnozlarla bağlıdır.

Qətərə qarşı embarqo qoyulması haqqında mətbuatda yazılar dərc olunur. Lakin məsələ burasındadır ki, bu embarqonu Qərb qoymur, Şərq ölkələri, BƏƏ, Misir və digərləri qoyur. Bu ölkələr də özləri neft ölkələridir. Onlar onsuz da Qətərdən neft almırdılar".



**İlham Şabanın sözlərinə görə, Qətər qazının dünya bazarına çıxışı ilə bağlı da hər hansı problemin yaranacağı gözlənilən deyil:** "İndi "Qazprom" şirkətinin nümayəndəsi bildirir ki, vəziyyət daha da gərginləşsə, qazın qiymətlərinə təsir edə bilər. Söhbət maye qazın qiymətindən gedir. Ancaq Qətər öz maye qaz tankerlərini yola salıb. Birləşmiş Ərəb Əmirlikləri onun qarşısını almayacaq. Fars boğazının yarısı İrana bağlıdır. İran isə Qətərə dəstək verir. Problem o zaman olar ki, Qətərdən Amerika da üz döndərər. Çünki Qətərin paytaxtında Amerikanın Körfəz üzrə donanmasının qərargahı yerləşir. Onlar üçün heç bir problem yoxdur, təhlükəsizlikləri də qorunur. Həmçinin Qətərin terrorçuları dəstəkləməsi ilə bağlı ciddi bir sübut yoxdur.

Bir məsələni də qeyd etmək lazımdır ki, Qərb üçün bütün müsəlman aləminin yekdil fikirlə çıxış etməsi önəmli deyil. Elə Yaxın Şərq ölkələrinin bir-birinə qarşı antaqonist fikirlərdə olması onların da xeyrinədir. Belə olan halda istər iqtisadi, istərsə də siyasi məsələlərdə öz siyasətlərini çox yaxşı formada həyata keçirə bilirlər".

❑ **Nərgiz LİFTİYEVA**

# Ölkədə baramaçılığa maraq artıb

## Baramaçılar artıq 3500-4000 manat gəlir əldə edə bilir…

**Kənd Təsərrüfatı Nazirliyi KİV nümayəndələrini baramaçılıq sahəsində görülən işlərlə yaxından tanış etmək məqsədilə media-tur təşkil edib. Qax və Şəki rayonlarına səfər edən jurnalistlər öncə Qax Damazlıq İpəkçilik Stansiyasında oldular (QDİS).**



Nazirliyin mətbuat xidmətinin rəhbəri **Murtuzəli Hacıyev** qeyd edib ki, dövlət başçısının ölkədə ipəkçiliyin sürətli inkişafı ilə bağlı tapşırıqlarına uyğun olaraq 2016-cı ildən etibarən Kənd Təsərrüfatı Nazirliyi tərəfindən ölkədə ipək istehsalının müasir infrastrukturunun yaradılması, baramaçılığın yem bazasının möhkəmləndirilməsi, barama toxumçuluğunun təşkili və digər istiqamətlər üzrə tədbirlərin həyata keçirilməsinə başlanılıb. Nazirlik əməkdaşının sözlərinə görə, ötən il Çindən ölkəmizə 1,5 milyon ədəd tut tingləri gətirilib. Həmin tinglər 37 rayonda 3 mindən artıq kümçülərə (baramaçılıqla məşğul olanlara) paylanılıb: "Bu gün Qaxda artıq 72 ailə kümçü ilə məşğul olur ki, bu da ailə təsərrüfatlarının gəlirinin artırılmasında əsas vasitələrdən biridir. Qeyd edim ki, rayonlarda respublikaya dəvət edilmiş Çin Xalq Respublikasının mütəxəssislərinin nəzarəti altında 150 hektara yaxın sahədə yeni intensiv tipli tut bağlarının salınması təmin edilib. Yeni salınan bağlarda əkilmiş tinglərdən 95-100 faiz səviyyəsində çıxış əldə edilib və hazırda bu bağlarda aqrotexniki qulluq işləri davam etdirilir".

**Nazirlik əməkdaşı onu da qeyd edib ki, qarşıya hədəf 130 ton barama məhsulu qoyulsa da, gələcəkdə 250-300 tondan artıq barama istehsalı gözlənilir:** "Bu da qarşıya qoyulan hədəfdən 2,5 ton çoxdur. Bildiyiniz kimi, dövlət tərəfindən ipəkçiyilin inkişafına dəstək, qaygı var. İpəkçilikdə növündən asılı olmayaraq hər təhvil verilmiş 1 kq üçün 5 manat subsidiya verilir. Qalan 4 manat isə "Şəki İpək" ASC tərəfindən ödənilir".

Murtuzəli Hacıyev həmçinin vurğulayıb ki, prezidentin sərəncamına əsasən QDİS-in bərpası, əlavə istehsal sahələrinin yaradılması və müasir avadanlıqla təchiz olunması üçün Prezidentin Ehtiyat Fondundan Kənd Təsərrüfatı Nazirliyinə 4,5 milyon manat vəsait ayrılıb.

**QDİS direktoru Əkrəm Fətəliyev isə qurumun fəaliyyəti haqqında jurnalistlərə geniş məlumat verib:** "Bu il Çindən 6 min qutu qurd gətirilib. Qax rayonuna isə 250 qutu qurd verilib. Bundan da 12 tondan çox barama gözlənilir. Çindən gətirilən qurdlar həqiqətən də tez məhsul verir, keyfiyyətlidir, sağlamdır. Təxminən bir həftəyə bütün proseslər bitəcək. Kümçülər barama işinə çox böyük maraq, həvəs göstərirlər. Bu gün (dünən-red.) iki tona yaxın məhsul götürəcəyik. Yaxşı kündəmlər tez məhsul gətirir. Yəni baxılan kündəmlər tez, zəif baxılan kündəmlər isə zəif yem verir. Rayonun 12,5 ton planı var idi. Dünən (srağagün-red.) artıq 1,7 ton götürüldü. Yaxşı işləyən kümçülər təxminən 1 ay ərzində hazırladığı məhsul üçün 3500-4000 manata qədər gəlir əldə edə bilir".

**Jurnalistlər baramaçılıqla məşğul olan ailələrlə də yaxından tanış oldular. Marsan kənd sakini Səbuhi Arınov ilk dəfədir ki, baramaçılıqla məşğul olduğunu və yaxşı gəlir əldə etdiyini deyib:** "Bu il 54 qram toxum götürmüşdüm. Bundan da təxminən 150 kq barama istehsal etmişəm. Baramaçılıqda yem bazası yaradılması üçün təxminən 500 ədəd ting əkmişəm. Bir ay barama bəsləmişəm və orta hesabla bundan 1300 manatdan çox gəlir əldə edəcəyəm".

**Qaxın Alatəmir kəndində olarkən jurnalistlərə bildirildi ki, kənddə yaşayan çoxlu sayda gürcü ailəsi bu il baramaçılığa böyük maraq göstərib. Onlardan biri də Otoraşvili Rodriqodur. O, ailəsi ilə birlikdə baramaçılıqla məşğul olduğunu deyib:** "Barama almışam, ailəmlə birgə bu işlə məşğuluq. Yaxşı məhsul gözləyirik. 100 qram qurd almışam, bundan da 300 kq barama alacam. İşləyəndə qazanc da olur. 1 kq baramaya 9 manat verilməsi bizi bu işə cəlb etdi və çox razıyıq. Hətta deyim ki, qiymət 10 manat olarsa, artıq hər kəs bu işlə məşğul olacaq".









Daha sonra jurnalistlər baramaçılığın inkişafı üçün yeni salınmış tut bağları və Şəki rayonunda yerləşən "Şəki İpək" ASC ilə tanış oldular. Qurumun idarə heyətinin sədri Nizami Qəribov qeyd edib ki, 2017-ci il 31 may tarixinə müəssisə tərəfindən ölkənin 8 rayonundan 8,5 tona yaxın yaş barama məhsulu qəbul edilib və hazırda bu proses davam edir.

❑ **Xalidə GƏRAY**

YENİ MÜSAVAT
# Son səhifə
N 122 (6736) 8 iyun 2017

# Oğlunun ad gününə 25 min dollar xərclədi

Conni Eden Cr adlı gəncə anası inanılmaz bir ad günü partisi təşkil edib. 25 yaşlı gənc üçün Dubay məzmunlu, Dubay ab-havalı bir ad günü keçirilib. Məclisin keçirildiyi məkana qum tökülüb və dəvələr gətizdirilib. Bundan başqa, anası onun ad günü məclisi üçün lüks maşınlar və lüks geyimlər də kirayələyib. Son nəticədə məclisin ümumi maliyyəsi 25 min dollar olub. Məclisə qatılan gözəl qızların əksəriyyəti saat hesabı kirayələnənlər olub. Bununla bağlı xəbərlər yerli mediada da öz əksini tapıb. Amerikan mətbuatı bu məclisi "görməmişliyin bu qədəri" başlığı altında çap edib.






## Mozambikdə keçəlləri öldürürlər

Mozambik polisi keçəlləşmədən əziyyət çəkən sakinlərinə həyatlarına yönələn təhlükə barədə xəbərdarlıq edib. Bu barədə "The Guardian" xəbər verir. Problemin mövcudluğu barədə ölkədəki iki keçəl kişinin qəddarcasına öldürülməsindən sonra xəbər veriblər. Ölənlərdən birinin başı kəsilib və daxili orqanları çıxarılıb.

Mozambikin hüquq-mühafizə orqanları cinayətin baş verməsində 20 yaşlı iki kişidən şübhələnirlər. Onlar həbs olunandan sonra etiraf ediblər ki, daxili orqanları uğur gətirsin deyə müştərilərə satıblar. Polis nümayəndəsi İnasio Dinanın sözlərinə görə, qətlin motivləri sözügedən bölgədə yayılmış inancla bağlıdır. Həmin inanca görə, yerli insanlar keçəllərin varlı olduğu qənaətinə gəliblər. Dina ritual qətlləri albinoslar üzərindəki ovla müqayisə edib. 2014-cü ildə Mozambikdə 100-ə yaxın albinosun üzərinə hücum edilib. Onların orqanlarından dərman ləvazimatlarının hazırlanması üçün istifadə olunub. May ayında məlum olmuşdu ki, Sierra-Leonda doğulan və cadugərlərin əlindən xilas olan 19 yaşlı albinos daha sonra model olub.

# Həm beynindən əməliyyat olundu, həm də gitara çalıb mahnı oxudu

Son illərin ən qəribə tibbi əməliyyatlarından biri Braziliyanın Santa Katarina şəhərində qeydə alınıb. Beynindəki şişdən azad olmaq üçün bıçaq altına uzanan 33 yaşlı Antoni Diaş cərrahiyyə əməliyyatı davam edərkən, içəridəkilərə konsert verib.

Baxmayaraq ki, bir gün əvvəl onun beynində şiş kimi ciddi problem var idi, braziliyalı gitaraçı sanki kinayəli şəkildə, Bitlz qrupunun məşhur "Yesterday" mahnısını ifa edib. Həmin mahnının məşhur sözlərinin mənası "dünən bütün problemlərimdən uzaq idim" kimi anlaşılır. Amma Antoni konsertini bu mahnı ilə də yekunlaşdırmayıb. Əməliyyat müddətində 6 fərqli mahnı ifa edən həvəskar gitaraçı əməliyyatdan sağ-salamat şəkildə çıxıb.

Yerli bankların birində işləyən Antoni ata olmağının sevincini 2-cə həftə yaşamışdı ki, beynində şiş olduğunu öyrənib. Əməliyyata gəlincə, həkimlər qəsdən onu zehni baxımdan oyaq saxlamağa qərar verib. Söhbət beyin əməliyyatından getdiyindən, həkimlər onun düşüncə tərzinin, hərəkətlərinin və nitqinin qaydasında olub-olmadığına nəzarət etmək üçün bu addımı atıb.

İlk dəfə deyil ki, beyin əməliyyatında bir xəstə əməliyyat otağındakılara musiqi zövqü yaşadır. Bundan əvvəl israilli bir skripkaçı oxşar, amma çox nadir konsertlə diqqət mərkəzinə düşmüşdü.



## 9 ay hamilə olmasından xəbərsiz oldu

İngiltərənin Çeşirə bölgəsində yaşayan bir qadın hamilə olduğunu 9 ay sonra, uşağını dünyaya gətirəndə anlayıb. İngitərənin "Daily Mail" qəzetinin xəbərinə görə, 24 yaşındaki Saşa Hood doğum sancıları çəkməyə başlayanda şoka girib. Çünki Saşa son 9 ay boyunca sistemli olaraq hamiləlikdən qorunma həblərindən istifadə edib və menustrasiya günlərini sistemli olaraq keçirib. Hətta Saşanın qarnında heç şişlik olmayıb. Olayın ən maraqlı cəhəti isə doğuşu Saşanın əri Marj Jepsonun qəbul etməsi və prosesin hamamda baş tutmasıdır. Xəbərdə qeyd olunur ki, Mark adını Teo qoyduğu körpələrinin həyatını da xilas edib. Belə ki, Teo göbək bağı boynuna dolanmış şəkildə dünyaya gəlsə də, atası bu bağı oğlunun boğazından açıb. Həkimlər hazırda körpənin sağlıq durumunun yaxşı olduğunu, hətta onun normalda dörd gün gec dünyaya gəldiyini deyiblər.




**QOÇ** - Qarşınızda duran bu təqvimdə əsas gücünüzü münasibətlərə yönəldin. Amma diqqətli olun: rüşvət almaq, zina etmək, cadugərə getmək çox təhlükəlidir. Tövbə məqamı, saflaşma vaxtıdır.

**BUĞA** - Ümumi kosmik fon çox gərgindir. Nədəsə tərəddüdünüz varsa, bəri başdan onu təxirə salın, çünki belə məqamlarda onun alınmaması daha çox ehtimal olunur. Haqlı olmağınızla bahəm, güclü də olmalısınız.

**ƏKİZLƏR** - Bu tarixdə köhnə işləri təzələmək məsləhət deyil. Hər şeyin təzəsi daha yaxşıdır. İlk növbədə özünüzü situasiyaya uyğunlaşdırmalısınız. Lovğalıq və özündənrazılıq etməyin. Bütün gücünüzlə açıq havada olun.

**XƏRÇƏNG** - Sevindirici olaylar, şadyanalıqlar günü olduğu üçün qısqanclıqdan, başqalarına qarşı hikkədən doğan istənilən addımınız böyük təhlükə yarada bilər. Bu gün elektrik cihazları ilə ehtiyatlı davranın.

**ŞİR** - Təzadlı gündür. Ziddiyyətli hadisələr bir-birini əvəz edəcək. Bu səbəbdən ilk növbədə əldə olanları qorumaq lazımdır - pulunuzu, malınızı sağa-sola səpməyin. Kiminsə qəlbinə dəyməyin, axı qəlb Allaha məxsusdur.

**QIZ** - İmkan daxilində fəaliyyətə ara verib ruhi dünyanızı qidalandırın. Özünüzü azad və müstəqil hiss edin. Heç kimdən qorxmayın, daxili saflığınıza əminsinizsə, buna güvənib yalnız irəli gedin.

**TƏRƏZİ** - Əsas gücü münasibətlər müstəvisinə yönəltmək lazımdır. Hörmət qazanmaq üçün bəlkə də bundan yaxşı məqam olmayacaq. Özünüzü güclü adam sanırsınızsa, bu gün hətta zamanı da idarə edə bilərsiniz.

**ƏQRƏB** - Ətrafınızda kim varsa, hamısına sevinc, gülüş bəxş edin. Problem və qayğılardan uzaq olun. Elə zənn edin ki, bu gün "iş orucu" tutmusunuz. Axşam süfrəsində şükür edin ki, bu günü sağ-salamat başa vurmusunuz.

**OXATAN** - Sevgi müstəvisində mövcud olan boşluqları doldurmağa tələsin. Elə addım atın ki, sizə rəğbət yaransın. Əgər maddi imkanınız yetsə, sevdiyiniz insana yaddaqalan bir hədiyyə də ala bilərsiniz.

**OĞLAQ** - Kimsə sizdən imkanınız yetən bir şey istəsə, tərəddüd etmədən verin. Səxavətinizi əsirgəməyin. Əslində bu, problemli işlərinizin həllinə yardımçı olacaq. Göy qübbəsi köhnə dostlarla əlaqəni də uğurlu sayır.

**SUTÖKƏN** - Gün ərzində vacib maliyyə işlərini qaydasına salmaq olar. Xüsusən də günortadan sonra bu istiqamətdə fəal olmalısınız. Astroloji göstəricilər qida və yuxu rejiminə riayət etməyi məsləhət görür.

**BALIQLAR** - Mümkün qədər bu təqvimi ev şəraitində keçirməyə çalışın. İzdiham içində olmaq və ya uzaq səfərə çıxmaq münasib deyil. Bu gün olub-keçənlər haqqında müfəssəl informasiyalar toplayın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# 5 metrlik timsahı iplə bağladılar və...



Şri Lankanın Akuressa şəhər sakinləri 4.5 metrdən uzun olan timsahı yaxalayıb, onu qalın iplə bağladılar. Bundan sonra isə timsah vəhşi təbiəti qoruma departamentinə təhvil verildi. Baş vermiş hadisənin videoyazısı xəbər portalı olan Hiru Neusun YouTube kanalında nümayiş etdirilir. İki gün ərzində videoroliki 24 min dəfə izləyiblər. Hiru News-un xəbərinə görə, vəhşi heyvanı yerli kənd sakini olan qadın fərq edib və bu barədə kənd sakinlərinə məlumat verib. Timsahın təhvil verildiyi departament əməkdaşları onu yenidən təbiətin qoynuna, amma kənd sakinlərindən mümkün qədər uzağa aparıblar.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100